QƏNİ CAMALZADƏ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

15 cilddə

II cild

HEKAYƏLƏR

**Qəni Camalzadə. HEKAYƏLƏR.** II cild
Bakı, Qanun nəşriyyatı, 2022, 368 səh.

Korrektor: Əyyar Tahir

Yazıçının seçilmiş əsərlərinin ikinci cildində toplanan hekayələrinin əksəriyyəti müxtəlif illərdə dövrü mətbuatda dərc olunub. İncə yumor, kəskin sarkazmla yazılan hekayələrin süjetləri real həyat həqiqətlərinə söykənir. Hətta, alleqorik nağıllarında da bir həyatilik var. Yazıçı müasirlərimizin həyatda rast gəldikləri çətinliklərdən, onların dövr-zaman, sosial ədalət, ailə dəyərləri, təhsil haqqında düşüncələrindən bəhs edir, insanın şəxsiyyətinə toxunmadan, mənən alçaltmadan, sevərək tənqid edir.

ISBN 978-9952-38-

© Hacı Qəni Camalzadə, 2022
© Qanun nəşriyyatı, 2022

Qanun nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

## İSTEDAD TANRI PAYIDIR

Qəni Camalzadənin çapa hazırladığı hekayələrini bir də oxuyuram. Yazıçı həmkarımın işıq üzü görəcək kitabına "ön söz" yazmaq istəyirəm. Tərəddüd eləyirəm. Standartçılıqdan xoşu gəlməyən, "çərçivələr"dən zəhləsi gedən dostumun sirr dolu gülüşü yolumu kəsir!

"– Ə, bu mühafizəkarlıq sizi yormadı?!

"Ön söz" nədir? Onda bir "arxa söz" də yazarsan".

Əl-qolum bağlanır. Gözünün lap dərinliyindən daşıb tökülən, orijinal gülüşüylə qarşımda dayanır. Bu, gülüş sahibinin sifətini elə bil min ildir ki, tanıyıram... Onunla ilk tanışlıq yadıma düşür.

1978-ci il idi. Sov.İKP MK-nın "yaradıcı gənclərə qayğı göstərilməsi haqqında" qərarına uyğun Yazıçılar İttifaqında növbəti tədbir keçirilirdi. Pilləkənilə ehtiyatla qalxdığımız binanın "Natəvan" adına zalında yazılarımız müzakirə olunurdu.

Rəsmiyyətçiliyin zalın havasına qarışıb bizi sıxdığı o gün arıq, sarışın bir oğlanın ittifaq katibinin fikirlərinə

etiraz səsi bizi diksindirdi. Katibin istehzayla tənqid elədiyi gənc şair həmkarını müdafiə edirdi səs yiyəsi... Və sonra:

" – Bura, elə bazardır, elə mən də bazar söhbəti eləyirəm", – dedi həmin səs yiyəsi.

O zaman Yazıçılar İttifaqının katibiylə belə danışmaq cavan, taleyini ədəbiyyata bağlamaq istəyən şəxs üçün adi məsələ deyildi.

Hə, o gün milis çağıran katibə əhəmiyyət vermədən, sözünü deyərək qətiyyətli yerişilə zalı tərk edən həmkarımızın cəsarəti qırışığımızı yaman açdı. Bir də haqqımızı xatırlatdı.

O, Qəni Camalzadə idi. Səsi indiyəcən qulağımdadı. Və mənə elə gəlir ki, ədəbiyyatımızda həmin cəsarətli səsin gurluğu getdikcə artmaqdadı.

Həmin cəsarətli səsin sahibi cəbhə borcunu da bizdən qabaq verdi. Kimdənsə asılı olmasın deyə, dincəlmək bilmədən sutkada 13-14 saat işləməklə çörəyini qazanmaq yolunu da bizdən qabaq seçdi həmin səsin yiyəsi...

Gözümüzün baxdığını, adına "həyat" dediyimizin qatlarını ayrı görkəmdə görür Qəni. Yanından sakit ötüb keçdiyimiz hadisələr onun qələmində ayrı həqiqətləri danışır.

Bunları yaza-yaza yazıçı dostumun hekayələrindən nümunələr gətirmək keçir ürəyimdən. Bacarmıram. Hamısı bütöv, canlı orqanizm kimidir hekayələr. Dialoqlar

arasındakı bağlar davamlıdır. Birini o birisindən ayırmaq olmur. Surətlər ayıq, çevik, diribaş və fəaldırlar.

“Heç kimin pulunu yeməyəcəyəm, malına tamah salmayacağam, villa tikdirməyəcəyəm” – deyərək, (“Mən, necə böyük adam olmaq istədim”) adamlardan onun deputat olmasını dəstəkləməyi xahiş edən Əsgər də, dükan qabağında süpürgəsilə tozanaq qopardaraq pul tələb edən (“Şura həsrəti”) Ədil də, milçək öldürən balaca Atəş də (“Yay tətilləri”) işlərini biləndir.

Qəni Camalzadə böhran keçirən, ağrıyan cəmiyyəti yaxşı tanıyır. Onun gizlətmək mümkün olmayan, inkar edilə bilməyən həqiqətlərini ustalıqla yazır. Qəninin surətləri şikayətlənəndə də, çar-naçar qalanda da maymaq görünmür. O, müsəlman obrazını ənənəvi olaraq geridə qalmış yaratmır. Yeri gəlmişkən, bu təqdir olunası, mühüm məsələdir.

Q.Camalzadə bu məsələdə Üzeyir bəyə söykənir. “Mən and içirəm ki, bizim millətin doğrudan da geridə qalmasına bir səbəb də həmin bu “millət geridə qaldı” sözüdür ki, daha gündə onlara qulaq asmaqdan təngə gəlmişik” – deyən dahi Üzeyir bəyə.

Qəni Camalzadənin yazıçı kimi kürək söykədiyi istedaddır. İstedad isə Tanrı payıdı...

*Əmrah Xanməmmədli*

# Hekayələr

## TORPAQ EŞQİ

Namaz kişi təmənnasız bir adamdı. Şükranlıq hissi qanında idi. Gec ailə qurmuşdu. Təqaüdə çıxanda böyük oğlunun heç iyirmi yaşı yox idi. Şura hökumətinin dağılmağına az qalmış mənzil növbəsinin çatacağına gümanını itirmiş Namaz kişi altı sotluq bir torpaq sahəsi götürmüşdü. Kirayənişin qalmaqdan, yataqxanalarda çürüməkdən canını qurtarmışdı. Bir xırda ev tikmişdi, balalarını başına yığmışdı. Namaz kişi torpağı, yaşıllığı sevirdi. Həyətində ağac əlindən tərpənmək mümkün deyildi. On beş «şirvan»lıq təqaüdü gen-bol yaşamağa imkan vermirdi, amma böyük oğlunun əli daha pula çatmışdı. Bəlkə də Namaz kişi şükranlıq hissi ilə bu dünyada yaşayıb və onu tərk edəcəkdi.

Zəmanə dəyişmişdi. Əldən-ayaqdan uzaq, şəhərin kənarında yerləşən qəsəbənin ətrafında qəribə işlər baş verirdi. Elə bil, adamlar dəli olmuşdular. Hamı torpaq alırdı, torpaq satırdı. Daş hasarlar yenilməz addımlarla qəsəbəyə yaxınlaşırdı. Bir-iki il də belə getsəydi ətrafda paya çalmağa bir qarış torpaq qalmayacaqdı. Namaz

kişi qanunpərəst adam idi. Ölçülüb ona verilmiş altı sotdan bir metrə də qırağa çıxmamışdı. Amma övladları böyüdükcə həyəti onu sıxırdı. Qonşusu Məhəmmədlə bir zavodda işləmişdi. İşi çətinə düşəndə həmişə ona gənəşirdi. Məhəmməd bacarıqlı kişi idi. Əlindəki altı sotluq sərəncamla az qala bir hektar yeri hasarlamışdı. Vəzifə sahibləri ilə tez dil tapırdı. Namaz kişi ona üz tutdu. Qonşusu ona qulaq asıb dedi:

– Ay maymaqsan ha! Sənə o vaxt demirdim ki, qorxma, hasarla getsin. Demirdim ki, çöllü-biyabandır, kimdir arayıb-axtaran…

Namaz kişi ağ saqqalını qaşıdı:

– Ay qardaş, kimin ağlına gələrdi ki, bir belə yeri satarlar, hasarlayarlar. Fikirləşirdim, oğlanlarım böyüyər, özlərinə qanunla torpaq götürüb ev tikərlər. Deyirdim, bu altı sot da ölümə də bəsdir, dirimə də.

Məhəmməd istehza ilə:

– Bə, nə oldu?

– Nə olacaq ki! O gün getmişdim bələdiyyəyə. Dedim, torpaq sahəsi istəyirəm. Elə bir qiymət oxudular ki, tüstüm təpəmdən çıxdı.

Məhəmməd güldü. Torpağın qiymətindən onun xəbəri var idi. Bir az fikirləşib ona məsləhət elədi:

– Sən belə elə… – dedi və torpaq sahəsini genişləndirməyin yeni üsulunu ona başa saldı.

Qonşusunun məsləhəti ilə Namaz kişi hasarın bayır tərəfinə ağac əkir, bir ildən sonra hasarı sökür, yenidən

tikirdi, beləliklə, həyəti bir ağaclıq genişləndirirdi. Bir-iki ilə altı sotluq torpaq sahəsi ətə-qana gəldi, xeyli artdı. Amma kişinin iştahası artmışdı. İmkanlı, vəzifəli adamlar hektarla əkin yerini, ağaclıqları, qədim bağ yerlərini hasarladıqca Namaz kişi varından yox olurdu. «Allah kasıblığın evini yıxsın!» – deyə yanıb-yaxılırdı.

Qəsəbənin bəxti gətirmişdi. Ətrafında doqquz mərtəbəli binalar ucaldılırdı. Bəndənin də, Allahın da unutduğu bu qəsəbə get-gedə canlanırdı.

Ətrafda tikilən doqquz mərtəbələrin tikinti tullantıları, bünövrəsi qoyulanda çıxarılan iri daşlar Namaz kişinin həyətinin dalındakı dərəyə atılırdı. Bu lazımsız torpaq sahəsi Namaz kişini valeh edirdi. O, addım-addım həyəti genişləndirməkdən bezikmişdi. İstəyirdi birdəfəlik o daşlığı hasara alsın, sahmana salıb əkib-becərsin. Amma axır vaxtlar torpağın o qədər sahibi çıxmışdı ki, bilmirdi bu barədə kiminlə söhbət eləsin. İcra hakimiyyəti bir yandan, bələdiyyə o yandan, polis sahə müvəkkili o biri yandan, deyirdi ki, məni görməlisən. Bu daşlıq da nə matah şeydi ki, bir belə adamın bığının altından keçəsən.

Məhəmməddən savayı daha bir-iki müdrik qonşu ilə məsləhətləşəndən sonra Namaz kişi qərara gəldi ki, bu işi elə sahə müvəkkili Əliquludan aşırsa, ucuz başa gələcək. Amma qorxduğu şey də elə bu idi. Cibində siçanlar oynayırdı. Yaxşı bilirdi, Əliqulu karlı pul almasa onun arzusunu gözündə qoyacaq. Zəmanə pis zəmanə

idi. Zəhrimar pul, lap daşdan çıxırdı. Əliqulu da baş kəsənin biri idi. Qonum-qonşudan birisi daşı daş üstə qoyan kimi dərhal xəbər tuturdu, özünü yetirirdi. Vay, o yazığın halına! Polis müvəkkili arxasız, yazıq adamların qənimi idi. İstədiyini almamış əl çəkmirdi. Qəsəbə kasıb qəsəbə idi. Arxalının, pullunun bu Allahın unutduğu qəsəbədə nə ölümü vardı ki!

Namaz kişi çar-naçar qərara gəldi ki, Əliqulunun yanına getsin. Amma yolda eşitdi ki, sahə müvəkkilinin maşını qəzaya düşüb, canını tapşırıb qəsəbə camaatına. Hamı sevinsə də, Namaz kişi bu sevincə şərik ola bilmədi. Fikirləşdi ki, torpaq məsələsi qaldı böyrü üstə. Axşam çay içə-içə böyük oğlu Ələmdara dedi:

– Bizim hər işimiz belədir. İşə başlayanda pişik asqırır.

İşdən yenicə qayıtmış Ələmdar təəccüblə:

– Nə olub ki?

– Əliqulunu deyirəm də! Mərdimazar oğlu, deyirəm, ölməyə vaxt tapdı da!

Ələmdar təklif etdi:

– Bəlkə, bütün qaydası ilə eləyək? Ərizə yazaq, sərəncamla yer ayırsınlar…

Namaz kişi başını buladı:

– Sərəncama bir paçka dollar istəyirlər. Hardan tapaq? – dedi və yanğı ilə. – Bələdiyyə səninçün Şura hökuməti deyil ki, havayı torpaq versin! Ay gidi, dünya! Bu məmurlar ölkəni talan eləyəcək.

Süfrədən qıraqda oturmuş ortancıl oğlu Muxtar:

– Rəhmətliyin oğlu, bizi bu torpaq söhbəti ilə lap çərlətdin. Sən razılıq ver, bu işə mən əncam çəkim. Təzə sahə müvəkkili ilə danışıb yoluna qoymaq mənim əlimdə nədir ki! Sən o daşlığın yarısını istəyirsən, mən onun hamısını hasarlayım səninçün! – dedi.

Namaz kişi əməlli-başlı ağarmış saqqalını sığalladı, tərs-tərs ona baxdı, Ələmdara müraciət elədi:

– Bu qırışmalı görürsən? Elə bilir dünya hərki-hərkilikdir. Yox, bu sən bacaran iş deyil. Aləmi qarışdıracaqsan, altından çıxmaq çətin olacaq bizə.

Muxtar elə bil qələmlə çəkilmiş enli bığlarını qaşıdı. İnadla dedi:

– Bircə sən qarışma, gör, nə cür yoluna qoyuram.

Namaz kişi kiçik oğlunun inadkarlığından zövq alsa da etiraz etdi:

– Sənlik deyil, bala. Sən, get, özünə bir iş tap, kəsbkarlığını elə. Bir ay burda, iki ay orda işləməkdən bir şey çıxmaz. Cibində siçanlar oynayır. O boyda kişisən, bütün ciblərini axtarsam heç on «şirvan» pul tapmaram.

Muxtar atasının sözündən bərk alındı. Daha dinmədi. Ələmdar mülayim halda dedi:

– Dədə, o zəmanə uşağıdır, yəqin bir şey bilir ki, deyir. İmkan ver, qoy, özü hər şeyi yoluna qoysun. Bir-iki il polisdə işləyib. Nə olsun qovublar! Lalın dilini anası bilər.

Namaz kişi çar-naçar razı oldu:

– Qoy, siz deyən olsun, – dedi və barmağını onların üstünə silkələdi. – Daha hoqqa çıxartmayın. Hər şeyi xoşluqla həll edin ki, adımızı hallandırmasınlar.

Bu söhbətdən heç bir gün keçmədi ki, Muxtar bir neçə maşın köhnə-külə daş-torpaq, sement tökdü həyətə. Namaz kişi təəccübləndi:

– Ay zırrama, məndən təzə daşın pulunu alıb köhnə daş gətirtmisən ki…

Muxtar təbəssümlə:

– Qorxma, dədə, sənin qəpiyin də itməyəcək. Axırda sənə hesabat verəcəyəm, indi mane olma… – dedi.

Bir azdan özü ilə bir usta, iki fəhlə gətirdi. Gecəynən hasarı çəkdi, daşlığın yarısını zəbt elədi. Hörgünü əhəngləndi. Gömgöy ağacları köklü-köməcli çıxartdı, hasarın hər iki tərəfinə əkdi. Bu görk üçün idi. Yayın cırhacırında əkilən ağac onsuz da əmələ gəlməyəcəkdi.

Sübh tezdən yerindən qalxmış Namaz kişi genişlənmiş həyətinə razılıqla baxdı. Amma ağacların başına gətirilən oyunu görəndə bərk hirsləndi. Yuxusuzluqdan gözünü ovuşdura-ovuşdura dolanan Muxtara çımxırdı:

– Bunları niyə zay etmisən, ay zırrama? İndi ağac tutar?

Muxtar hırıldadı:

– Dədə, danışmışıq, axı, qarışmayacaqsan, – dedi. – Onsuz da həyətdə ağac əlindən tərpənmək olmurdu. Bir az seyrəltmişəm, dünya dağılmaz.

Yerində deyilmiş söz Namaz kişini tutdu. Hirslə əlini yellətdi:

– Bircə ağac da əkməyən adamdan daha nə gözləyəsən?! – dedi və yarıkönül razılıq elədi. – Afərin, amma deyirdin, daşlığın hamısını hasarlayacaqsan. Bəs, nə oldu? Eh, hər işin yarımçıqdır da.

Muxtar atasının sözündən incimədən zarafat elədi:

– Ay dədə, mən sənə sərancamsız-filansız on sot yer düzəltmişəm, hələ narazısan. Bir də dünyanın axırı deyil ki! Qoy, gələn dəfəyə də bir şey qalsın!

Namaz kişi əlini yellətdi, ona tapşırdı:

– Gedərsən elə bu gün sahə müvəkkilini görərsən! Daha uzatma ha!

Muxtar:

– Yaxşı, – dedi və yorğun olduğundan yatmağa getdi.

Namaz kişi kiçik oğlunun ardınca mehribanlıqla baxdı. Muxtarın özündən müştəbehliyinə söz ola bilməzdi. Amma dilinə görə dilçəyi də vardı.

Axşamüstü bir qanqaraldan əhvalat oldu. Ailə tut ağacının kölgəsində oturub çay içirdi. Qonşusu Məhəmməd də burada idi. Muxtarı tərifləyirdi:

– Oğulsan ha! Neçə illərdir atanı başa sala bilmirəm ki, vəzifəlilərdən hər şeyi zorla almaq lazımdır, öz xoşuna bir damcı su da verməzlər.

Darvazanın şaxşaxı vuruldu. Hamı susdu. Altmış yaşlı Bikə arvad «evin kiçiyi» olduğundan kişilərin yerindən tərpənmədiyini görüb qapıya getdi. Əsə-əsə qayıtdı:

– Kişi, məhəlləmizə polis gəlib, səni istəyir, – dedi. – Deyir, təzə sahə müvəkkiliyəm.

Muxtar Məhəmməddən soruşdu:

– Bunun haqqında nə deyirlər?

Məhəmməd kişi başını buladı:

– Qardaşoğlu, deyirlər, bu rəhmətlik Əliquludan da pulagirdir.

Namaz kişi Muxtarın üstünə düşdü:

– Hamısı sənin zibilindir. Dedim sənə, axı, get, vaxtında haqqını ver. Elə eləsəydin qapımızı polis tanımazdı. Bundan sonra onlar əl çəkməyəcəklər.

Muxtar böyük qardaşı ilə gözləşib irişdi:

– Əşi, dədə, adamdır da, Əzrayil deyil ki? İndi yoluna qoyarıq, – dedi. – Bircə qarışma, hər şey nəzarət altındadır.

Ələmdar Muxtarın sözünə pıqqıldadı. Namaz kişi təmiz hövsələdən çıxdı:

– Çəkilin gözümün qabağından. Nə cür bu həngaməni açmısınız, elə də gedin axırına çıxın, – dedi. – Ədə, mənə deyən gərəkdir, gözün doymur, o daşlıq nəyinə gərəkdir?

Namaz kişi deyinə-deyinə eyvana qalxdı. Məhəmməd təklif etdi:

– Bəlkə, mən də səninlə gəlim?

Muxtar darvazaya tərəf gedə-gedə çevrilmədən cavab verdi:

– Ehtiyac yoxdur. Nə böyük işdir ki, ikimiz də gedək, özüm həll eləyərəm.

– Qardaşoğlu, mənim köməyim lazım olsa, utanma, çağır, – deyə Məhəmməd təkrar dilləndi. – Mən ölməmişəm ki!

Muxtar inamla gülümsədi, amma cavab vermədi, möhkəm addımlarla darvazaya getdi. O, bayırda təzə əkilmiş ağacın altında kepkası ilə üzünü yellədən sahə müvəkkilini salamladı:

– Xoş gördük, rəis. Nə təhərsən? Ayağın sayalı olsun.

– Salam, – deyə polis kapitanı toxtaq halda cavab verdi. – Bizə məlumat daxil olub ki, siz qanunsuz tikinti ilə məşğulsunuz, hökumətin yerini zəbt eləyib hasara almısınız.

Muxtar şirin-şirin gülümsədi:

– Rəis, sənə məlumatı gec çatdırıblar. Tikinti dünənin işi deyil. Hasar çoxdan çəkilib, hətta ağaclar da böyüyüb. Nə eləmişik, Əliqulu rəhmətliyin razılığı ilə eləmişik. Özbaşına heç nə eləməmişik.

Sahə müvəkkili bir az karıxdı. Doğrudan da, bu hasar təzə hasara oxşamırdı. Hasar boyu qalxmış ağaclar göz oxşayırdı. Dəftərçəsini çıxardıb diqqətlə varaqladı:

– Bura Namaz kişinin həyəti deyil? – Soruşdu.

– Əlbəttə, – deyə Muxtar onu sözünü təsdiqlədi. – Mən də onun kiçik oğluyam. Əliqulu ilə də haqq-hesabı özüm çəkmişəm. Pulunu köz kimi ovcuna saymışam.

Sahə müvəkkili duruxdu:

– Qardaş, belə şeyi adam bərkdən deməz, axı. O rəhmətlik sənə etibar eləyib…

Muxtar xırda-xırda doğrayıb tökdü:

– Sən daha başqası deyilsən, rəis, işin içindəsən. Bir də özgə yerdə demirəm ki! Həm də Əliqulu indi haqq dünyadadır. Nədən qorxacaq ki? – dedi və cibindən iki dənə əlli minlik çıxartdı. – Bilirəm, vəzifəyə təzə keçmisən, özün də birinci dəfədir qapımızı açırsan. Al, bunu, qoy, cibinə, şirinlik verirəm.

Sahə müvəkkili onun əlini havada tutdu, özündən kənarlaşdırdı:

– Yox, yox, bu azdır!

Muxtar pulu onun cibinə zorla basdı:

– Az deyil, – dedi. – Mən özgəsi deyiləm, bir müddət polisdə işləmişəm.

Sahə müvəkkili onun hökmü qarşısında təslim oldu:

– Bəs, niyə çıxdın ki?

– Özüm çıxmamışam, mitilimi bayıra atıblar, – deyə Muxtar irişdi.

Sahə müvəkkili maraqlandı:

– Nə səbəbə çıxarıblar?

Muxtar lağla dedi:

– Rəis, artıqtamahlığımın badına getmişəm. Aza qane olsaydım, yəqin ki, hələ işləyirdim.

Sahə müvəkkili onun atmacasına rəng verib-rəng aldı. Birdən xoşluqla gülümsədi:

– Allah bərəkət versin, – dedi və hiylə ilə əlavə etdi. – İçəridə təzə tikinti aparanda görək nə deyərsən.

Muxtar saxta ciddiyyətlə:

– Rəis, narahat olma. Biz istənilən işin haqqını qabaqcadan veririk, – dedi.

Sahə müvəkkili daha yubanmadı. Gedər ayaq əlavə elədi:

– Yaxşı, soruşan olsa, deyərsən ki, təzə sahə müvəkkilinin xəbəri var.

Muxtar geri qayıtdı. Eyvanda narahatlıqla var-gəl eləyən Namaz kişi uzaqdan soruşdu:

– Nə oldu, ədə?

– Yola saldım.

– Nə təhər, ədə? – dedi. – Pulsuz-pənəhsiz nə təhər yola saldın?

– Cibimdə on «şirvan» var idi, verdim ona.

– Nə danışırsan? Ola bilməz? – Namaz kişi təəccübləndi. – On «şirvan»la razılaşdı?

Muxtar Ələmdara baxıb gülümsədi:

– On «şirvan», bəyəm, pul deyil, ay dədə?

Namaz kişi oğlunun atmacasını qulaq ardına vurdu, təəssüflə dedi:

– Gərək yerin qalanını da hasara salaydın. Hayıf!

Muxtarla Ələmdar bu yerdə özlərini saxlaya bilməyib uğundular. Məhəmməd kişi Namaz kişidə yaranan tamahkarlığa heyrət elədi. Gör ey, belə təmənnasız kişini zəmanə necə dəyişdirmişdi.

# BƏDBƏXT KƏLƏKBAZ

Onlar ailəvi dost idilər. Əhmədin gen-bol həyəti tez-tez iki ailənin yığıncaqlarının şahidi olurdu. Əvəzin doqquzmərtəbəli binadakı mənzili dar idi, belə işlərə yarımırdı. Avqustun axırı idi. Təqvimlə yayın cırhacır vədəsi çıxsa da, günəşin şaxı yatmamışdı, bürküdən nəfəs almaq olmurdu. Əvəzin gəlişi Əhmədi sevindirdi. Dostu sərinlənəndən sonra süfrə arxasına keçdi. Əhməd gördü ki, Əvəz yediyini-içdiyini bilmir. Ev sahibi onu sözlü görüb söhbətə nərdivan qoydu, soruşdu:

– Dostum, uşaqları niyə gətirməmisən? Yəqin ki, şəhərdə istidən bişirlər.

Əvəz əlini yellətdi:

– Bişməzlər, – dedi və başını süfrədən qaldırmadı.

Əhməd ona diqqətlə baxdı:

– Dostum, səni narahat görürəm. Özün də sözlü adama oxşayırsan.

Əvəz əl dəsmalı ilə dodaqlarını sildi, bir siqaret odladı, dedi:

– Daha Allahdan gizli deyil, səndən nə gizlədim, qardaş, mənim maymaq oğlum məni işə salıb.

Əhməd təəccüblə:

– Maymaq niyə olur? Uşaq zəhmət çəkib, instituta girib, sənsə onu maymaq sayırsan.

– Girib ey, girməyinə, – Əvəz dilini sürüdü. – Amma pulluya düşüb.

Əhməd razılıqla:

– Sağ əli bizim uşaqların başına, – dedi və ona ürəkdirək verdi. – Əsas odur girib, pulunu xırda-xırda verərsən də!

Əvəz köksünü ötürdü:

– İş ondadır ki, pulu dərhal ödəməlisən. Yoxsa, heç sənədləri qəbul eləmirlər. Əlimdə yüz «şirvan» var, iki yüz də lazımdır. Güman yerim sənsən. Gərək mənə borc verəsən.

Əhmədlə Əvəz uzun müddət zavodda bir yerdə işləmişdilər. Həmişə bir-birinə dayaq olurdular. Əhməd əllərini yana açdı, dedi:

– Düzələn şeydir. Bir-iki gün dözə bilərsən?

Əvəz gülümsədi:

– Nədi, banka qoymusan?

Əhməd təəssüflə:

– Nəyim var borc vermişəm. Üstümdə bir qara qəpik də yoxdur.

Əvəz heyrətlə:

– Sən hara, borc verdi hara? Xasiyyətinə bələdəm, axı! Sən hər adama etibar eləyən deyilsən!

Əhmədin xırda gözləri üzündə itdi:

– Şeytan məni yoldan çıxartdı, – dedi və acı-acı güldü.

– Kimə borc vermisən?

– Səftərə.

– Hansı Səftərə?

Əhməd lağla:

– Salaməleyk! İndi məni də tanımayacaqsan? Cəmi on ildir zavod xaraba qalıb. Adamları nə tez yaddan çıxartdın?

Qəsəbə iri bir zavodun ətrafında salınmışdı. Tikilmiş evlər, bağçalar, məktəblər zavodun hesabına yaşayırdı. Şura hökuməti dağılandan sonra, beşilliyin nəhəngi sısqa bir emalatxanaya dönmüşdü. Yeddi-səkkiz min işçi, onların ailə üzvləri çörəksiz qalmışdı. İndi hamı ora-bura qaçır, birtəhər başını dolandırırdı.

Əvəz yadına saldı:

– Hə, o tullantılar sexinin rəisini deyirsən?

Əhməd razı halda:

– Onu deyirəm, – dedi və ona göz vurdu. – Yadındadır, bir papaq yerə soxan arvadı vardı. Adı da, gərək ki, Sürəyya idi. Direktorun katibəsi idi, Səftər də onun hesabına sex rəisi oldu.

Əvəz lap təəccübləndi:

– Sən ona etibar eləyib borc vermisən? Bəs, qorxmursan sənə atar? Onun arvadını çox hiyləgər qadın deyirdilər.

Əhməd burnunu çəkdi:

– Heç elə şey yoxdur, – dedi. – Hələ ki pulumun faizini verir. Bir həftəyə də borcumun vədəsi tamam olur. Üç aylıq vermişdim.

Əvəz maraqla:

– Nə qədər vermisən?

Əhməd qədərini demədi. Əlini yellətdi:

– Fərqi nədir, indi gözləyə bilsən, sənə kömək edərəm. Bu gün-sabah pul məndə olacaq.

Əvəzin birdən yadına düşdü:

– Hələ bir dayan. Axı, eşitdiyimə görə, Səftər çox adamdan borc alıb. Bizim keçmiş direktor müavini var idi ha, o da Səftərə xeyli pul borc verib. Deyirlər, qaytarmır. Kişi gedib-gəlməkdən əldən düşüb.

Əhmədin üzü tutuldu, amma özünü o yerə qoymadı:

– Yox, əşi, Səftərin kefi kökdür. Arvadı burdan vurur, Dubaydan çıxır. Mal gətirir, Səftər də yerbəyer edir. Əşi, onlar pula pul demirlər. Elə şey ola bilməz, yalan deyirlər. Hamısı paxıllıqdandır.

Əvəz dayanıb-dayanıb birdən əlini dizinə çırpdı:

– Pah atonnan! Qardaş, adamın gərək bəxti olsun. Mən Dubaya nədir, heç Biləcəriyə getməyə pul tapmıram. Neçə il zavodda işlədim, plan verdim, partbilet gəzdirdim, vəzifə sahibi oldum. Bu da axırı! Oturmuşam «tolkuçka»da «pol» dalında. Alver yox, xərc çox, çörək də ki, daşdan çıxır.

Əhməd ona şərik oldu:

– Day demə! Elə mən də sənin günündəyəm. Bazarda göyərti satmaqnan ailə dolandırmaq çox çətindir. Hayıf deyildi Şura hökuməti! Adamı oxudurdu, iş verirdi, maaş verirdi. Əsas odur ki, sabaha gümanımız var idi, – dedi və yenə ona ürək-dirək verdi. – Bu gün döz, hər şey yaxşı olacaq. Sabah həll eləyərik.

Əvəz ümidlə Əhməddən ayrıldı. Səhər işə getdi. Amma fikri-zikri Əhmədin yanında idi. Fikirləşirdi, görəsən, borcunu aldı, ya yox? Axşamüstü işdən birbaşa Əhmədgilə döndü, amma dostunun arvadı onu ağlar qarşıladı. Əvəz qorxdu:

– Nə olub, bacı? Uşaqların başında işmi var?

Əhmədin arvadı dedi:

– Uşaqlar salamatdır. Əhmədi apardılar.

– Kim apardı, hara apardı?

– Polislər apardı.

– Haçan?

– Üç-dörd saat olar.

– Nə üstə?

– Bilmirəm. Maşına basıb apardılar. Üç nəfər gəlmişdi. İndi neçə saatdır ondan bir xəbər yoxdur.

– Neyləyib ki?

– Demədilər. Qolunu burub maşına oturtdular.

Əvəz başılovlu qapıya getdi:

– İndi polisə gedəcəyəm, – dedi. – Sən darıxma, Əhməd heç qarışqanı da incitməz. Yəqin səhv eləyiblər.

Elə darvazadan bir az aralanmışdı ki, Əhməd avtobusdan düşdü. Amma elə bir gündə idi ki, tanımaq olmurdu. Ağzı-burnu şişmişdi. Əvəzin ona ürəyi yandı:

– Bu nə işdir sənin başına gəlib? – dedi. – Sən hara, polis hara?

Əhməd sıxıla-sıxıla:

– Bu da mənə azdır, – dedi və hasarın yanındakı daşın üstünə çökdü. – Mənə deyən gərək, a köpəkoğlu, pulun var, otur onu xərclə də, itə-qurda niyə verirsən? Kül başına Əhməd, nə var, nə var, beş manat qabaq olacaqsan. Ay oldun ha! İndi it də getdi, ip də.

Əvəz də onun yanında oturdu:

– Nə olub ki?

– Səftər özünü asıb.

– Nə danışırsan? Səhər-səhər onu «tolkuçka»da gördüm ki. Arvadı da yanında.

Əhməd bezgin halda:

– Sən səhər görmüsənsə, mən onunla günorta iki saat söhbət eləmişəm.

– Nə söhbət?

Əhməd yana-yana dilləndi:

– Axır vaxtlar özüm də şübhələnmişdim. Dünənki söhbətdən sonra ürəyim düşdü. Borcun vədəsi çoxdan keçmişdi. Neçə dəfə Səftərin üstünə getmişdim. Hər dəfə bir bəhanə gətirirdi. Bu gün günorta evlərinə getdim. Dedim, Səftər, pulumu qaytar, faizi də lazım deyil. Dedi ki, yoxumdur, pul malın üstündədir. Gözlə verərəm, qaçmıram ki! Onunla bir az mübahisə elədik. Axırda dedim ki, sabah gələcəyəm, pulu verməsən, sənin başına oyun açacağam. Qayıtdım bazara. Axşam evə dönəndə, darvazadan təzə girmişdim ki, polislər töküləşdülər, elə bir yerin altından çıxdılar. Qolumu burmaq istəyəndə

müqavimət göstərdim, onlar da acığa düşdülər, bölmədə o ki var məni döydülər. Hal-qəziyyə belədir.

Əvəz təəccüblə:

– Səndən nə istəyirlər, axı? Özü özünü asıb da, sənin nə günahın var?

– Onun çərhəya arvadı polisdə deyib ki, Əhməd ərimi hədələyirdi. Səftər də, guya, qorxudan özünü asıb.

– Ə, gicdəmə! Polisin bəyəm, başı işləmir? Bir arvadın sözü ilə adamı tutarlar?

– Elə mən də sənin kimi fikirləşirdim. Demə, kim-kimədir. Polisə bir bəhanə lazımdır, – deyə Əhməd gülümsədi. – Hələ bu nədir, məndən başqa beş nəfəri də gətirmişdilər. Hamı Səftərə borc verənlərdir. Orda ürəyim bir az üstümə gəldi. Heç demə ən az borc verən mən imişəm. Üç min dollar verən kim, beş min dollar verən kim. Hamısı batdı, getdi. Sürəyya heç kimə pul qaytarmaz.

Əvəz dərindən köksünü ötürdü:

– Uşağın məktəbi qaldı. İndi hardan mən pul tapım?!

Əhməd ağrıyan çənəsini sığalladı, amma dinmədi.

## MƏZƏNNƏ

Onlar az qala, bir qərinə idi ki, canbir qəlbdə yaşayırdılar. Belə mehriban ər-arvad çətin tapılaydı. Əlbəttə, həftədə-ayda araya düşən qanqaralıq hesabdan deyil.

Əlalxüsus, Qılman bəy dükan-bazardan qayıdanda şirin ovqatı pozulurdu. Araya mübahisə düşürdü. Kimin haqlı, kimin haqsız olduğunu ayırd eləmək çətindi. Yalnız onu demək olardı ki, bütün mübahisələrdən həmişə evin kişisi qalib çıxırdı. Başqa cür ola da bilməzdi.

Bu gün də Qılman bəyin ömür-gün yoldaşı Hürü xanım uzun qollarını ölçə-ölçə səsini başına atmışdı:

– Əkişi, sən necə adamsan?! Allahın bazarlığını sən havaxt əməlli eləyəcəksən?! Ay Allahsız, mal alanda tərəziyə bax da! Gözün hardadır? Daha cahıl uşaq deyilsən, axı, deyim, düzələcək, hələ yaşı azdır. Göz görəsi sənin aldadırlar! Ağsaqqal kişisən, axı!

Qılman bəyin əlli yaşı vardı. Amma bığ-saqqalında bir dənə də ağ tük tapmazdın. Nəsilliknən belə idilər. Səksən yaşında Allah rəhmətinə getmiş atasının da başında dövlət tükündən savayı bir ağ tük yox idi.

Hürü xanım indi «ağsaqqal» kəlməsini sözgəlişi deyirdi. Hirsi başına vurmuşdu, nə danışdığını bilmirdi. Heç razı olardı ki, Qılman bəyin bığ-saqqalına dən düşsün, yəni qocalsın?! Dünyasında razı olmazdı. Çünki arada otuz illik məhəbbət vardı. Bu da xırda məsələ deyildi. Bəlkə də lap qədim məhəbbət macəraları ilə bir sırada dayanmağa layiqdi. Bir az dərinə getsək, görərik ki, hələ onlara dov da gələrdi. İşdir, tərəzinin bir gözünə Hürü-Qılman məhəbbətini, o biri gözünə, cəmi Əsli-Kərəm, Leyli-Məcnun, Şahsənəm-Qərib məhəbbətlərini qoysaydın hansının ağır gələcəyini indidən demək

çətindi. Otuz il onların canbir qəlbdə yaşamaları çox şey deyirdi. Əgər Əsli və Kərəm, ya da Leyli və Məcnun bir belə birgə yaşasaydı, dörd uşaq dünyaya gətirsəydi, onları ərsəyə çatdırsaydı, vallah, şairlərin dönə-dönə vəsf elədikləri məhəbbət dastanlarından əsər-əlamət qalmazdı.

Qərəz, indi söhbət başqa şeydən gedəcək. Onların məhəbbət tarixçəsinin bu işdə bizə köməyi dəyə bilməz. Şənbə günü olduğundan, Qılman bəy həmişəki kimi, yolüstü bazarlıq eləmişdi. Hürü xanımın səhər-səhər tapşırdıqlarını bir-bir almışdı ki, daha istirahət günü onu dəng eləməsin. Hər bazar başına yığılan övladları və nəvələri ilə yeyib-içsin, deyib-gülsün, söhbətlərindən feyzyab olsun.

İndi bazarlığı arvadına təhvil verib masanın arxasına keçmişdi.

Cavanlığında mağazada bir müddət satıcı işləmiş Hürü xanımın al-verdə səriştəsi vardı. Hər dəfə Qılman bəyin elədiyi bazarlığı təftiş eləməsəydi, polietilen zənbillərdəki malları bir-bir çəkməsəydi, əyər-əskiyinə baxmasaydı, gözünə yuxu getməzdi. İndi də tərəzinin qarmağından asdığı zənbili boyu bərabərinə qaldırmış Hürü xanım mətbəxin ortasında dayanmışdı, qanlı-qanlı ərinə baxırdı. Amma dinmirdi. Gözləyirdi ki, Qılman bəy çevrilsin. Evin kişisi isə üstünü almış tufanı boynunun ardı ilə hiss eləyirdi. Çayını tələsmədən axıra çıxdı. Fincanı nəlbəkiyə qoyub başını qaldırdı, tənbəl-tənbəl:

– Yorulmadın? O vaxtlar bilsəydim al-verə belə həvəsin var, səni işdən ayırıb ev xanımı eləməzdim. Yəqin tacirlik qanınızdadır. Babanın baqqal dükanını Şura hökuməti əlindən almasaydı, indi nəsliniz milyonçu idi. Atan rəhmətlik ömrünün axırına kimi bazardan ayağını çəkmədi… Yaxşı, yaxşı, hirslənmə. Qan olmadı ki! Zarafat eləyirəm də, – dedi və çənəsi ilə tərəziyə işarə elədi. – Hə, cehizlik tərəzin nə deyir, axı?

Bu yerdə Hürü xanım elə odlandı ki, gözləri az qala hədəqəsindən çıxsın. Atası doğrudan da, ona bir köhnə dəbli, qulplu tərəzi cehiz vermişdi. Qılman tərəfin adamları uzun müddət bunu yaddan çıxarmadılar. Yeri düşdü-düşmədi xatırlayır, şirin-şirin gülürdülər. Hikkəli Hürü xanım da içində qırıla-qırıla qalırdı. Qılman bəyin köhnə palan içi töküb çoxdan unudulan əhvalatı yada salması xanımın xoşuna gəlmədi. Əvvələn, tərəzi təzə idi, hətta əqrəbi də var idi, görünüşündən məlum olurdu ki, lap müasir cihazdır. İkincisi, araya tərəzi gələndə lağlağıya hacət qalmırdı. Odur ki, Hürü xanım batqın səslə çımxırdı:

– Gözlərin tutulub? Yoxsa məni danışdırırsan?

Qılman bəy mətbəxin geniş aynasından bayırda puçur-puçur tumurcuqlayan ağacları gözdolusu seyr eləyirdi. Hürü xanımın çımxırtısına döndü, kərpic bığlarını ağır-ağır sığalladı, cavanlıqdan qalma bir mehribanlıqla:

– Ağzını dağıtma, axmağın qızı! Durub sümüklərini əzərəm, ha! – dedi, sonra həlim-həlim soruşdu. – Hə, tərəzi nə deyir, axı?

Hürü xanım əndazəni aşdığını söz ağzından çıxanda anlamışdı, amma dilinin dilçəyini basmağa macal eləməmişdi. Qılman bəyin söyüşündən rəncidə olmadan gülümsədi:

– Sən canın, incimə! Bir az hirsləndim. Hə, buyur, düyü iki yüz qram əskikdir. Buna necə sakit baxasan?! – dedi və döşlüyünün ətəyini qaldırdı, mətbəxin istisindən nəmçimiş üz-gözünü sildi.

Qılman bəy oturuşunu dəyişmədən yerində dikəldi:

– Yox, əşi, belə çox? – deyə soruşdu.

– Bayaqdan nəyin söhbətini eləyirəm, – Hürü xanım məzəmmətlə deyindi. – Allah bilir fikrin haralardadır. Hansı dükandan almısan?

– Mən Ələsgərin dükanından savayı hansı yerə getmişəm ki? Bu təzə marketlərlə mənim aram yoxdur, – deyə Qılman bəy Hürü xanıma çəp-çəp baxdı, nəsə demək istəyən arvadına lağ elədi. – Rəhmətliyin qızı, əlindəkini yerə qoy da, qaçıb eləyər, bəyəm? – deyə onun tərəzini yerə qoyub kətildə qərar tutmasını gözlədi. – Deyirəm, bəlkə sənin tərəzin çərən-pərən vurur?

Hürü başını buladı:

– Elə şey yoxdur. Dünən kartof alanda yoxlamışam. Bir də ki, çəki daşları evdədir. Bu saat gətirim yoxlayaq.

– Hə, hə, gətir görək. Ələsgərdən çıxmayan iş! Bir-birimizin müştərisiyik. Mən onun məzənnəsini bilirəm, o da mənim.

Qılman bəy razılığını bildirəm kimi Hürü xanım qalxdı, çəki daşlarını mətbəx dolabından götürüb masanın üstünə düzdü.

– Keçən bazarlıq nə cür idi? – deyə Qılman bəy soruşdu.

Hürü xanım dilini sürüdü:

– Belə də, aldığının hamısı əlli qram-əlli qram əskik gəlirdi.

Qılman razılıqla:

– Hə, bu insafdandır.

Hürü xanım əlini saxladı:

– Allah onun insaf evini xaraba qoysun! – deyə üzünü turşutdu. – Bu canı yanmış Ələsgər camaatın qazancına şərikdir də! Olaydı Şura hökuməti, hər qrama görə ona bir il iş kəsərdi, ağlı başına gələrdi.

Qılman bəy əlini qaldırdı:

– Daha baş alıb getmə. İşində ol, – dedi.

Hürü xanım çəki daşlarından dörd kilo düzəldib atdı zənbilə, qulpunu keçirtdi tərəzinin qarmağına. Əqrəbin dayanaqlı vəziyyətini gözlədi, razılıqla dedi:

– Görürsən? Tərəzi düzdür!

Qılman bəy fikir içində mızıldandı:

– Bir kərəmlik iki yüz qram?! Heç belə şey olmamışdı.

Hürü xanım onun yadına saldı:

– İki ay bundan irəli də belə bir iş olmuşdu. Hardasa dəftərin qırağına yazmışam. Yadına düşdümü?

Qılman bəy tələsik dilləndi:

– Yox, yox, o hesabdan deyil, – deyə istehza ilə qımışdı. – Ələsgər onda oğlu üçün toy eləyirdi, əli aşağı idi. İndiki toyların xərci daha bir aləmdi də. Üç uşaq evləndirmişəm, bilirəm. Dayan, dayan, bəs, oğlun hardadır? Yenə harda veyillənir?

Qılman bəy iki qızını köçürtmüşdü. Böyük oğlunu evləndirib ayırmışdı. Evin kiçiyi isə ali məktəbdə oxuyurdu, axırıncı kursda idi. Hürü xanım qələmlə çəkilmiş qaşlarını sığalladı:

– Nə bilim, ey! Onun işindən baş açmaq olmur. Deyir, diplom işi yazıram, – dedi, sonra əvvəlki söhbətin üstünə qayıtdı. – Ondan qabaqkı ay da belə olmuşdu. Nə tez yadından çıxartdın?

– Qarışdırma, ay xanım, – deyə Qılman bəy yerindən qalxdı. – Onda Ələsgər yazığın başına iş gəlmişdi. Maşını qəzaya düşmüşdü. Əyər-əskiyini düzəltməliydi, ya yox? Baxma bizim «Jiquli»yə, xarici maşının xərci böyükdür.

Hürü xanım heç cür sakit ola bilmirdi:

– Bəs, ondan qabaqkı ay?

– Bah, sənin heç nədən xəbərin yoxdur ki? Onda vergi müfəttişi Ələsgərin pişiyini ağaca dırmaşdırmışdı, – deyə Qılman bəy bir siqaret odladı. – Vallah, Ələsgər pis oğlan deyil, iki gündən bir dəlləkxanadadır. Oğlanları da müştərimdir. Atası hambal Cəbiş dəlləkxana-filan tanımazdı, bu isə köhnə bəylər kimi yaşayır. İstəməyənin gözü çıxsın! Bir şeyə mat qalıram. Bu adam məzənnəni

niyə qaldırıb? Toy elədi, ev tikdi, maşın aldı, bağ saldı, indi nəyi çatmır?

Hürü xanım yana-yana əlini yellətdi:

– Elə danışırsan adamın cızdığı çıxır. Durub səninlə əlbəyaxa olmaq istəyirəm. Rəhmətliyin oğlu, günün günorta çağı malına şərik çıxırlar, heç vecinə də deyil.

Qılman bəy qəhqəhə çəkdi:

– Vallah, dəlisən, arvad! Kefimi niyə pozmalıyam! Nə var, nə var, Ələsgər məzənnəni dəyişib? Qoy, olsun. Sabah mən də çomağın başını çevirərəm, məzənnəni dəyişərəm. Bir üz-bir baş üçün alırdım bir «şirvan», indi alaram «şirvan» yarım. Olarıq onunla başabaş.

Adlı-sanlı dəllək olan Qılman bəyin şənliyi Hürü xanımın da kefini açdı.

– Birdən vermədilər?

– Oynaya-oynaya verəcəklər, – Qılman bəy barmağını ox kimi yuxarı tuşladı. – Bir dəfə verməz, ikinci dəfə üzünü küt balta ilə qırxaram, anasından əmdiyi südü burnundan gətirrəm. Onda ağlı başına gələr. Mən öz işimi yaxşı bilirəm, arvad, indiyə qədər zərər eləməmişəm.

Hürü xanım dərindən ah çəkdi:

– Bir bunlardan soruşan yoxdur, bu nə çəkidir, bu nə qiymətlərdir? Hərki-hərkilikdir? Şura hökuməti olsaydı bir soruşardı…

Qılman başını buladı:

– Ay rəhmətliyin qızı, indi sorğu-sual edən daha çoxdur. Ticarətçiləri qınamaq olmur. Vergi gedir, milçək

həkimi gəlir, yanğınsöndürən yandıra-yandıra gəlir, polis gəlir, icradan gəlir, bələdiyyədən gəlir… Ələsgər bir belə adamdan pul saldırıb başını dolandırırsa, böyük adamdır. Məni bircə şey maraqlandırır, məzənnəsi niyə qalxıb?

Hürü xanım mütəfəkkir görkəm almış Qılman bəyin köməyinə gəldi:

– O günləri dərzidə idim, Ələsgərin arvadı da orda idi. Deyirdi ki, qayınatası üçün ehsan verəcək, qəbrinin üstünü də qara mərmərdən götürəcəklər. Dərzi Sənubər də az aşın duzu deyil, axı. Qayıtdı ki, ay qız, yazıq kişini on il qabaq döyə-döyə öldürdün, indi nə şirin düşüb, bu boyda xərc çəkirsiz?... Ələsgərin arvadı çox pərt oldu.

Qılman bəy barmağını dişlədi:

– Həə, deməli, məzənnə qara mərmərə görə artıbmış.

Qılman yenə nəsə demək istəyirdi ki, Hürü xanım gülə-gülə:

– Sabah Ələsgər atasının mərmərdən heykəlini qayırtdırmaq fikrinə düşsə, məzənnəni bir də qaldırsa, onda nə edəcəksən?

Qılman bəy çırtıq çaldı:

– Onda mən də məzənnəmi artıracağam. Elərəm bir baş-bir üzü iki «şirvan».

Hürü xanımın daha sözü qalmadı ki, desin. Axır söz həmişəki kimi Qılman bəyin idi.

## NAMƏRD ZƏMANƏ

Maşın ustası Əbi kişinin əyalı Heyran bacı ağrı çəkirdi. Qadın mənzili fır-fıra kimi fırlanırdı, canına yer tapmırdı. Camış kimi arvad ağrıdan, göz görəsi, şam kimi əriyirdi. Təcili yardım maşını isə gəlib çıxmaq bilmirdi.

Axırıncı on ildə işi heç düz gətirməyən Əbi kişi yana-yana neçənci dəfə idi ki, təkrar eləyirdi:

– Əsəd kişinin qızı, döz, bizim işimiz haçan düz olub ki, indi də düz olsun. On dəfə zəng eləmişəm, hər dəfə də deyirlər, maşın çıxıb, gözləyin.

Qəflətən ağrıları azalmış Heyran bacı ərinin boş-boş danışmağına hirsləndi. Qeyzlə:

– Sən də zəhləmi tökmə daha, – dedi. – Bir saatdır döz-döz, deyirsən. Mağıl, vaxtında qoymadın öz ayağımla gedim xəstəxanaya.

Vurnuxan Əbi kişi bir də təkrar elədi:

– Sənə dedim döz, Əsəd kişinin qızı, namərd zəmanədir. Çörəyimiz onsuz da daşdan çıxır, sən də bir yandan qanımı qaraltma.

Tini düz olanda haqq-nahaq zəmanənin qarasınca deyinən Əbi kişi hər şeydən gileyli idi. Amma hiyləgərlik eləyirdi. Yağ-bal içində üzməsə də, şikayətlənməyi də yersiz idi. Sənəti, gün-güzəranı pis deyildi. Maşın ustası idi. İş olanda əlinə puldan-paradan gəlirdi. Di gəl ki, içkiyə aludə olduğundan əlindəkini saxlaya bilmirdi, heçə-puça xərcləyirdi. Sərxoş olanda heç kimin sözünü

eşitmirdi. İşdir, içkini tərgitsəydi, lap bəy kimi dolanardı.

Heyran bacının çatma qaşları çatıldı, qeyzlə deyindi:

– Hamısı sənin günahlarının ucbatındandır. Heç tövbəli adam da içkiyə əl vurar? İndi sənin cəzanı, budur, mən çəkirəm.

Əbi kişi həmişə ipək kimi yumşaq arvadının dilavərliyindən çaşdı. Şübhə ilə soruşdu:

– Əsəd kişinin qızı, ağrıdan ağlın çaşmayıb ki? Tövbənin bura nə dəxli var?

Heyran zarıya-zarıya deyindi:

– Nə qazanırsan aparıb verirsən arağa. Gözündən gəlsin, özünü də biabır eləyirsən, məni də. Sorağın daha haralardan gəlmir?! Adam kimi içə də bilmirsən, dilinə dəyən kimi şirə-nərə dönürsən. Camaata sataşırsan, qalmaqal salırsan. Ya döyürsən, ya döyülürsən. İki gündən bir sorağın polisdən gəlir. Dədəm yazıq neçə dəfə gələr sənin dalınca! İndi bəyəm Şura vaxtıdır? Əvvəl yazığın sözü keçirdi, indi kimdi ona qulaq asan. Bir də ağsaqqal kişinin qapılarda boynu bükülü dayanan vaxtıdır?

Əbi kişi yetimçiliklə böyümüşdü. Atasının dostu Əsəd kişi olmasaydı lap itib-batardı. Həddi-buluğa çatandan sonra da Əsəd kişi qayğısını ondan əsirgəmədi. Əbini şəhərə apardı, yaxşı işə düzəltdi. İki-üç ildən sonra yetim oğlanı tanımaq olmurdu. Üst-başını sahmana salmışdı. Axır vaxtlar tez-tez kəndə baş çəkirdi. Bir gün xəbər çıxdı ki, Əbi Əsəd kişinin qızı Heyranı qaçırıb. Ye-

timin bu namərdliyinə hamı heyran qaldı. Əsəd kişi bilirdi ki, qızı Heyran Əbinin dəli-divanəsidir. Yəni adam kimi elçi göndərsəydi, qızı istəsəydi, əlbəttə, Əsəd kişi müzayiqə eləməzdi, bəlkə lap şadlıqla razılaşardı. Əbinin əməli ağsaqqal kişini yandırıb-yaxsa da tezliklə olacaqla barışdı.

Kəndin sayılan kişilərindən birinin qızını alandan sonra Əbinin vəziyyəti tamam düzəldi. Qayınatasının köməyi ilə şəhərdə ev-eşik düzəltdi. Amma Şura hökumətinin dağılmağı Əbini yıxdı. Bütün ümidləri heç-puç oldu. İşlədiyi zavod bağlandı. Avtomobildən başı çıxdığından çilingər sexi açdı. On il idi ki, çabalayırdı. Yaşı qırxı ötsə də, işlərinin düzələcəyinə ümid qalmamışdı. Sinədən gələn xırıltılı səsi var idi. Adi həqiqətləri o qədər ürəkdən danışardı ki, qulaq asan ona valeh olurdu. Axır vaxtlar badə yoldaşlarının sayı artmışdı. Bir dəfə o qədər içmişdi ki, evə nə cür gəldiyi yadına düşmürdü. Yaşadığı doqquzmərtəbəli evin qabağındakı zibil yeşiklərinin arasında səhərə qədər yatmışdı. Sübh ayazı onu oyatmışdı. Özü də halına nifrət eləmişdi. İməkliyə-iməkliyə evə qalxmışdı, gözüyaşlı Heyrana demişdi: «Əsəd kişinin qızı, içki ilə qurtardım. Tövbə eləyəcəyəm».

Nə cür demişdi, elə də eləmişdi. Səhərisi hamamlanıb məscidə getmişdi. Məscidin cavan axundu onun gəlişinin səbəbini öyrənib razılıqla demişdi:

– Qardaşım, Allahın dərgahı günahkar bəndələrinin üzünə həmişə açıqdır. Sən düz yoldasan.

Axundun qabağında diz üstə oturmuş Əbi onun moizəsinə səbirsizliklə qulaq asırdı. Təsəvvür eləyəndə ki, bir də əlinə badə ala bilməyəcək özünü çox narahat hiss elədi. Axundun sözünü kəsdi:

– Axund, tövbə eləsəm daha içə bilmərəm ki?

– Əlbəttə, qardaşım, – deyə axund başını tərpətdi. – Bu böyük günah olar.

Əbi tərəddüdlə qurcuxdu:

– Bəlkə, axund, mən altı aylıq tövbə eləyim? Baxım görüm, səbrim çatırmı?

Axund özündən çıxdı:

– Küfr danışma! Allahla al-ver eləmək fikrinə düşmüsən?

Əbi çəkinə-çəkinə:

– Bağışla, axund, söz gəlişi dedim. Keç günahımdan. Bağışla, axund.

Əbinin tövbəsi qəsəbədə zərb-məsələ çevrilmişdi. Amma, uzun çəkmədi, təzədən içkiyə qurşandı. Heyran bacı da bunu deyirdi.

Təcili yardım maşını bir az da gec gəlsə idi zahını qibləyə çevirməli olacaqdılar. Əbi onu xəstəxanaya yola salıb qazı-işığı söndürdü. Qapıda dayanmış qonşuya dedi:

– Güllü bacı, başına dönüm, bizim gədə indi məktəbdən gələcək. Al açarı, onu yerbəyer elə. Mən də gedim görüm, arvad ölmüş necədir.

Qonşu arvad barmağını ağzına apardı:

– Qardaş, elə niyə deyirsən? Arvad yazıq, neyləsin? Allahın işidir də, – dedi.

Əbi deyintili səslə:

– Sən bilmirsən, bacı, – dedi. – Əsəd kişinin qızına çox dedim, ikinci uşaq bizə lazım deyil. Biri bəsimizdir. Qaxıl, yerində otur. Elə dedi: «Uşaq». Dedim, ay tünbətünün qızı, ölərsən. Yenə dedi: «Uşaq». Dedim, uşaq mən. Mənə yaxşı bax, bəsimdir.

Güllü bacı təəccübləndi:

– Aaa, Əbi qardaş, sənə, bəyəm, pis baxırdı? Yazıq gəlin sənin nazınla oynayırdı ki, – dedi.

Əbi etiraz etmədi:

– Elə olmağına, bacı, elədir ey. Amma zəmanə namərd zəmanədir. Gərək, yorğanına görə ayağını uzadasan. O isə sözə qulaq asmadı, atası Əsəd kişi kimi tərsdir.

Güllü bacı yenə nəsə demək istəyirdi ki, Əbi macal vermədi. Qapını bağladı, açarı onun ovcuna basdı, pilləkəni tələsik düşdü. Xəstəxana yaxında idi. Amma Əbi özünü tez ora çatdırmaq üçün yolda dayanan taksiyə mindi.

Başılovlu xəstəxananın doğum şöbəsinə qalxdı. Arvadı dəhlizdəki xərəkdə görüb ayağı bir-birinə dolaşa-dolaşa irəli tələsdi. Ətrafda bir ins-cins yox idi. Boş dəhlizdə onun səsi şimşək kimi çaxdı:

– Əsəd kişinin qızı, necəsən? – deyə soruşdu. – Ağrıların azalıb? Həkim nə deyir?

Ərini görəndə uşaq kimi sevinən Heyran bacı şikayətləndi:

– Özün görürsən də, – dedi. – Ay Əbi, hələ bir adam soruşmayıb ki, dərdin nədir. Necə gətirib atıblar, hələ də burdayam. Maşında vurulan iynədən başqa bir əlac eləməyiblər. Allahın bir qurtum suyunu da verməyiblər. Yaxşı ki, ağrılarım kəsilib.

Əbi cin atına mindi, bağırdı:

– Bə nə bilmişdin? Bura sənə Şura xəstəxanasıdır bəyəm? Dərdinə qalsınlar, halına yansınlar, – dedi. – İndi hər şey pulnandır. Ay namərd zəmanə!

Pulun adı çəkilən kimi bir ağ xalatlı həkim peyda oldu. Elə bil yerin altından çıxdı. Əbi onun üstünə cumdu:

– Ay həkim, yazıq arvad ölür, axı, – dedi. – Niyə ona bir baxan yoxdur?

Həkim mülayim halda:

– Allah eləməsin ölsün, vətəndaş! Ağzını xeyirliyə aç, – dedi. – İndi yerbəyer edərik, darıxma. Bura doğum evidir, işimizin adı nədir? Xəstə haqqında məlumatımız var. Bizdə qeydiyyatdadır. Cərrahiyyə əməliyyatı keçirilməlidir, yoxsa uşaq tələf olacaq.

Əbi tələsik:

– Bə, nəyi gözləyirsiniz? – dedi. – Əlinizi tutan var?

Həkim barmaqlarını bir-birinə sürtdü, adda-budda ağarmış bığlarının altından mızıldandı:

– Hər şey xəstənin sahibindən asılıdır.

Əbi kişi sözün hara gətiriləcəyini bildiyindən əsəbi halda:

– Xəstə sahibinin başına bir yekə daş düşsün. Ondan asılı nə var ki? – dedi.

Həkim Əbinin qanmazlığından narahat halda açıq danışdı:

– Qardaş, yüz əlli «şirvan» xərcin çıxacaq. Razısansa əməliyyata başlayaq.

Məbləği eşidən Əbinin tükləri qabardı:

– Nə? İnsafın olsun, ay həkim. Bu qədər pul məndə hardandır?

Həkim əllərini yana açdı:

– İnsafın bura nə dəxli var? – dedi. – Dava-dərman, tənzif-pambıq bəyəm salavatla alınır? Biz də hamısının bahasına pul veririk də!

Əbi qeyzlə:

– Bura hökumət xəstəxanasıdır, ya yox!?

– Qardaş, xəstəxana, əlbəttə, hökumət xəstəxanasıdır. Amma xəstəxananın indi nəyi var ki? Dörd divardır, bir də quru çarpayılar. O Şura hökuməti idi, dərman da verirdi, tənzif də verirdi, hələ həkimə maaş da verirdi. Bizim də borcumuz müalicə eləmək idi. İndi o vaxtlar keçdi. Hay-küy salmağın da mənası yoxdur. Altı-yeddi həkim, neçə tibb bacısı zəhmət çəkəcək, risk edəcək.

Əbi onun sakit səsindən oda atılmış şabalıd kimi partladı.

– Pulum yoxdur, deyənə, xəstəm yıxılıb ölməlidir?

Həkim dinmədi. Əbi daha böyük qeyzlə onu hədələdi:

– Həkim, Əsəd kişinin qızına bir şey olsa, aləmi dağıdacağam. Gör nə vaxtdandır gətiriblər, hələ də onu rahatlamayıblar. Sabah Əsəd kişi gələcək, ona cavab verə biləcəksən?

Həkim bu adı eşidib donuxdu. Bu vaxt zahı əlini mələfənin altından qabaran qarnına çəkdi:

– Əbi, ölürəm, gör, neyləyirsən, – dedi. – Yenə başladı, daha ağrıya dözə bilmirəm.

Əbi əlacsızlıqdan az qala ağlasın:

– Ay Əsəd kişinin qızı, zarıma, özü yıxılan ağlamaz, – dedi. – Əsəd kişi gələnə qədər döz, hər şey yaxşı olacaq.

Həkim duruxa-duruxa soruşdu:

– Qardaş, bu Əsəd kişi kimdir?

Əbi əlini yellətdi:

– Bu ölmüşün atasıdır, – dedi. – Nədir, həkim, anket doldurursan? Darıxma, harda olsa indi gələcək. Onda ona cavab verərsiz.

Həkim bir də soruşdu:

– Nazirlikdə işləyir?

Əbi bir də əlini yellətdi:

– Əşi, yox.

– Baş idarədə işləyir?

Əbi qaşqabağını tökdü:

– Əşi, hardandır məndə o bəxt, qayınatam nazirlikdə, ya baş idarədə işləsin, – dedi. – Əsəd kişi Şura hökuməti

vaxtı kolxozun baş çobanı idi. Döşündə qatar-qatar ordeni var. Bir vaxtlar hara getsəydi bir sözünü iki eləmirdilər. Ordenləri işə keçməyəndə çomağını işə salırdı.

Həkim dayanıb-dayanıb şaqqıltı ilə güldü:

– Ay sənin canın yanmasın, hələ məni belə güldürən olmamışdı, – dedi və dəhlizdə görünən tibb bacılarına əmr etdi. – Xəstəni cərrahiyyə otağına aparın. Özüm əməliyyatı keçirəcəyəm. Əsəd kişinin qızından muğayat olmaq lazımdır.

Əbi kişi həkimin bu alicənablığından vəcdə gəldi:

– Heç demə, namərd zəmanədə də mərd adamlar tapılarmış, – dedi və inildəyən arvadına qışqırdı. – Əsəd kişinin qızı, sən daha ölməyəcəksən.

Həkim Əbinin sadəlövhlüyünə heyrətlə irişdi.

## YAPIŞQAN

Təzə şöbədə yeddi-səkkiz mühəndis çalışırdı. Hamısı cavan idi. Otaq o qədər genişdi ki, rəqs meydançasını xatırladırdı. Masalar bir-birindən çox aralı qoyulmuşdu. Qapıdan sağda, küncdə yerləşdirilmiş iri masanın üstündəki telefonların sayından məlum olurdu ki, bura şöbə müdirinin iqamətgahıdır. O, otaqda çox nadir hallarda tapılırdı, gələn kimi dərhal da yoxa çıxırdı. İşçilərə lazım olanda iddialı cavan müdiri ya rəisin, ya da müa-

vinlərin qəbul otağında asanlıqla tapırdılar. Kişi mövqe seçməkdə usta idi. Vəzifə pillələrini sürətlə qalxırdı.

Gün təzə başlamışdı. İşçilər otağın ortasında toplaşıb əhvallaşırdılar. Xadimə Aliyə bacı otağı hələ yığışdırıb qurtarmamışdı. Elektrik çaydanı isə qaynamışdı, bircə dəmlənməyi qalırdı. Nəhayət, xadimə masaların üstünə qaldırdığı yüngül kürsüləri döşəməyə endirdi. Hamı tələsə-tələsə yerinə keçdi, fincanlar dolablardan çıxdı. Bir azdan çay dəsgahı başladı. Telefonun zəngi bu şirin büsata soyuq su qatdı. Hamı başını qaldırdı. Şöbə müdirinin müavini Əli müəllim yerindən qalxıb müdirin masasına yan aldı, dəstəyi qaldırdı. Bir az qulaq asıb üzünü xadiməyə çevirdi:

– Aliyə bacı, səni oğlun istəyir. Uşaq nəsə həyəcanlıdır. Tez elə, gəl!

Aliyə bacı tozsoranı əlindən yerə qoydu. Tələsik telefona yanaşdı. Həyəcanla dilləndi:

– Hə, Orxan, nə olub? – Qulaq asdıqca tədricən həyəcan Aliyə bacının üzündən çəkildi, acıqla dedi. – Əşi, belə şeyə görə də adamı narahat eləyərlər? Yekə oğlansan, axşamdan deyəydin də. Gözləyirsən, gözləyirsən, mən işdə olanda bütün dərdlərin yadına düşür. Yaxşı, məsələnin şərtini de. Dayan, əlimin altında yazmağa bir şey yoxdur… Əli qardaş, kağız-qələm verə bilərsənmi?

Əli müəllim onun xahişini yerinə yetirdi. Aliyə bacı telefona "hə, hə" deyə-deyə başladı yazmağa. Axırda:

– Quzu bala, yazdım. Bir azdan sənə zəng eləyərəm. Hələ məktəbə getməyinə iki saat var, çatdırarsan, qorxma, – dedi və dəstəyi qoyub üzrxahlıqla. – Uşağa məsələ veriblər, həll eləyə bilmir, ona görə zəng eləmişdi. Görün neynəyirsiniz…

Şöbə bir haya bənd idi. İşçilər çayı yarımçıq qoyub Aliyə bacının ətrafına yığışdılar. Əli müəllim soruşdu:

– Aliyə bacı, nə məsələdir elə?

Aliyə bacı kağızı ona uzatdı. Əli müəllim nahamar yazını gözünə yaxınlaşdırdı. Cavanlığına baxmayaraq yetikliyi ilə şöbənin qadınlarından seçilən Sevinc ərklə kağızı müavinin əlindən dartıb aldı. Dedi:

– Sən Aliyə bacının xəttini oxuya bilməzsən. Onun qara-qurasından ancaq mən baş çıxarıram. Məsələyə özüm baxacağam…

Əli müəllim etiraz etmədi. O, mülayim bir istehza ilə:

– Şöbənin bütün məsələlərini onsuz da sən həll eləyirsən. Nə olar, buyur həll elə, – deyib hamını güldürdü.

Sevinc atmacanı qulaq ardına vurdu, vəsməli qaşlarını oynadaraq, başladı bərkdən oxumağa:

– Yüz qram kazeyin yapışqanı hazırlamaq üçün on bir hissə su, beş hissə naşatır spirti, dörd hissə kazeyin lazımdır. Əgər naşatır spirti sudan on qram az olsa nə qədər yapışqan alınar?

On il mühəndislik təcrübəsi olan Validə xanım dərhal eynəyini alnına qaldırdı:

– Bunu həll eləməyə nə var ki! – dedi. – Bircə kazeyinin nə olduğunu mən başa düşmədim.

Sevinc əlini yellətdi:

– Onu bilməsək də olar. Onsuz da hər şey aydındır. Suyu "iks", naşatır spirtini "iqrek", kazeyini də "zet" adlandıraq, alarıq üç məchullu tənlik. Elədirmi, Aliyə bacı?

Xadimə qadın arıq çiyinlərini yazıq-yazıq çəkdi:

– Qadan alım, sən yaxşı bilərsən – dedi. – Mənim elə bir savadım yoxdur. Mən nə bilim «ikis» nədir, «iğrik» nədir.

Lap arxada dayanmış Bilal tın-tın və gur səslə dilləndi:

– Ay savad müdərrisi, belə olmaz – dedi.

Qadınlar onun səsindən diksindilər. Sevinc dodaqaltı mızıldandı:

– Bu kətçiyə bir ildir böyürə-böyürə danışmağı tərgidə bilmədim də! – dedi. – Hər dəfə bunun səsi bizi ürəkqopmaya salır. Elə bil boğazını lomla deşiblər.

Bilal çox savadlı mühəndis idi. Şöbədə işi çətinə düşən onun üstünə qaçırdı. O da heç kimə «yox» deməzdi. Hamı xətrini istəyirdi. Bircə əli böyüklərin ətəyində olan Sevinc onunla yola getmirdi. Aliyə bacı pərt olmuş Bilalın köməyinə gəldi:

– Qardaş, bəlkə sən də məsələyə baxasan…

Bilal yekə burnunu çəkdi. Ona uzadılan kağıza göz gəzdirdi. Mümkün qədər asta danışmağa çalışsa da, səsi yenə gumbuldadı:

– Bacı, uşaq neçənci sinifdə oxuyur? – Soruşdu.

– Üçüncü sinifdə, Bilal qardaş.

Bilal barmağını qaldırdı:

– Hə..., eləsə, məchulların sayı birdən artıq olmamalıdır.

Sevinc ərklə onun üstünə çığırdı:

– Adə, məchulu nə təhər azaldacaqsan? Məsələ rezindən deyil ki?

Bilal ona baxmadan çəkinə-çəkinə bir daha burnunu çəkib dedi:

– Bunu bu saat fikirləşərik. Əgər bir məchulla işarələsək, belə olar…

Amma onun dediyini heç kim qəbul eləmədi. Mübahisə qızışdı.

Başları məsələyə qarışmış işçilər, şöbə müdirinin gəlişini hiss eləmədilər. O, hökmlü səslə:

– Bu nədir yığışmısınız? – Soruşdu. – İşiniz-gücünüz yoxdur?

Qadınlar diksindilər. Müavin söz atdı:

– Ay rəis, köhnə şakərindən əl çəkmirsən ha? Yenə xəlvəti qulaq asırsan?

Sevinc rəisin qızarıb-bozarmağının mübahisəyə çevriləcəyini hiss edib araya söz qatdı:

– Rəis, məsələ həll edirik. Daha özünü dartma. Gəl, bizə kömək elə.

Rəis müavinin atmacasını içəri verib laqeyd halda:

– O nə məsələdir ki, bir sürü mühəndis, başda Əli müəllim olmaqla onu həll edə bilmir? Hətta mənim də köməyim lazımdır! Yaxşı, məsələnin şərtini de.

Mübahisə yenidən qızışdı. Biri təklif etdi ki, törəmə alma yolu ilə həll edək. Onu hoydu-hoyduya götürdülər. O biri dedi ki, bu məsələ ya induksiya metodu ilə həll olunacaq, ya da deduksiya. Rəis də məsələni bir-iki dəfə oxuyandan sonra, qəflətən təklif etdi:

– Əşi, buna baş sındırmağına dəyməz. Gəlin hesablama mərkəzinə zəng edək. Orda işləyənlər daha Əli müəllim kimi geydirmə mühəndis deyillər, hamısı riyaziyyatçıdır. Ay qız, telefonu bəri elə.

Rəis nömrəni yığdı, salamlaşandan sonra məsələnin şərtini oxudu. Əlini qaldırdı:

– Səs salmayın görüm, nə deyirlər?

Hamı susdu.

– Atam balası, bu üçüncü sinfin məsələsidir… Əlbəttə! …Proqramlaşdıracaqsınız? Neynək, nə istəyirsiniz edin, öz məsləhətinizə baxın… Qəribə söz deyirsiniz! … Necə yəni hansı dildə proqramlaşdırasınız? Nə bilim ey, elə həll edin azərbaycanca başa düşmək olsun… Daha niyə gülürsünüz?… Mən nə bilim sizin maşının öz dili var. …Olsun lap dünya dili… Nə danışırsız, e?… Sizə bir gün vaxt lazımdır?… Uşaq iki saatdan sonra məktəbə getməlidir… Lap səfehləmisiniz e! Nə? Dəlixananın bura nə dəxli var?

Rəis dütdüldəyən telefona tərs-tərs baxıb dəstəyi qoydu yerinə.

– Əşi, elə onların da adı var. Demə bizim gündədirlər. Məsələni həll eləyə bilmirlər. Yüz bəhanə gətirirlər. İndi isə yerinizə dağılışın. İdarədə yoxlama var…

İşçilər yerlərini tutdular. Hərə bir qovluq çəkdi qabağına. Otağa sakitlik çökdü.

Aliyə bacı astadan mızıldandı:

– İndi mən uşağa nə deyim? – dedi. – Deyim, bir belə mühəndis bir uşaq məsəlini həll edə bilmir? Vallah, mənə güləcək.

Onun bu mızıltısını çoxu eşitdi, amma dinən olmadı. Rəis içəridə olanda hamı quzu kimi sakit otururdu.

## QORXULU MƏKTUB

Bazar günü Məryəm xalanın hövsələsi daraldı. Sobanın üstündəki dəm çaydanını gözdən qaçırtdığına görə mətbəxdə qurdalanan iki ortancıl qızının birini acıladı, deyib-güldüyünə görə o birinin abrını ətəyinə bükdü, pəncərələrin polietilen örtüyünü yazın oğlan çağında açmayan əri ilə ağızlaşdı, kiçik qızının güzgü önündə bəzənməyinə necə darıldısa hay-həşir saldı. Bir sözlə, Məryəm xala doyunca dalaşandan sonra hamıdan küsülü qonaq otağına çəkildi. Telefon aparatını yanına alıb kürsüdə bardaş qurdu, gözünü yumdu.

O, bacısı oğlu Əlinin zəngini gözləyirdi. İcazəsiz telefona heç kim yaxın düşə bilməzdi. Kimsə gözünü təsadüfən oğurlasaydı, o da gəlib üstünə çıxsaydı, günahkar dərhal cəzasını alırdı. Telefonu nəzarətdə saxlayırdı ki, Əli rahat zəng eləsin, Məryəm xalanın Sibirdə işləyən oğlundan səhih soraq versin.

Məryəm xala oğlunun qürbət səfərinə əvvəldən razı deyildi. Amma onun dəlilləri qarşısında geri çəkilmişdi. "Ana, bacılarımı adam kimi köçürtmək istəyirəm! Buna pul lazımdır. Mənim işimdən bir şey çıxmır! Bakıda pul qazanmaq iynə ilə gor qazımaqdır. Sibirdə isə vəziyyət yaxşıdır. Məni yanına çağıran oğlanla da neçə il dostluq eləmişəm. İndi ona adam lazımdır, getməsəm sonra bu imkan əlimdən çıxacaq! Deyir, tikintidə yaxşı pul verirlər. Ana, qoy, bir-iki illiyə gedim. Həmişəlik getmirəm ki". Məryəm xala da qızlarını gözünün qabağına gətirib razılaşmışdı. İndi bunun peşmançılığını çəkirdi.

İki ortancıl qız sükut çökmüş evdə oturmaqdan bezikərək yığışıb binanın qonşu blokunda yaşayan xalası gilə getdi. Ailənin kişisi aranı tünlük görüb astaca geyindi, qapıdan çıxdı. Fikirləşdi ki, axşama kimi gözə görünməsə yaxşıdı. Kişi düz də elədi. Məryəm xala, mübaliğə təriqi ilə desək, yarmağa baş axtarırdı.

Məryəm xala keçən həftə Əlini uzun müddət dilə tutdu:

– Bala, aman-zaman bir oğlum var, ürəyim əsir. Kömək elə, bala, mənim səndən başqa kimim var ki?

Məktubunu oxuyandan sonra özümə yer tapa bilmirəm. Yol xərcindən də qorxma, səni əliboş yola salmayacağam.

Əlinin Binə bazarında bir xırda köşkü vardı. Alverlə başını dolandırırdı. Təzə-təzə əlinə pul gəlirdi. Əvvəllər bir-iki dəfə malını «yandırmışdı». İndi olan-qalanını satıcıya tapşırmaqdan qorxurdu. Könülsüz dedi:

– Ay xala, nə verib bu uşaqdan ala bilmirsən? Burada yazığa gün-dirilik vermirdin, ay onu eləmə, ay bunu eləmə, ay ora getmə, ay bura getmə. Salmışdın o boyda cayılı qoz qabığına. Xalaoğlu daha kişiləşib, qoy, pul qazansın. Bir də özün buraxmısan ki! İndi oturmusan bikar, qurdalayıb özünə dərd-çor tapırsan…

Məryəm xala məktubu ona uzatdı:

– Eləsə bunu oxu! – dedi və hirslə. – Bərkdən oxu!

Əli yekə burnunu çəkib gülümsədi:

– Ay xala, yaddaşın korlanıb ha! Məktubu dünən oxumadımmı? – dedi. – Bu bir parça kağızı adama neçə dəfə oxudarlar?…

Məryəm xala inadla təkrar elədi:

– Sən o quş qoyduğum yerləri oxu… Bərkdən oxu!

– Vallah, mat qalmışam sənə! Dünən sevinirdin, bu gün isə qan-yaş tökürsən… – deyə Əli məktubu könülsüz aldı. – Ver görüm.

Xalaoğlunun məktubundakı salam-kalamı, əhval-pürsanlığı buraxdı, xalasının qırmızı qələmlə cızladığı cümlələri qayım səslə oxudu:

«... Ana, məndən sarı darıxıb eləmə! Kefim kök, damağım çağ, canım-başım sağ!» Bu yerdə Əli atmacasını saxlaya bilmədi – Zalımın qafiyə tutmağına baxırsanmı? – dedi və sonra yenə də davam elədi «Hər yer ağaclıq, meşəlikdir. Yaz gələli olduğumuz yerlər cənnətə dönür. Gül gülü çağırır! Axşamlar gəzməyə çıxıram. Otlar dizə çıxır, sanki məxmər üstə gəzirsən. Meh əsəndə meşəyə qulaq oxşayan xışıltı düşür, elə bil, ağaclar dil açıb adamla danışmaq istəyir. Ay çıxanda buralarda olasan! Adamın könlü açılır. Bir sözlə, ana, Sibirin adı pis çıxıb, nağıllarda deyildiyi kimi, buralar lap ölüb-qalası yerdir. Heç darıxma…»

Məktubun bu yerində Məryəm xala ağlamsındı, şalının ucunu gözünə sıxdı, ah-zarla dedi:

– Gördünmü? Ay başına dönüm, gördünmü?

Əli təəccüblə:

– Nəyi, xala? – dedi. – Sən canın, ağlama!

– Bala, tərifləyir ey, tərifləyir… Vay-vay-vay!

Əli dizini şappıldadan xalasına mat-mat baxırdı:

– Bah! Nolar, tərifləyəndə? Sənə ürək-dirək verir də! Onun yazısında nə şeytan əməli gördün ki, özünə əl qatmısan?

Məryəm xala dikəldi, Əlinin izahatını dinləmədən qətiyyətlə dedi:

– Bala…, bala, sən bilmirsən! Adam durduğu yerdə yad elləri tərifləməz! Burda qız barmağı var! Sən məni bir əlli tutma, heç özün də uşaq deyilsən! Onun meşədə

nə iti azıb? Soruşmaq ayıb olmasın, tək adamın meşədə nə azarı var? Hə?

Kənarda oturub söhbətə müdaxilə eləməyən qızlar xısın-xısın gülürdülər. Küyçü analarını yaxşı tanıyırdılar. Amma Əli xalanın dəmir məntiqi qarşısında təslim oldu. Gur saçlarını geri sığalladı:

– Gör ha! Afərin, xala! Səndən yaxşı müstəntiq çıxar! Heç ağlıma gəlməzdi… – dedi və qımışdı. – Tutalım ki, dediyin düzdür. Daha niyə qan-yaş tökürsən? Sevin də! – deyə heysiz oturmuş xalasını qıdıqladı. – Başla tədarükə! Bir də gördün ki, xalaoğlu hazır gəlir. Var-dövlətinin gəlhagəlidir, xala, daha yasxana açma. Ha-ha-ha!

Məryəm xala inildədi:

– Ürəyimi partlatma, bala! – dedi. – Yola hazırlaş.

Əli təslim oldu:

– Yaxşı, xala! Gedirəm, üç gündən sonra xalaoğlunu o meşəlikdən çıxaracağam, danışıq məntəqəsinə gətirəcəyəm, qoy, sənə zəng eləsin, özü hər şeyi sənə başa salsın, – dedi və söz atdı. – Bir də qəm eləmə, məlumdur ki, yaxşı igid dayısına oxşar, xala…

Məryəm xalanın dodaqları əsdi:

– Yaralarımı təzələmə, ay saqqalı ağarmış… – dedi və dəsmalı gözünə sıxdı. – O qırışmalı qaytar evə, qoyma, arzum ürəyimdə qalsın…

Bu söhbətdən bir həftə keçmişdi. Amma Əlidən xəbər çıxmırdı. Elə buna görə də Məryəm xalanın hövsələsi bir tikə olmuşdu. İndi tənha oturmuşdu qonaq otağın-

da. Gözünü yumsa da məktub dizinin üstündə idi. Bir xeyli vaxt ötdü. Əvvəl evin böyük qızı, sonra kiçiyi içəri girdi, hərəsi otağın bir küncündə oturdu.

Kiçik qız ailənin sevimlisi idi. Şirin dilinə görə çox şeyi ona keçirdilər. İndi də bacısı ilə himləşib ehtiyatla anasına sataşdı:

– Ay ana, qaqaşın məktubu roman-filan deyil ki, qurtara bilmirsən!

Məryəm xala dinmədi. O məktubu əzbər bilirdi. Ürəyindən qanlar axırdı: "Gör, necə ağız bahəm eləyir? Cənnət? Axx! Hayıf ki, əlim yaxana yetmir! Mən sənə cənnətlə cəhənnəmin fərqini göstərərdim. Ölüb-qalası yer tapıbsan! Ağzımı boza verməyinə bax! Aldada bilməzsən! Yəqin yerini isti salmısan, böyrünə-başına dolanan tapmısan! Əvvəl darıxırdın, şikayətlənirdin, indi nə oldu?"

Onun gözü qorxmuşdu. İyirmi il qabaq Xarkov şəhərində əsgərlik çəkən kiçik qardaşı da əvvəl-əvvəl şikayətlənirdi. Yazırdı ki, buranın havası mənə düşmür, oynaqlarım sızıldayır. Evdəkiləri əndişəyə salmışdı. İki il ötdü. Əsgər qardaşın məktublarındakı ab-hava dəyişdi. Daha Xarkovu vəsf eləyirdi. Hamının ürəyi sakitləşdi. Qəflətən məktub gəldi. Kiçik qardaşı yazırdı ki, mən qalası oldum. Bəs, evlənmişəm, hələ gələ bilmərəm, arvadım boyludur, azad olar, bir yerdə gələrik. O gələn on il sonra gəldi. Anasının yeddisinə özünü zornan çatdırdı.

Səhərdən susan telefonun cingiltisi Məryəm xalanın fikirlərini dağıtdı. Amma dəstəyi qaldırmadı. Gözlədiyi telefonun şəhərlərarası kəsik zəngi idi.

Kiçik qız susmaq bilməyən telefona işarə ilə:

– Ana, az mələt onu, qaldır, görək kimdir… – dedi.

– Çalar, çalar, yorular! Yenə lotu-potudur… – deyə Məryəm xala mızıldandı.

Qəsəbəyə telefon təzə çəkilmişdi. Bir ara uşaq-muşaq onları girinc eləmişdi. Zənglər səngiyənə qədər ana qızlarına əyri-əyri baxmışdı.

Cihaz susdu. Məryəm xala köksünü ötürdü:

– Elə mən deyəndir. Avaralar köhnə şakərlərindən əl götürməyiblər.

Kiçik qız etiraz elədi:

– Daha telefonu niyə çəkdirirdik ki?

Böyük qız kiçik bacısını iynələdi:

– Nə əl-ayağa düşmüsən? Yoxsa zəng eləyənin var?

Kiçik qız qızardı, qalxdı, televizoru yandırdı, kürsünü fırladıb arxası bacısına tərəf oturdu.

Məryəm xala sözaltı mənasını anladığı bu gizli atışmaya müdaxilə eləmədi. Kiçik qızın on səkkiz yaşı vardı. Ali məktəbdə oxuyurdu. Ay parçası idi. Elçilərin ayağı qapıdan üzülmürdü. Məryəm xala hamını əliboş yola salırdı, böyükləri qala-qala kiçiyini verməyə ürəyi gəlmirdi. Onların burunlaşmağını eşidib köksünü ötürdü: "Baxırsan kifir deyillər, hərə bir sənətin sahibidir, amma bəxtləri bağlanıb. Köpək oğlanları gedib iti-qurdu gəti-

rib arvad eləyirlər, halal süd əmmişlərimiz qalır başına döyə-döyə… Yox, yox, kiçiyini vermək lazımdır. Yazıq o birilərinin gününə düşməsin…»

Böyük qız anasına ürək-dirək verdi:

– Özünü üzmə, ana, hər şey yaxşı olacaq…

Məryəm xala ah çəkdi:

– Bala, dayın yadıma düşür, damarlarımda qanım donur. Qorxuram qardaşın da başımıza həmin oyunu açsın…

Kiçik qız geri çevrilmədən:

– Day-day yaxşı elədi Xarkovda qaldı. Maşallah ev-eşiyi, şəhərdən kənarda bağı, altında maşını, gül kimi balaları…

Məryəm xala ona boğma çıxartdı:

– Kiri, azz, kiri! Yazığ qardaşımı dərd götürüb, sən isə gör nə çərənləyirsən. Keçən ilki gəlişi bica yerə deyildi ki! «Bacı, – deyirdi. – Nə qədər cavandım, qolumda gücüm vardı, ailənin ipini yığışdıra bilirdim. İndi arvad da, uşaqlar da sözümə qulaq asmırlar». Elə olar da! Oğlu ondan icazəsiz evlənib! Nə tökərsən aşına, o da çıxar qaşığına…

Kiçik qız dayısını müdafiə elədi:

– Onda nə günah vardı! – dedi. – Bura qayıtsaydı indiki dava-mərəkənin iştirakçılarından biri olacaqdı. Görmürsən, dayılarım necə didişirlər? Heç biri ata mülkünü tərk eləmək istəmir. Bir də çıxıb hara getsinlər, axı? Hər gün mərəkə, dava-şava, saç yoldu...

Məryəm xala istər-istəməz razılaşdı:

– Bala, düz deyirsən ey! Amma sözün nədir, hamımız qaçaq ölkədən, bəs, Azərbaycanı kimin ümidinə qoyaq?

Telefonun kəsik zəngi onun sözünü yarıda qoydu. Məryəm xalanın rəngi qaçdı. Əlləri əsə-əsə dəstəyi qaldırdı, qulağına apardı:

– Əloo?

Telefonçu qızın kobud səsi mikrofondan kənarda eşidildi:

– Kamalovların mənzilidir?

– Bəli, bəli!

– … Sizi şəhərlərarası telefonla calaşdırıram! Danışın…

Xəttin o başında əvvəl gülüşmə, sonra xırıltılı qız səsi eşidildi. Məryəm xala elə bildi telefonçu qızdır.

– … Alo, tet Maryam, zdrastvuy!

Məryəm xala diksindi, ağlına nə gəldisə inildədi. Xəttin o başında yenə kimsə güldü.

– Tı kto, devuşka? – Soruşdu.

– …Gəlinindi də, tanımadın? – deyə səs istehza elədi. – Dəstəyi oğluna verirəm.

Məryəm xala axırıncı sözlərin təmiz azərbaycanca deyilməyinin fərqinə varmadan əlini dizinə vurdu:

– Məryəmin başına daş düşsün! Evim yıxıldı! Ürəyimə dammışdı elə… Gəlin də bu yandan çıxdı…

Bütün bunlar dəstəyə deyildiyindən xəttin o başında uğundular . Bir səs acıqla dedi:

– …Əşi, ver, bura! Arvadın ürəyini partladarsan…

Anlaşılmaz səs-küydən sonra Məryəm xala oğlunun tanış səsini eşitdi:

– …Salam, ay ana! Necəsən?

Məryəm xalanın üzü işıqlandı:

– Can bala! Səsinə qurban olum! – dedi. – Məndə can qalmadı ki! Niyə zəng eləmirdin?

– …Tayqada idik! Sən darıxma, əlimizdəki işi qurtaran kimi gələcəyəm! Uzağı iki aya yanındayam…

– Gəldiyin yollara qurban olaram, oğul! Amma başına dönüm, tək gəl, yanına quyruq bağlama, mənim arzumu gözümdə qoyma… Yanındakını azdır getsin…

Xəttin o başında güldülər:

– …Qorxma, yanımda xalaoğlu Əlidən başqa kimsə yoxdur. Genə şitdiyi tutub, səninlə qız səsi ilə danışan o idi. Bu saat dəstəyi ona verəcəyəm.

Məryəm xalaya dünyanı bağışladılar:

– Yalan demirsən ki!? Şükür Allaha! – dedi. – Dəstəyi ver o qırışmala!

– …Hə, xala, ürəyin gəldimi üstünə? Az qala inanmışdın ha! Gördün urus gəlinin necə səninlə azərbaycanca danışır? Ha-ha-ha!

Məryəm xala sevinə-sevinə:

– Dayan bir! Qulaqlarını qoparacağam! Axx! Allah köməyin olsun, Əli, bu nə qəmədiyədir çıxarırsan? Demirsən qoca xalovun ürəyi partlar?…

Sonra oğlu bacıları ilə danışdı. Məryəm xala dəstəyi bir də əlinə alanda əlaqə kəsildi. Şadlıqdan ev işıqlandı.

Bir az arxayınlaşmış Məryəm xala telefonu aparıb dəhlizdəki dolabın üstünə, həmişəki yerinə qoydu. Amma ürəyindəki şübhələr tamam çəkilmədi: «Çox da deyir! Bir də gördün ləçərin birinə ilişdi, o da vurdu qoltuğuna gətirdi! Onda başıma nə çarə qılacağam?»

## DƏDƏ, MƏNƏ ARVAD AL

Əfsər axır vaxtlar atasının qılığına yaman girirdi. Kişi ağzını açmağa macal eləmirdi, oğlu onun istədiyini gözündən oxuyub, dərhal yerinə yetirirdi. Kran su axıdırdı, Əfsər alətlər əlində hazır dayanırdı; ütü işləmirdi, Əfsər dərhal onu söküb-yığırdı; qapı cırıldayırdı, Əfsər onu yağlayırdı. Qərəz, evdə elə bir iş olmazdı ki, Əfsər onun yanından ötsün, ağsaqqal atasının narazılığına səbəb olsun.

Kişi oğlunun qılığına şübhə ilə baxırdı, amma özünü o yerə qoymurdu, işin mabədini gözləyirdi.

Əfsərin yaşı qırxı haxlasa da, üzündə bircə qırış da tapmazdın. Seyrəlmiş saçları qap-qara idi. Həmişə gülən göy gözlərini görən deyərdi ki, bu adam dərd-sərdən xəbərsizdi.

Qohum-əqrəba, bacıları əvvəllər onu evləndirməyə çalışsalar da, heç biri Əfsəri yola gətirə bilmədi. On il bu

minvalla keçəndən sonra hamı ondan əlini üzdü. Hərənin öz dərdi özünə bəs eləyirdi. Zəmanə çövr olandan sonra isə cəmi canıyananlar da qınına çəkilmiş, daha Əfsərlə işi olan yoxdu.

Anası Güllü arvad lap əldən düşmüşdü, nasazdı. Tez-tez xəstələnir, yorğan-döşəkdən qalxmırdı. Atası Əbili kişi yaşına görə gümrah idi, amma oğlunun fikir-xəyalı ona köksdolusu nəfəs almağa imkan vermirdi.

Əfsər Əbili kişi ilə Güllü arvadın tək oğlu idi. Uşaqlıqdan ki, aman-zaman olmuşdu, özünü işə verməklə arası yoxdu. Nə qədər ki, Şura hökuməti vardı, Əfsərin aldığı mühəndis maaşına ailənin ehtiyacı yox idi. Güllü arvadla Əbili kişi qızlarını köçürəndən sonra aldıqları təqaüdlə lap padşah kimi dolanırdılar. Elə ki dövran dəyişdi, əldə-ovucdakı heç-puç oldu, ehtiyac başladı qapını cırmaqlamağa. Əfsər isə hərəkətə gələnə oxşamırdı. Hələ də beş-on «şirvan» maaşa köhnə iş yerində mühəndislik edirdi. Taleyindən razı halda gedirdi işə, gəlirdi işdən. Təvazö ilə yaşayırdı. Siqaret çəkmirdi, araq içmirdi, qumar oynamırdı, bir sözlə, cayıllıq eləmirdi. İndiki zəmanədə bu tapılmayan keyfiyyətdi. Elə buna görə də işçilərinin doxsan faizi ixtisara salınmış zavodda ona toxunan yoxdu.

Əfsər bu gün evə tez gəlmişdi. Atası kiçik bağçasına quluq eləyirdi, ağacları sulayırdı. Oğlunu görən kimi əlindəki beli zərblə torpağa çaxdı, işi yarımçıq qoyub uzaqdan dedi:

– Bala, qalx, dincini al, sonra başımı sahmana salacaqsan.

– Dinclik nədir, əşi, daş daşımaqdan qayıtmıram ki… Keç evə, başını islat, gəlirəm…

Eyvandakı taxtda bardaş qurub oturmuş Güllü arvad özünü günə verirdi. Ata-oğulun mükaliməsinə mürgülü-mürgülü müdaxilə elədi:

– Macal ver, uşaq çörək yesin, dincəlsin. Yanğına tələsmirsən ki!

Əbili kişi güldü:

– Oğlun daş karxanasında işləmir ki, yorulsun! Bu gün uzaqbaşı beş varaq kağızı o üzə-bu üzə çevirib. Düzdür, bala?

Əfsər burnunu qırışdırdı:

– Dədə, gözün aydın, o qədər işimə lağ elədin ki, deyəsən, o da əldən çıxacaq. Məni də ixtisara salırlar, zavodumuz bağlanır.

Kişi əllərini göyə qaldırdı:

– Allaha çox şükür, – dedi və eyvana qalxa-qalxa sözünü bitirdi. – Yaxşı oldu! O zavod bağlanmasa sən özünə bir gün ağlamayacaqsan.

Əfsər ülgüc-sabun gətirdi, mətbəxə keçib qaba ılıq su tökdü, fırçanı sabuna üç-dörd dəfə çəkib köpükləndirdi. Adətkərdə bir hərəkətlə kətildə oturmuş atasının başını sabunladı. Kişi siqaretini çəkib qurtarmağa heç macal tapmamışdı ki, onun başının tükünü qaşıyıb tökdü.

Əbili kişi başını sığallayıb razı halda dedi:

– Allah sənin canına dəyməsin. Canım rahatlandı. Maşallah, lap əməlli usta olmusan. Əvvəllər gec qurtarırdın.

Əfsər dişini ağartdı, amma dinmədi. Güllü arvad yerində dikəldi, oğlunun ürəyindən keçəni dedi:

– Əşi, əvvəllər başında tük vardı, vaxt aparırdı. İndi başın boranı kimi tər-təmizdir. Onu qırxmağa nə var ki.

Əbili kişi yerində deyilmiş sözə ürəkdən güldü:

– Ha-ha-ha! Arvad, belə yaxşıdır, axmaq tükün ağıllı başda qalmağına hacət yoxdur.

Əfsər qabları yığışdırmaq istəyirdi ki, anası hıqqıltı ilə taxtdan düşdü:

– İşin yoxdur, özüm edərəm, – deyindi. – Allah evinizi tiksin, mənə heç yazığınız gəlmir. Dəllək küçənin o başında, siz evdə dəlləkxana açıbsız. Sinni yaşımda, xəstə-xəstə, gərək, dalınızca döşəmə yığışdırım. Bir köməyim yox, bir yandan da siz. Rahat ölməyə də qoymayacaqsınız.

Əbili kişi divanda yerini rahatladı, oğluna göz elədi:

– Neynək, arvad, – dedi. – Günah özündədir də!

Güllü arvadın süpürgəsi havada qaldı:

– Bıy, köməksiz qalmağımın günahı məndədir indi? – Soruşdu.

Ərinin baməzəliyini bilə-bilə yenə onun toruna düşürdü. Əbili kişi dedi:

– İcazə ver, arvad, günü sabah sənə bir bacılıq gətirim, sənin də canın rahatlansın, mənim də. Hə, necə fikirdir?

Ata-oğul çaşqın-çaşqın qalmış Güllü arvada baxıb şaqqıltı ilə güldülər. Güllü arvad hikkə ilə ərinə boğma göstərdi:

– Ala e! – dedi. – Məndən betər ayaq üstə dayana bilmir, arvad almaq eşqinə düşüb. Odur, oğlunun saqqalı ağarıb, hələ subaydır, onun dərdini çəkməkdənsə başlamısan lağlağıya.

Kişi yalançı qeyzlə Əfsərə tərəf çevrildi:

– Əfəl oğlu əfəl! Sənin tənəni mənə edirlər, – dedi. – Evlənmədin ki, bu arvadın söz-söhbəti qurtarsın.

Əfsər nə fikirləşdisə, qımışa-qımışa dedi:

– Neynək, razıyam, dədə!

Əbili kişi laqeyd halda:

– Nəyə razısan, ay qırışmal? Dediyimdə nə var ki, qanovuz parça kimi qırçınlanırsan? – dedi.

Əfsər halını dəyişmədən yenə də qımışdı:

– Deyirəm ki, gedin mənə arvad alın… Daha razıyam.

Əbili oturduğu yerdə, Güllü arvad durduğu yerdə quruyub qaldı. Handan-hana bir ağızdan dilləndilər:

– Doğru sözündür, bala?

Əfsər başını tərpətdikdə Güllü arvad şübhə ilə:

– Yoxsa yenə keçənlərdəki oyunu oynamaq istəyirsən? Elçi gedən günü dəbbələyəcəksən?

Əfsər dişini ağartdı:

– Əşi, doğru sözümdür, – dedi.

Güllü arvad süpürgəni qoyub özünü Əfsərin üstünə atdı. Onun boynunu qucaqlayıb üz-gözündən öpdü.

– Oğul, – dedi. – Gözümün işığı oğul, ömrümü çürüdən oğul, axır səsimi eşitdin. Allah ürəyinə rəhm saldı. Ölmüşdüm, dirildim daha.

Əbili kişi onun şadlığına şərik olmaq fikrində deyildi. Başını kədərlə bulayırdı. Az qala çırtıq çalıb oynayan Güllü arvadın nə xəstəliyindən, nə halsızlığından əsər qalmamışdı. Gəldi oturdu Əbili kişinin qənşərində:

– Kişi, niyə ağzına su alıb oturmusan? Qalx, gedək, elçiliyə. Bilmirsən ki, oğlun hərdəmxəyaldır? Nə qədər fikrindən dönməyib əl-ayağını bağlayaq.

Əbili kişi səbirlə dedi:

– Dayan, arvad, bir hövsələni bas. Götür-qoy eləyək, görək kimin qızına elçi düşək.

Güllü arvad qızdırmalı adamlar kimi dilləndi:

– Necə kimin qızına? – dedi. – Odey, İbrahimin yeddi qızından beşi evdədir. Hansını istəsək onu da verəcək. Dur, geyin, elçi gedək.

Əbili kişi çığırdı:

– Axmağın qızı, – dedi və səsi mis kimi cingildədi. – «Elçi gedək, elçi gedək» deyib bizi dəng eləmə. Hələ bir, de görüm, nəylə toy etmək istəyirsən? Buna pul lazımdır, para lazımdır. Bir salavat çəkməklə bu işi aşırmaq olmaz ki.

Güllü arvadın sevincdən parlayan üzü tutuldu. Xaldan düşmüş səslə dedi:

– Allah kərimdir, kişi, elə demə. Çətini işə başlamaqdır, sonrası asandır.

Əbili kişi daha özünü saxlaya bilmədi:

– Yum ağzını, səfeh arvad! – deyə bağırdı. – Qocaldıqca ağlın azır. Macal ver oğlumla söhbət eləyim.

Güllü arvad təslim oldu:

– Hirslənmə, kişi, yenə təzyiqin qalxar, – dedi. – Mən susdum.

Əfsər söhbətə, nəhayət, müdaxilə eləməyə macal tapdı:

– Ay dədə, utanıram da deməyə, açıq danışa bilmirəm, – dedi və üzünü çevirdi.

Əbili kişinin hirsi soyudu. Keçdi baməzəliyə:

– Utanma, bala, utanma. Day ikimizin də saqqalı ağarıb, tay-tuşa oxşayırıq.

– Yaxşı, özün demirdin evlən?

– Deyirdim, bala.

– Bəs, indi niyə çığır-bağır salırsan?

Əbili kişi uzun-uzadı oğluna baxdı, boğazını arıtladı:

– Mən sənə haçan demişəm evlən? Dünən? Bildir? Yox, bala! Yadındadırsa, mən sənə on il bundan qabaq hər gün deyirdim ki, evlənginən. Nə qədər Şura hökuməti vardı, mən səni ayda iki dəfə evləndirə bilərdim. Az qala ayağına düşüb yalvarırdıq. Sənsə daş atıb başını tuturdun. Sonra hər şey kəllə-mayallaq oldu. Hətta «qoz ağacları» əkilən ili də gec deyildi. «Qaynana yolu» salınanda da tərpənmək olardı. Onda da əlimizdə-ovcumuzda bir şey vardı. Sənin kimi beş oğula toy çaldıra bilərdim. İndi isə bir həsir, bir Məmmədnəsirik!

Güllü arvad dözmədi:

– İndi nə təklifin var, kişi?

– Bilmirəm, arvad. Bir güman yerim qalmayıb. Zəmanə dəyişib, kimin qapısına gedəsən, deyəsən əl yetir, borc ver, toy eləyirəm?!

Güllü arvad fikirli halda dedi:

– Axtarıb eləsin tapmaq lazımdır ki, toysuz-mağarsız gəlməyə razılaşsın.

Əbili kişinin ağzı yenə əyildi:

– Məni cin atına mindirmə, – dedi. – Səni yerə yıxıb qabırğalarını sındıraram! Tutalım gəlini toysuz gətirdin, gərəkməz ki, onu dolandırasan? Əfsərin məvacibi bir dənizqırağı başmaq seyrinə bəs eləməz. Bununla ailə saxlamaqmı olar? Bizim təqaüdümüz isə qənd-çayımıza, nəvələrinin saqqızına zornan çatır…

Əfsər söhbətə müdaxilə elədi:

– Əşi, qurtarın bu qalmaqalı! Bir qələtdi elədim. Mən arvad almaq arzumdan vaz keçirəm…

Güllü arvad kədərlə vaysılandı:

– Vay-vay-vay! Elə belə subay qalacaqsan? Bizi oğul toyuna həsrət qoyacaqsan?

Əfsər ondan gözlənilməyən bir istehza ilə:

– Deyəsən, Şura hökumətinin gəlişini gözləməli olacaqsınız… – dedi və o biri otağa adladı.

Ata və ana küsülülər kimi bir-birindən üz döndərdilər. Güllü arvadın ağrıları yadına düşdü, taxta tərəf tələsdi. Əbili kişi başını qatmaq üçün həyətə düşdü.

## NARAZILIQ

Dini icmanın sədri ilə axund arasında düşən sərinlik icmanın üzvləri arasında da fikir ayrılığına səbəb oldu. Buna ixtilaf demək olmazdı, xırda bir narazılıq idi. Əlbəttə, heç bu da möminlərə yaraşan iş deyildi. Amma ikitirəliyin binası qoyulmuşdu. İcma üzvlərinin bir qismi axundun, başqa bir qismi sədrin tərəfini saxlayırdı. Qarşılıqlı ittihamlardan məlum olurdu ki, qarşıdurma labüddür. Artıq özünü büruzə verirdi. Adi bir hadisədən ara qızışdı.

Məscid təzə tikilmişdi, kiçik idi, eyni vaxtda əlli nəfər ibadət eləyə bilərdi, artıq adam yerləşmirdi.

Cümə namazına bir saat qalmışdı. Cümə xütbəsinə hazırlaşan axund Xanbala dedi:

– Deyirəm, ibadətlərimizə bir yenilik gətirək. Hacı Xurşudun yaxşı bəlağəti var, səsi də gurdu. Namazdan sonra sözü ona versək, necədi? – Soruşdu, dərhal da təklifini əsaslandırdı. – Hacı yaşda bizdən böyükdü, elə başda da böyükdü. Məktəb direktoru olub, ölkənin əməkdar müəllimidi...

Məscidin bünövrəsini qoyanlardan biri olan balacaboy hacı Dəsgah oturduğu yerdə bir balaca dikəldi. Hamının diqqətini şəxsiyyətinə yönəldiyinə əmin olandan sonra soruşdu:

– Bəs, hacı Baxış nə olsun, axund? Bu işi ona tapşırmışdın, axı! Kişi birnəfəsə yüzdən çox dua oxuyur, dua-

ların biri də o birini təkrarlamır. Belə bir sinədəftəri işindən kənarlaşdırmaq olarmı?

Hacı Dəsgah Sura hökuməti dağılan kimi Məkkəyə həcc ziyarətinə gedənlərdən idi. Qulaq asan tapanda avtobusla Türkiyəyə, ordan Suriyaya, ordan da İraqa getməyindən, başına gələn sərgüzəştlərdən saatlarla danışmağı sevirdi. Hər yerdə də sözü keçirdi. Sözünün kəsərli olmağının bir səbəbi də vardı. Hacı Dəsgah köhnə ticarətçilərdən idi. Vəziyyəti əvvəl də yaxşı idi, heç indi də pis deyildi. Kifayət qədər imkanlı, dövlətli kişi idi.

Axund hörmətlə hacı Dəsgaha tərəf baxdı:

– Hacı Dəsgah, hacı Baxışı heç kim kənarlaşdırmır. Hacı Xurşudun dua-sənası bir neçə dəqiqə çəkəcək, söz yenə hacı Baxışındı.

Telefon əlindən düşməyən Məşədi Qulam sosial şəbəkələrdə aktiv idi. Məscidin səhifələrini idarə edirdi, xəbərləri izləyirdi. Axundun sözünü kəsdi:

– Hacılar, biz Mayamidə baş verənlərə münasibətimizi bildirməliyik. Müsəlmanları qırırlar...

Hacı Əlvan icma sədri idi. İddialı adam idi, vəzifəyə təsadüfən gəlib çıxmışdı. Ülgüclə qırxılı yastı başı dumbula oxşayırdı. Dini təhsili yox idi, bu sahədə piyada olsa da lazım oldu, ya olmadı şəriət məsələlərinə qarışır, icma üzvlərinin gülüş yerinə çevrilirdi. Məşədi Qulamın sözünü kəsdi, narazılıqla fısıldadı:

– Heç bunun yeridi, məşədi? – dedi, sonra təklif elədi. – Axund, bəlkə mənə də söz verəsən, bir neçə dua da mən oxuyum.

Axund mülayimliklə:

– Hacı, sən çox dualar oxumusan, – dedi. – İndi icmanın təzə üzvlərinə söz vermək məsləhətdi.

Hacı Əlvan əl çəkmədi:

– Uşağı təzə ayaq-baş eləmişəm. Oğlumu deyirəm. Hamınız toyda olmusunuz. Bir neçə hacətim var. İki il ötüb, hələ də nəvə üzünə həsrətəm. Allah rizası üçün hacıların diləklərimə qoşulmasını istəyirəm.

Axund sözündən dönmədi:

– Bütün hacətlərindən hacılarımızın xəbəri var, indi növbə o biri hacılarındı. Sən tək deyilsən ki! Hamı məscidin kəramətindən bəhrələnməlidi.

Hacı Əlvan bu etinasızlıqdan incidi. Birdən yerindən qalxdı, axundun otağından çıxdı. Hacı Dəsgah ürəyiyananlıqla:

– Axund, hacı Əlvana bir-iki dəqiqəlik söz vermək olardı, – dedi.

Axund başındakı əski təsəyin üstündən başını qaşıdı, iri gözlərini bərəltdi:

– Hacı Dəsgah, hacı Əlvan adam yarıdan mömin deyil. Beləsinə iş tapşırmaq olmur! – dedi. – Əvvəllər nəzir qutularına baxırdı. Bilirsən niyə kənarlaşdırdım?

– Niyə?

– Qaydaya görə, qutular üç nəfərin iştirakı ilə açılmalıdı. O isə təkbaşına açırdı. Qınayanda da özünə əl qatırdı ki, mən heç nəyə əl vurmuram, halalıma haram qatmıram.

– Hər şeydən şübhələnmək olmaz, axı, axund! Hacı Əlvan qədim hacılarımızdandı, – deyə hacı Dəsgah inamsız halda hacı Əlvanı müdafiə elədi. – Mənimlə həcc ziyarətində yol yoldaşı olub.

Məşədi Qulam yenə telefonunda nə oxudusa sızanaqlı burnunu qırışdırdı:

– Vay-vay! Bütpərəstlər gör nə qədər müsəlman qırıb. Etirazımızı bildirməliyik...

– Hələ dayan! – deyə bayaqdan susan hacı Baxış cibindən bir varaq kağız çıxartdı, qoydu ortalığa.

Hacı Dəsgah eynəyini cibindən çıxarıb kağızı qabağına çəkdi. Kəbin kağızının surəti idi. Doldurulmuşdu, amma axundun xəttinə oxşamırdı. Hacı Baxış izah elədi:

– İcma sədri axundan xəbərsiz, onun kəbin blanklarının surətini çıxarır, xəlvəti kəbin kəsir, pul alır! Belə şey harda görünüb? Bir nəfər dünən mənə gətirib. Hacı Əlvanın əməlidi. Bəs, buna nə ad verəsən?

Hacı Dəsgahın təəccübdən çənəsi sallansa da inamsızlığı keçmədi:

– Bəlkə aravuranların işidi, hacı Əlvanın boynuna atırlar! Kişi əvvəllər bələdiyyə sədri olub, axı!

Hacı Xurşud dizinə keçirtdiyi kepkasını başına qoydu, axundun işarəsi ilə söhbətə başladı:

– Demək çirkinlikdi, amma deməsəm olmaz. Bilirsən ki, hacı Əlvan bir neçə ay mərasim zalında müdirlik eləyib. Dünən bir nəfər gəldi yanıma. Atasına il verirdi. Mərasim zalının qiymətini biləndə təəccübləndi. Soruşdu: "Qiymətləri təzə endirmisiz?" Dedim ki, yox, neçə vaxtdı elə bir qiymətlə işləyirik. Gördüm inanmır, əlavə elədim ki, biz al-ver eləmirik, qarşımıza pul qazanmağı məqsəd qoymamışıq, möminlərimizə xidmət edirik. Həmin adam dedi: "Atamın üçünü burada vermişəm, amma məndən bu pulun iki mislini alıblar". Deyirəm, ola bilməz. Dedi, hacı Əlvan ölməyib ki, gedib soruşa bilərsiz...

Hacı Dəsgah fikrə getdikdə axund dedi:

– Hacı, hacı Əlvan sən tanıyan adam deyil. Dəyişilib.

Hacı Dəsgah, nəhayət ki, inandı. Köksünü ötürüb daha hacı Əlvanı müdafiə eləmədi. Cümə namazının vaxtı çatdığından qalxdı:

– Dünyanın işlərindən baş açmaq olmur, gedək ibadətimizi edək.

Hamı yerindən tərpəndikdə məşədi Qasım telefondan oxudu:

– Gör, nə gözəl yazıb! Görəsən kimindi? – dedi. – Dünya duracaq yer deyil, ey dil, səfər eylə!

# MƏN NECƏ BÖYÜK ADAM OLMAQ İSTƏDİM

Bir müddət idi ki, bir sağalmaz azara mübtəla olmuşdum. Başbilənlərə gənəşdim, məsləhət istədim, dedilər, sənin azarının çarəsi yoxdur. Özün ovsarlıya bildin, xoşbəxt olacaqsan, yoxsa başın daşdan-daşa dəyəcək.

Allah-taala, mənə boy-buxun vermişdi, gözəllik vermişdi, ağıldan da kasad deyildim. Bunlar hamısı bihudə yerə məsrəf olurdu. Gecəni gündüzə qatasan, qiymət kitabçasında hər işarəyə görə müəllimlərlə az qala əlbəyaxa olasan, ali məktəbi qırmızı diplomla qurtarasan, gəlib layihə bürosunda cizgi çəkəsən! Böyük dərddir. Şura hökuməti dağılandan bəri, bir xoş gün görmədim. Böyük ümidlərim pərən-pərən olmuşdu. Layihə bürosunun, rəis qarışıq, vur-tut on iki əməkdaşı var idi. İş yox, güc yox, səhərdən axşama qədər ağ kağıza bir cız çəkməyəsən, adam özü-özündən xoflanırdı. Görəsən dünya belə gəlib, belə də gedəcək? O, qurban olduğum, deyəsən, xoş saatda yaratdığını lap unutmuşdu.

Nahar fasiləsində qəzetə bükülmüş kotlet-çörəyi çəkdim qabağıma, nuş eləyəndən sonra, üstündən üzbəüz oturmuş Səlimənin dəmlədiyi çaydan içdim. Bir dəli yuxu gəldi mənə. Başımı qovluqların üstünə qoydum, yatmağımla oyanmağım arasında nə qədər müddət keçdiyini demək çətin idi. Dik qalxdım ayağa, elə bil üstümə qaynar su tökmüşdülər. Bir yerdə qərar tuta bil-

mirdim. O qədər otağa girib-çıxdım ki, Səlimə dözmədi, qabağındakı güzgüdə üz-gözünü yöndəmə salmaqdan əl çəkib dedi:

– Əsgər, yumurtası tərs gəlmiş toyuq kimi nə fır-fır fırlanırsan? Macal ver, fasiləmizi dincələk də!

Özüm özümə lağ elədim:

– Fikrimi qarışdırma, Səlimə. Böyük arzularla yaşayan adamı xırda adamlar başa düşməz. Dərd məni götürüb.

O, xoş bir istehza ilə:

– Sənin nə dərdin ola bilər, ay Əsgər? – dedi. – Maşallah, kino artistlərinə oxşayırsan. Qızlar ətrafında löləy döyürlər. Oğlanlar səninlə dostluq eləməyə sinov gedirlər. Savadın, biliyin hamını valeh edir. Ağzını açanda hamı qulaq kəsilir. Zarafatın yaxşısını sən edirsən, sözün yaxşısını sən deyirsən. Gülüşün idarəmizi nurlandırır. Hamı sənə həsəd aparır. Sən də deyirsən, dərdim var.

Bunları bilirdim. Məni yandırıb-yaxan da elə bu idi. Belə mədhiyyələri hər gün eşitdiyimdən ürəyimdə axmaq-axmaq fikirlər kök salırdı. Son vaxtlar Səlimə beynimi doldururdu, qəribə-qəribə təkliflər eləyirdi.

O, iki il idi ki idarəmizdə peyda olmuşdu. Rəislə qohum idilər deyənə, işdə bir sözü iki deyildi. Allahdan küskün idi. Sər-sifətdən yarımamışdı. Amma bu mağmınlığına baxmayaraq günümü qara eləmişdi, göz verib, işıq vermirdi. Gündə bir neçə dəfə mənə eşq elan

edirdi. Az qalırdı özü özünə elçilik etsin. Deyirdi:

– Əsgər, sənsiz bir günümüz olmasın. Sənə ərə gedən qız dünyanın xoşbəxtidir. Ay Allahsız, haçan bizi də bir şad edəcəksən?

Düzü, ətrafımda elə qız-gəlinlər fırlanırdı ki, Səlimə onların əlinə su tökməyə də yaramazdı. Təəccüblü bu idi ki, özü də ayıbını bilirdi, amma usanmırdı.

Keçən il Səlimə yoxa çıxdı. Yerini deyən olmadı. Bir aydan sonra gəldi. Qızı tanımaq olmurdu. Demə, Türkiyədə plastik əməliyyat elətdirib, üzünü sahmana saldırıb. Hamı deyirdi ki, bıçaq altına sənə görə girib. O, hər addımımı izləməyindən əl çəkmirdi. Rəisimizin katibəsi gözəl Zərifə ilə təzəcə gözləşirdik. Heç alışıb-verişməyə macalımız olmamışdı. Səlimə bundan xəbər tutub, bir şivən saldı ki, hamı mat qaldı. Bir eylə camaatın içində çığırdı:

– Əsgər, mən səni Zərifəyə verməyəcəyəm. Ölsən torpağın, qalsan mənimsən. Bunu sırğa elə, qulağından as.

Həmin gün işin axırında rəisimiz məni yanına çağırdı. Mehribanlıqla yer göstərdi:

– Oğlum, bilirsən ki, sənin xətrini nə qədər istəyirəm, – dedi. – Xahiş edirəm, Səliməni incitmə. Ağlın olsun, bala, onu alsan, işlərin yağ kimi gedəcək. Atası razı, anası razı, qardaşları razı. Daha nə istəyirsən? Beş otaqlı mənzili, dədəsinin vəzifəsi, hörməti, pulu-parası hamısı sənin olacaq. Ay səfeh, maşınları cib dəsmalı kimi dəyişəcəksən. Çim yağ içində üzəcəksən.

Nəyi desən gözləyirdim, ancaq, ağsaqqal rəisimizin Səliməyə elçi düşəcəyinə inanmazdım. Söhbəti uzatmamaq üçün kəsəsinə dedim:

– Rəis, mən onu sevmirəm, özünə də demişəm. Yaxşı olar ki, bu işə qarışmayasınız.

Bu söhbətdən sonra Səlimə məndən əl çəkdi. Daha məni izləmədi. Hətta, dostlaşdıq da.

İndi yuxuda gördüklərimin təsiri altında idim. Qorxdum ki, fikrimi dəyişəm. Odur birnəfəsə dedim:

– Səlimə, mən sən deyənə razıyam.

Səlimə sevindi:

– Əla! Sənə gör, havaxtdır deyirəm, amma tərpənmirsən. Sən bir razılığını ver, qalanı ilə işin yoxdur, – dedi.

Səlimə neçə illər idi ki, məntəqə seçki komissiyalarında iştirak edirdi. Onun nadir yaddaşı, gözəl xətti var idi. Bir oxunuşa on səhifə yazını yadda saxlayırdı. Məntəqə komissiyasının sədrinə kompüter-filan lazım deyildi, bir Səlimə bəs eləyirdi. Sirlərə bələd olduğundan mənə tez-tez deyirdi:

– Elə adamlar deputatlığa namizədliyini verirlər ki, adam lap mat qalır. İşlədiyi idarəni çapıb-talayan, milyonları altına yığan, danışmağa dili, deməyə sözü olmayanlar indi vəkil olmaq istəyirlər. Daha, nə cür olacaq? Yığdığı pulu qorumaq lazımdır. Belə adamlardan xalq nə gözləsin? Sən isə fil qulağında yatmısan. Nizami Gəncəvi deyir ki, böyümək istəsən böyüklərlə durub-oturmalısan.

Hərçənd, Nizami başqa cür demişdi, amma Səlimənin sözlərində bir həqiqət var idi. Fikirləşdim ki, nə olar, olar. Tilsim qırılmalıydı.

İşçilər bir-bir nahar fasiləsindən qayıdırdı. Bizim pıçhapıçımıza mane olan yox idi. Hərə öz işində idi. Biri qəzet oxuyurdu, biri dedi-qodu ilə məşğul idi. Dəhlizdən isə aralarına mübahisə düşmüş kişilərin səsi gəlirdi. Yəqin ki, futboldan söz düşmüşdü. Burda hamı özünü bilici hesab edirdi.

– Yaxşı da, Səlimə, onda sən arvadları yığ, mən də kişiləri. Bir iclas keçirək, protokol yazaq, sonrasına baxarıq.

Camaatı bir yerə cəm eləmək elə də asan iş deyilmiş. Zalım uşağı yerindən tərpənmək istəmirdi. Mən şirnikləndirmə metoduna əl atdım. Həsənə bir qutu «Marlbora» siqareti boyun oldum, yazığın bir çətən külfəti vardı, filtrsiz siqaret çəkməkdən dişləri kömür kimi qaralmışdı, mənim subaylığıma həmişə həsəd aparardı. Deyirdi ki, Əsgər xoşbəxt adamsan, evlənib eləmə, on «şirvan»la bala saxlamaq bir kişi işi deyil. Əhlimana söz verdim ki, oğluna kirvəlik edəcəyəm. Uşaq doğulandan məni dilə tuturdu, indi oğlunun az qala yeddi yaşı vardı. Hələ də sünnət eləməmişdi. Deyirdi ki, Əsgər, razı olmasan, uşağı elə elədə saxlayacağam, qoy, günahı sənin boynunda qalsın. Səlimənin dilə tuta bilmədiyi tərs Kübranı bir kosmetika dəsti ilə həvəsə saldım. Zalım qızı, üz-gözünə o qədər yaxırdı ki, bayram tortuna oxşayırdı. Mə-

nim atmacalarım işçilərimizə ləzzət versə də, Kübraya toxunurdu. Bir dəfə məni qırağa çəkib demişdi: «Ay Əsgər, surətinlə xislətin bir-birinə tərs mütənasibdir. Sənin mənim ənlik-kirşanımla nə işin var? Dul arvadın könlünə dəyməzlər. Məhəmməd peyğəmbər əleyhissalam deyib ki, dul arvadların könlünü şad edin. Sənin dilindən isə bir xoş söz eşitmədim!» Yerində edilmiş bu tənədən bərk utandım, daha bir də Kübra xanıma dolaşmadım. Fikirləşdim ki, özü bilər, can onun, cənnət Allahın.

Səlimə, doğrudan da, işbilən imiş. Masaların birini ortaya çəkmişdi. İki daşın arasında bir qırmızı şilə tapmışdı. Masanın üstünə bir-iki şüşə su qoymuşdu. Bir sözlə, işçilərimiz vacib məsələ üçün toplaşdıqlarını anlamışdılar. Amma işin məğzindən heç kimin xəbəri yox idi. Rəis olmayanda onsuz da Səlimə onu əvəz edirdi. İşçilər onun hökmlə danışmağına alışmışdılar. Hamı intizarla bizə baxırdı. Səlimə sözü mənə verdi. Dedim:

– Qardaşlarım, bacılarım, burda özgəsi yoxdur. Deyirəm, biz kimdən əskiyik? Bizim idarədən deputatlığa namizəd yoxdur. Biz niyə geri qalaq? Şükür Allaha, kollektivimizə nə olub? Şilik, şikəstik, ya deməyə sözümüz yoxdur?

Hamı quruyub qaldı. Söz onlara çatandan sonra başladılar məzələnməyə:

– Vallah, Əsgər bizi qıracaq, ha, ha, ha!

– Ə, mən də can qalmadı, hi, hi, hi!

– Vallah, Əsgər olmasa adamın bağrı çatlayar.

– Mən elə Əsgərə görə burda işləyirəm. O, getsə bir gün də burda qalmaram, ha, ha, ha!

Mən bu atmacalara səbrlə dözdüm. Səlimə stolu qələmlə taqqıldatdı, hamının diqqətini bir yerə cəm elədi:

– Başqa bir adam yoxdursa, mən deputatlığa Əsgərin namizədliyini təklif edirəm. Bu ciddi məsələdir. Söz demək istəyən varsa, buyursun.

Layihə bürosunun ən qocaman işçisi Qurbanəli müəllim yerindən qalxmadan üzünü mənə tutdu:

– Bala, bizim sənə böyük hörmətimiz var, amma, vallah, ağlın çaşıb. Kimdir bizim seçdiyimiz adamı adam yerinə qoyan? Səni inandırım ki, bu bihudə zəhmətdir. Nə özünü incit, nə də bizi. Eşidən bilən, bizi hoydu-hoyduya qoyacaq.

Çox haqlı söz idi. Amma mən qərarımdan dönən deyildim.

– Sizin nə borcunuza qalıb? – dedim. – Siz razılığınızı verin, qalanı ilə işiniz yoxdur. Çörək istəmirəm, su istəmirəm, bir quru kağız istəyirəm.

Əhliman soruşdu:

– Rəis bu məsələyə necə baxır?

Səlimə dərhal cavab verdi:

– Rəis etiraz etmir.

Həsən yerindən dilləndi:

– Biz razı ola bilmərik, – dedi.

Mən təəccübləndim:

– Niyə, Həsən, sənə nə pisliyim keçib?

Həsən pıqqıldadı:

– Deyirəm deputat oldun, işdən çıxacaqsan. İdarəmiz sənsiz batar ki!

Qadınlardan hansısa güldü:

– Bu camaatın könlünü hərdənbir açırsan, – dedi. – Sənsiz biz neyləyərik?

Səlimə zarafatların qızışdığını görüb iclasa yekun vurdu:

– Lağlağı yeri deyil, səsə qoyuram. Kim Əsgərin deputatlığa namizədliyini dəstəkləyir?

Hamı bir nəfər kimi əlini qaldırdı. Səlimə hazır protokolu gəzdirdi, işçilərə bir-bir qol çəkdirdi. İş bitəndən sonra qızı qırağa çəkib təşvişlə soruşdum:

– Sonra neyləyəcəyik?

O, arxayınlıqla dilləndi:

– Sən narahat olma, hər şey nəzarət altındadır. Bu gün saat beşdə mədəniyyət sarayında deputatlığa namizədlərlə rayon əməkçilərinin görüşü olacaq. Vaxtında orda olmaq lazımdır. Gedək, bir azdan başlayacaq.

Özümüzü mədəniyyət sarayına çatdırdıq. Bizi heç içəri buraxmaq istəmirdilər. Dedilər ki, giriş dəvətnamə ilədir. Mən qapıda dayanan oğlanı dilə tutdum, protokolu göstərdim. Bu da ona təsir etmədi. Səlimə gülümsəyib, qapıçının qulağına nə dedisə o, kənara çəkildi, daha bizim içəri girməyimizə etiraz etmədi.

– Azz, sən ona nə dedin?

Səlimə qımışdı:

– Heç nə, – dedi. – Namizədlərin qeydiyyat nömrəsini dedim. Bilirdim mən deyənə gələcəksən. Sənin adını qabaqcadan kitaba yazmışdım.

Macal dar olmasaydı, mübahisə edəcəkdim. İndi isə yeri deyildi.

İçəridə baş qarışıq idi. Rəyasət heyətində hamının tanıdığı bir adam oturmuşdu və tribunaya qalxmadan platformasını danışırdı. O, rayonun balaca «padşahlarından» biri idi. Neçə illər Şura hökumətinə qulluq eləməyinə baxmayaraq, indi deyirdi:

– … imkanlarımız çoxdur, camaatın rifahı üçün çox iş görmək olar. Şura vaxtı bir iş görmək üçün əlli yerdən icazə almaq lazım idi... Mən sizin vəkiliniz olsam, bütün imkanlarımdan istifadə eləyib camaatın mənafeyini qoruyacağam, iş yerləri açacağam, yol çəkəcəyəm, su problemini həll edəcəyəm, qaz problemini həll edəcəyəm, işıq sarıdan isə heç narahat olmayın. Çünki o sahədə qohumlarım işləyir, ha, ha, ha!

Namizəd öz sözünə birinci özü güldü, sonra rəyasət heyəti, daha sonra toplaşanlar. İclasın sədri onunla pıçıldaşandan sonra zala müraciət elədi:

– Sualı olan varmı? – Soruşdu.

Səlimə məni dürtməklədi. Cəld ayağa qalxdım, başda oturanlar eşitsin deyə, çığırdım:

– Söz istəyirəm.

Sədrin razılığını gözləmədən irəli cumdum, tribunanı fəth elədim. Rəyasət heyətində hamı bir-birinə heyrətlə baxdı. Məni burda tanıyan tapılmadı. Sədr candərdi dilləndi:

– Deputata nə sözün var, oğlum?

Atam yerində kişinin tikanlı müraciəti mənim könlümü açmadı. Tribunanın qıraqlarından möhkəm yapışdım, yerimi rahatladım. Birdən məni burdan zorla düşürtmək fikrinə düşsələr, müqavimət göstərəcəkdim.

– Oğlum, özünü təqdim elə, görüm, hansı təşkilatdansan?

Sədrin bu xahişini dərhal yerinə yetirdim:

– Layihə bürosunun əməkdaşıyam.

Sədr salonda qabaq sırada oturmuş rəisimizə sual dolu baxışlarla baxdı. Rəis yerində qurcalandı, deyəsən hələ bir az rəngi də ağardı. Sədrə dedi:

– Bizim işçidir. Amma onu bura mən çağırmamışam, özü gəlib.

Sədr rəncidə halda əlini yellətdi:

– Cavan oğlan, sözünü de, vaxtımız yoxdur. Nə sualın var, ver, – dedi.

Mən udqundum, gözünü mənə dikmiş salonun vahiməsindən çıxmaq üçün əlimdəki protokolu yellətdim:

– Bura sual verməyə gəlməmişəm. İdarəmiz deputatlığa namizədliyimi təklif edir. Bu da protokol.

Zal bir anlığa susdu. Birdən küy qalxdı. Rəyasət heyətində oturanlar ayağa durdular. Təfərrüatı yadımda deyil. Bircə yadımda qalan bunlardır. Biri deyirdi:

– Düş aşağı, oyunbazlıq eləmə.

O biri deyirdi:

– İşiniz yoxdur, qoy, danışsın.

Bir başqası qışqırdı:

– Bu məzhəkəyə baxmağına dəyər.

Dördüncüsünün yoğun səsi hamının səsini batırdı:

– Hanı sənin vəkilin? Qoy, səni təqdim etsin.

Mən imkan tapıb çığıra-çığıra dedim:

– Vəkilim yoxdur. Özüm öz tərcümeyi-halımı danışacağam. İcazə verirsiniz?

İclasın sədri, deputatlığa namizədin cangüdəni idimi, vəkili idimi, bilmirəm, tribunaya cumdu. Mikrofonu əlimdən aldılar. Biri o qolumdan, biri bu qolumdan tutub başladılar dartışdırmağa.

– Özünü biabır eləmə, bala, keç yerində otur.

Sədrin bu sözünü beynimə yeritmək üçün bazburutlu kişi bir dürtmə ilişdirdi böyrümə:

– Oyunbazlıq edirsən, ha, amma bura yeri deyil. Nə qədər qol-qabırğan sınmayıb, düş, get! – dedi.

Salon əməlli-başlı şənləndi. Camaat deyib-gülürdü. Rəyasət heyətindəki çaxnaşma zorla bura gətirilmiş camaatın könlünü açmışdı. Ağsaqqal bir kişi ayağa durub qayım səslə dedi:

– Camaat, mən bu oğlanı tanımıram, amma bu ki bizi bir belə güldürdü, icazə verək sözünü desin. Qoy, görək nə deyir? Razısınız?

Zal razılıqla əl çaldı. Məni dartışdıran əllər boşaldı. Onlar özlərini itirmiş halda yerlərinə qayıtdılar. Sədr yerini rahatlayıb, könülsüz halda mikrofona:

– Yaxşı, qoy, siz deyən olsun, – dedi və üzünü mənə tutdu. – Buyur!

Mən rahat nəfəs alıb başladım:

– Camaat, otuz yaşım var. İşlədiyim yeri bildiniz, adım Əsgərdir. Soyadım Əsgərlidir, dədəmin adı Əsgərdir. Bir ailə rəvayətinə görə, atam əsgərlikdə olanda anadan olduğuma görə, adımı Əsgər qoyublar. Atam da atası əsgərlikdə olanda doğulduğundan ona da Əsgər adı qoyublar. Babamın adının Əsgər olmasının səbəbini bilmirəm. Amma belə deyirlər ki…

Yerdən biri xoş bir gülüşlə söz atdı:

– Əşi, babanı deputat təklif edirsən, ya özünü?

Mən dərhal dilləndim:

– Özümü, özümü, – dedim. – Amma yeddi arxa dönənimi sadalamasam, tanıtmasam necə deputat ola bilərəm? Bəlkə, nəslimizdə eləsi olub ki, camaata ziyan vurub, kiminsə malını, kiminsə pulunu yeyib, xalqa zülm eləyib? Bəlkə, babam xalq düşməni olub? Mənim namizədliyim onda keçərmi?

Zalın kefi açılmışdı:

– Keçməz, – dedilər.

– Keçsə də, uzağa getməz.

– Əşi, danış, amma qısa elə.

Fürsətdən istifadə eləyib birnəfəsə yeddi arxa dönənimi adbaad sadaladım. Zal gurultu ilə əl çaldı. Biri yerindən həyəcanla qalxdı:

– Afərin, qardaş, sən nümunə götürülməli adamsan.

Zal yenə əl çaldı. Mən özümü suda balıq kimi hiss edirdim. Böyük ruhla davam etdim:

– On yeddi yaşımda orta, iyirmi iki yaşımda ali məktəbi bitirmişəm. Oxuyanda müəllimlərlə, işləyəndə rəislərlə cəngi-cidalda olmuşam. Bu da mənim tərcümeyi-halım. Əgər deputat olsam, yenə dinc oturmayacağam. Sizin arzularınız uğrunda mübarizə edəcəyəm. Heç kimin pulunu yeməyəcəyəm, malına tamah salmayacağam, villa tikdirməyəcəyəm.

Zalın uğultusu səsimi batırdı.

– Qoy, Əsgər bala deputat olsun.

– Əşi, pul istəmirsən, mal istəmirsən, villa istəmirsən, deputatlığı neyləyirsən?

Deputatlığa namizəd hirslə nəsə dedi. İclasın sədri dərhal mikrofona qışqırdı:

– Ona qulaq asmayın, bu avantüristdir. Bilə-bilə şuluqluq salır. Çox yaxşı bilir ki, ondan deputat çıxmaz. Yuxarıların razılığı ilə deputat Məmişov olmalıdır. Bu saldat oğlu saldatdan sizə deputat olar?

Zal tələbkarlıqla uğuldadı:

– Niyə olmur?

– Deputatın buynuzu olur?

– Səbəbini göstər.

İclasın sədri yanındakına nəsə dedi. Həmin adam qaça-qaça səhnədən çıxdı. Sədr əlini qaldırıb zala təmkinlə dedi:

– Çox səbəbləri var. Birinci, bu adam namizəd kimi qeydə alınmayıb, ikinci, hələ uşaqdır, uşaqdan vəkil çıxmaz, üçüncü…

Elə sədr üçüncü deyəndə işıqlar söndü. Qaranlığa qərq olmuş zala çaxnaşma düşdü. Tribunadan düşmək istəyirdim ki, iki tərəfdən məni qamarladılar. Çabalamağıma baxmayaraq, onların əlindən çıxa bilmədim. «Buraxın məni…» – demək istəyirdim ki, arxadan bir kök qapaz saldılar başıma. Ağrıdan nəfəsim kəsildi. Sürüyə-sürüyə məni apardılar. İşığa çıxanda gördüm ki, mədəniyyət sarayının arxasındayıq. Bura tünlük idi. Bir ins-cins yox idi ki, harayçılıq eləsin. Mənə bir-iki yumruq çəkəndən sonra, deputatlığa namizədin pəzəvəng «vəkili» dedi:

– Bir də yolumuzun üstünə çıxsan, qabırğalarını sındıracağam, qurumsaq! Sənə neçə dəfə deyərlər, düş aşağı. Camaat pul xərcləyir, maya qoyur, deputat olmaq istəyir, sən isə təlxək kimi düşmüsən ortaya. Səni bura göndərənlərə deyərsən ki, səndən ağıllısını tapsınlar. Sənin kimilər Məmişova mane ola bilməyəcək. İtil burdan.

Dalımdan vurulan təpikdən üzü üstə gölməçəyə yıxıldım. Onlar hırıldaşa-hırıldaşa içəri girdilər, qapını bağladılar.

Elə bir gündə idim ki, Səlimənin qəflətən peyda olması heç məni təəccübləndirmədi.

İməkləyə-iməkləyə gölməçədən çıxdım. Bir qurbağa vaqqıltı ilə ayağımın altından suya hoppandı. Səlimə bədxah bir gülüşlə söz atdı:

– Hə, Əsgər bala, deyəsən, qurbağalara rəfiq olmusan?

– Ay Səlimə, başıma bu işləri niyə açdın?

– Qisasımı alıram da, Əsgər bala. Bir sözümü iki eləyən hələ olmayıb. Sən isə hamının yanında məni xəcalətli etdin. Bu da əvəzi.

Mənim deməyə sözüm yox idi. Söz deməyə heç halım da yox idi. Böyüklük azarı kimi pis azar yoxdur. Allah hamını ondan qorusun. Amin!

## USTA İBİŞİN MƏMİŞ DOSTU

*«Zırrama» hekayəsinin müəllifini yada salaq*

Axır vaxtlar İbişin çəkməçi köşkünə bir nəfər də ayaq açmışdı. Özü də elə-belə gəlməmişdi, zorən girmişdi. Heç belə şey görünməmişdi, adama gəlib desinlər ki, mən səninlə dostluq eləyəcəm. Bu adamın başqa qəribəlikləri də sonra üzə çıxdı.

Qəzetdə işləyən Əliqulu İbişlə lap qədimdən tanış idi. Get-gəlləri var idi. Son illər lap dostlaşmışdılar. İbişin söhbətləri çox adamı valeh edirdi. Bir az ədəbiyyatdan,

bir az siyasətdən, bir az dünyanın övzayından xəbərdar idi. Eşitdiklərini, gördüklərini elə məharətlə nəql edərdi ki, adam özünü o hadisələrin iştirakçısı sanardı. Şəhərdə olan zəlzələnin təsvirindən sonra Əliqulu ona dedi:

– Ay usta, bir özünü yazıçılıqda sına. Bunları qələmə alsan, aləm hekayə çıxar.

Çəkməçi İbiş çəkici zərblə mıxa vurub ayaqqabını qəlibdən çıxartdı, səliqə ilə rəfə qoydu. Mülayim bir istehza ilə:

– Rəhmətliyin oğlu, yazan azdır, bəyəm? Mən də əlimə qələm alsam ölkənin halı yaxşımı olacaq? – dedi. – Sən yazırsan da, mövzunu bağışlayıram sənə, halal-xoşun olsun.

Əliqulu ürəkdən güldü:

– Yox, usta, gərək, özümlə diktofon gəzdirim. Sənin danışdıqlarını olduğu kimi yazım. Yoxsa, heç nə çıxmaz. Sən onu bir də danış, nə təhər olub?

Əliquludan savayı, bir nəfər də onun söhbətlərinin müştağı idi. Bu, şəhərdə çoxdan kök salmış bir ərəb idi, adı da Hidan. İki gündən bir əlində bir-iki şüşə pivə ilə gəlirdi. Küncdəki oturacaqda qərar tutar, asta-asta pivəsini içər, usta İbişə həmsöhbət olardı.

İndi usta İbiş söhbətə dinməz-söyləməz qulaq asan ərəbə söz atdı:

– Adə, ərəb qardaş, müsəlman hara, pivə hara? Elə hey lüm-lüm udursan ha. Bəs, bilmirsən ki, şəriətdə içmək haramdır?

Ərəb söz altında qalmadı:

– Məşədinin dükanından almışam, – dedi. – O, qurumsaq satmasın, mən də içməyim.

Usta İbiş onun səlis ibarələrinə valeh oldu:

– Ay gözünə dönüm, nə dedin, – dedi və yadına düşmüşkən soruşdu. – Bəs, eşitmişəm vətənə dönmək istəyirsən?

Ərəb ağ dişlərini göstərdi:

– İstəyirdim, fikrimi dəyişdim, – dedi. – Bura yaxşıdır. On beş ildir yaşayıram, üzüm üzünüzə alışıb.

Usta İbiş başladı məzələnməyə:

– Nədir, div qurbağaya vurulan kimi sən də bizim ölkəyə vurulmusan? Ya Vətənində pivə tapılmır?

Ərəb qıvrım başını sığallayıb, boynuna aldı:

– Keçən yay getmişdim vətənə. Atam buraxmırdı, amma bir-iki gündən sonra elə darıxdım ki, izinsiz qayıtdım. Burda yaxşı işim, pul qazanmağa imkanlarım, yaxşı dolanışığım var. Pivə də ki, öz yerində.

Əliqulu bir də xahiş etdi:

– Sən canın, o zəlzələ söhbətini bir də elə, qoy, dostumuz də eşitsin.

Söhbətin əvvəlini eşitməmiş ərəb maraqlandı:

– Usta, nə söhbətdir ki?

Usta İbiş işini görə-görə, özünü naza qoymadan söhbətə başladı. Onsuz da vaxt çox idi. Hələ nə qədər sifarişi yerinə yetirməliydi.

– İş belə oldu. Heç biriniz həmin günü gəlməmişdiniz. Ərəb bağa getmişdi, səni də işdən harasa göndərmişdilər. Köşkü tez bağladım. Saat on radələrində evə çatdım. Qapının üstündə tabaşirlə şəkil çəkilmişdi. Bu, qonşunun qırışmallarının işi idi. Hər gün qapımı bu cür bəzəyirlər. Mən də dəsmalı çıxardıb tabaşir yazısını sildim, qoydum cibimə, öz açarımla qapını açıb girdim içəri. Arvad məni görüb çay-çörək tədarükü ilə məşğul oldu. Oğlum dəhlizdə telefonla danışırdı. Mən birbaş hamam otağına girdim. Üstümdən rəng iyi gəlirdi. Bir vedrə hazır, ilıq suyu tez-bazar üstümə tökdüm. Qurulanıb ev paltarını geyindim. Allahdan gizli deyil, sizdən nə gizlədim, mən evdə qısa idman tumanında gəzirəm. Əlbəttə, bu geyimdə bayıra çıxmaq ayıbdır. Amma evdə olar. Televizorun qabağındakı kürsüdə yerimi rahatladım, elə təzəcə çay fincanını əlimə almışdım ki, kürsü dəbərdi. Elə bildim altımda pişik qalıb. Sizə demişəm, axı, bir dənə lap adam dili bilən pişiyimiz var. Bir də görürsən, yorğan-döşəyə girir. Adam onu nagah tapdalamaqdan qorxur. Bir-iki dəfə çığırtısını çıxartmışam. Yorğun adamam, yatanda ölü kimi düşürəm. İndi də elə bildim ki, pişik altımda qalıb. Gördüm çilçıraq da gedir-gəlir, televizor tumbası da hərəkət eləyir. İldırım kimi beynimdən keçdi: Zəlzələdir. Özümü dəhlizə atdım, mətbəxdən çıxan arvadın qolundan tutdum, telefonla danışan oğlumu qoltuğuma vurdum. Qapıdan nə cür çıxdığımı bilmirəm. Pilləkənlərin üstündə oğlum çı-

ğırdı ki, dədə, mən uşaq deyiləm, burax, özüm düşüm. Bina titrəyirdi. İki mərtəbəni aşağı düşənə qədər məndə can qalmadı. Həyətə tökülüşmüş camaat həyəcanlı idi. Biri uşağını axtarırdı, biri arvadını axtarırdı, biri ərini axtarırdı. Aləm qarışmışdı bir-birinə. Ürəyi getmiş bir gəlini yerdən qaldıran yox idi. Elə yaxın getmək istəyirdim ki, arvadım arxadan qışqırdı: «Ay kişi, qısa tumanda çıxmısan?» Üstümə baxdım, o qədər utandım ki, qaça-qaça zəlzələdən hələ də titrəyən binaya girdim. İndicə qorxub, qaçdığım binaya! Can şirin şeydir, axı, yuxarı qalxıb, şalvarımı geyinməyə qorxurdum, bayıra çıxmağa da utanırdım...

Bu söhbət əsnasında köşkün qabağında bir xarici maşın dayandı. Usta maşının modelini təyin eləyə bilmədi. Qapılar səssiz açıldı. Bir nəfər yekəpər kişi maşından düşdü. Əlindəki bağlamanı yellədə-yellədə köşkün qapısını kəsdirdi. Üçü də maraqla qarnı özündən irəlidə gələn kişiyə baxdı. O, arxayın-arxayın salamlaşıb bağlını ustanın qabağına qoydu:

– Usta İbiş, bunları təmir edərsənmi? – Soruşdu.

Usta İbiş hər işi səliqə ilə görürdü. Dilinə görə dilçəyi də vardı. Sahmana saldığı köhnə-külə ayaqqabılar, müştərinin canını bir müddət ayaqqabı almaqdan xilas edirdi. Yamağı, tikişi çox səliqə ilə qoyurdu. Buna görə də yaxından, uzaqdan sorağını eşidən adamlar onun yanına gəlirdi. Müştərisi əskik deyildi. İşə yarımayan ayaqqabı gətirən müştərinin, bəzi çəkməçilər kimi, könlünə dəy-

mirdi. Şirin dillə yola salırdı. İndi də bağlını açıb bir cüt başmağın ora-burasına baxdı. Bunların hay-hayı gedib, vay-vayı qalmışdı. Usta İbiş başını buladı:

– Qardaş, bundan bir şey çıxmaz. Təmir etməyinə edərəm, amma bir günə, para günə, yenə açılacaq. Havayı işdir.

Çoxu çəkməçi İbişin məsləhətlərinə dayanardı. Amma yekəpər kişi onun dediyini qəbul eləmədi, qımışıb yekə-yekə dedi:

– Ay usta, sənin nə borcuna. Sən yamağını vur, pulunu al. Açılacaq, açılmayacaq, özüm bilərəm.

Usta İbişi söz tutdu, amma müştərini acılamadı:

– Qardaş, mən hər pulu yeyənə oxşayıram? – dedi. – Mənim elə zəhmətimdən çox, sənin puluna hayfım gəlir.

Köntöy müştəri üzə durdu:

– Puluma belə heyfin gəlirsə, neynək, pulsuz elə.

Usta İbiş dilinin bəlasına düşmüşdü. Amma sözündən geri çəkilmədi:

– Pulsuz deyirsən, pulsuz edərəm, – dedi. – Sabah gəlib götürərsən.

Köşkün qabağında usta İbiş bir kətil qoymuşdu, üstünə də hazır malları yığardı. Yekəpər kişi kətili altına çəkib oturdu:

– Usta, bu vacib sifarişdir, – dedi. – İki qat, üç qat, dörd qat qiymətə də olsa, gərək, başqa işləri qırağa qoyub, məni tez yola salasan. Sabahı gözləyə bilmərəm, ayaqyalın qalmışam…

Usta İbiş udqundu, deyəsən, mərəkə axtaran müştərinin ayağına baxdı. Onun ayaqqabıları timsah dərisindən idi, par-par parıldayırdı. Usta mal tanıyan idi. Onların qiymətini yaxşı bilirdi. Nəsə demək istəyən Əliquluya işarə etdi ki, dinməsin. İynəsini, bizini əlinə alıb, dinməz işə başladı. Müştərinin gözünün qabağında ayaqqabıları təmir etdi, uzatdı ona. Müştəri cibindən pul çıxardanda çəkməçi dedi:

– Yox, qardaş, pul götürməyəcəyəm. İş danışıqdan keçər. Mən bu işə pul ala bilmərəm.

Yekəpər kişi inadla:

– Əşi, pulunu götür, – dedi. – İş görmüsən, haqqını al.

İbiş mülayim halda dedi:

– Gəl, belə eləyək. Apar bu ayaqqabıları, gey, ayağında bir ay dözsə, gətirib zəhmət haqqımı verərsən. Dözmədi, heç nə lazım deyil, öz zəhmətimi sənə halal edirəm.

Usta İbişin bu əliaçıqlığından sonra yekəpər kişinin davakar çöhrəsi dəyişildi. Xoş bir təbəssümlə:

– Afərin, usta, – dedi. – Elə deyilmişcən varsan. Deyirdilər, inanmırdım. Demə, tərifə layiq bir kişi imişsən. Səninlə biz dost olacağıq. O başmaqları da at, getsin. Onlar mənim işimə yarıyan deyil. Elə-belə səni sınayırdım. Mənim adım Məmməddir. Dost arası mənə Məmiş desən, incimərəm.

Usta İbiş səhər yeddidən iş başında olardı. Ətəkləri topuğuna qədər sallanan meşin döşlüyünü əyninə çəkib, köşkün ətrafını süpürüb ağacları sulayardı. İçərinin təmizliyinə bir alayı cür baxardı. Köşkə girən onun səliqəsinə mat qalardı. Qazandığı çörəyi şükranlıqla yeyərdi. Bu kiçik çəkməçi köşkünə yanğın söndürən də gəlirdi, siçan-pişik həkimi də gəlirdi. Hələ mən ticarət departamentini demirəm, hələ mən bələdiyyəni demirəm, daha kimlər gəlmirdi. Ayın axırına kimi o qədər adam onun qazandığı «şirvan»lara şərik çıxırdı ki, hərdən, özü də bu qədər pulun onun əlinə gəlib-getməsinə heyrət edirdi. Usta hər cür adam görmüşdü, amma birinci dəfə idi ki, beləsinə rast gəlirdi. Bu orijinal təklif ərəbin də çox xoşuna gəldi:

– Biz dedik, sən davaya gəlmisən, – dedi.

Əliqulu bir az şübhə ilə gülümsədi:

– Əgər, siz dost olsanız, bu tarixi dostluq olacaq.

O gündən Məmiş köşkə ayaq açdı. Hökm eləməyə alışdığından, Əliqulu ilə ərəbə arabir buyururdu. Harda işlədiyi məlum deyildi. Amma yaxşı qazandığı göz önündə idi. Hərdənbir aylarla yoxa çıxırdı. Sorağını verən olmurdu. Amma hər gəlişində dostlarını yığıb restorana aparırdı. Usta İbiş onun çəkdiyi xərcə heç cür razı olmasa da, o bildiyini edirdi. Heç kimi əlini cibinə atmağa qoymazdı:

– Əşi, sizin qazancınız qəpik-quruşdur. Əliqulu gözünü dikib redaktorun əlinə, cibində də həmişə siçanlar

oynaşır. Ərəb Hidan da ki ölkəmizin qonağıdır, onun pul xərcləməyinə heç cür razı olmaram. Usta, qaldın bir sən, bir də mən. De görüm, bu gün nə qazanmısan? Sənin çaldığın hər mıxa bu gün nə qədər pul veriblər?

Usta İbiş onun ifadəsinin konkretliyinə güldü:

– Dostum Məmiş, hər çaldığım mıxa pul versəydilər indi köşkümün divarları da qızıldan idi. Rəhmətliyin oğlu, müştəridən təmir olunan ayaqqabının haqqını ala bilmirəm, nəyi qoyub, nə axtarırsan? Hamısı nisyədir. Ya çatar, ya batar.

Məmiş əlini onun kürəyinə vurdu:

– Ay yaşa, usta, – dedi. – Elə buna görə də hesabı mən verməliyəm.

Hələ bu nə idi. Məmiş ad gününü keçirdəndə, lap fontan elədi. Onları dəniz qırağına dəvət etdi. Subasarda süfrə açdı. İki nəfər kababçı manqal qurub bişirir-düşürür, onlara qulluq eləyirdi. Ləpələr qonaqların yalın ayaqlarını oxşayırdı. Yemək masası suda qurulmuşdu. Təzə balığın kababından doymaq olmurdu. Dostlar özlərini göyün yeddinci qatında hiss edirdilər. Məmməd içib-dəmlənmiş Əliqulunu qucaqladı:

– Ay bifər yazıçı, işlər necədir? – Soruşdu.

Əliqulu içkidən sonra yağ kimi əriyirdi. Dərdləri açıldı:

– İş nədir, dostum, acından günorta dururam. Pul yox, uşaqlar böyük, ehtiyacdan göz açmıram.

Məmiş ona ürək-dirək verdi:

– Qardaşın ölüb bəyəm? Haçan, nə lazımdır qulluğunda hazıram.

– Sağ ol, ay Məmiş, – deyə Əliqulu dua-səna elədi. – Allah səni bizə çox görməsin. Hərdənbir könlümüzü açırsan.

Məmiş qürrələndi:

– Hələ bu nədir, – dedi. – Mən dostluqda möhkəm adamam. Məxsusi sənin üçün qəzet açacağam, səni də baş redaktor qoyacağam. Bacararsan?

Əliqulunun gözünə işıq gəldi:

– Bacararsan da sözdür, lap canını alaram. İyirmi ildir ki, qələm çalıram. Gəl, onu da bacarmayım, – dedi.

Məmiş sağlıq demədən, bir qədəh araq içib:

– Lap yaxşı, – dedi.

Əliqulu hövsələsiz halda:

– Bu xeyir işi haçan görürsən? – Soruşdu.

Məmiş inamla:

– Darıxma, lap bu yaxınlarda, – dedi və onların söhbətinə qulaq asan usta İbişə tərəf çevrildi. – Usta, sənin köşkünü böyütsək necə olar? Yanında bir mağaza da tikək. Sən qorxma, sərəncamını özüm alaram. Mənim əlim böyüklərin ətəyindədir. Onların yanında bir sözüm iki deyil. Hə, necə baxırsan buna?

Usta İbiş hallansa da, dərrakəsi üstündə idi. Məmişin təklifinə mülayim cavab verdi:

– O cındır köşkə heç nə yaraşmaz, özünü incitmə. Mən mağaza-filan işlədə bilmərəm. Əlilliyimə görə bir

köşk yeri veriblər, Allah ölənlərini rəhmət eləsin. Verməsəydilər neyləyərdim?

– Sən müharibə əlili deyilsən? – Məmiş soruşdu. Usta başını tərpətdikdə, Məmiş qayım səslə dedi: – Usta, əfəl olma, yenə nəsə qoparda bilərsən. Bəsdir, hər şeyi pulnan satdılar. Bir ərizə yaz, ver mənə, şəhərin başçısına çatdırım. Sabah onunla görüşüm var.

Usta İbiş onun könlünə dəyməmək üçün yalançı bir razılıqla başını tərpətdi. Badə arxasında deyilmiş heç bir sözə inamı yox idi.

Bir müddət idi ki, Məmiş görünmürdü. Usta İbiş Məmişin kiçik qızını köşkün qabağından keçən gördü. Soruşdu:

– Bala, Məmiş hardadır?

Uşaq elə Məmiş kimi yekə-yekə:

– Mənim atam Məmiş deyil, Məmməddir. Həm də sənin tay-tuşun deyil, – dedi və ustanın yağdan, rəngdən qaralmış əllərinə istehza ilə baxdı, keçib getdi.

Usta uşağın bu cavabına heyrət etdi.

Əliqulu bir dəfə üçlükdə olanda dedi:

– Əşi, bu Məmiş yəqin, pul kəsəndir. Onun cibindən əsginas əskik olmur, gəlsə idi bir gedib başımızı açardıq, bir doyunca vurardıq.

Usta İbiş gülümsədi:

– Zalım, yaman sirr saxlayandır, işlədiyi yeri bizdən gizlədir, – dedi. – Hələ, adını da dost deyir.

Ərəb həmişə əlinin altında olan pivədən bir qurtum aldı, başını buladı:

– Ay usta, sənin heç nədən xəbərin yoxdur. Sən elə bilirsən, o səninlə dost olmaq üçün bura gəlib?

İkisi də təəccübləndi. Usta soruşdu:

– Bə, niyə gəlmişdi ki?

Ərəb əlini yellətdi:

– O, bura mənimlə tanış olmağa gəlmişdi, – dedi. – Mənim biznesim onu maraqlandırırdı.

Usta İbişlə Əliqulu heç vaxt ərəb Hidanın nə işlə məşğul olduğunu soruşmazdılar. O da işindən-gücündən söhbət eləməzdi. Usta İbiş maraqlandı:

– Sənin biznesin nə böyük şeydir ki, Məmiş kimi bir varlı-hallı adam onunla maraqlansın?

Ərəb onun sualını qulaq ardına vurdu, sözünü davam etdi:

– O günü Məmiş yanıma gəlmişdi. Dedi ki, məni özünə şərik götürsən, xeyli pul qazanarasan. Soruşdum ki, necə? Dedi ki, bütün vəzifəli adamlar mənim tanışımdır. Sifariş ala bilərəm, kredit götürə bilərəm. Bundan həm sən qazanarsan, həm də mən…

– Bəs, sən nə dedin? – Əliqulu heyrətlə soruşdu. – Razı oldun?

Ərəb əyri-əyri güldü:

– Axmağam bəyəm? Məmiş heç kimdir. Buyruq quludur. Özünü dartmağına baxma. Usta İbişin biznesi onun gördüyü işdən daha böyük işdir. Həm də öz kanallarımla yoxlamışam, onu işdən çıxardıblar.

Usta İbiş soruşdu:

– Bilmədin nə üstə?

– Nə üstə olacaq? Yəqin, şirkətin sahibinə atıb. Görmürdün, neçə vaxtdır pulu sola-sağa xərcləyirdi? Ev təmir elətdirir, maşın alır, timsah dərisindən ayaqqabı geyinir. Daha nələr eləmirdi.

Əliqulu onun sözünə qüvvət verdi:

– Lap elədir ki, – dedi. – Zalım, savadlı adamlar kimi, cibində qızıl Parker qələm gəzdirirdi.

Onun bu qeydi hamını güldürdü. Doğrudan da, Məmiş çox bisavad adam idi. Puldan başqa onu heç nə maraqlandırmırdı. Usta İbiş fikrə getdi, yuxarı qaldırdığı çəkic havada asılı qaldı. Əliqulu şübhə ilə soruşdu:

– Usta, deyəsən, sən dostlarından nəsə gizlədirsən?

Usta İbiş utana-utana dedi:

– Allahdan gizli deyil, sizdən nə gizlədim. Demək istəmirdim, indi söz düşüb, deyirəm. Məmiş bir-iki ay bundan qabaq məndən pul istədi. Dedi ki, bankdan pul çıxara bilmirəm, yüz «şirvan» mənə borc ver, bir-iki günə qaytaracağam. Zalım, elə bil əli ilə qoymuşdu. Qırtıb-qırtıb dala bir yüz «şirvan» atmışdım. Basaratım bağlandı, gətirib verdim ona. İndi üstündən üç ay keçib, Məmiş də neçə vaxtdır gözə dəymir. Fikir məni götürüb.

Əliqulu məkrli bir şadlıqla:

– Batdı sənin pulların, usta. Deyəsən, bir də üzünü görməyəcəksən, – dedi.

Bu yerdə ərəb ürəkdən güldü:

– Usta İbiş, çox da özünə dərd eləmə, – dedi. – O nə puldur ki? Dostumuz Məmiş məndən beş yüz «şirvan» borc götürüb. Neçə vaxtdır mən də onu axtarıram. Ordan-burdan iyləyib-çüyləmişəm, demə çox adama atıb. Daha sizə demirdim ki, elə bilərsiz qeybət qırıram. Dostluqda bu yaxşı şey deyil.

Bir neçə ay keçdi, Məmişdən bir xəbər çıxmadı. Bir gün eşitdilər ki, Məmiş evini satıb, köçüb gedib. Əliqulu demişkən, bu tarixi dostluq belə bitdi.

## YAMAQ

Satirik yazıçı Həşim Güllü və şair Zahid Yolçu qəlyanaltıdan qol-boyun çıxanda onlardan yüngül spirt iyi gəlirdi. Şairin dərəcəsi bir az artıq düşdüyündən dil boğaza qoymurdu:

– …dostum, bir belə rəzil personaj hardandır sənin üçün? Bir belə yaltağı, bir belə kütü, nacinsi hardan tapırsan? Səncə ədəbiyyat budur? Boşla canım, sənin yazdığın həyat niyə olur? Olsa, olsa həyata bir yamaqdır… Ədəbiyyat insanı saflığa, igidliyə səsləməlidir…

Həşim Güllü şairin alov çıxan yekə ağzına istehza ilə baxdı. Nəsə deyəcəkdi ki, yoldan ötən bir kişi onu qamarladı:

– Xoş gördük, Həşim müəllim! Köhnə dostlarını yad eləmirsən daha! Şöhrətə çatdın, bizi unutdun! – dedi.

Onu sıxcalayan bu şaqqalı kişinin qucağından zorla çıxan Həşim Güllü ufultu ilə deyindi:

– Şəmi, Allah evini tiksin, məndə qol-qabırğa qoymadın ki! Beş-on manat tapıb maya qoymuşdum üstümə, haram elədin…, – dedi və şairə tərəf çevrildi. – Şəmilə bir yerdə işləmişik. Keçən il ədəbi gecəyə getdiyimiz zavod yadındadır da?

Şəmi şairə danışmağa macal vermədi:

– Həşim müəllim, düz bir ildir bizim tərəflərə gəlmirsən, bizi unutmusan. Söz vermişdin: – «Şəmi, sənin haqqında hekayə yazacağam, səni məşhur edəcəyəm». Hanı, bəs? Gözümüzün kökü saraldı ki.

Şəmi hündürboy, yaraşıqlı bir kişi idi. Aktyor Rasim Balayevə oxşayırdı. Hazır kino-modeldi, batıb gedirdi. Zahid Yolçu Şəmini yada sala bilmədi, amma ürək yanğısı ilə dedi:

– Şəmi qardaş, özünə yazığın gəlsin! Sən bu Həşim müəllimdən uzaq qaç! O, sənin haqqında yazsa, dost-aşnanı demirəm, heç doğma anan da səni kandardan içəri qoymayacaq…

Şəmi inadla dedi:

– Nə yazsa, mənə xoşdur! Təki yazı olsun!

Həşim Güllü bu sədaqətdən riqqətə gəldi:

– Sağ ol, Şəmi, sağ ol! Amma, şair vallah, düz deyir! – dedi. – Bir də qəzetə-kitaba düşmək nəyinə gərəkdir.

Şəmi hırıldadı:

– Qardaş, anası ölmüş Şəmi adam deyil? Qəzetlər məndən başqa hamıdan yazır... Qohum-qardaşını dağ başına çıxaran kim, rəislərini pir edən kim… Sən Şəmidən bir-iki yazı yaz, gör, analar necə oğul doğub… Ümüd yerim sənsən, Həşim müəllim!

Şəminin mühakimələri Həşimi heyrətləndirdi:

– Yaxşı dedin, dostum, amma başa düş, mənimki satiradır, yumordur. Bu tövr yazılar sənin işinə yarımaz. Gəl, sən bundan vaz keç!

Şəmi yoldan ötənlərə fikir vermədən öküz kimi böyürdü:

– Qəbulumdur, Həşim müəllim, qəbulumdur. Mən…, – dedi və birdən sözünü yarımçıq qoydu, qarşıdan gələn bir kişinin üstünə cumdu, yüz ilin həsrətlisi kimi onu qucaqladı. – Ay səni xoş gördük, İlham müəllim! Kef-hal? Evdə-eşikdə? Can-baş? O günü oğlunuzla rastlaşdıq. Maşallah, yekə kişi olub. Boyda-buxunda lap sizə oxşayır… İlham müəllim, qardaşına bir gün ağlayaydın da! Lap əldən düşmüşəm…

Kişi təbəssümlə əlini Şəminin kürəyinə vurdu, sonra onu yolundan kənarlaşdırdı, gedə-gedə dedi:

– Gələn həftə yanıma gələrsən! Yoluna qoyarıq… – və tələsmədən aralandı.

Şəmi üzündə xoşbəxt bir təbəssümlə, həmsöhbətlərinə tərəf döndü:

– Bizim köhnə şöbə rəisidir… Bah, yaman həşəratdır. Bir vaxtlar məni gözümçıxdıya salmışdı! Deyirdi, şöbə-

dən getməlisən. Getdim yanına, yalvardım-yaxardım, sözündən dönmədi ki dönmədi. Adam saldırdım üstünə, razı olmadı. Məni işdən çıxartdı. Sonralar aramız düzəldi…

Şair lağla:

– Elə bildik yüz ilin dostusunuz! – dedi və başını buladı. – Sənə pislik edənlə belə mehribanlıq?! Ay, səni, Şəmi…

Şəmi gözünü döydü:

– Pislik deyəndə ki, şöbə rəisi ya İlham müəllim olmalı idi, ya da mən. Başladım ona badalaq vurmağa. Bir-iki yerdə nalını qoydum oda, amma hərifə bata bilmədim. O da vəzifəyə keçən kimi dalımdan dəydi. Bu gün-sabah direktorumuz olacaq. Lap səhih yerdən xəbər tutmuşam. Kişinin karlı dayısı var da! Məni də bir çörəkli yerə dürtsəydi, işim olardı çim yağ…

Üçü də susdu. Şəmi gələcək direktorunun keçdiyi tərəfə baxdı, birdən tələsdi:

– Daha məni bağışlayın, işim var, – dedi. – Həşim müəllim, sən Allah, mənim haqqımda təsirli bir şey yaz! Vallah, xəcalətindən çıxacağam…

Şəminin adamlara qarışmağı ilə gözdən itməyi bir oldu.

Həşim Güllü gülə-gülə şairi qucaqladı:

– İndi buna nə deyirsən, dostum…? Bu əhvalat da həyat deyil? Deyirsən, Şəmini igidliyə səsləməklə igid olacaq? Yox, dostum, həyat elə yamaq içindədir. Sən

də ilham pərisinin qanadlarından yerə ensən, gözünü yaxşı-yaxşı silsən, bu ala-bəzək, rəngbərəng yamaqları görərsən…

Ya qəlyanaltının havası keçmişdi, ya payızın soyuğu təsir etmişdi, məlum deyildi, amma içəndən-içənə ürəyi açılan şairdən daha səs çıxmadı.

## ŞURA HƏSRƏTİ

Kiçik baqqal dükanının şəriksiz sahibi İsminin ah-naləsi satıcı Gülnisəni mat qoydu. Müfəttişi yola salandan küncdəki dəftərxana dəftəri boyda masanın dalında büzüşüb oturmuş müdir çal başını qaldırmadan deyirdi:

– ... hanı Şura hökuməti? Hanı cəmi əlsiz-ayaqsızların pasibanı? Oturub indi mühəndisliyimi edirdim, maaşımı alırdım, üç balamı bəy balası kimi dolandırırdım… Axx! Günümə bax! Haçan canımız bu bəladan qurtulacaq, Allah! Axx! Allahın var günü, on dörd saat ayaq döyəsən, yükləyəsən, boşaldasan, alasan, satasan…, pul cibinə girməmiş, qapıdan girən hər qoltuğu papkalı dılğır, tuta əlindən ala! Belə də dərd olar…?!

Dükan tikiləndən İsmi kişi ilə işləyən Gülnisə arvad onu belə təbdən çıxan görməmişdi. Bu yarıyaş, astagəl kişi səbirli idi. Sovet ticarətində bişmiş Gülnisə üçün belə xırda dükanda işləmək çətin deyildi. Alver o vaxt-

lar da başıqapazlı idi. Amma, indi, gedib-gələnlərin sayı üzü-üzlər görmüş Gülnisəni də vahiməyə salırdı. İsminin halına ürəyi yandı, vəsməli qaşları çatıldı, çəkinə-çəkinə dedi:

– İsmi qardaş, dünya malıdır da, özünü üzmə, dözümlü ol! Allah yetirər, yenə qazanarsan…

Özünə gəlmiş İsmi kədərlə gülümsədi:

– Bacı, məndən dözümlü adam çətin tapılar! Amma, daha dözə bilmirəm. Bu on iki metrə yeri mənə satanın qolu qələm olaydı! Sağ verməyəydi! Alver yox, pul yox, istəyən çox! Gələn deyir: «Ver!» Ayı bağlamaq olmur… Elektrik gələcək, yanğınsöndürən gələcək, həkim gələcək, üç növbə polis gələcək… Axx! Bilmədik Şura hökumətinin qədrini, bilmədik… Fuu! Bacı, bu toz hardan gəlir?

Gülnisə arvad qapıdan boylandı:

– Ədil kişidir, – dedi. – Boynu sınmışın küçə süpürməyinə bax da! Düz bir saat bizi toza tutacaq. Çox tərs adamdır. Söz eşitmir, harda dükan görür, zir-zibili aparır kürüyür qabağına. Onun da umacağı var.

İsmi inamsız güldü:

– Deyəsən, başın xarab olur, axı! – dedi. – Süpürgəçinin məndən nə umacağı?

Gülnisənin cavabını gözləmədən bayıra çıxdı, süpürgəçiyə müraciət etdi:

– Ağsaqqal, belə küçə süpürməzlər… Öhö! Öhö!

Ədil kişi çalğını şövqlə yellədirdi. Səsə çevrildi, asqıran İsmiyə qart səslə güldü:

– Qadan alım, bəs, necə süpürərlər?

İsmi hövsələ ilə:

– Tozu deyirəm, – dedi. – Aləmi başına götürdü.

Süpürgəçi bir də şaqqıltı ilə güldü:

– Süpürməyin təzə üsulu tapılıb, deyirsən? – Soruşdu. – Verim çalğını əlinə, toz qaldırmadan süpürməyi öyrət mənə!

İsminin əsəbləri gərildi:

– Nə höcət adamsan! – dedi. – Ya adam kimi işini gör, ya da çıx get…

Ədil kişi ona çəp-çəp baxdı. Sarı rəngli döşlüyünün cibindən bir siqaret çıxardıb odladı. Tüstünü İsmiyə tərəf üfürdü:

– Sən get on iki kvadratlıq dükanında hökm elə! – dedi. – Elə ki küçəni özəlləşdirdin, onda mənə əmr edə bilərsən.

İsmi bu çəlimsiz kişinin dilavərliyindən çaşdı:

– A kişi, demaqoqluq eləmə.

Ədil kişi boynunu bükdü:

– Qadan alım, nə edim, ehtiyac məcbur edir.

İsmi qeyzlə:

– İndi sənin ehtiyacına görə biz məhv olmalıyıq? – Soruşdu.

Ədil kişi burnunu çəkdi:

– Allah eləməsin, – dedi. – Mən vəzifəmi yerinə yetirirəm. Qırağa dur, üst-başın batar.

İsmi bir addım qabağa atdı, onun qolundan tutdu:

– Qardaş,…

Ədil kişini elə bil ilan sancdı, geri sıçradı, hirslə dedi:

– Toxunma, mənə! Sənin kimi istismarçıdan mənə qardaş olmaz. Mən bir fəhlə babayam, itirəcək bir şeyim yox! Deyirlər: «Zibil daşı». Daşıyıram. Deyirlər: «Get, küçəni süpür». Süpürürəm. Rəis bu küçəni mənə həvalə edib. Deyib: «Ədil kişi, küçənin eni də, uzunu da sənin ixtiyarındadır. Maaş yoxdur, get, dolan». Belə baxanda, mən hökumət qulluqçusuyam. Daha sənin kimi istismarçı deyiləm. Olaydı indi Şura hökuməti, göstərərdim sənə. Salardım səni də, dükanını da çalğının qabağını… Bax, bax belə! Bax, bax belə!

Özündən çıxmış süpürgəçi məşhur əmək alətini ildırım kimi işlədirdi. Toz burum-burum göyə dikəlirdi. Döyükə-döyükə qalmış İsmini Gülnisə kənara çəkdi:

– İsmi qardaş, Ədil kişiyə həftədə iki «məmməd» verməsən, hər gün bu hoqqanı çıxardacaq. Səndən başqa hamı verir.

İsmi təəccüblə:

– Ona da pul? – Soruşdu.

Gülnisə başını tərpətdi:

– Əşi, verdiklərinin müqabilində iki «məmməd» nə puldur, ay İsmi qardaş? Vay-vay, toz malları kor qoydu… – dedi və süpürgəçiyə acıqlandı. – Ədil kişi, əl saxla görüm.

Ədil kişi dərhal dayandı, üzünü o yana tutub bir siqaret də odladı. İsmi ah çəkdi:

– Bacı, deyəsən, dünyanın axırıdır, axı, – dedi. – Bir süpürgəçi qalmışdı dükandan haqq aparmasın… Ay Şura hökuməti…

Gülnisə arvad ürəkdən güldü:

– Ədil kişi, elə arzuladığın Şura hökumətinin nümayəndəsidir. Heç şikayətlənmə. Haa! Haa!

İsmini bu istehza tərk-silah elədi və o, əlini cibinə atdı.

Bir azdan Ədil kişinin dua-sənası göylərə ucalırdı. İçəri keçmiş İsminin dalınca deyirdi:

– Allah bu dükanı sənə çox görməsin, qardaş! Allah ruzini əskik etməsin, qardaş! Allah başından töksün, qardaş! Allah səni mərdimazardan qorusun!…

## VAXTSIZ QONAQ

Çox hörmətli ədib Əliş Əlişoğlu gecə yarısı döyülmüş qapıya ehtiyatla çıxdı. «Görəsən, bu çağırılmamış qonaq kimdir?» – deyə fikirləşdi. Şələ bığlarının tükləri gərildi. Amma dostu şair Nəsir Neyi görüb xofu keçdi. Ağzını açmaq istəyirdi ki, çağırılmamış qonaq barmağını dodaqlarına apardı, salamsız-kəlamsız, pıçıltı ilə:

– Evdə kim var? – Soruşdu.

Əlişoğlu onun əyilmiş şumal üzünə nəzər saldı, eyni pıçıltı ilə dedi:

– Özümüzünkülərdir.

Nəsir Ney astadan mızıldandı:

– Əyninə bir şey gey, düş aşağı. Heç kimə də gəlişimi demə. Bağda səni gözləyirəm, – dedi və cavab gözləmədən pişik kimi səssiz addımlarla aşağı düşdü.

Əlişoğlu matı-qutu qurumuş halda içəri girdi, arvadının sorğu-sualına cavab vermədən, idman gödəkçəsini əyninə keçirdib, "işim var" deyib, evdən çıxdı.

Nəsir Ney bir il idi ki, görünmürdü. Axırıncı dəfə təzə çıxmış kitabı ilə gəlmişdi. Üstünü yazıb Əlişoğluna bağışlamışdı. Hələ zarafat da elədi: «Bu kitabı başının üstündən as, sənə uğur gətirəcək». Əlişoğlu şaqqıldayıb güldü, Nəsir Ney qızğın halda: «Gülmə, dostum, həqiqi sözümdür. Gör, qaqaşın nələr yaradıb» – dedi. Əlişoğlu bir də şaqqıldayanda Nəsir Ney özündən çıxmışdı: «Sən millətə şəbədə qoşmağı tərgit, dostum. Lağlağıdan ədəbiyyat çıxmaz». Əlişoğlu ciddiləşdi, onu təbrik etdi, söz verdi ki, kitab haqqında öz qeydlərini qəzetlərin birində dərc etdirəcək.

Amma sözünə xilaf çıxmışdı. Düzü, şeirlər onu açmamışdı. Nəsir Ney, bəlkə elə bu səbəbdən tez-tez gəldiyi evdən ayağını çəkmişdi.

Çoxmərtəbəli binaların arasındakı bağçada ins-cins yox idi. Nəsir Ney də gözə dəymirdi. Əlişoğlu boylana-boylana qaldı. Payız gecəsinin sərinliyi hadisənin va-

himəsi ilə canına doldu. Qəflətən onu qamarlayıb ağacların altına çəkdilər. Əlişoğlunun az qala, ürəyi düşsün. Bu, onun dostu Ney idi. Əlişoğlunun dili, bir ara söz tutmadı, haçandan-haçana astadan:

– Ay Allah evini tiksin, sən məni çildaqlıq elədin ki! – dedi. – Bu nə həngamədir çıxardırsan?

Nəsir kötüyün üstündə yerini rahatlayıb:

– Daha arxayın danışa bilərsən, – dedi. – Ətrafı yoxlamışam, bizi izləyən yoxdur.

Əlişoğlu qorxu qarışıq bir qeyzlə çımxırdı:

– Gicdəmə, ay dost, biz kimə lazımıq ki, bizi güdsünlər! – dedi. – Bəyəm, iş adamıyıq, ya siyasətçiyik? Yazıçı babayıq, bizi arayıb-axtaran kimdir ki?

Nəsir onun vahiməyə düşməyindən ləzzət aldı:

– Səni bilmirəm, məni xeyli müddətdir izləyirlər, – dedi. – İndi sənə bir sirr açacağam, amma, söz gərək, aramızda qalsın.

Əlişoğlu acıqdan bığlarını didişdirdi:

– Ay rəhmətliyin oğlu, sözünü telefonla deyəydin də, nə düşmüşdü gecənin bu vaxtı məni isti evimdən eləmisən? Bu soyuqda bağda nə işimiz?

Nəsir ah çəksə də, amma gizli bir qürurla dedi:

– Mümkün deyil. Mənim telefonuma qulaq asırlar. Sənə zəng eləsəm, sənin telefonunu da nəzarətə götürəcəklər.

Əlişoğlu heyrətlə:

– Hardan bildin ki, qulaq asırlar?

Nəsir Ney gərnəşdi:

– Uzun söhbətdir. Bircə onu deyə bilərəm ki, mən dəstəyi əlimə alan kimi, xəttə bir çıqqıltı eşidilir, elə bil nəsə qoşulur. Hətta bir dəfə biri o birinə deyirdi ki: “Bu dılğır haçan dinc oturacaq”.

– Neyləmisən, axı, sən?

– Özüm də bilmirəm, – Nəsir Ney çiyinlərini çəkdi. – Deyirəm, bəlkə, kitabıma görədir.

Əlişoğlu istehza ilə:

– Kiri, – dedi. – On beş varaqlıq bir şeir kitabı nəmənədir ki, ona görə adamı güdsünlər? İnanmıram.

Şair birdən hirsləndi:

– İnanmırsan? – dedi. – Bəs, məni niyə işdən çıxardıblar?

– Haçan səni işdən çıxardıblar?

– Üç-dörd ay olar.

– Bəs, gəlib deyəydin də. Səni ora mən calaşdırmışam. Yenə kömək edərdim.

Nəsir Ney tərəddüdlə:

– Nə bilim, – dedi. – Fikirləşdim ki, yəqin, səhv ediblər, təzədən qaytaracaqlar yerimə. Amma qaytarmadılar. İndi bekar gəzirəm.

Əlişoğlu diqqətlə ona baxdı:

– Elə səbəbsiz-filansız çıxartdılar? – Soruşdu.

Nəsir Ney nagüman halda:

– Hamısı kitabdan sonra başladı, – dedi.

Əlişoğlu yenə istehza ilə:

– Dostum, ay toxuyursan özündən ha? – dedi. – Sənin kitabında nə görüblər, axı?

Şair inadla təkrar etdi:

– Bilmirəm, – dedi. – Bəlkə, kitabı əlimdən almaq istəyirlər.

Əlişoğlunun kefi kökəldi, gülməkdən qarnını tutdu:

– Ay sənin canın yansın, – dedi. – Gecənin bu vaxtı gülməkdən öldürdün ki məni.

Nəsir Ney kədərlə dedi:

– Mənimsə gülməyə halım yoxdur, dostum. İki ay olar, arvadımı da işdən çıxardıblar.

Küçə lampalarının zəif işığı çılpaq budaqların arasından Nəsirin üzünə düşmüşdü. Onun mükəddər görkəmi Əlişoğlunu çaşdırdı. Çəkinə-çəkinə dilləndi:

– Nə danışırsan? Səkkiz "şirvan"lıq maaşa baxan müəllimәni işdən çıxardarlar? Ola bilməz.

– İndi ki çıxardıblar.

– Elə səbəbsiz-filansız?

– Direktor on beş il təcrübəsi olan müəllimәyə deyib ki, sən ixtisasını zəif bilirsən.

Əlişoğlunun qıçları yer tutmadı. Ağacın altındakı daşın üstünə çökdü. Heyrətlə:

– Nə danışırsan? – dedi. – Onu da sənin kitabına görə çıxardıblar?

Nəsir Ney onu eşitmirmiş kimi, eyni kədərlə dedi:

– İndi növbə uşaqlarımındır. Böyüyünün üç kəsiri var. Sabah dördüncü imtahandır, bundan da kəsilsə, ali məktəbdən qovulacaq.

Əlişoğlu heyrətlə:

– Əşi, o ki orta məktəbdə də əlaçı idi, ali məktəbdə də yaxşı oxuyurdu. İndi birdən-birə nə oldu?

Nəsir Ney:

– Qardaş, bilmirəm, – dedi. – Deyiblər, dədənə yazmağı tərgidəcəyik.

Əlişoğlu onun kitabını oxumuşdu. Yaddaşına güc elədi, amma orda elə bir şey yox idi ki, ona görə adamı asıb-kəssinlər. Həyəcanlı olduğundan açıq danışdı:

– Vallah, mən sənin şeirlərini canımı dişimə tutub oxumuşam, orda bir cinayət tərkibi yoxdu, axı?

Nəsir Ney gülməli hekayələri ilə tanınan Əlişoğlunun sözündən incimədi. Bilirdi ki, onun müasir poeziya ilə arası yoxdur, aşıq şeirlərinin həvəskarıdır. Saatlarla əzbər deyərdi. Nəsir Ney soyuqdan büzüşdü:

– Sənə elə gəlir, – dedi. – Bu həngamədən məlum olur ki, mənim kitabım çox dəyərli kitabdır.

Əlişoğlu onunla mübahisə eləmədi. Soyuq onu da tutmuşdu. Ayağa durdu:

– Yaxşı, dağılışaq evimizə. Sabah bir şey fikirləşərik. Soyuq kələyimi kəsdi, – dedi.

Nəsir Ney yerindən tərpənmədi.

– Evə gedə bilmərəm. Binamızın o tinində də bir maşın dayanıb, bu tinində də. Məni gözləyirlər.

Əlişoğlu şübhə ilə:

– Qulaq as, dostum, sən nəyisə gizlədirsən. Nə hoqqa çıxartmısan ki, səninlə belə rəftar edirlər? İzləyirlər, gü-

dürlər, işdən çıxardırlar… Deyirsən, bunlar hamısı kitaba görədir?

– Başqa nə ola bilər? Məni tanımırsan? – Nəsir Ney ondan incidi. – Adam öldürməmişəm, bir kişinin toyuğuna "kiş" deməmişəm. Müxalifətdə deyiləm. Qəzetdə işləmirəm, jurnalda çalışmıram. Kəsbkarlığımı edirdim.

– İndi nə təhər olsun? Küçədə qalacaqsan? – Əlişoğlu təəccübləndi.

Nəsir Ney ağlar səslə dedi:

– Əlacım nədir? Getsəm, tutub soxarlar qoduqluğa. Türmədən yaman qorxuram, qardaş. Deyirlər, orda adamın başına oyun açırlar.

Əlişoğlu canına dolmuş qorxudan özü də bezikdi. Onun qolundan tutub dedi:

– Gedəcəyik bizə. Mən dostumu çöldə qoya bilmərəm.

Nəsir Ney ayağını dirədi:

– Olmaz, başına bəla açacaqsan.

Əlişoğlu inadla:

– Sənin işin deyil, – dedi. – Gecəni səhər edək, sabah bir nəfər var, ona deyərəm. O, hər şeyi sahmana salacaq.

Nəsir Ney inamsız halda:

– O, adam kimdir? – Soruşdu. – Harda işləyir?

Əlişoğlu güldü:

– Sənin nə borcun, harda işləyir, – dedi və barmağını qaldırdı. – Yeri yaxşıdır. Elə bir şey yoxdur ki, onun xəbəri olmasın.

Əlişoğlu Nəsir Neyi yarıxoş, yarızor çəkib özü ilə evə apardı. Evin xanımı oyaq idi, uşaqlar yatmışdı. Əlişoğlu şairi mətbəxə itələdi, arvadına dedi:

– Buna bir isti çay ver, xörək qızdır. Yazıq əldən gedir. Mən bir zəng eləyim.

Nəsir Ney daha müqavimət göstərmədi. Ayağını soyunmadan mətbəxə keçdi, evin xanımı həmişə deyib-gülən şairin halına mat qalmışdı:

– Bu nə gündür düşmüsən, ay Vəliqulu qardaş?

Nəsir Ney Vəliqulu Vəliquluyevin şairlik təxəllüsü idi. Öz əsl adından zəhləsi gedirdi. Həmişə valideynlərinin dalınca deyinirdi ki, rəhmətliklər, bir fərli ad tapıb qoya bilməyiblər, bu adla hara çıxmaq olar? Adamı hoydu-hoyduya götürürlər. Şeirlərini təxəllüslə dərc elətdirirdi. Nəsir Ney öz otağına keçən Əlişoğlunun dalınca ümidlə baxıb ev sahibəsinə cavab verdi:

– Hə, bacı, işim xarabdır.

– Uşaqlar necədir? Cəmilə bacı səni gecənin bu vaxtı niyə bayıra buraxıb? Sən ki onsuz bir addım atan deyilsən.

– Danışmalı deyil, bacı. Gözümə arvad-uşaq görünmür. Başım qaldadır.

Nəsir Ney çay içə-içə, başına gələnləri ordan-burdan danışdı. Evin xanımı qulaq asdıqca, hər dəfə dizinə vurub vaysılanırdı. Axşamdan qalan dolmanı az qala gözünə təpən Nəsir Neyə yazığı gəldi. Əlişoğludan bir xə-

bər çıxmadı. Nəsir Ney narahat halda tikəsini yarımçıq qoydu:

– Bacı, kişi hara yoxa çıxdı?

Əlişoğlu mətbəxin qapısında göründü:

– Ə, burdayam, qorxma, – dedi.

İntizarla ona baxan Nəsir Neyin halına ürəkdən güldü. Şair uğunub gedən Əlişoğluya qorxa-qorxa baxdı. Ev sahibi özünü daha saxlaya bilmədi:

– Ay fərsiz şair, sənin ünvanın necədir?

Nəsir Ney çaşqın halda:

– Guya bilmirsən? – dedi. – Sülh küçəsi, 1 v, mənzil 100. Neyləyirsən, məktub yazacaqsan?

Əlişoğlu gözünün yaşını silə-silə:

– Vəliqulusan ki Vəliqulu! Bilirsən, sənin başına nə iş gəlib? – dedi. – Demə, Sülh küçəsi 1 b, mənzil 100-də də bir Vəliqulu yaşayır.

– Mən adda bir adam da var? Heç inanmazdım. Doğru deyirsən?

Əlişoğlu əlini yuxarı qaldırdı:

– Ən qəribəsi odur ki, soyadı da elə sənin soyadındır. Adaşın bir xarici şirkətdə çalışır. Deyəsən, dinc oturmur. Nəysə, uzun sözün qısası, iqtisadi çapqınla məşğuldur. Onun dalınca düşüblər, amma ünvanı səhv salıblar. Səninlə heç kimin işi yoxdur. Yaşa özünçün.

Nəsir Ney dərindən nəfəs aldı. Tez soruşdu:

– İşimə qaytaracaqlar?

– Əlbəttə.

– Arvadı da işə bərpa edəcəklər?

Əlişoğlu kəmhövsələ halda dedi:

– Əlbəttə. Başa düş, səhv olub. Kimin ağlına gələrdi ki, Vəliqulu Vəliquluyev adında bir adam səninlə bir küçədə, qonşu evdə yaşayacaq. Zəng elədiyim adam çox pərt oldu. Dedi ki, şairdən üzr istə, qoy şeirlərini yazsın.

Nəsir Ney güdülmədiyini biləndən sonra rəngi üstünə gəldi. Amma içində bir boşluq duydu. Əlişoğlu onun halına lağ elədi.

– Sənə deyirdim, axı, ay dost, biz heç kimə lazım deyilik. Bizim fərsiz yazılarımıza görə, bizə güdükçü qoymazlar.

Evin xanımı təbəssümünü gizlətmək üçün üzünü yana tutdu. Çağırılmamış qonaq başını aşağı saldı.

## QOHUMLARIN ƏSİRİ

Əliməmməd özü yetimçilik çəkdiyindən çox arzulayırdı ki, ailəsi qohum-əqrəbalı olsun. Arzusuna da çatdı. Amma, uzun illərin təcrübəsindən əldə etdiyi nəticə ürək oxşayan deyildi. Demə, kişinin bəxti arvad aldığı tərəfin köksüzlüyündə imiş. Amma, bunu anlayanda gec idi, iş işdən keçmişdi. Nə böyük dərd imiş, Allah, bir sürü qaynın, bir sürü bacanağın ola. Hər biri də gözünü dikə sənin əlinə!

Əliməmməd hərdən baş götürüb bu şəhərdən ilim-ilim itmək istəyirdi, amma üzüyumşaqlığından tərpənə bilmirdi. Üç qaynının, dörd bacanağının əlindən hara qaçacaqdır ki? O üz ki onlarda vardı, lap qəbirə də girsə, gəlib tapacaqlar.

Nə qədər ki, yetimin bir əli, bir başı idi, onu sayan yox idi. Qulağı eşidə-eşidə qeybətini qırır, lağ edir, şəbədə qoşurdular:

– Deyirəm, Gülzar kimi qız, gör, kimə qismət oldu. Bir yetim hoqqara! Dağılasan, dünya!

Gülzar isə ərindən çox razı idi. Əqrəba arasında heç vaxt onu ayağa verməzdi. Xoşxasiyyətdi deyənə, atmaca atana gülə-gülə deyərdi:

– Çox da göynən getməyin, bir gün bu yetimin əlinə baxacaqsınız.

Əliməmməd Şura hökuməti dağılandan sonra, özünü tutmuşdu, alverdə əli gətirmişdi. Axır vaxtlar isə əməlli-başlı qazanırdı. Bədxərc olmadığından, Allah-taala başından tökürdü. Amma, bir əmma vardı ki, pul cibinə girməmiş qohumlardan birinin başına bir qəziyyə gəlirdi. O da ehtiyacı ilə Əliməmmədin qapısını kəsdirirdi. İndi ona lağ eləmirdilər, yetim demirdilər, «Əliməmməd qədeş, kömək elə» – deyirdilər.

Evlənməyinin iyirmi ili tamam olanda Əliməmməd papağını qoydu qabağına, götür-qoy elədi, özünə söz verdi ki, daha qazandığını ailəsinə xərcləyəcək. «İyirmi

ildir qohumlarıma uzunqulaqlıq edirəm. Daha bəsdir! – Fikirləşdi. – Bunlar məni minməkdən yorulmadılar».

O, gündüz evdə tapılmadığından qohumlar qapını axşamlar döyürdülər. Dincliyi yox idi. Kiçik bacanağını yola salıb, ev paltarını təzə geyinmişdi. Deyinə-deyinə kürsüdə qərar tutmuşdu:

– Zalım balası, iki gündən bir qaça-qaça gəlir ki, bəs, borc ver. Elə bil, xəzinə üstə oturmuşam. "İmkanım yoxdur!" – sözünə də inanmırlar. Elə deyirlər, ver!

Gülzar onun deyintisinə gülümsədi:

– Əşi, əsəblərinə hayfın gəlmir? Vermə, qurtardı getdi. Nə özündən çıxırsan? Guya, birinci dəfədir, – dedi.

Əliməmməd bir hovur dincəlmişdi ki, qapı döyüldü. Gələn kiçik qaynı idi, Əliməmmədin ürəyi düşdü. Üzüyola bacanağı birtəhər əliboş yola salmışdı. Kiçik qaynı isə qır-saqqız idi. İstədiyini almasa, əl çəkən deyildi. Əliməmməd onunla təmənləşəndən sonra mətbəxə qışqırdı:

– Ay qız, gəl, gör kim gəlib, – dedi. – Yeməyi bol elə.

Arvadı sevincək gəldi, qardaşı ilə görüşdü. Kiçik qayın ayağını soyuna-soyuna elə dəhlizdəcə:

– Qədeş, elə bir işə düşmüşəm ki, heç bir qurtum su da boğazımdan keçmir. Allah zəmanənin üzünü qara eləsin, səni əziyyətə salmaqdan özüm də bezikmişəm. Amma səndən başqa bir ümid yerim yoxdur.

Əliməmməd proloqdan bildi ki, işlər şuluqdur. Dərindən ah çəkdi. Onlar qonaq otağına keçəndə arvadı

mətbəxə tələsdi. Bilirdi ki, qardaşı yeyib-içmək xəstəsidir. Doyunca yeməsə, süfrədən durmayacaq.

Əliməmməd mehribanlıq edirdi. Köhnə havalar qaynının başında olduğundan yekə-yekə danışırdı:

– Qohum, başıma bir iş gəlib. Lap müsibətdir.

Əliməmməd qızının gətirdiyi çayı onun qabağına səliqə ilə qoydu, amma dinmədi. Qaynı bir də təkrarladı:

– Vallah, mənimki heç gətirmir. Hara əl atıram, qənbərqulu çıxır.

Əliməmməd yenə dinmədi. Qənddanı qabağa çəkdi. Qaynı onun susqunluğundan bir az duruxdu. Fikirli-fikirli fincanı götürüb bir qurtuma boşaltdı. Əliməmməd onun duruxmağından istifadə etdi:

– Qohum, bu istilər mənə od qoydu, hələ də özümə gələ bilmirəm, – dedi. – Amma, deyəsən, yavaş-yavaş sərinlər düşür.

Kiçik qaynı ərköyünlüklə çımxırdı:

– Qədeş, ağzımı boza verirsən ha! Mənim başıma iş gəlib, heç soruşmursan. Başlamısan isti-soyuqdan danışmağa.

Əliməmməd istehza ilə güldü:

– Qohum, sənin başına iş gəlməyinə biz alışmışıq. Burda təəccüblü nə var ki?

– Əşi, əvvəlkilər indikinin yanında toya getməli idi. İndiki lap yamanındandı.

Kiçik qayın bir də təkrar edəndə Əliməmməd bozardı:

– Allah evini tiksin, ancaq bəd xəbərlə gəlirsən, bir xoş gününü görmədik, – dedi.

Əliməmmədin tikanlı danışığı kiçik qaynını ayıltdı. Qapıda dayanıb söhbətə qulaq asan bacısının qırımından bildi ki, vəziyyət dəyişilib. Onun pısı yatdı. Bildi ki, hökmlü danışmaq vaxtları daha keçib. İndi gərək pişim-pişimlə danışasan. Valı dəyişdi, yalvara-yalvara dedi:

– Qohum, qohum-qohuma nə gündə lazım olur. Gəlmişəm yanına, əl yetirəsən, sən isə ağzımdan vurursan.

Əliməmməd onun yalvarışından yumşaldı. Səbrlə soruşdu:

– Söhbət elə görüm, nə işdir?

– Bu gün evin divarlarını sökmüşəm, təzədən tikmək istəyirəm. Bu yandan da mənim üçün iş çıxıb, dam çökdü. Sütunlar dözmədi. Əlimdə olanı xərclədim, pulum qurtarıb. Bir az əlborcu versən, işimi qurtararam. Soyuqlar başlasa mən neyləyərəm?

Əliməmməd heyrətləndi:

– Evi niyə sökürdün ki? Zəlzələ olub?

– Əşi, yox. Arvad dedi ki, uşaqlar böyüyüb, evi genişləndir. Mən də sökdüm.

– Bəs, pulun yoxdursa, niyə evi sökürdün? Qaça-qaç deyil ki! Sənin uşaqların hələ birinci sinifə gedir. Üç otaq bəs eləmirdi?

Kiçik qayın sırtıq-sırtıq dedi:

– Özün üç baş ailənlə beş otaqlı mənzildə yaşayırsan. Mən dörd uşaqla üç otaqda qalım?

Əliməmməd ona qəribə nəzərlə baxdı:

– Olmaz ki, ayağını yorğanına görə uzadasan? – dedi. – Qohum, kəsbkarlığını elə. Sən pulluların yerişini niyə yeriyirsən?

Qaynı indiyə qədər belə müqavimət görməmişdi. Əliməmmədə şübhə ilə baxdı.

– Qohum, içib eləməmisən ki? – dedi. – Qəribə danışırsan e! Əvvəllər ağzımı açan kimi əlini cibinə atırdın, indi adamın üzünə qayıdırsan…

Əliməmməd güldü:

– O vaxtlar keçdi. İndi hərə öz hesabına yaşayacaq. Qohum da olsaq, cibimiz ayrıdır.

Kiçik qayın bu sözdən sonra bacısının açdığı süfrəyə həsrətlə baxıb soruşdu:

– Bacı, ərin nə deyir?

Bacısı Əliməmmədə qahmar çıxdı:

– Amma dediyi ağla batandır, qardaş. Evi sökməmiş adam bir cibinə gənəşər. Nə düşmüşdü sənə, çöldə qalmamışdın ki?

Bu söz kiçik qayını necə tutdusa, dik qalxdı, ayaqqabılarını ayağına qaşıqsız çəkdi, xudahafizləşmədən qapıdan çıxdı. Arxasıyca örtülən dəmir qapının zərbindən doqquzmərtəbəli bina titrədi. Əliməmməd arvadından soruşdu:

– Görəsən, o, bu qapını bir də açacaq?

Arvadı gülümsədi:

– Hikkəsinə baxma, əlindən bir şey gələn deyil, – dedi. – İki gündən sonra mum kimi yumşalıb gələcək. Pirimin kəramətini bilirəm.

Əliməmməd onu xəbərdar elədi:

– Bax ha, inciyib eləmə, nə cür danışmışıq elə də eləyirəm.

Bu işdən sonra qohum arasında xəbər yayıldı ki, Əliməmməd daha heç kimə kömək eləmir. Gələnin bircə kəlməsi ilə əlini cibinə atan kişi, yüz səksən dərəcə dəyişmişdi. Amma qohumlar da az aşın duzu deyildilər. Pul çəkməyin yeni üsullarını axtarıb, axtarıb və tapırdılar. Əliməmmədin əlinə axan puldan kim tamahını çəkə bilərdi? Onlar belə südlü inəyin təpiyinə dözməyə hazır idilər.

Kiçik bacanaq heç bir həftə keçməmişdi ki, qapını döydü. Xoş-beşdən sonra Əliməmməd soruşdu:

– Ay bacanaq, yenə nə olub?

Bacanaq:

– İlişmişəm, qədeş, – dedi. – Bu dəfə həqiqətən başıma iş gəlib.

Əliməmməd güldü:

– Kişinin başına iş gələr də, – dedi. – Daha, qaşqabağını niyə tökmüsən?

Bacanaq əlini boğazına apardı:

– Mən ölüm, zarafat yeri deyil, – dedi. – Əliməmməd qədeş, işim polisdədi.

Əliməmməd qohumların felinə alışdığından yenə güldü:

– Neyləmisən ki? – dedi. – Ay canı yanmış, yenə kimin evini talamısan, başını yarmısan?

Boyu metrə yarım olan kiçik bacanaq sual kimi əyilmiş, zəif bir kişi idi. Nə ev yarana, nə adam vurana oxşayırdı. Həmişə üst-başında yağ ləkəsi olurdu. Sənəti maşınların yağını dəyişmək idi. İşi çirkli də olsa, pis qazanmırdı, ailəsinin dolanacağını çıxarırdı.

Kiçik bacanaq Əliməmmədin gülüşündən pisiksə də dilləndi:

– İş belə oldu. Bir nəfər beş kanistr maşın yağı gətirdi. Dedi, satıram. Qiymətini soruşdum, elə bir qiymət dedi ki, su ondan baha idi. Tamah elədim, götürdüm. Demə, bu bədbəxt, neft mədənində kompressorlara baxan imiş, yağ da oğurluq. Pulunu verib götürdüm. Onun dalınca da polislər gəldi və məni qapazlayıb apardılar bölməyə. Çox danışıqdan sonra, yazıqları gəlib möhlət verdilər. Ya gərək onların dediyi pulu aparım verim, ya da işi sənədləşdirib verəcəklər məhkəməyə.

Əliməmməd pul adı gələndə bomba kimi partladı:

– Ə, sizin başınızda ağıl yoxdur? – dedi. – Bir iş görəndə axırını niyə fikirləşmirsiniz? Keçən il belə şeylərin üstündə polisə düşmədin? Düşdün! Gəlib səni ordan çıxartmadım? Çıxartdım! Demədim ki, bu axırıncı dəfə olsun? Dedim! Sən yenə bildiyini eləyirsən?

Kiçik bacanaq burnunu çəkdi:

– Qədeş, bu, axırıncı dəfədir, – dedi. – Daha, bir də elə qələt eləmərəm. Sən Allah, kömək elə.

Əliməmməd başını buladı:

– Yox, sənin kimilərini ancaq barmaqlıq ağıllandıracaq, – dedi. – Məni bu işə qatma. Oğurluq mal satmısan, get, cavabını ver.

Kiçik bacanaq suyu süzülə-süzülə getdi. Əliməmməd bir neçə gün narahatlıq keçirtdi. Bilmədi düzgün hərəkət eləyib, ya yox. Sonra başı qarışdı, bacanaq yaddan çıxdı. Elə bu arada xəbər gəldi ki, böyük baldızı yaman haldadır. Gülzar başılovlu ora getdi. İşdən qayıdan Əliməmməd arvadının yolunu çox gözlədi. Axırda deyinə-deyinə geyindi, gecə ilə maşını qoşub baldızıgilə getdi. İçəri girəndə, üzü qapıya qoyulmuş çarpayıdan baldızı inilti ilə dedi:

– Anamın əziz damadı, hardasan, daha ölüm ayağındayam. Gəl, halallaşaq.

Əliməmmədin ürəyi düşdü:

– Elə demə, bacı, səni istəməyənlər ölsün, – dedi və üzünü əli qoynunda dayanmış böyük bacanağına tutdu. – Arvadı niyə öldürürsən? Hanı həkim? Hanı onun dava-dərmanı?

Bacanağı qəmli-qəmli dedi:

– Həkim çağırmışam, indicə getdi. Dedi ki, dava-dərmanlıq deyil, təcili kəsilməlidi. Yoxsa, arvad əldən gedəcək.

Əliməmməd hirslə:

– Bəs, nəyi gözləyirsən? Apar, elətdir də, – dedi.

Böyük bacanaq mızıldandı:

– Aparmışdım da! – dedi. – Həkimlər yığıldı, biri dedi, bu qədər verəcəksən, o biri dedi, bu qədər verəcəksən, tibb bacısı dedi, bu qədər verəcəksən. Gördüm, gücüm çatan iş deyil, qaytardım evə. Ölər, qoy, evdə ölsün.

Əliməmməd telefona əl atıb təcili yardıma zəng etdi. Üzünü inildəyən baldızına tutdu:

– Darıxma, indi hər şeyi həll edərəm. Qoymaram öləsən.

Otaq canlandı. Ah-nalə kəsildi. Əliməmməd bir dəstə «şirvan» çıxardıb qoydu xəstənin başının altına. Bacanağına dedi:

– Bəs eləməsə, deyərsən.

Bir gündən sonra məlum oldu ki, əməliyyata ehtiyac yoxdur. Baldızının mədəsindəki ağrılara səbəb yediyi duzlu badımcan şorabası imiş. Əliməmməd evə qayıtmış xəstəyə baş çəkdi. Baldızı dua-səna ilə onu qarşıladı:

– Allah ömrünü uzun eləsin, Əliməmməd. Sən həmişə bizə ata əvəzi olmusan, qardaş əvəzi olmusan. Sənsiz biz neyləyərdik? Səni neynim deyən görməyim. Həmişə Allah başından töksün.

Əliməmməd çox oturmadı. Baldızından arxayınlaşıb qalxdı, bacanağına ürək-dirək verdi:

– Mənim baldızıma yaxşı bax. Yoxsa, o dünyada qayınanamız yaxamdan yapışacaq. Çünki, öləndə qızları mənə tapşırıb.

Bacanağı başını tərpətdi, əyri-əyri gülümsədi, göy gözlərini yerə dikdi.

Əliməmməd yol boyu bu əyri gülüşü götür-qoy elədi. Bir nəticəyə gələ bilmədi. Evdə arvadı onu işdən hali edəndə, əlini dizinə vurdu:

– Pah atonnan, belə də fırıldaq olar? Gör, başlarını nəyə işlədirlər. Səhnə qururlar, oyun çıxardırlar, əməlli-başlı ssenari yazırlar. Nə var, nə var maşın alacaqlar. Mənim daha sözüm yoxdur.

Arvadı şaqqıldayıb güldü:

– Bə nə bilmisən? O göygöz haramzada az aşın duzu deyil. Bacımı yoldan çıxardan odur, yoxsa, saya bir qızdır, o nə bilir ki, ssenari nədir, tamaşa nədir.

– Bəs, bunu bilirdinsə, mənə niyə demirdin?

– Hardan, a kişi, mən də sənin kimi aldanmışam da. Elə bilirdim ki, bacım doğrudan xəstədir.

Əliməmməd söz verdi:

– Bundan sonra görsəm, lap tir-tap uzanıb ölürlər, yenə də inanmaram. Qoy, bu mənə dərs olsun.

Bu, doğrudan da, ona dərs oldu. Bir müddət, xırda-para bəhanələrlə üstünə gələnin ah-zarına baxmadan boş yola saldı. Qohum-əqrəbadan minnətə gələnlərin ayağı yığışdı. Daha onu təngə gətirmirdilər.

Ürəyinə yatan adam ortancıl bacanağı idi. Kişi canını dişinə tutub, kəsbkarlığını edirdi. İndiyə qədər bircə dəfə də minnətə gəlməmişdi. Əliməmməd də əlindən gələni onun ailəsi üçün edirdi. Hər bir uşağının ad gü-

nünü bayram kimi keçirdirdi. Gül-çiçəyi, dəyərli hədiyyələri, pulu-paranı əskik etməzdi. Ortancıl bacanağının buna acığı tuturdu:

– Ay, Əliməmməd, bu nə bədxərclikdir edirsən? Allah başından töksün, bilirəm varındır, amma mənim ehtiyacım yoxdur. Hədiyyələri, gül-çiçəyi başa düşdüm. Uşağı niyə korlayırsan, onun cibinə o qədər pulu niyə qoyursan?

Əliməmməd seyrək bığlarını sığallayıb:

– Kiri, mən özgəsiyəm bəyəm? – deyirdi. – Uşaqlar, qoy, ürəkli böyüsünlər. Bilsinlər ki, arxasız deyillər.

Ortancıl bacanaq kəmhövsələ idi. Amma, Əliməmməd hər işi ürəkdən gördüyündən, dinə bilmirdi.

Əliməmməd bir gün ona təklif etdi:

– Bəsdir, ona-buna can çürütdün, gəl, mənim yanımda işlə.

Ortancıl bacanaq daş atıb başını tutdu:

– İstəmirəm. Qohum qohumdan nə qədər uzaq olsa, o qədər yaxşıdır.

Əliməmməd onu dilə tutdu:

– Canım üçün, sən mənə lazımsan, – dedi. – İşlədiyin yerdə sənə nə qədər maaş verirlər?

– İyirmi-otuz «şirvan» alıram da.

– Mən isə sənə yüz «şirvan» verəcəyəm.

Ortancıl bacanaq inad elədi:

– Dedim, istəmirəm, – dedi. – Məmmədi apar, işsizdir, Əlini apar, səninlə işləməyə ürəyi gedir.

Əliməmməd qızğın halda dedi:

– Əh, danışdın da. Onlara mal-pul etibar eləmək olmaz. Əliəyridilər.

Bir xeyli ortancıl bacanağı bişirəndən sonra, axır ki, onun saqqızını oğurladı, yanına apardı.

Qohumlar bir müddət Əliməmmədə toxunmadılar. Elə bil, sözləşmişdilər. Bu tufandan qabaq sakitlik kimi bir şey idi. Əliməmməd bu sakitlikdən bir az xoflandığından imkan düşən kimi, ehtiyacı olana əlaltdan beş-on manat kömək edirdi. Çağırılan yerlərə əlidolu gedirdi. Hədiyyə verirdi, səbəbkarın cibinə xərclik qoyurdu. Bayramlarda qohumlarını unutmurdu. Çalışırdı ki, heç kim bir parça çörəyə möhtac qalmasın.

Bir gün evə gec gəldi. İçəri girəndə, dəhlizdəki başmaqların sayından bildi ki, qonaqları var. Kiçik qaynının ailəsi onlarda idi. Xoş-beşdən sonra zarafat etdi:

– Bacı, kişi hardadır? Onu niyə gətirməmisiniz? – Soruşdu.

Kiçik qaynının arvadı istehza ilə:

– Divarları sökülmüş evə keşik çəkir, – dedi.

Ortaya yemək gəldi. Qonaqlar elə bil aclıqdan çıxmışdılar, doymaq bilmirdilər. Gecə yarı oldu. Əliməmməd onların qırımından başa düşdü ki, gecəni burada qalacaqlar. Buna etiraz etmək olmazdı. Qohumdur da! Səhər sübhdən işə getdi, axşam evə dönəndə qonaqları yenə evdə gördü. Arvadını kənara çəkdi:

– Az, qonaqların hələ getməyib?

Arvadı səssizcə uğundu:

– Deyəsən, heç getməyəcəklər, – dedi. – Həmişəlik gələnə oxşayırlar.

Əliməmməd heyrətləndi:

– Az, gicdəmə! Evləri-eşikləri yoxdur, bəyəm? – Soruşdu.

– Nə ev? Evlərini söküblər də. İndi haçan tikiləcək, onda da gedəcəklər.

– Məni hirsləndirmə, onları tez yola sal.

Arvad başını buladı:

– Mən qardaşımın balalarını evdən qovmayacağam, – dedi. – Özün də yetimliyinə salma. Qardaşın qədrini bilmək lazımdır.

Əliməmməd bu sözdən tutuldu. Dinməzcə öz otağına keçdi. Arvadı da onun susmasını razılıq kimi qəbul elədi. Düzdür, bu məcburi razılıq idi, amma, belə şəraitdə bu da keçərli idi.

Ev qaynı uşaqlarının səs-küyündən az qala yeriyirdi. Genişliyə çıxmış uşaqlar otaqlarda at çapırdılar. Əliməmməd qulaqlarını pambıqlayıb yatağına uzandı.

Səhər arvadının üzünə baxmadan bir stəkan çay içib dinməz qapıdan çıxdı. Gülzar onu nə qədər danışdırmaq istəsə də, əri incik halda susurdu.

Amma bununla hər şey qurtarmadı. Əliməmməd axşam evə gələndə, onu yeni bir sürpriz gözləyirdi. Kiçik bacanağının ailəsi də qonaq gəlmişdi. Yetim özünü lap

itirdi. Evdə adam əlindən tərpənmək mümkün deyildi, arvadını eyvana çağırdı:

– Ay qız, Gülzar, bunlar da bizdə qalacaq?

Gülzar bezgin halda:

– Bacımdır da, qova bilmərəm ki, – dedi. – İndi onun da uşaqları bizdə qalacaqlar. Daha neyləyim?! Yeznəyə altı ay iş veriblər. Bacımın gözünün yaşı qurumur. Ona mən nə təhər deyim, get evinə.

Əliməmməd bilmədi gülsün, ya ağlasın. Ayaqları bir-birinə dolaşa-dolaşa öz otağına girdi. Bir o başa, bir bu başa getdi. Arvadını harayladı:

– Gülzar, Gülzar, gəl bura.

Həmişə astadan danışan Əliməmmədin səsi o qədər vahiməli çıxmışdı ki, arvadı başılovlu özünü ona çatdırdı:

– Nə olub, kişi? Sənə bir şeymi olub? – Soruşdu.

Əliməmməd seyrək saçlarını dartışdırdı:

– Mənə olan iyirmi il qabaq olub. Daş düşəydi sənə elçi düşdüyüm günə. Dedim, yetiməm böyük ailəm olsun. Ata əvəzi qayınatam, ana əvəzi qayınanam, bacı-qardaş əvəzi qayınlarım, baldızlarım olsun. İndi onların əlində əsir-yesirəm. Dincliyim yox, günüm-diriliyim yox, ömrüm-günüm yox…

Gülzar onun monoloqunu yarıda kəsdi:

– Bunları eşitmişəm. İndi gecdir, məni arvadlıqdan çıxarda bilməyəcəksən, onları da qohumluqdan. Elə bilirsən, mənə asandır? Başım fırlanır. Bu boyda evdə

özümə yer tapa bilmirəm. Qız da səs-küydən qaçıb, gedib ortancıl bacanaqgilə. Deyir, atama deyərsən ki, bu səs-küydə imtahana hazırlaşa bilmirəm.

Əliməmməd susdu, susdu, birdən barmağını yuxarı qaldırdı:

– Onda belə eləyək, – dedi. – O arvad-uşağı yığ, de ki, evlərinə dağılışsınlar. Bundan sonra onların bütün ehtiyaclarını ödəyəcəyəm. Ev tikmək istəyənə ev tikəcəyəm, türməyə düşəni türmədən çıxaracağam, çörək istəyənə çörək verəcəyəm. Mən bilirəm, ömrümün axırına qədər bu ailənin qara quluyam, əsiriyəm, yesiriyəm…

Gülzar elə bu sözə bənd imiş kimi sevinə-sevinə otağı tərk etdi, qonaqların yanına tələsdi. Əliməmməd arvadının onlara nə deyib, demədiyini bilmədi, birdən «Ura!!!» səsindən mənzil lərzəyə gəldi. Bu qalibiyyət hayqırtısına çox oxşayırdı, amma Əliməmməd məğlubiyyətinə çox da kədərlənmədi.

## AĞILA SIĞMAYAN HADİSƏ…

– Əziz həmkarlarım! Vaxtınızı çox almayacağam. Bilirəm, uşaqlarla çənə döyməkdən çənənizin çüyü çıxıb. Amma, baş verən hadisə o qədər qəribə, o qədər əcaibdir ki, vadar olub sizi məsləhətə yığmışam… Öhö! Hamınız övladım yerindəsiniz! Bilirsiniz ki, mən bu məktəbdə baş ağardıb, diş tökmüşəm. Xalidə balamız, ali məktəbi

keçən il bitirib. Dünən hamımızın sevimli şagirdi idi, bu gün həmkarımızdır. Savadı, biliyi, mərifəti, bacarığı lap yetərincədir. Məktəbin ən sanballı sinfini ona həvalə etmişəm. Boynuma alıram ki, tərəfgirlik etmişəm. Amma, haqq tərəfi, o da zəhmətimizi itirmir. Nə tapşırıq verirsən, can-başla yerinə yetirir. Deyirdim: «Siniflər ağardılmalı və rənglənməlidi!» Söz ağzımdan çıxmamış Xalidə müəllimə işə başlayır, hamıdan tez məlumat verir ki, bəs, işi tamamlayıb. Deyirdim: «Bayramqabağı siniflərin pərdələri təzələnməlidi…» Xalidə müəllimə yenə fərqlənirdi. Deyirdim: «Qışqabağı pəncərələrə polietilen plyonka çəkilməlidi…» Xalidə müəllimə yenə həmkarlarını qabaqlayırdı. Valeh olmuşdum bu qıza! Cavanlarda belə işgüzarlıq az tapılan keyfiyyətdir… Bəli, o gün ki yağışdan sonra halım pis idi. Sinifləri su almışdı ağzına. Özümü çox yerə vurdum, hər yerdən boş qayıtdım. Dama qır salmağa pul tapmadım ki tapmadım. Məcbur olub yenə sizi yığdım, sözümü dedim. Hamı dağılışandan sonra Xalidə müəllimə qaldı. Bilirsiniz, utana-utana mənə nə dedi? Hə, Xalidə müəllimə dedi: «Xalid müəllim, daha məvacibimdən heç nə qalmayıb. Təmir üçün verməyə pulum yoxdur. Maaşa qədər gözləyə bilərsiniz?» Matım qurudu. Belə məlum oldu ki, cavan həmkarımız sinfinin təmirinə, səliqə-sahmanına çəkilən xərci öz cibindən ödəyirmiş! Öhö! Öhö! Bəsdi, güldüyünüz, yetər! Macal verin sözümü deyim! Bəli, kimin ağlına gələrdi ki, müəllimə belə türkəsayadır!… Bu gülməli

deyil, ağlamalıdır… Nə? Boş-boş danışma, mənim balam. Əlbəttə, pul sinifdən yığılmalı idi! Hamı necə, sən də elə! Məktəbin pulu yoxdur, təhsil idarəsinin cibi boşdur. Neynəməli?! Keçid dövrünün öz çətinlikləri var da! Nə?… Xalidə, mən sənə dərs deyəndə başqa dövr idi! Mən həmin adamam, ey, zəmanə çövr olub, zəmanə! O vaxt elə demək lazım idi, elə deyirdim. İndi belə demək lazımdır, belə deyirəm! Bəli, Xalidə müəllimə, uşaqlardan pul toplamaq cinayətdir, amma, onların sağlamlığına dəyən zərbə ondan da böyük cinayətdir! Sənin sinfin varlı-karlı sinifdir, qızım! Ordan yığılan vəsaitlə, bir sinfi yox, bütün məktəbi təmir etmək olar. Şagirdlərinin şəxsi işi ilə tanış olsaydın indi belə deməzdin! Sinifdəki yeddi uşağın atası vəzifəli şəxsdir. Biri polisdədir, biri icradadır, biri vergidədir, biri… onu deməyəcəyəm… Onları təmir işlərinə cəlb etmək vacib lazımdır. Üç uşağın valideyni ticarətçidir. Nahaq mahnı qoşmayıblar ki, kef də ticarətdədir, pul da ticarətdədir! İmkanları var! Beş uşağın valideynləri ziyalıdır! Onlardan da bir şey qopartmaq olar. Altısı köçkündür… Onlarla işimiz yoxdur… Dördünün atasının iş yeri məlum deyil! Amma, sənin şagirdlərindən birini məktəbdən bir tin aralı, o adı nədir, hə, «600»lük Mersedesdən düşən görmüşəm. Düşünməyə dəyərmi?! Əlbəttə! Buyur, belə maliyyə imkanı olan sinfin rəhbəri, gör, neyləyir! Dilənçi maaşını məktəbin təmirinə xərcləyir! Nə?! Otur, bala, qanımı qaraltma! Bu belə! Bir məsələmiz qaldı! Bizə təhsil idarəsindən bir

bağlama kitab göndəriblər! Aranızda bölüşdürün, pulunu təcili toplayın, yollayaq getsin… Hə, indi azadsınız…

## HAVAYI HAMBALLIQ

– Qardaş, səni tanıya bilmədim! Vallah, yaman gündəsən! Vaxt var idi, boyunu-sumbatını görən tamaşadan doymurdu. Sənə nə oldu belə?! Nə? Əmək birjasındasan? Allah, Allah! Sən «qul bazarı» deyilən yerə gedirsən? O boyda tədqiqat laboratoriyasının müdiri indi günəmuzd iş axtarır… Elmlər namizədi "qul bazarında"!! Dəhşətdir, qardaş, dəhşət! Gorun çatlasın, ay Qorbaçov!

Vaxtında tərpənmədin, bir budka yeri də sən almadın, elə ilişib qaldın institutda! Sözümə qulaq asmadın. İndi də gecdir. Satılan satıldı, bölünən bölündü! «Bəylərdən» qışda buz almaq olurdu, «yoldaşlardan» heç onu da almaq olmur, o ki ola şəhərdə dükan yeri.

Hə də, iki doqquzmərtəbə bina arasındakı yastı-yapalaq dükan mənimkidir. Özüm tikmişəm. İcazəsini zulumla almışam, qardaş, zulumla! Daha qapı qalmadı kandarını dağıtmayım, adam qalmadı ağız açmayım. Axır insafa gəldilər. Necə olsa müharibə veteranıyam. Hə, başladım ticarətə. Fikirləşdim, alim olduq, adam olmadıq, bəlkə alver bizi adam elədi, adamların sırasına çıxartdı. O da belə! Demə, elə quru adı varmış. Qarda-

şım, ticarət yaman sənətdir. Bolşeviklər nahaq yerə alverçilərlə cəng etmirdilər ki? Belə sənət olar?! Alırsan, satırsan və rüşvət verirsən. Satırsan, yenə alırsan, yenə rüşvət verirsən. Bu işin binası belə qoyulub. Adamın öz əli, öz başı olsa, nə var ki! Dolanarsan da! Aman vermirlər… Şair Kamil Sərbəndi nahaq demirdi ki, «xeyrinə lənət ola, alver sənin!» Kişi hələ o vaxtlar deyirdi. Gündə biri, əlində qovluq, çalağan kimi şığıyır bu yastı-yapalaq dükana! Bəs, yoxlamadır. Bir deyil, iki deyil, iyirmi iki idarədən gəlib akt yaza bilərlər. Əşi, əmma tapmağa nə var ki!

Sayım, eşit! Milçək həkimini əliboş yola salan günü ölkədəki cəmi yara-xoranın səbəbkarı bu dükan olacaq. Yanğınsöndürənə beşdən-ondan verməsən, sənin canına elə bir od salacaq ki, heç bir su ilə söndürmək olmayacaq. Çiyni paqonlunun ən fərsiziylə hünərin var zarafat elə! Məhəllənin lotu-potusunu sənin dükanında axtaracaq. Özünü də salacaq get-gələ. Onda ölünü qoy, dirini ağla. İşıqçı, yazıq, bir lampanın pulunu istəyir də, necə verməyəsən. Vergidən gələnə zaval yoxdur, onlarla yola getməyən başını gora çətin ki, salamat aparsın. Yenə sadalayım, ya bəs edər? Ticarət, inan, qardaşım, zəlalətdir, rəzalətdir, bataqlıqdır… həsəd aparılası sənət deyil. Havayı hamballıqdır. Bizdə alver deyil, ver-verdir. Hərdən fikirləşirəm, yaxşı işi sən görürsən! Vallah, qul bazarı yaxşıdır, dilənçilik yaxşıdır. Heç kimin səninlə işi yoxdur. Belə getsə bağlayacağam dükanı, gələcəyəm qul

bazarına. Onda görüm, bu gələnlər kimdən alırlar, necə alırlar.…

## USTA BACANAQ

Şəhər yolunun üstündə bir məşhur təkər təmiri köşkü var idi. Bir vaxtlar burda iki usta çalışırdı. Birinin adı Güləli, o birisinin adı Zülfəli idi. Bunun tarixçəsi belə idi.

İş elə gətirmişdi ki, Güləli ilə Zülfəli bacanaq olmuşdular. Dost, yoldaş idilər, indi olmuşdular qohum, lap bir evli. Qonşuda yaşayan iki əkiz bacının hərəsini biri almışdı. Necə ki, əkizlər bir-birindən ayrı dura bilmirdilər, bacanaqlar da indi bir-birindən ayrı qala bilmirdilər. Bu iki ailənin oturmaqları, durmaqları, yeməkləri, içməkləri bir idi. Utanmasaydılar, elə yatmağı da bir evdə edərdilər.

Bir də görürdün Güləli deyir:

– Bacanaq…

Zülfəli dərhal hay verirdi:

– Can bacanaq!

Güləli xoş arzulardan işıldayan gözlərini uzağa dikib, təklif edirdi:

– Bacanaq, istəyirəm bir məclis quram.

Zülfəlinin könlü açılırdı:

– Pis olmazdı, bacanaq, – deyirdi.

Güləli barmaqlarını ləzzətlə şaqqıldada-şaqqıldada sözünə nərdivan qoyurdu:

– Bir əmlik quzu alım, uşaqları yığaq, tut ağacının altında bir kabab çəkək. Başımızı açaq, araqdan vurub kef edək.

Zülfəli dirçəlirdi:

– Arağın var, ya almaq lazımdır? – Soruşurdu.

Güləli dilini nırçıldadıb:

– Dükan arağına ehtiyac yoxdur, – deyirdi. – Bir-iki şüşə tut arağım var, pay veriblər.

Zülfəlinin razılıqla:

– Etirazım yoxdur. Amma, bacanaq, daha özünü xərcə salma. Quzu kəsməkdənsə beş-altı kilo təzə ət al, bəsimizdir.

Güləli tərslik edirdi:

– Yox, bacanaq, quzu nədir, lap yekə erkək kəsəcəm. Sən mənim canım-ciyərimsən, gözümün işığısan. Lap, ata əvəzisən, boynumda haqqın çoxdur. Üz vurma, gərək, erkək kəsim.

Zülfəli diqqətini toplayırdı:

– Qalsın gələn dəfəyə, bacanaq, – deyirdi.

– Elə demə, bacanaq. Mənim səndən başqa kimim var? Varım-yoxum sənə qurbandır. Adına cöngə də kəssəm azdır.

Zülfəli çox sadəlövh bir kişi idi. Hiylə, yalanla işi yoxdu. Söz bir az ona gec çatırdı. Nəhayət, Güləlinin dolağını anlayanda çımxırdı:

– Ay sənin boyunu yerə soxum. Niyə məni çərlədirsən? – dedi. – Adam kimi deyə bilmirsən ki, get, beş-altı kilo qoyun əti al, gətir kabab vuraq? Başlamısan, bağ belə, bostan belə…

Güləli özündən razı halda uğunurdu. Başını bulayan Zülfəli də yenə onun toruna düşdüyünə gülürdü. Həmişə belə olurdu. Zülfəli ət dalınca bazara gedirdi. Güləli isə həyətə düşürdü. Bir az pamidor, bir az badımcan dərirdi, göydən, göyərtidən yığırdı. Arvadını səsləyirdi:

– Ağəz, Xanım, soğan gətir, istiot gətir, – deyirdi.

Arvadı Xanım qımışa-qımışa eyvandan soruşurdu:

– Yenə nə tədarük görürsən?

Güləli guya narazı halda:

– Əşi, işə düşmüşəm, – deyirdi. – Bacanaq yenə də dinc dayanmır, könlü kabab istəyir. Ara yerdə yenə xərcə mən düşəcəyəm.

Xanım da Güləli kimi bicənginin biri idi. Dərhal bilirdi ki, yenə əri Zülfəlini xərcə salıb. Bıçaqları, tası tut ağacının altına düşürürdü. İkisi də bilirdi ki, Zülfəli beş kilo ət deyibsə, on alacaq, ailəsini də yaddan çıxartmayacaq. Gələndə çolma-çocuğunu da qatıb qabağına gətirəcək.

Elə də olurdu.

Uşaqlar da bir-biri ilə mehriban idilər. Neçə ilin ayrılısı kimi görüşürdülər.

Onlar qol-boyun olub, iki bacanağın kabab hazırlığına tamaşa edirdilər. Güləli əti cəld doğrayır, duzlayır, istiotunu, soğanını qatırdı. Zülfəli tasın qapağını qoyub,

üstünə köhnə bir adyal atırdı. Onların hər ikisi yemək-içmək həvəskarıydı. Teatrları da, kinoları da bu idi.

Zülfəli özünü tutmuşdu, işi yaxşı idi. Evindən bir az aralı şosenin kənarında bir təkər təmir edən köşk qoymuşdu. Qarabağ savaşında iştirak etdiyindən səlahiyyətli məmurlardan, uzun get-gəldən sonra, bir məccani sərəncam qopartmışdı. İndi gündəlik çörəyi başının altında idi. Daha özgələrinə möhtac deyildi. Müştərisi olanda beş-on manat dar günə də atırdı. Amma get-gedə lap insafsızlaşan nəzarət məmurlarından pul saldırmaq çətinləşirdi. Yerindən duran haqq istəyirdi.

Güləli isə əbədi sərgərdan idi. Bir yerə kül töküb, oturan deyildi. Dözümü yox idi, iş yerini cib dəsmalı kimi dəyişirdi, bir yerdə qərar tuta bilmirdi. Bir də görürdün sərnişin avtobusu sürür, gahdan taksiyə keçirdi, gahdan da «xozeyin» maşınına keçirdi. İşi bəd gətirəndə çilingərlik edirdi. Maşını mühərrikinə qədər söküb-yığmaq onun üçün problem deyildi. Əlindən gəlməyən iş tapılmazdı. Amma tapdığını basıb yeyər, ağlına gələni edər, sabah lap vəlvələ ola, vecinə almazdı. Dişi ağara-ağara yaşayırdı.

Güləlinin arvadı Xanım da xasiyyətdə ərinə oxşayırdı. Bacısı Xatın isə key-külahın biri idi, vur qapazı, al çörəyini əlindən. Bir də gördün Xanım şirin-şirin deyirdi:

– Bacılı, ay bacılı, kofta satırlar, ey!

Xatın laqeyd:

– Eh, nəyimə gərək, – deyirdi. – Varımdır.

Xanım əl çəkmirdi:

– Az, bilirsən necə gözəldir. Yaxası tirməli, ətəyi qırçınlı, lap adamın ağlını alır, – deyirdi. – Sənin qara paltarına elə yaraşar, elə yaraşar...

– Nə vacib düşüb e, istəmirəm. Gözün tutubsa, özün al.

Xanım əlini dizinə vururdu:

– Nəynən, az? Güləli anası ölmüş, fərli iş tapır ki, əlinə bir pul gəlsin, mən də verim pal-paltara.

Xatınun ürəyi dözmürdü:

– Koftanı götür, pulunu mən verərəm, – deyirdi. – İmkanınız olanda qaytararsan.

Xanım sevinclə deyirdi:

– Sən canın, doğru sözündür?

– Az, həri.

– Ağrını alaram e, bacı – Xanım cəld şkafdan koftanı çıxardıb, üstünə tutub soruşurdu. – Necədir, mənə yaraşır?

Xatın da onun sevincinə qoşulurdu:

– Lap əladır, səni qiyamət tutur. Tuf-tuf, göz dəyməsin.

Güləlinin həyəti geniş, bağlı-bağatlı idi. İki ailə yığıncaqlarını burda keçirtməyə alışmışdı. O günü yenə Zülfəlinin hesabına manqal salınmış, tut ağacının altında süfrə açılmışdı. Bacanaqlar yeyir-içir, bacılar dərdləşir,

kababdan doymuş uşaqlar yerə salınmış palazın üstündə oynayırdılar.

Dolmuş qədəhləri qaldıranda Güləli əlini saxladı, Zülfəli təəccübləndi:

– Nədir, daha getmir? – Soruşdu.

Güləli dilini sürüdü:

– Yox, bacanaq, – dedi. – Deməyə də utanıram, vəziyyətim pisdir. Yemək-içmək boğazımdan keçmir.

Zülfəli lap təəccübləndi:

– Bah, xəstələnmisən?

Güləli mızıldandı:

– Yox e…, işdən çıxarıblar.

Zülfəli şaqqıltı ilə güldü:

– Ha, ha, ha, nə böyük dərd imiş, – dedi. – Belə şeylərə sən ki, öyrəncəlisən. Həftə yeddi, mən səkkiz işdən çıxırsan, işə girirsən.

– Bu dəfə, bacanaq, iş başqa cürdür.

– Adə, üzmə bizi, macəranı danış.

Güləli kədərlə dilləndi:

– Belə, sürücülük vəsiqəmi də alıblar, ey! – dedi. – İki il onun üzünü görməyəcəyəm. Nə qədər ki, kompüter yox idi, təzədən oxuyub vəsiqə almaq olurdu. İndi isə heç yaxın qoymayacaqlar.

Zülfəli badəni yerə qoyub əllərini bir-birinə sürtdü:

– Bax, bu oldu əla, – dedi. – Sən ki, o cür maşın sürürdün, axır ki, ilişməli idin. Dilə tutaydın da, ay əfəl.

– Bacanaq, lap ilan dili çıxartdım, müfəttiş yola gəlmədi ki, gəlmədi. Deyirəm, adə, götür bu bir-iki «şirvanı» apar ye, haramın olsun. Deyir, yox, qırmızı işıqda keçmisən, bunun haqqı yüz dollardır. Deyirəm, ay dollar çıxardanın atası tünbətün olsun, mən onu heç yuxuda da görməmişəm. O dedi, mən dedim, o dedi, mən dedim, iş yoğunladı.

Zülfəli dedi:

– Sənin hər işin belədir. Xəstəxanaya gedirsən qalmaqal salırsan ki, mən pul verməyəcəm. Pasport almağa gedirsən üç «şirvan»a görə aləmi qatırsan bir-birinə. Elə bil zəmanə adamı deyilsən.

Güləli ah çəkdi:

– Hələ bu harasıdır, – dedi. – Müfəttişin qolundan tutdum ki, protokol yazmasın. Tutub apardılar məni şöbəyə. Dedilər, sən polisə müqavimət göstərmisən. Malcan döydülər. İndiyəcən özümə gələ bilmirəm.

Bu sözdən sonra daha Zülfəlidə can qalmadı. O ki var güldü. Güləli onun bu şadlığından incidi:

– Yaman əbləhsən ha, bacanaq, belə şeyə gülərlər? Döyülməyimə lağ edirsən?

Zülfəli gözünü sildi:

– Adə, ağzını Allah yolunda qoyma, əbləh özünsən, – dedi. – Oturub ağlasam, işin düzələcək?

Güləli birdən arsız-arsız dişini ağartdı:

– İndi bir söz deyəcəyəm, bacanaq, səni doğrudan da ağlamaq tutacaq, – dedi.

Zülfəli özünü yığışdırdı:

– Niyə, balam, günahım nədir? Səni döyənləri ağladaydın da. Elə gücün mənə çatır? – dedi.

Güləli əndişəyə düşmüş Zülfəlini istehza ilə süzdü:

– Bacanaq, istəyirəm səninlə şərikli işləyim.

Zülfəli çeçədi, gözləri yaşardı. Onun bu halı bacanağını ürəkdən güldürdü:

– Gördün, ağlatdım səni.

Zülfəli mızıldandı:

– Bacanaq, axı biz yola gedə bilmərik?

Güləli əlinin tinini masaya vurdu:

– Yola verərsən, yola gedərik!

Zülfəli heç cür razı olmurdu.

– Bacanaq, gəl bu daşı tök ətəyindən. Bir yerdə işləməyimiz çox çətin olacaq.

Güləli arvadlara tərəf göz basdı:

– Xeyri yoxdur, bacanaq, qərarım qətidir. Öz xoşunla razı ol, yoxsa uşaqları gətirib qoyacağam qapında, özüm də gedəcəyəm Rusyətə.

Zülfəli onların söhbətinə bayaqdan müdaxilə etməyən bacıların qırımından anladı ki, Güləli onlarla məsləhətləşib, bu işin razılığını alıb. Bircə artıq kəlməsi kifayətdi ki, baldızı ağır artilleriyanı işə salsın. Gəl, onun qabağında dayan görüm, necə dayanırsan. Deyəsən, arvadı Xatınun da saqqızını oğurlayıblar. Razı olmaqdan savayı çarə qalmırdı. Köksünü ötürdü:

– Qoy, bacanaq, sən deyən olsun, – dedi. – Amma, şərtimizi şumda kəsək, sonradan yabalaşmayaq. Mən səninçün o-bu deyiləm, canını alacağam.

Güləli qalib bir razılıqla irişdi:

– Bacanaq, öl dedin, bil, ölmüşəm, qal dedin, bil, qalmışam, – dedi. – Axır söz sənindir.

Bacılar işin bu minvalla həllindən razı halda masadan aralandılar. Bacanaqlar axırıncı badəni şərikli işin şərəfinə qaldırdılar.

…Güləlinin ayağı düşərli oldu. Heç bir ay keçməmişdi ki, Zülfəli müştəri əlindən göz açmağa macal tapmırdı. Dincliyi yox idi. Səhər sübhdən gecə keçənə qədər sexin qabağı boşalmaq bilmirdi. Yaxında yaşadığından gecə də qapını döyürdülər. O da heç kimi naümid qaytarmırdı. Yorğun-arğın geyinir, gedib sexi açır, yolda qalmış maşının çarxını sahmana salırdı. Qazancı o qədər artmışdı ki, Zülfəli böyük arzulara düşmüşdü. İş artdığından bir nəfər də köməkçi götürdü. Amma Zülfəlinin əsəbləri tarım idi. Güləlinin, heç demə, bayırlığı yox imiş. Bu adam, adam deyildi. Zülfəliyə aydın oldu ki, niyə onu hər dəfə işdən qovurlar. Çünki, Güləlinin əlinə bir az pul gələn kimi, paxırı açılırdı, tənbəllik basırdı onu.

Zülfəlinin bir şakəri var idi. Təkərdən çıxan dəmir parçalarını, mıxı, mismarı, iynəni səliqə ilə dəmir küpəyə yığırdı. Soruşsaydın, bunları neyləyəcəksən, cavab verə bilməyəcəkdi. Axır vaxtlar çıxan mıxların oxşarlığına fi-

kir versə də, anışdıra bilmirdi. Papağı köhnə bir qəpiklik boyda olan mıxlar təkərin qənimi idi. Ağlına gəldi ki, yəqin mismar yüklü maşın yoldan keçəndə dağılıb. Bu, arabir yadına düşür, Güləli ilə məsləhətləşmək istəsə də, sonra yenə yadından çıxırdı.

O gün Zülfəli nasaz idi. Tərs kimi köməkçisi də harasa öz işinin dalınca getmişdi. İki yük maşını sexin qabağında «lövbər» salmışdı. Köhnə kürsüdə xumarlanan Güləli yerindən tərpənmirdi. Zülfəli onu hayladı:

– Bacanaq, tərpən, camaatı yubatma!

Güləli mızıldandı:

– Bacanaq, mənimki yekə maşınlarla tutmur, özün məşğul ol, – dedi.

Zülfəli qanlı-qanlı ona baxdı, amma müştərilərin yanında mübahisə eləmədi. Tez girdi sexə, paltarını dəyişdi. Kombinezonu əyninə çəkməyi ilə çıxmağı bir oldu. Sürücülərin köməyi ilə domkratı vurdu maşınların altına. Təkərləri çıxartdı, çəmbəri sökdü, kameri ayırıb yamadı, basdı isti mənganənin altına. Maşınları yola salana qədər bir vedrə tər tökdü. Yorğun-arğın özünü sexin qabağındakı ağacın altına yıxdı.

– Bacanaq, – dedi. – Tənbəllik basıb səni! – dedi. – Biz pulu yarı bölürük, maşının nə böyüyü, nə kiçiyi.

Güləli gərnəşib istehza ilə dedi:

– Bacanaq, deyinmə. Əvvəl iş tapmırdın, darıxırdın. Mən gələndən müştərilərinin sayı on dəfə artıb, sənsə deyinirsən.

Zülfəli hirslə:

– Bəli də, müştərilər ancaq sənin adına gəlir! – dedi. – Rəhmətliyin oğlu, çörəyi də, müştərini də Allah verir e, Allah. Sən nə karəsən ki?

Güləli mızıldandı:

– Kül ağlına, mən olmasaydım elə həmin Zülfəli idin ki, varıydın. Daha təzə «Jiquli» eşqinə düşməzdin, – dedi. – Evinə, həyət-bacana əl gəzdirməzdin. Hamısı nəyin hesabına? Burdan götürdüyün pulun hesabına.

Zülfəli lap təəccübləndi:

– Mən sənə minnət qoymaqdansa, sən mənə minnət qoyursan? – dedi.

Güləli hirsləndi:

– Mən minnətli çörək yemərəm. Öz çörəyimi yeyirəm.

Zülfəli onun həyasızlığına mat qaldı:

– Mən sənin qazancına şərik olmuşam, ya sən mənim?

Güləli barmağını qaldırdı:

– O müştərilər mənim hesabıma bura gəlirlər. İnanmırsan? Bu saat sənə sübut edərəm.

Güləli kürsüdən cəld sıçradı, əlini cibinə salıb bir ovuc mıx çıxartdı və səpdi onun qabağına. Zülfəli əvvəl heç nə başa düşmədi. Bir mıxlara baxdı, bir Güləliyə. Handan-hana anladı və rəngi ağardı, çünki bu mıxlar neçə aydan bəri təkərlərdən çıxartdığı mıxlarla eyni idi. Güləli onun donuxmağından ləzzət aldı:

– Hə, indi bildin müştərilərin niyə çoxalıb? – dedi. – On kilometrlərlə payi-piyada addımlayır, yollara mıx səpirəm. Sən də başlamısan ki, tənbəllik eləyirsən. Elə vaxt olur qılçalarım ağrıdan yer tutmur.

Zülfəli az qala ağlasın:

– Allah evini dağıtsın! Allah evini başına uçurtsun! Allah səni zəlil eləsin! Mənim çörəyimə niyə haram qatırsan? Allahın qəzəbindən qorxmursan, haramxorluq edirsən? – dedi.

Güləli tərs-tərs ona baxdı:

– Haram niyə olur, ay qurumsaq? Bu yol dəniz qırağına gedir. Ordakı villalardan, cah-calallı bağlardan sənin xəbərin yoxdur? Kasıbın bu yolda nə işi var? Gedib-gələnin hamısı varlı-hallı oğlanlardır. Elə hey «Mersedes», «Volva», «Passat», daha nə bilim nə şütüyür. Nədi, onlar bunu halallıqla qazanıblar? Haramxorun yekəsi onlardır. Onlardan beş-on manat qopartmaqla dünya dağılacaq? Hara gedirsən qanımızı sorurlar. Yıxılıb ölsən də, bir köpək oğlu sənə yaxın durmaz. Biri nöyütün üstündə oturub, deyir, mənimdir, biri zavodları, fabrikləri satır, deyir, mənimdir. Biri yolları kəsib, deyir, yol mənimdir. Bir parça kağızı pulsuz verməzlər. Haramxorluq budur.

Zülfəli mətin səslə dedi:

– Sən mənə nağıl danışma. Bundan sonra mən səninlə şəriklik edə bilmərəm. Bacanaq, çıx, get. Daha gözümə görünmə. Səndən adam çıxmaz.

Bacanaqların şərikliyi bununla da bitdi.

Zülfəli indi tək işləyir. Qazancı əvvəlki qədər olmasa da, yediyi-içdiyi canın sinirdi.

## FƏRASƏTLİ MƏMUR

Cəmil müəllim kondisionerin soyutduğu kabinetdə geyimli-kecimli işləyirdi. Allaha yalvarırdı ki, yuxarılardan onu çağıran olmasın. Yayın cəhənnəm istisinə çıxmağa halı yox idi. Rəisliyin bu işi onun heç xoşuna gəlmirdi. Telefon səslənəndə yanğınsöndürən kimi tələsmək lazım gəlirdi. Dəftərxana müdiri qol çəkilən sənədlərə möhür vurur, qovluğa yığırdı. O, ən etibarlı işçi olduğundan, Cəmil müəllim onun əlini güdmürdü. Qapı aralı qaldığından, dəhlizdən gələn qalmaqal səslər rəisi narahat elədi. O, əlini saxladı, qələmi atdı masanın üstünə, daxili telefonu qaldırdı:

– Məlik müəllim, zəhmət çək, yanıma gəl, – dedi və dəstəyi qoydu.

Heç iki dəqiqə çəkmədi ki, müavini Məlik müəllim təngnəfəs özünü içəri saldı. Onun əlli yaşı olardı. Arıq, hoqqaları çıxmış bir kişi idi. Elə bil aldığı məvaciblə dolanırdı. Rəis bığaltı güldü, həmişəki kimi ona söz atdı:

– Ay Allahın bədbəxti, qazandığından bir yeməyinə də xərclə də. Yığıb goruna aparacaqsan? – dedi. –

Gün-gündən geri gedirsən. Kənardan elə bilərlər ki, rəis yeyir, müavinini ac saxlayır.

Məlik müəllim otursa da, hələ də tövşüyürdü. Amma cavabının möhkəmliyindən məlum olurdu ki, bu təngnəfəslik qondarmadır.

– Rəis, Allah məni bu cür yaradıb, sizi də o cür, – dedi.

Dəftərxana müdiri Gülşən xanım söhbətə zarafatla müdaxilə etdi:

– Cəmil müəllim, sizin kəramətinizdən bu adam gündə üç nəfərin yeməyini yeyir, içməyini içir, amma, əmələ gəlmir ki gəlmir.

Rəis sanballı qarnını sığalladı, qəribə bir maraqla:

– Ay qız, onun yeməyini sən hardan görmüsən? – Soruşdu.

Gülşən xanım şaqqıltı ilə güldü:

– Necə yəni hardan, – dedi. – Gümanınız özgə yerə getməsin, rəis, bu canı yanmış qohumumdur. O qədər toyda, nişanda, ad günlərində onu süfrə arxasında görmüşəm ki… Zalım, dələ kimi üyüdür.

Rəis:

– Belə de! – deyə uzatdı. – Bəs, bu bir ildə mən sizin qohumluğunuzu niyə bilməmişəm?

Gülşən xanım nazla:

– Daha söz gəldi, gərək deyəsən, – dedi. – Məlik qohumum suyu da üfürə-üfürə içir. Qohumluğumuzu gizlətmək onun ideyasıdı. Deyir ki, bilərlər, düşər-düşməzi olar.

Rəis Məlik müəllimə baxdı:

– Düz deyir? – Soruşdu.

Müavinin üzündəki ifadə dəyişmədi:

– Əlbəttə, düz deyir, – dedi. – Burda nə var ki, Gülşən xanım yalan desin. İdarənin yarısı bir-birinə qohumdur. Yarısı da bir-birinin dost-aşnasıdır. Bizdə yad adam yoxdur. Məsələn, idarədə sizin səkkiz qohumunuz işləyir. Adlarını sadalamaqdan vaz keçirəm. Özünüz yaxşı bilirsiniz.

Rəis diksindi:

– Bah! Bunları hardan bilirsən? – deyə heyrətlə soruşdu.

Məlik müəllim rəisin ağrıyan yerindən tutduğunu bilirdi, amma dərinə getmədi. Yumşaq halda dedi:

– Cəmil müəllim, bunun bir eybi yoxdur. İndi belə şeylərə heç kim fikir vermir. Qohumlar da bir yerdə işləməlidir, ya yox?

Rəis pis-pis ona baxdı:

– Kiri əşi, başqa yerdə deyərsən, bizi dilə-dişə salarsan.

Müavin əlini döşünə qoydu:

– Mənim sinəm sirr yatağıdır, rəis, qorxma, – dedi.

Rəis bir az arxayınlaşdı, sözü cəld çevirdi:

– Dəhlizdə nə səs idi? – Soruşdu.

Müavin burnunu çəkdi:

– Heç nə, yoluna qoydum, – dedi. – Sülh küçəsindəki minimarketin sahibi idi. Yanınıza gəlmək istəyirdi.

– Nə məsələ idi?

– Fərasət ondan akt yazıb.

Rəis tutuldu, gülər üzü əyildi. Adı çəkilməyən qohumlarından biri Fərasət idi:

– Bəyəm Sülh küçəsi onun sahəsidir? – deyə soruşdu.

Məlik müəllim ehtiyatla:

– Dünən özünüz tapşırmışdınız, axı, – dedi. – Mən də əmrə saldım.

Rəis bozardı:

– Ə, özünü anlamazlığa qoyma, – dedi. – Dedim, Fərasətə bir sakit yer tap, deməmişdim ki, onu qalmaqallı sahəyə göndər.

Müavin əllərini yana açdı:

– Ay rəis, Gülşən xanım özgəsi deyil, – dedi. – Vallah, Fərasətə iş bəyəndirmək mümkün deyil, axı. Bazar yanını təklif elədim, bəyənmədi. Toyxanaları ona vermək istədim, bəyənmədi. Aşxanaları ona tapşırmaq istədim, bəyənmədi. «Məni Sülh küçəsinə göndər» deyib inad elədi.

Rəis yerindən qalxıb hirslə kabineti dolandı, sənədləri yığıb, çıxmaq istəyən Gülşən xanıma dedi:

– Zəhmət olmasa, Fərasəti tap, göndər yanıma.

Gülşən xanım gedəndən sonra müavin gülümsədi:

– Rəis, çox da ürəyinə salma, cavandır da, təcrübəsi artdıqca ağlı başına gələcək. Daha cərimə aktı yazılıb. Minimarket üçün qırx «şirvan» nə puldur? Verər, dünya dağılmaz. Hay-küy salmağına səbəb başqa şeydir.

Fərasət ona vəsiqəsini göstərəndə, çıxarıb on «şirvan» müfəttişin cibinə basıb. Fərasət götürməyib, deyib ki, iyirmi «şirvan» ver. O da qayıdıb ki, «şirvan» ağacda yarpaq yerinə bitmir, onu qazanmaq lazımdır. Mən ayın haqqını vermişəm, deyib. Fərasət də götürüb nömrəli akt yazıb…

Rəis yerinə adladı, mütəfəkkir görkəm aldı:

– Qardaş, adam gərək tamahını saxlamağı bacarsın. Bu zalım balası pulun ölüsüdür də. İndiki cavanlar bir günün içində varlanmaq istəyirlər. Baxanda, sahibkarın günahı nədir? Vaxtında vergisini ödəyir, bizim haqqımızı verir, sifariş göndərirsən, əli dolu gəlir. Bu adam daha neynəməlidi ki, rahat işləsin…

Müavin onunla razılaşdı:

– Əlbəttə, rəis, – dedi. – Şura vaxtı xalq nəzarətində işləyirdim. Mağazalara ayda bir dəfə gedirdim, haqqımı alırdım. İkinci dəfə ora ayaq bassaydım, adamı hoydu-hoyduya götürərdilər.

Rəis gülümsədi

– Şura vaxtı mən raykomda təlimatçı idim. O dövrün öz ləzzəti var idi, – dedi və təəccüblə qeyd etdi. – Bu qırışmal, o cür ehtiyatlı kişiyə nə təhər akt yazıb e? Hələ Şura vaxtından o kişini tanıyıram. Həmişə ticarətlə məşğul olub.

Məlik də gülümsədi:

– Elə onu de də! – dedi. – Yəqin Fərasət öz məşhur metodundan istifadə edib. Çox fərasətli müfəttişdir. Qohumun olduğuna görə demirəm.

Rəis qaşqabaqla:

– Nə metoddur? – Soruşdu. – Ali məktəbi dünən bitirmiş bir məmurun nə metodu ola bilər?

– Oho, rəis, o uşaq çox qabağa gedəcək, – deyə müavin təriflədi. – Fərasət adına layiq oğlandır. Bilir ki, küçədə görünən kimi bütün mağazaların nəzarət kassa aparatları şaqqıltı ilə işləyəcək, alıcıları çeksiz buraxmayacaqlar. Onun işıq idarəsində bir dostu var. Küçənin işığını söndürtdürür, onunla razılaşmayan mağazaya cumur. Əlbəttə, işıq yoxdur, aparat işləmir, kitab çıxana qədər, ora yazılana qədər, bir neçə alıcı çeksiz çıxa bilər. Bax, elə onda Fərasət kəsir satıcının başının üstünü…

Rəis təəssüflə:

– Bu ki, lap insafsızlıqdır, – dedi.

Müavin xımır-xımır güldü:

– Fərasətin at işləməz yollarından danışsam, ürəyin gedər, rəis. Bir-iki dəfə onunla reyddə olmuşam. Elə hoqqalardan çıxır ki, heç yüz ilin müfəttişi də ondan baş çıxartmaz. Onunla işləyəndə adam cibidolu qayıdır.

Rəis hiddətlə:

– Əşi, Fərasət uşaqdır, insafını unudub, sən, axı, yarıyaş adamsan, – dedi. – O cür gələn pulları sinirmək olmaz, axı.

Məlik tənbehdən başını aşağı saldı, mızıldandı:

– Mən əlimə gələn pulun bir manatını da tək yeməmişəm, – dedi.

Rəis bu deyimin sözaltı mənasını başa düşdü. Barıt çəlləyi kimi partlayacaqdı ki, qapı açıldı, bir cavan oğlan içəri girdi. Rəis hirsini boğdu, mülayim halda:

– Fərasət, gəl görüm, – dedi.

Fərasət onun arvadının bacısı oğluydu. Bu yaxınlarda ali məktəb qurtarmışdı. Rəis arvadının tapşırığı ilə Fərasəti işə götürmüşdü. Bilirdi ki, başından bir tük əskik olsa, evdə günü qara olacaq. Fərasət laqeydliklə:

– Eşidirəm, qohum, – dedi.

Rəis qayğı ilə dilləndi:

– Oğlum, bizim vəzifəmiz vergi yığmaqdır, qanunları qorumaqdır. Bizim haqsızlıq eləməyə haqqımız yoxdur, – dedi. – Yenə nə hoqqadır çıxartmısan?

Fərasət eyni laqeydliklə:

– İndi nə günah işlətmişəm? – deyə soruşdu.

Rəis qayım səslə:

– Hələ bir üzün də var danışmağa? – dedi. – Kompüterə qoydum, bir faylı açmaq üçün sahibkarlardan pul yığdın, bizi biabır elədin. Bəyannamə bölməsinə keçirtdim, qəbula gələnlərə qan uddurdun. Beş «şirvan» almamış sənədlərə qol çəkmirdin. Aləmi qarışdırırdın bir-birinə. Keçirtdik səni sahələrə nəzarətə, buyur, yenə də qalmaqal.

Fərasət ərköyünlüklə kürsülərdən birinə yayxandı. Rəisə baxmadan:

– Ay qohum, nə pis iş görmüşəm e? – dedi.

Rəis bezgin halda:

– Ə, sənə neçə dəfə demişəm mənə «qohum» demə!

– Bəs, nə deyim?

– Əmi desən, dayı desən dilinmi lal olar?

Fərasət hırıldadı:

– A qohum, haçan sən mənə dayılıq elədin, əmilik elədin? – dedi. – Bir dənə cındır vəzifə vermisən, hər gün çağırıb uşaq kimi danlayırsan.

Rəis bu sözdən tutuldu. Nəsə demək istəyirdi ki, Fərasət aman vermədi:

– Mən yazıq, bu istidə ləhləyə-ləhləyə küçələrə düşmüşəm, sizin üçün pul yığıram, bu da mənim mükafatım, – dedi. – Allah şahiddir ki, əlimə gələni qəpiyinə qədər gətirib Məlik müəllimə verirəm. Payıma düşəni özü verir. Oturmusan sərin yerdə, elə bilirsən, pul yığmaq asandır. Hansı mağazaya girirsən, dəsmal götürüb ağlayırlar. Öz xoşu ilə nə verirlər ki? Buna görə qalmaqal da olur, hay-küy də olur, arada hoqqa da çıxır. Neyniyim, hamını yola vermək olmur, axı.

Fərasət danışdıqca qızışırdı. Rəisin hövsələsi tükəndi:

– Kəs səsini, qırışmal! Mən sənə demişəm, get, xalqa şər at, onu soy? – deyə qışqırdı.

Fərasət duruxdu. Astadan mızıldandı:

– Sən deməmisən, Məlik müəllim deyib. Səhər çağırdı, dedi, «Fərasət, idarəyə pul lazımdır. Rəisin tapşırığıdır». Mən də düşdüm küçələrə,… – dedi və qoltuğundan bir qom pul çıxarıb atdı masanın üstünə.

Rəis dik atıldı:

– Sənin yığdığın pul başına dəysin. Sənə görə mən xalqın yanında başı aşağımı olmalıyam? – dedi. – İtil gözümdən. Sən daha işləmirsən. Məlik müəllim, bunun əmrini hazırla.

Fərasət qohumunu heç belə hirsli görməmişdi. Bayaqkı yekəxanalığından əsər qalmadı. Suyu süzülə-süzülə kabinetdən çıxdı. İndiyə qədər arxayın oturan Məlik müəllim də ayağa durdu. Sual kimi rəisin qabağında dayandı. Çəkinə-çəkinə dilləndi:

– Rəis, pul yığmağın başqa yolu yoxdur, axı, – dedi. – Ara yerdə o cür müfəttişi işdən çıxardırsan. Təki hamı Fərasət kimi olaydı, indi dirəyimiz də qızıldan idi.

Rəis fikrə getdi...

## XƏBƏRÇİ

Hamı bilirdi ki, Fail işverəndir. Xalq arasında xəbərçilərə belə deyirlər. Bu arıq, sısqa kişi o qədər mülayim, o qədər üzügülərdi ki, buna heç kimin inanmağı gəlmirdi. Səliqə-sahmanlı geyinir, ölçülü-biçili danışırdı. Onun nə sevinən, nə də kədərli vaxtını görən olmuşdu. Oğul-uşaqdan, ata-anadan, bacı-qardaşdan nəyi var idi, nəyi yox idi, heç kim bilməzdi. Bu adam bağlı boğça idi.

İdarənin əməkdaşları söz-söhbətlərini elə qururdular ki, daha Fail ora-bura heç nə çatdıra bilməsin. Hamı

oturuşuna-duruşuna fikir verirdi. O, idarədə görünəndə yeriyən yerişini, gülən gülüşünü, danışan danışığını itirirdi.

İşə təzə girmiş bir gəlinə idarənin əməkdaşları Failin əməllərindən o ki var, demişdilər. Başını elə doldurmuşdular ki, yazıq qız yerindən tərpənməyə qorxurdu. Onunla üzbəüz oturmuş Qətibə lağ eləyirdi:

– Az, bu Fail əzrayıl deyil ki! Hərdən dəhlizə çıx, havanı dəyiş, qonşu şöbələri gəz, söhbətləş, – dedi. – Nə bitib qalmısan?

Gəlin başını buladı:

– Yox, bacı, mən buna ürək eləyə bilmərəm, – dedi. – Yüz minnətlə işə götürüblər. Çıxardarlar, qalaram avara, xərcim də batar.

Qətibə ürəkdən gülürdü. O, Faildən çəkinmirdi. Onu görən kimi bərkdən deyirdi:

– Bəzi adamlar özlərinə sənət tapıblar da. Söz gəzdirməklə, ara vurmaqla baş dolandırırlar. Özgə vaxt kişilikdən danışırlar. Amma arvad kimi hülqumları yoxdur. Nə bəndədən qorxurlar, nə də Allahın qəzəbindən.

Bir dəfə şöbə müdiri Əli müəllim Qətibəni yanına çağırdı. Ordan-burdan söhbət edib sonra mətləbə keçdi:

– Ay Qətibə xanım, mənim sənə böyük hörmətim var, – dedi. – Vəzifəni yaxşı bilirsən, özün də çox savadlı qadınsan. Amma dilinin dilçəyi yoxdur. Sənin nə borcuna, rəisin qızı nə geyinir, nə geyinmir... Tayın-tuşundur? Lağ eləməyə adam tapmırsan?

Dilli-dilavər Qətibənin matı qurudu:

– Əli müəllim, bunu sizə nə tez çatdırdılar? – dedi. – Heç bir saat deyil mən o sözü demişəm. Kimdir bu adam, axı?

Əli müəllim rəncidə halda ağ saçlarını sığalladı:

– Bu adamın kimliyi sənə gərək deyil, Qətibə xanım. Çatdıran çatdırır da, – dedi. – Başını aşağı sal, işini gör. Baxmaram dostumun bacısısan. Çıxardaram, ataram bayıra.

Qətibə dilini yenə də saxlamadı:

– Əli müəllim, olmaz ki, dedi-qodu ilə məşğul olanı atasan bayıra? – dedi. – İndi nə zamandır, şöbədə casus saxlayırsız?

Əli müəllim onunla çənə-boğaz eləməyi artıq saydı, sakitcə dedi:

– Qətibə xanım, qurtardıq. Yadında qalsın, divarların da qulağı var.

Şöbə müdirinin otağından çıxan Qətibə bulud kimi tutulmuş yerinə adladı. Sağ tərəfindəki masanın arxasında oturmuş Məzahirə qeyzlə dedi:

– O söz gəzdirəni tapsaydım, inan ki, didərdim. Zalım balası, günümüzü qara eləyib də. Ağzımızı açmağa macal vermir.

Məzahir pıçıltı ilə dedi:

– Az, səsini kəs. Görmürsən Fail otaqdadır.

Qətibə eşitmirmiş kimi daha bərkdən dedi:

– Onu-bunu qaralamaqla çörək qazanırlar. Allah kəssin elə çörəyi.

Məzahir yerindən durdu, tez dəhlizə çıxdı. Fail ilə münasibəti xoş olsa da, ondan bir az çəkinirdi. İnsandı da, fikirləşdi, olmadı elə, oldu belə, bir şey tapıb, apardı qoydu müdirin ovcuna. Onda ölünü qoy, dirini ağla. Əli müəllimlə Məzahirinki tutmurdu. Həftə yeddi, mən səkkiz, deyişirdilər. Əlinə bəhanə vermək olmazdı. Keçənlərdə Məzahirin Failə yaxşılığı dəymişdi. Aralarında salam-əleyk var idi. Failin əli böyüklərin ətəyində olduğundan bir neçə dəfə Məzahirə kömək eləmişdi.

Bir siqaret odladı. Qətibənin Fail haqqında dediklərinə inanırdı, amma bunu müzakirə eləməyə həvəsi yox idi. Kölgə kimi arxasında bitmiş Faili görüb alışqanı əlindən saldı. Boğuq səslə:

– Allah evini tiksin, qorxutdun ki, məni, – dedi. – Az qala ürəyim düşsün.

Fail asta səslə:

– İndi sənə elə bir şey deyəcəyəm, ürəyin doğrudan düşəcək, – dedi. – Sənin adını hallandırırdılar. Özünü gözlə.

Məzahirin rəngi ağardı:

– Harda?

Failin üzü bir az da büzüşdü:

– Müavinin kabinetində, – dedi. – İclas idi. Bizim Əli müəllim də orda idi. Ən çox canfəşanlığı müavin edirdi.

Məzahir mat qaldı:

– Balam, mən ona heç nə eləməmişəm, axı, – dedi. – Nə tapşırıq verir, yerinə yetirirəm, hörmətini saxlayıram. O, mənə niyə düşmən kəsilib?

Fail çiynini çəkdi:

– Əli müəllimdən soruşdu ki, Məzahir hələ də orda işləyir? Müdirimiz qayıtdı ki, bəlkə dəyməyək, yazıqdır, bir çətən külfəti var, işləməyinə də söz yoxdur. Getdiyi yerdən boş qayıtmır. Müavin hirsləndi, dedi ki, dikbaşın biridir, qov, getsin.

Məzahir təlaşla:

– Bəs, bizim Əli müəllim nə dedi? – Soruşdu.

Failin nazik dodaqları əyildi. Bu onun gülüşü idi:

– Müdirimizi tanımırsan? Başını ağır-ağır tərpətdi. Müavin cin atına mindi, onun üstünə çımxırdı: «O boş başını tərpətməkdənsə sözümü yerinə yetir, yoxsa, rəisin yanında səni daha müdafiə etməyəcəyəm». Əli müəllim qızardı, kabinetdən çıxanda «Baş üstə!» – dedi.

Məzahir əlini əlinə vurdu:

– Ay namərd! – dedi. – Mən Əli müəllimi kişi bilirdim. Demə, əskiymiş.

Fail ona etiraz etdi:

– Elə demə, müdirimiz mərd adamdır, – dedi. – Hər deyiləni yerinə yetirən deyil. «Baş üstə!» – deməyinə baxma, öz bildiyini edəcək.

Məzahir Failə razılığını bildirdi. Narahat halda şöbəyə girdi. Makinaçı qız barmağı ilə müdirin otağını göstərdi:

– Səni istəyir, – dedi.

Otaqda hamı başını aşağı salıb, işlə məşğul idi. Guya, müdirin çağırışı heç kimi maraqlandırmırdı. Amma Məzahir bilirdi ki, hamı qulağını şəkləyib gözləyir.

Müdir onu çox mehriban qarşıladı. Yer göstərib dedi:

– Dostum, biz neçə illərdi bir yerdə işləyirik. Arabir atışmağımıza baxma, səndən razıyam. Amma, rəis müavininə neynəmisənsə, deyir ki, iti görüm, qurdu görüm, onu görməyim.

Məzahir müdirin bu mehribanlığından az qaldı qəhərlənsin:

– Əli müəllim, keçən il belə bir iş olub. Qohum-əqrəbasına cərimə yazmışam. Bəlkə, ona görə belə eləyir?

Müdir maraqlandı:

– Nə üstə cərimələmişdin?

Məzahir köhnələri yada saldı:

– Qaydaya görə bütün obyektlər bizimlə müqavilə bağlamalıdır. Müavinin bir qohumunun mənim sahəmdə mağazası var. Tullantıların yığışdırılması haqqında müqavilə bağlamalı idik. O da müavinə güvənib, razı olmurdu. Mən də akt bağladım, sənədləri hazırladım, göndərdim məhkəməyə. Tutub ciyərini çıxartdılar. Ondan sonra gəldi, müqavilə bağladı.

Əli müəllim təəssüflə:

– Başa salaydın, məsələ bu mərtəbəyə qalxmayaydı, – dedi.

Məzahir and içdi:

– Əli müəllim, canım üçün, düz bir həftə onun obyektinə ayaq döymüşəm. Hər üzünə söhbət eləmişəm. Başa düşmədi. Deyirdi ki, sizin bu zibil idarəniz məni dəng elədi.

Şöbə müdiri təəccüblə:

– Bizim kommunal təsərrüfat idarəmizə zibil idarəsi deyirdi? Qohumu da rəis müavin ola-ola?

Məzahir əllərini yana açdı:

– Nə cür deyirdi, elə də deyirəm: «Zibil idarəsi». Bir neçə latayır söz də dedi, daha onları təkrar eləmirəm, – dedi.

Əli müəllim yanağını qaşıdı:

– O cüvəllağını mən yaxşı tanıyıram, – dedi. – Daha nə deyib? Gizlətmə.

Məzahir dilini sürüdü:

– Deyirdi ki, siz də sənət tapmısız? Kişi də zibildən çörək qazanar?

Əli müəllimin sifəti bir az da dəyişildi. Məzahirə dedi:

– Yaxşı, get, hər şey aydın oldu. Elə bil aramızda bu söhbət olmayıb. Necə var, elə də işlə.

Məzahir kabinetdən çıxandan sonra ürəyi yerinə gəldi. Şöbə müdiri ilə həmrəylik yaranmışdı. Qalırdı müavinin dərsini vermək. Fikirləşdi ki, bunun yolunu Fail bilər. Ondan xahiş etdi ki, işdən sonra bir az yubansın, söhbəti var.

Fail ona şübhə ilə baxdı. Məzahir ümidlə dilləndi:

– Mənə səninköməyin lazımdır.

Fail soyuq-soyuq:

– Elədim də, – dedi. – Daha nə istəyirsən?

Məzahir sıxıla-sıxıla fikrini axıra çatdırdı:

– Sən…, sən rəisin yanında tez-tez olursan.

Fail bir müddət susdu. Məzahir onun ştatda olmayan işindən söhbət edən birinci adam idi. Haçandan-haçana dilləndi:

– Tutalım ki, oluram.

Məzahir utana-utana dedi:

– Elə elə ki, zirzəmilərin icarə sənədlərini yoxlatdırmaq üçün komissiya yaradılsın. Müavin onları sənədsiz icarəyə verib. Zirzəmilərdə gör nə qədər obyekt var. Onlardan icarə pulu hara gedir, məlum deyil. Bunu rəisimizə söz gəlişi çatdıra bilərsən?

Fail gülümsədi:

– Afərin! – dedi. – Bunu özün fikirləşibsən, yoxsa, məsləhət görüblər?

Məzahir də güldü:

– Bütün sənədlər əlimin altındadır da, – dedi. – Mənimlə işi olmasaydı, mənim də onunla işim olmazdı.

Fail başını buladı:

– Söz vermirəm, – dedi. – İmkan düşdü, deyərəm.

Bir həftədən sonra müavin kürsüsündə başqa adam otururdu. Məzahir asudə nəfəs aldı. Xəbərçi Faildən də xeyir görmək olarmış...

## QİYMƏT

Vəziyyət xarab idi. Amma heç kim özünü o yerə qoymurdu, hamı deyib-gülürdü. Gözəl tələbəlik illərinin qara gününü mətinliklə qarşılamaq istəyirdilər. Fakültənin «küpəgirən» adlandırdığı Səmayə xanım elektrik nəzəriyyəsindən onlara «zaçot» yazmırdı. Dörd dost səbrlə Vilayəti gözləyirdi. O, söz vermişdi ki, çarə tapacaq. Dostlar inanmasalar da, suda batan saman çöpündən yapışan kimi sözdən yapışmışdılar. Vilayət də gəlib çıxmaq bilmirdi.

Yataqxana imtahan qabağı çaxnaşmaya düşmüşdü. Hər şey, hər kəs hərəkətə gəlmişdi. Hətta qarşıdakı bağçanın ağacları da elə bil bir yerdə dayanmırdı, dingildəyirdi. Yaz günəşi xoş bir hərarətlə göyün ortasında sallanıb, dayanmışdı.

Danışıb-danışıb, yoruldular. Əndişədən dördünün də gözü yol çəkdi. Amma qüssəli oturmaq Elxanın işi deyildi. Ağacın altındakı oturacaqda qərar tutmuş Turacın əlindən tutdu.

– Başına dönüm, ay Turac, bə deyirdin nənəm falçı olub, sən də bir az bu elmdən halisən! – dedi. – Cadu-piti eləyib canımızı bu «küpəgirən»dən qurtarsana!

Sərrast atmacaları ilə həmişə hamını güldürən qız batqın səslə dedi:

– Şittəmə, yoxsa, könlündən şapalaq keçir?

Hamı yenidən dirçəldi. Turacın solunda oturmuş Məhiş təəccübləndi:

– Uşaqlar, siz bilən Səmayə xanım bizimlə niyə düşünüşüb? – dedi. – Bizdən nə istəyir? Pul almır, zəngə durmur, söz eşitmir, bəs, istədiyi nədir? Niyə bizdən zəhləsi gedir?

Elxan sarı saçlarını sığalladı, güldü:

– O, bizi sevir. Bizsiz dayana bilmir, ona görə də hər gün bizi çağırtdırır.

Məhiş qara bığlarının altından qımışdı:

– Yaman sevgidir. Bir həftədir bizi süründürür. Axırımıza çıxmasa əl çəkməyəcək. Sevgiyə bax!

Elxan inadla:

– Sevgidir də, amma qəddar sevgidir.

Turac ürəkdən güldü:

– Bunu hardan çıxartdın? – dedi. – Ay özündən toqquşdurursan ha.

Elxan təslim olmadı:

– Qarımış qızların xasiyyətidir. Onların girinə biri keçdi, vay halına. Bu da bizim payımıza düşüb. Nə yaxşı ki dörd nəfərik. Tək olsaydıq halımız lap ağır olardı.

Bir xeyli güldülər. Kefi kökəlmiş Turac:

– Ə, sən bunları hardan bilirsən? Dünənin uşağısan.

– Bilirəm də.

Bayaqdan susan Məhiş tıntın səslə dedi:

– Biliciyə bax da. Elə bil bütün ömrü boyu qarımış qızlarla oturub-durub.

Elxan fikrini tamamlamağa macal tapdı:

– Ə, bəs Turac nədir?

– Turac bacının bura nə dəxli var? – Məhiş təəccübləndi.

– O da qarımış qızdır da, iyirmi dörd yaşı var, – deyə Elxan təmtəraqlı səslə qeyd etdi.

Yenə də gülüşdülər. Bayaqdan susan Məmməd asta-asta dilləndi:

– Bilirsiz, uşaqlar, Səmayə xanım hər axşam parka gəzməyə çıxır. Bir saat, saat yarım orda vaxt keçirir…

– Qoca arvaddır da, tənha yaşayır, evdə darıxır, çıxır parkı gəzir, – deyə Məhiş çiyinlərini çəkdi. – Nə olsun?

Məmməd eyni asta səslə davam etdi:

– Parkın işıqları da zəif yanır, adam da çox olmur. Evləriynən parkın arasındakı küçə dolanbacdır, həm də qaranlıqdır.

Elxan qəribə bir maraqla ona baxdı:

– Olmaya vurulmusan ona? Gecələr o tərəflərdə neynirdin ki? – dedi.

Məmməd qayım səslə davam etdi:

– Uşaqlar, sizə bir sirr də açım. Heç demə, Səmayə xanım pişikdən qorxur. İndi, – dedi, – təsəvvür edin, qaranlıq küçədən keçirsən, üstünə pişik atılır, halın necə olar?

Məhiş yerindən dik qalxdı:

– Bura bax, belə söhbətləri burax. Baxmaram dostuq, ha, səni möhkəm əzişdirərəm, – dedi.

Turacla Elxan təəccüblə:

– Sizə nə olub?

Məhiş əlini yellətdi:

– Heç nə, – dedi. – Bu çölçü təklif edir ki, Səmayə xanımı gecə gəzintisi vaxtı qorxudaq, bağrını çatladaq. Bayaqdan deyir, deyir, fikrini indi başa düşürəm.

Məmməd utana-utana boynuna aldı:

– Bə, neyniyək, axı? – dedi. – Əl çəkmir yaxamızdan. «Zaçot»u verməsək imtahanlara da buraxmayacaqlar.

Məhişin hirsi bir az soyudu:

– Allah evini tiksin, bir «zaçot»a görə, deyirsən, adam öldürək?

Məmməd dilini nırçıldatdı:

– Əşi, niyə ölür e, üzü bərk arvaddır, deyirəm, bir az qorxudaq.

Məhiş əlinin dalı ilə havanı kəsdi:

– Boşla, dedim, sənə! – dedi. – Bu söhbəti qurtardıq.

Elxan xəyala qapılaraq:

– Amma, nə yaxşı olardı, – dedi. – Bir balaca qorxsaydı, bir balaca xəstələnsəydi, dərhal yerinə başqa müəllim təyin edərdilər, biz də «zaçot»umuzu alardıq. Biz ki fənni bu cür bilirik, lap Əflatuna da imtahan verə bilərik.

Turac Elxana təpindi:

– Bəsdir, heç lağlağı yeridir! – dedi və Məmmədə tərəf çevrildi. – Qoca arvaddır, bir haya bənddir. Sənin kimi ürəyiyumşaq oğlanda belə əzazillik hardandı? Heç belə bilməzdim?

Məmməd ah çəkdi:

– Gül kimi plan cızmışdım. Hayıf ki, xoşunuza gəlmədi.

Elxan ona təsəlli verdi:

– Ürəyini sıxma, uzaq başı institutdan qovacaqlar. Ölüm deyil ki! Qayıdarsan kəndə.

Məmməd yanğı ilə dedi:

– Sizə nə var e? Dərd mənim dərdimdir. Atam xəbər tutsa kəsilmişəm, gələcək şəhərə, qatıb qabağına aparacaq kəndə. Gələndə şərt kəsmişik, axı. Kəsirim oldu, onunla qoyuna gedirəm. Kişi tərsdir, dediyini eləyəcək.

Məhiş onun könlünü almaq üçün:

– Mən isə, Allahdan istəyirəm qovsunlar. Qurtarıb neyləyəcəyik e? İş yox, güc yox. Qalır arvad almaq, – dedi.

Elxan istehza ilə:

– Bə, arvadı kim saxlayacaq? Atan?

Məhiş ruh yüksəkliyi ilə:

– Elə niyə? – dedi. – O qədər qız var ki, evi də var, eşiyi də var. Hətta maşını da var.

Məmməd ondan gözlənilməyən bir ifadə ilə qeyd etdi:

– Onda, yanıbalalı al. Daha zəhmət çəkib, uşaq əkməyəsən.

Ürəkdən güldülər. Arxadan yaxınlaşan Vilayət onları şad-xürrəm görüb başını buladı:

– Maşallah, kefiniz kökdür ki! – dedi.

Dostlar onun gəlişinə sevindilər:

– Gəl, çıx da. Harda batmışdın, ay ağsaqqal? – deyə Turac çığırdı.

Vilayət günahkar halda:

– İşim vardı, – dedi və təklif etdi. – Onsuz da vaxtımız var, gedək çaydan-çörəkdən yeyək, həm də söhbət edək.

Onlar öcəşə-öcəşə yataqxananın həyətindəki kafeyə girdilər. Sifariş verdilər. Vilayətin iyirmi yeddi yaşı vardı. Hamı ona ağsaqqal deyirdi. Gəlib düşmüşdü özündən beş-altı yaş kiçiklərlə bir qrupa. Bu, bərkə-boşa düşməmiş uşaqlara ürəyi yanırdı. Turac qəmli-qəmli dedi:

– Uşaqlar, hamı bilir ki, ağsaqqal kimi yaxşı oğlan, nəinki bizim qrupda, heç bütün kursda da yoxdur. Onun xətrini istəməyəni tanımıram.

Vilayət dikəldi:

– Ay Turac, proloqsuz söz deyə bilmirsən?

Turac onu eşitmirmiş kimi sözünə davam etdi:

– Bu adam qızıldır, gözümüzün işığı, qrupumuzun yaraşığıdır.

Elxan Turacı hamıdan yaxşı tanıyırdı. Ona vagirə tuturdu:

– Turac, üzmə bizi, – dedi. – Bunu bilirik.

Turac ona göz vurdu:

– Elxan, ağsaqqal istəsə daha yaxşı oğlan ola bilər.

Elxan yalançı bir maraqla:

– Nə təhər? Necə?

Turac barmağını yuxarı qaldırdı:

– Ancaq savab işlərlə.

Vilayət əllərini yana açdı:

– «Zaçot»unuzu verən günü sizə bir qonaqlıq verəcəyəm. Razı qaldız? – dedi.

Turac əlini yellətdi:

– Yox, bu nəzirdir, savab iş başqa şeydir.

Vilayət təəccüblə:

– Hansı savab işdən söhbət gedir?

Turac, nəhayət, onun tilova düşdüyünü görüb pıqqıldadı:

– Ay dilbilməz, Səmayə xanımı alsan, olur savab iş. Həm onun bəxti açılır, həm də bizim.

Vilayət qıpqırmızı qızardı:

– Ay qız, insafın yoxdur? O hara, mən hara.

Turac başladı məzələnməyə:

– Nə olar, evi, eşiyi, bankda hesabı! Bir az yaşı çoxdur.

Elxan özünü itirmiş Vilayətin əvəzində, guya, cavab verdi:

– Yaxşı, aldım, sabah yıxılıb öldü, qaldım dul, mənə kim gələcək?

Turac gülüşdən boğula-boğula:

– Qoy, canımızı bu semestr onun əlindən qurtarsın, dul qalan günün səhəri yeddi xalamın hansını istəsə ona verərəm.

Daha onlarda gülməkdən can qalmadı. Vilayət özünü itirmiş halda:

– Uşaq-muşaq əlində qalmışam! Heç lağlağının yeridir? Mənə deyən gərək nə işinə qalıb, qoy canları çıxsın, özləri öz dərdlərinə çarə qılsınlar, – dedi və hələ də pıqqıldayan Turacın üstünə düşdü. – Sənə deyirdim, axı, az gül, az dola bu arvadı. Deyirdin, ağsaqqal əxlaq müdərrisi olub. İndi buyur, ayın otuzudur, axırıncı gündür, hələ də qiymət kitabçası əlində gəzirsən.

Doğrudan da, Turac Səmayə xanımla belə şeylərin üstündə atışmışdı. Mühazirələrdə özünü çox sərbəst aparırdı. İyirmi dörd oğlanın arasında baş dolandırmaq hər qızın işi deyildir. Səmayə xanım onun oğlansayağı hərəkətlərindən bezikib, demişdi ki, ay qız, sən niyə qoşulmusan bunlara, sənin ərə gedən, uşaq bəsləyən vaxtındır, sənsə dingildəyirsən. Turac onu hoyduya qoymağa hazırlaşan oğlanların ümidini gözündə qoymuşdu, Səmayə xanımın cavabını vermişdi: «Müəllimə, bu nəsihətdən vaxtında özünüzə etsəydiniz, indi mənim boyda nəvəniz vardı» – demişdi, bununla da münaqişənin əsası qoyulmuşdu.

Onların sifarişi, nəhayət, gəldi. Çay, şirin kökə, dönər uşaqları susdurdu. Hərə payını çəkdi qabağına. Vilayət Turacın süzdüyü çaydan bir qurtum içib dedi:

– Sözümə qulaq assanız, Səmayə xanımı yola gətirəcəyəm.

Məmməd hövsələ eləmədi, tikəni udmamış soruşdu:

– Nə təhər, ə? Haçan, ə? İki saatdan sonra «zaçot»dur e, haçan yola gətirəcəksən?

Tikəsi boğazında qaldı, Məhiş bir-iki dəfə onun kürəyinə vurdu.

– Qulaq as, bala, yeyəndə danışmazlar. Qoyunların pambıq tarlasına girməyib ki!

Vilayət barmağını qaldırdı:

– Susun, lağlağı qurtardı, – dedi və üzünü Elxana çevirdi. – Sən şirin dilini işə sal, sonrası mənim boynuma. Onun gözəl oğlanlardan xoşu gəlir. Özünü elə apar ki, guya, o da kursun qızlarından biridir, guya bişirirsən.

Elxanın ağzı getdi qulağının dibinə:

– Baho! Sən də Turac kimi danışırsan ki.

Vilayət əllərini yana açdı:

– Başqa çarə yoxdur.

Elxanın yaddaşı yaxşı idi. Özünə zəhmət verib mühazirə-filan yazmazdı. Səmayə xanım belə şeyə dözməzdi. Acıqla soruşmuşdu ki, balam, niyə yazmırsan, imtahana nə təhər hazırlaşacaqsan? Elxan da qayıtmışdı ki, Səmayə xanım, Məhişlə bir otaqda qalıram, alıb oxuyaram. Səmayə xanım da hirslə demişdi ki, neynək, imtahanı da Məhişə verərsən. Bununla da qara günləri başlamışdı.

Vilayət üzünü Məmmədə çevirdi. Başladı onu diqqətlə nəzərdən keçirtməyə. Birdən gülümsədi:

– Ayə, Məmməd, yenə çaxır içirsənmi? – soruşdu.

Məmməd yerində qurcuxdu. Turac heyrətlə dedi:

– Məmməd çaxır içir? Vay-vay, yəqin, dərd onu yıxıb.

Məmməd uşaqların gülüşünə etina etmədən:

– Heç kimin ağsaqqalın yanında əyri işi olmasın, adam biabır edəndir, – dedi. – Keçən il kirayə qaldığım evə qonaq gəlmişdi. Yemək hazırladım. Bir dənə də çaxır aldım. Bir yerdə içdik. Bu, mənim qonaqpərvərliyim, bu da onun çoxsağolu!

Vilayətin fikri iti işləyirdi:

– Üzün tüklü, saçların pərişan, gözlərin də qızarıb! Əladır! – dedi.

Məmməd başa düşmədi:

– Göz qızarar da! – dedi. – Səhərə qədər mühazirə oxumuşam.

Vilayət əllərini bir-birinə sürtdü:

– Sənin işin düzələcək.

Məmmədin solmuş yanaqlarına qan gəldi:

– Ağsaqqal, bu işi görsən, sənə iman gətirəcəyəm.

Vilayət ona tapşırdı:

– Köntöylüyü burax, işləri korlama, hər şey yaxşı olacaq.

Məmməd zavala başqa səbəbə görə gəlmişdi. Səmayə xanım bəzən mühazirəni saxlayır, sual verirdi. Qaldırdığı tələbədən düzgün cavab almadıqda, yaxınlaşıb başına çırtma vururdu, deyirdi: «Necə də kütsən, ay bala! Bu biliklə mühəndis olmaq istəyirsən?» Məmmədin də başına belə bir əhvalat gəlmişdi. Səmayə xanımın onun başına çırtma vurmağa hazırlaşan əlini tutub, masanın üstünə qoymuşdu. Demişdi: «Başımın, müəllimə, heç

bir günahı yoxdur. Onunla işiniz olmasın». Səmayə xanım hesabı vermişdi içəri.

Vilayət Məhişə tərəf çevrildi:

– Dayın Səmayə xanıma neyləyib ki, o, belə kin saxlayır?

Məhiş dilini sürüdü:

– Deyirlər, bir on il qabaq dayım Səmayə xanımdan qiymət alanda, fırıldaq işlədib.

Vilayət çox maraqla:

– Yox, canım! Nə təhər olub? – soruşdu. – Bunu təfsilatı ilə danış görüm.

Məhiş ləzzətlə başladı:

– Əhvalat belə olub. Dayımın alimliyinə baxmayın, cavanlıqda lotu olub. Başı kefə qarışır, bir də ayılır ki, sabah imtahandır. Çox fikirləşəndən sonra, qoyur qabağına on üçüncü bileti, yaxşıca əzbərləyir. Səhərisi imtahana girir, şəstlə bilet çəkir…

Bu yerdə hamı bir ağızdan dedi:

– On üçüncü bilet!

Məhiş güldü:

– Tökülmüşdü, – dedi. – Dayım biletə baxan kimi, cəld onu masanın üstündəki biletlərə qarışdırır. Səmayə xanım dik atılır: «Ə, neynirsən?» Dayım deyir: «Müəllimə, on üçüncü bilet düşmüşdü, nəhsdir. Qoy, başqasını çəkim». Səmayə xanımın gözü az qalır kəlləsinə çıxsın: «Dəli olmusan? Nə düşüb onu da danışacaqsan». Özü öz əli ilə on üçüncü bileti axtarıb tapır, verir da-

yıma. Dayım yalandan bir az yalvar-yaxar eləyir, sonra onun hökmünə tabe olur. Bir dənə kök beş alır.

Vilayət:

– Bəs, müəllimə aldandığını bilmir?

– Sonradan bilib. Bəs, eşitmirsən, deyir ki, bütün kursu bilməyənə aman yoxdur. Kələklə bir tələbəm məndən qiymət alıb, o da indi alimdir. Elə ki, bildi mən onun bacısı oğluyam, Səmayə xanım mənimlə düşmən oldu.

Vilayət tüklü üzünü qaşıdı:

– İşıq yeri var, narahat olma, – dedi. – Atan necədir?

Məhiş narahat halda:

– Canı ağrıyır, işə gedə bilmir. Gərək bu axşam özüm durum yerində. Keşikçilikdən əl çəkmir. Deyirəm, əşi, təqaüddəsən, nəyinə gərəkdir? Gülür deyir, bala, bəlkə lazım oldu. İnstitutu qurtaranlara iş verən kimdir ki, gələrsən, durarsan mənim yerimdə.

Vilayət başını tərpətdi, bayaqdan fikrə dalmış Turaca tərəf döndü:

– Hə, ay qrupumuzun ağbirçəyi, nə fikrə getmisən?

Turac narazılıqla:

– Bu nə sorğu-sualdır ey? – dedi. – İş-gücün yoxdur? Bizi niyə avara edirsən?

Vilayət onu eşitmirmiş kimi təklif etdi:

– Sən qrupun ağbirçəyi, mən ağsaqqalı, gəlsənə müvəqqəti kəbinimizi kəsdirək?

Uşaqlar yenə şənləndilər. Turac bezgin halda:

– Uşaqlarla durub-oturduqca, sən də uşaqlaşırsan a, heç belə zarafatın yeridir? – dedi.

Vilayət ayağa durdu:

– Qorxmayın, hər şey yaxşı olacaq, – dedi. – Mən sizdən qabaq institutda olacağam. Siz bir az gecikin. Görüm Səmayə xanımı bişirə bilirəm.

Uşaqlar heç nə başa düşmədilər, amma ağsaqqalın dalınca ümidlə baxdılar. Bir azdan tərpəndilər.

On dəqiqəyə instituta çatdılar. Onlar auditoriyaya girəndə Səmayə xanım Vilayətlə şirin-şirin söhbət edirdi. Onun əlli, əlli beş yaşı olardı. Xasiyyəti Xəzri kimi dəyişkəndi. Qocalığın möhürü dəyməyən bircə səsiydi, cingiltili və xoş idi.

Uşaqları görüb müəllimə tez ciddiləşdi, onları hərbə-zorba ilə qarşıladı:

– Hə, belə quzuya dönərsiniz! Bilmirdiniz, hər aydınlığın bir qaranlığı var? Bilmirdiniz, dünya qapalı dövrədir? Oturun! – dedi və onların yan-yana oturmaqlarını müşahidə etdi.

Vilayət gülümsəyirdi. Səmayə xanım Məmmədə diqqətlə baxıb çığırdı:

– Bu nə üst-başdır? Səndən nə mühəndis çıxacaq? Üzünü qırxa bilmirsən?

Məmməd çaşqın-çaşqın:

– Səmayə xanım, toya gəlməmişəm ki? – dedi.

Səmayə xanım istehza ilə:

– Bala, heç yasa da gəlməmisən, axı? – dedi. – Üzü tüklü, saçları pırpız, gözü qızarmış imtahana gələrlər?

Məmməd ağzını açmaq istəyirdi. Vilayət ona göz vurdu ki, dinmə, Səmayə xanıma astadan dedi:

– Müəllimə, onun dərdi böyükdür.

Səmayə xanım maraqlandı:

– Nə olub ki?

Vilayət kədərlə dilləndi:

– Məmmədin kirayə qaldığı evin sahibəsi, heç demə, içki düşkünüdür. Bu yazığa da gün vermir, məcbur edir ki, içsin.

Səmayə xanımın gözü kəlləsinə çıxdı:

– Nə danışırsan?

– Düzü belədir, Səmayə xanım, – deyə Vilayət qondarma kədərlə dedi. – Yazıq ev sahibəsinin əlindən dərs oxuya bilmir.

– Çıxsın ordan…

– Belə ucuz ev tapmaq elə bilirsiz asandır?

– Əşi, nağıl danışma. – Səmayə xanım çığırdı. – İçkini boğazına zorla tökürlər, içməsin.

Vilayət rəngləri lap tündləşdirdi:

– Bəla ondadır da, – dedi. – Ev sahibəsi Məmmədi evdən qovmaqla hədələyir.

Səmayə xanım vaysılandı:

– Vay! Yazıq, institutu qurtarana qədər kefli İsgəndərə dönər ki!

Bayaqdan mat-məhbut qulaq asan uşaqların qırışığı açılırdı. Bu yerdə Elxan onu hamıya sevdirən məxsusi təbəssümü ilə söhbətə qarışdı:

– Səmayə xanım, yazığın iştahı küsüb, üzünü qırxmağa ərinir, həyatdan bezikib… Bu hamısı içkinin fəsadlarıdır.

Səmayə xanımın alnı qırış-qırış oldu, Məmməddən soruşdu:

– Nə qədər içirsən, bala?

Məmməd özünü lap itirmişdi, bilmədi nə cavab versin. Ağsaqqal onun köməyinə gəldi:

– Müəllimə, hər gün iki şüşə boşaltmasa, ev sahibəsi ondan əl çəkmir, – dedi. – Bazar günləri isə lap dəhşətdir. Özüm şahidiyəm. Üç şüşə içirdir.

– Məmməd, niyə belə edirsən? – Səmayə xanımın gözləri yaşarmışdı. – Canına yazığın gəlsin, bala. Tüpür o evə, çıx get ordan, şikəst olarsan. Qiymət kitabçasını ver bura, – dedi və Məmmədin qorxa-qorxa uzatdığı kitabçanı aldı, məqbul yazdı, özünə qaytardı. – Get, amma söz ver ki, tezliklə o evdən çıxacaqsan.

Məmməd mızıldana-mızıldana qalxdı, dal-dalı qapıdan çıxdı. Hamı bir yüngüllük hiss elədi. Səmayə xanım xəyala dalıb ürəyini açdı:

– Müharibə təzə qurtarmışdı. Moskvada oxuyurdum. Bir qarın ac, bir qarın tox mühazirələrə gedirdim. Bir də görürdüm akademik Ağabəyov deyir: «Cənublular mənimlə gedəcək. Onlar çətinlik çəkirlər, evdə məşğul ola-

cağam». Biz də dörd nəfər idik. Sizin kimi: üç oğlan, bir qız. Akademikin arvadı süfrə açırdı, bizi möhkəm yedirdirdi… Eh, belə müəllimlər olub.

Elxan böyük bir ilhamla dedi:

– Səmayə xanım, akademik Ağabəyovun da kitabını oxumuşam, sizin mühazirələrinizi də. Üzünüzə demək olmasın, sizin mühazirələr daha güclüdür, daha anlaşıqlıdır, daha sanballıdır…

Səmayə xanım əl-qolunu yellətdi:

– Kəs səsini! – dedi. – Qırışmalın dediyinə bax ha! Mən hara, akademik hara?

Vilayət Elxanın köməyinə gəldi:

– Düzü, Səmayə xanım, mən Elxanla şərikəm. Tələbə müəllimindən irəli getməsə inkişaf ola bilməz, axı. Nahaq təvazökarlıq edirsiniz.

Elxan ağsaqqalın göz basmasından bir az da ruhlandı:

– Mən də onu deyirəm də, – dedi. – Səmayə xanımın mühazirələrini bədii kitab kimi oxuyuram.

Müəllimə mum kimi yumşalmışdı. Tərifdən solğun yanaqlarına qan gəldi. Amma hələm-hələm kürəyini yerə qoymadı. Növrəstə qız səsi ilə çığırdı:

– Ay cüvəllağı, – dedi. – Mühazirələrimi yazırdın ki, oxuyaydın da?

Elxan qoltuğundan bir dəftər çıxartdı. Qoydu Səmayə xanımın qabağına. Dəftər tamaşa idi. Vərəqlər elə bil şəkildi, üzə gülürdü, sərlövhələr bir rəngdə, abzaslar bir

ayrı rəngdə, çıxarış və nəticələr bir-birindən gözəl yazılmışdı. Elektrik sxemləri, elə bil, rəsm əsəri idi. Elxan bu işə iki gün nahaq yerə vaxt sərf eləməmişdi ki? Səmayə xanımın gözü qalmışdı dəftərdə. Dedi:

– Dəftər məndə qalacaq. Qiymət kitabçanı ver.

Elxanı da yola salandan sonra Vilayət bir az rahatlanmışdı. Səmayə xanım birdən hirslə ayağa qalxdı:

– Daha vaxt itirməyək, – dedi və Turacla Məhişə baxmadan, – Vilayət, nə bu qıza, nə də alimi-biəməlin bacısı oğluna qiymət yazan deyiləm.

Vilayətin ürəyi düşdü. Hövüllə dedi:

– Müəllimə,…

Səmayə xanım onun ağzından vurdu:

– Qırx ildir müəlliməyəm! – dedi. – Mən sözümü dedim.

Vilayət Turaca işarə elədi. Qız dinməz-söyləməz yerindən qalxdı, qapıya getdi. Ağsaqqal kədərlə dedi:

– Rəhmətliyin qızı, mən bu qıza görə bu yaşımda gəlib ali məktəbə girmişəm.

Səmayə xanımın çənəsi təəccübdən sallandı və oturdu:

– Nə? – dedi. – Belə de!

Vilayət ah çəkdi. Zalım balası rola yaman girmişdi. Dediklərinə özü də inanırdı:

– Turac kursda qalsa, ali məktəbi atacaq, qayıdacaq rayona, mən də onun dalınca getməli olacağam. Müəllimə, mənimki həyatda gətirmir. Hər işim belədir.

Səmayə xanım çar-naçar:

– Zəvzək-zəvzək danışma, adam kişi olar, – dedi. – Get, onun da kitabçasını gətir.

Vilayət utana-utana dedi:

– Kitabçası məndədir…

Səmayə xanım bu kitabçanı da yazandan sonra, yenə qalxmaq istədi, Vilayət macal vermədi:

– Müəllimə, Məhiş, vallah, yaxşı oğlandır, – dedi.

Səmayə xanım fəryad elədi:

– Lap qızıl da olsa, ona qiymət yazmayacam, – dedi. – Ta onun kələkbaz dayısı gəlib ayağıma düşməsə, üzr istəməsə, xeyri yoxdur.

– Dayısının Məhişə dəxli yoxdur, Səmayə xanım. İki ailə bir-birinə düşməndir.

Səmayə xanım sakitləşdi:

– Bu da təzə çıxdı?

Vilayət başladı özündən toqquşdurmağa:

– Məhişin atası Məhişin anasını götürüb qaçıb. Aradan iyirmi il keçsə də hələ barışmayıblar. Onun tarixçəsini məndən yaxşı bilən yoxdur. Atası şikəstdir, təqaüd alır, imkanları yoxdur. Dayılarının acığına Məhişi oxudurlar. O da qeyrətli oğuldur, gecələr keşikçilik edir, qazandığını geyiminə verir ki, dayısı uşaqlarından geri qalmasın. Utandığından yazıq bunları heç kimə deyə bilmir.

Səmayə xanım başını buladı:

– Həəə! Məhiş, bala, bunları mənə deyə bilməzdin? – dedi. – Hər şeyin öz yeri var. Səni kəsmək günahdır, axı… Ver kitabçanı…

Məhiş kitabçanı götürüb çıxdı bayıra. Səmayə xanım dəftər-kitabını yığışdırdı, Vilayətin müşayiəti ilə auditoriyadan çıxdı. Dəhlizdə dayanan tələbələrə diqqətlə baxdı, kafedranın qapısından içəri girdi. Uşaqlar hay-küylə ağsaqqalın üstünə cumdular. Vulkan kimi püskürən sevincdən az qalırdı, bina yerindən qopsun. Birdən qapı açıldı. Səmayə xanım bayıra çıxdı və hiyləgər bir təbəssümlə dingildəşən tələbələrə:

– Pis deyildi, canınızı əlimdən yaxşı qurtardınız. Bu ssenarinin müəllifi kimdisə, istənilən teatr üçün melodrama yaza bilər. Afərin ona! Görək imtahanda neyləyəcəksiniz? – dedi və qayıtdı içəri.

Səmayə xanım içəri girəndən sonra beş tələbə heykəl kimi quruyub qaldı. Ssenaridə bu cür sonluq nəzərdə tutulmamışdı.

## BİR MƏKTƏBİN QİYAMI

Çox heyf ki, daha salnamələr yazılmır. Tərəqqi bu gözəl adəti müasirlərimizə tərgidib. Çox heyf! Halbuki, ətrafımızda salnamələrə düşməyə layiq elə dürlü-dürlü, sirli-sirli əhvalatlar baş verir ki, qələmə alınsaydı, kitab bağlansaydı, gələcək nəsillər salnaməçiyə heykəl qoyar-

dı. İşdi, heykəl də qoymasaydılar, ruhuna rəhmət oxuyardılar. Çox heyf, biz nə heykələ, nə də rəhmətə layiq bu işi görürük. Heyf ki, hamının tanıdığı məktəbdə baş verənlərdən nəvə-nəticələrimiz bixəbər qalacaq. Tarixdən məlum olan «Çay üsyanı», «Mis qiyamı» «Duz iğtişaşı» ilə müqayisədə, aşağıda təsvir olunan hadisə min dəfə örnəklidir. Nəsillərin yaddaşında qalmağa layiqdir. Bu, bəndənin şəxsi fikridir. Nəql edərəm, özünüz də qiymətini verərsiniz.

İş belə olmuşdu.

Quzu kimi sakit məktəb gözlənilmədən vəlvələyə düşmüşdü. Müəllimlər Xalıqovu qabaqlarına qatmışdılar. Karandaş, dəftər, qələm yağmuru altında geri çəkilən direktoru tərəfdarları meydanda tək qoymuşdular, katibə qarışıq düşmən tərəfə keçmişdilər.

O, keçmişdə ağırlıq qaldıran olmuşdu. İdmanı tərk edəndən azca sonra məktəbə direktor göndərmişdilər. Elə ilk gündən asaram-kəsərəmlə işə başlamışdı. İndi, köhnə zamanları yada salaraq, bir dəli nərə çəkdi, hücumun qabağını saxlamağa cəhd etdi. Amma, qiyamın rəhbəri dərhal taktikanı dəyişdi. Hərbi bicliyə əl atdı.

Qiyam rəhbərinin hiyləgərliyinə söz ola bilməzdi. Direktordan yanıqlı qadın bölməsini döyüşə yeritdi. Onlar da ən yaxşı silahlarını, gecə-gündüz cilalanan, pardaqlanan caynaqlarını işə saldılar. Direktor bunlara davam gətirdikdə, «Stringer» raketləri, dikdaban ayaqqabılar işə düşdü. İki qadın isə döyüşün qəbul edilmiş qayda-

sını pozub, saç yoldu fəndinə əl atanda Xalıqov sındı. Əzilmiş, yolunmuş qaz kimi geriləndi. Fizika kabinetinin qarşısından keçəndə qapı açıldı, lazer topu şagirdlərin köməyilə dəhlizə çıxarılmış və Xalıqova tuşlanmışdı. Balacaboy, arıq Fətulla müəllim qışqırdı:

– Uşaqlar, məktəbin axırıncı despotunu bir yaylım atəşinə qonaq edin!

Bu, əlbəttə, lazer cihazının maketi idi, atəş-filan açan zibil deyildi, amma topun ona tuşlanması faktı çox şey deyirdi.

Xalıqov ürəyini tutdu. Açılmayan atəş kişinin sinəsini yaraladı. Başa düşdü ki, daha müqavimət göstərmək havayı işdir. Əllərini qaldırdı:

– Qoy, siz deyən olsun, gedirəm, – dedi.

Bu onu xilas etdi. Qiyamın başçısı boğazını yırtdı:

– Ay camaat, qan tökməyin. Biz ədalət tərəfdarıyıq. Ədalətsizliyə yol verə bilmərik.

Bu çağırış aranı soyutmaqdansa daha da qızışdırdı. Xalıqov onlarla müəllimin zərbələri altında qapıya sıxışdırıldı. O, çalxalanmış şampan şüşəsinin tıxacı kimi bayıra atıldı. Sərin hava qiyamçıları ayıltdı. «Qaçanı qovmazlar» məsəlini xatırlayıb, daha Xalıqovu təqib etmədilər.

O, axsaya-axsaya rayon təhsil şöbəsinə tələsəndə dalısıyca qapı siyirtmələrinin çəkildiyini də eşitdi. Pənah yeri məktəbdən bir bina aralı idi. Xalıqov müdirin qəbul otağında özünə gəldi. Pəjmürdə, rəng-ruhu qaçmış

məktəb direktorunu katibə qız adəti üzrə: «Olmaz, məşğuldur» çımxırtısı ilə qarşıladı, sal qaya kimi qapını kəsdi. On ballıq zəlzələ də, deyəsən, onu yerindən dəbərdə bilməzdi.

Bütün məktəb direktorlarına məlum idi ki, bu qız katibəlik elminin ən yüksək zirvələrini fəth eləyib. Amma Xalıqovun indi heyrətlənməyə və katibənin qiymətini verməyə macalı yox idi. Onu qırağa itələyib pardaqlı qapını şaqqıltı ilə açdı və yaralı ayı kimi içəri təpildi. Kabinetdəkilər basqından diksindilər. Xalıqovun üzünün ifadəsi, üst-başı onları vahiməyə saldı. Katibənin qeyzdən əsən qaməti kandarda dikəldi. O, töhməti gözünün altına almışdı. Ciyiltili səslə:

– Qərib müəllim, bu adam icazəsiz girdi, – dedi.

Kabinetin sahibi əlini yellətdi və katibə qəfildən göründüyü kimi qəfildən də yox oldu, elə bil havada əridi. Təhsil şöbəsinin müdiri ortada bitib qalmış Xalıqova dedi:

– Hə, cənab direktor, danış görək, zəlzələdən qaçmısan, ya vəlvələdən?

Xalıqov danışa bilmədi, udqundu. Müdirin ona yazığı gəldi, ağızucu güldü:

– Keç, otur. Söhbətin şirin yerində gələn erməni kimi qapıda durma. Keç otur, dərdini danış.

Xalıqov az qala yıxıla-yıxıla özünü kürsüyə çatdırdı. Uşaq kimi kövrəlib burnunu çəkdi:

– Qərib müəllim, məni direktorluqdan çıxartdılar. Kömək edin, – dedi.

Qərib müəllim orta boylu, arıq bir adamdı. Pəzəvəng Xalıqova, ürəyinin dərin guşələrində gizlədilən bir hörməti vardı. Kəlpeysər, hündür, hər əmrinə «baş üstə» deyən bir kişinin az qala ağlamasına mat qaldı. And-aman elədi:

– Vallah, billah, səni çıxartmamışam. Bu hardan ağlına gəlib. Heç altı ay deyil səni vəzifəyə qoymuşam, – dedi və otaqdakıları şahid çəkdi. – Buyur, qohumlarından soruş.

Xalıqov əlini gözünə çəkdi:

– Məni… məktəbin müəllimləri işdən çıxartdılar.

Qərib müəllim quruyub qaldı. Söz, nəhayət, ona gəlib çatanda çığırdı:

– Necə? – Soruşdu və inamsızlıqla güldü. – Deyəsən, sənin başın xarab olur. Mənə deyən gərək, ştanq qaldırandan da məktəb direktoru olar? Əli müəllim, hamısının günahı səndədir. Hər diplomlu adamdan müəllim çıxar?

Müdir müavini Əli müəllim darılmış halda əlini qohumunun üstünə silkələdi:

– Yeri get, kişinin vaxtını alma, – dedi və hədə ilə, – səninlə söhbətimiz qalsın başqa vaxta.

Xalıqov həmkarlar təşkilatının sədri Ənnağının yanında oturmuşdu. Onun həssas burnu dərhal spirt iyini aldı. Özünü saxlaya bilməyib güldü:

– Yox, canım, başı xarab olmayıb, arağın qüdrətindəndir, ha, ha, ha.

Ənnağının səsi gücləndiriciyə qoşulmuş dinamikin səsi kimi çıxdı. Hamı qulağını tutdu.

Qərib müəllim ona acıqlandı:

– Yekə kişisən, deməmişəm mənim kabinetimdə at kimi kişnəmə. Sənin səsindən sonra qulaqlarım bir həftə cingildəyir, – dedi və Xalıqova döndü. – İçkilisənsə, get, ayıl gələrsən.

Xalıqov bu xoş münasibətdən lap kövrəldi:

– Qərib müəllim, vallah, sərxoş deyiləm. Müəllimlər qiyam qaldırıb. Az qalmışdı məni öldürsünlər. Canımı gücnən qurtarmışam, sizə pənah gətirmişəm.

Rayonun qabaqcıl məktəblərindən birinin direktoru qocaman Nizam müəllim də həmkarının bu halına daha dözə bilmədi:

– Səfeh-səfeh danışma, – dedi. – Müəllim nədir, qiyam qaldırdı nədir?

Elə bu dəm Qərib müəllimin meydança boyda olan masasının üstündəki selektorun lampası yandı. Müdir mikrofona döndü, düyməni basdı:

– Hə? – Mızıldandı.

Məktəb direktorları onun telefonla etinasız danışmağına adət etmişdilər.

– …Qəribovdur?…

Mikrofondan otağa dolan kobud səs naqolay şapalaq kimi Qərib müəllimi tutdu. Üzü ləkə-ləkə oldu. Telefon-

dakının sabahkı gününü təsəvvür edib kabinetdəkilər qulaqlarını şəklədilər. Qəribovla bu dildə danışan igidin kimliyi hamını bərk maraqlandırdı. Müdirin gözlərində ildırım çaxırdı. Elə bil naməlum müsahibini külə döndərəcəkdi:

– Bu nə səfeh sualdır? Məndən başqa burda kim ola bilər?

– …Hi, hi, hi! Hərif hirslənib… – Gülüş və xısıltıdan sonra gur səs elan etdi. – Bu saat səninlə məktəbimizin təzə direktoru danışacaq.

Qəribovu hirsdən əsməcə tutdu:

– Nə? – Bağırdı.

– …Boğazını yırtma, qulaq as. – Qısa fasilədən sonra kimsə boğazını arıtladı. – …Öh, öh! Hörmətli Qəribov, məktəb kollektivinin iradəsini yerinə yetirib, əziz-giraminiz Xalıqovu direktorluqdan kənarlaşdırmışıq. Bizim tələblər yerinə yetirilməyincə, heç sizi də tanımırıq.

Qəribov çaşqın halda soruşdu:

– Axı, sən kimsən? Adın nədir? – dedi və səsi qırıldı.

– …Tələsməyin, adımı da biləcəksiniz, tələblərimizi də, – deyə naməlum adam ona guya ürək-dirək verdi.

Qəribov zəhmli görkəmini get-gedə itirirdi:

– Bu hərki-hərkilik, dərəbəylik sizə baha oturacaq.

– …Çox qanmaz adamdır, gəlsənə bunu da Xalıqovun dalınca göndərək? – Kobud səs eşidildi. Deyəsən, müraciət etdiyi adam onun ağzını tutdu. Mülayimliklə dilləndi. – …Qəribov, həyəcanlanma. Bu dərəbəylik de-

yil, dərəbəyliklə mübarizədir, bu bir. Bu iş bizə nə qədər baha otursa, bir o qədər də sizə baha satılacaq, bu iki. Qanuni tələblərimiz yerinə yetirilənə qədər biz rayon təhsil şöbəsini tanımırıq, bu da üç.

Qəribovun sinəsi körükləndi, təngnəfəs çığırdı:

– Bu saat polis çağıraram.

– Məsləhət görmürəm. – Naməlum adam bunu gözləyirmiş kimi ölçülü-biçili səslə dilləndi. – İşi bu mərtəbəyə çatdırsanız sizin üçün pis olacaq. Açarıq sandığı, tökərik pambığı.

Qəribov bir az həsdədi:

– Boş-boş danışma. O, nə pambıqdır elə?

– …Baş kəsən pambıqdan söhbət gedir, ay Qəribov. On ildir canımızı boğazımıza yığmısan, daha dözməyə taqətimiz yoxdur. Şair demişkən, dolan bulud boşalacaq, bu, hökmüdür təbiətin.

Qəribov özünü lap itirdi:

– Hansı şair, ə, olmaya bizim şairi deyirsən?

Naməlum adam şaqqıltı ilə güldü:

– …Elə sizin şair də… ha, ha, ha. Aləmsən, ay Qəribov, aləm.

Qəzetlərdə arabir şeirləri çıxan bir müəllim var idi. Bayramqabağı iclaslarda, yığıncaqlarda yazılarını oxuyurdu. Qəribova ithaf etdiyi bu cızmaqaraların ona xeyri dəymişdi. Kişi indi məktəb direktoru idi. Belə çıxırdı ki, indi, o da bu qiyamçılarla əlbir olub. Qəribov yazıq

günə qalmışdı. Dili daha söz tutmurdu. Müavini onun köməyinə gəldi. Mikrofonu özünə tərəf fırlatdı:

– Ay, adı bilinməz direktor, artıq söz lazım deyil. Tələblərini de.

– …Baa! Əli müəllim, pambıqla baş kəsən Əli müəllim, darıxma, tələblərimizi yazılı şəkildə çatdıracağıq. Elçimizi gözləyin.

Ənnağı müəllim mikrofona yaxın gəlmədən bağırdı:

– Bu da təzə çıxdı? Elçi nədir e?

– …Ay Ənnağı müəllim, sənə Qəribov deməyib ki, kabinetdə ağzını açma?... Bax, tapşırıram ha, elçimizi hörmətlə qarşılayın.

Qəribovun dili söz tutdu:

– Yaxşı, adamınızı göndərin, – dedi.

Əlaqə kəsildi. Xalıqov dərhal ayağa qalxdı:

– Gördünüz, Qərib müəllim, mən sizə deyəndə...

Qəribov hirsini onun üstünə tökdü:

– Zəhrimar deyəndə, çor deyəndə! – Qışqırdı. – Əcəb direktorsan! Qulağının dibində bu boyda həngamə düzəldirlər, qiyam qaldırırlar, səninsə xəbərin yoxdur. Əfəlin biri!

Xalıqov çəkinə-çəkinə onun yadına saldı:

– Keçən həftə sizə siyahı vermişdim, axı. Dedimmi, bu müəllimlər aranı qarışdırırlar, söz eşitmirlər. Amma qulaqardına vurdunuz, dediniz, get, ştanqını qaldır, kadr məsələsi sənin işin deyil... Bu da axırı.

Qəribovun yadına düşdü və susdu. Ənnağı müəllim başını buladı, yanan ocağa yağ tökdü:

– Ay fərsiz direktor, uşaq-uşaq danışma. Bu, bir həftənin, on günün işi deyil. Boynuna al ki, məktəbi başlı-başına buraxmısan. Onlar da yaxşı hazırlaşıblar, – dedi.

Qəribovu yenidən od götürdü, amma Əli müəllim onu qabaqlayaraq Xalıqovun üstünə düşdü:

– Sənin kimi qohumun başı batsın. Məni hər yerdə biabır edirsən. Səndən direktor çıxmaz… – dedi.

Xalıqovun boğazı qurudu:

– Qohum, başına dönüm… – deyə mızıldandı.

Qəribov yumşaldı, dili topuq çalan Xalıqova yazığı gəldi:

– Yaxşı, olan olub da, – dedi. – Xalıqov, hələlik gözümə görünmə. Vəziyyətdən çıxaq, sənə yer taparam.

Ənnağı müəllim qalxmaq istəyən Xalıqovu saxladı:

– Dayan görüm, – dedi. – Qərib müəllim, qoy, qalsın, bəlkə, bizə lazım oldu. Bu qiyam onun günahından baş verib. İti öldürənə sürütdürərlər, ha, ha, ha.

Qəribov özünə gəlmişdi, yenə ona acıqlandı:

– A kişi, yavaş da! Yanına biz soxmurlar ki!

Sözün bu yerində katibənin qorxmuş qaməti qapıda bitdi:

– Qərib müəllim, iki nəfər yanınıza girmək istəyir. Deyirlər, elçidirlər.

Müdir hirslə:

– Burax, – dedi.

Allahqulu müəllimlə laborant Səfurə taybatay açılmış qapıdan içəri şəstlə qədəm qoyanda Qəribovun gözlərinə qaranlıq çökdü. Məlum oldu ki, qiyamın başçısı hər kimdisə, çox püxtə adamdır, təhsil şöbəsinin cikini də bilir, bikini də. Qəribov daş dəymiş ayı kimi dodaqlarının altında donquldandı:

– Kül başına, ay Qəribov. Gör kimlərin əlində qalmısan.

Bu, həmən Səfurə idi ki, hər dəfə əlindən baş götürüb Azərbaycanın müxtəlif şəhərlərinə qaçan ərini tapdırıb zorla evə qaytarırdı. Kişi onun əlində əsir-yesir idi. Axırda, Səfurənin zülmünə dözməyib, baş alıb Rusiyaya getmişdi. Səfurə, az qala orda da onu haqlayacaqdı. Amma kişi zirək tərpənmişdi, özünü vermişdi Çinə. Səfurə ərinin izini itirəndən sonra düşmüşdü başqa kişilərin canına, hayfını onlardan alırdı. İşlədiyi məktəbdə, qonum-qonşuda, çöl-bayırda gözünə bir naxoş kişi dəyən kimi başlayırdı müharibəyə. Allahqulu müəllimdən bir az çəkinirdi. Çünki, o da özünə görə ad çıxartmışdı. İdmandan dərs deyirdi. Amma qələminə adlı-sanlı ədəbiyyat müəllimləri də həsəd aparırdı. Məktub yazmadığı, şikayət etmədiyi yüksək mərtəbə qalmamışdı. Hər məktubu sənət əsəri idi. Bu işdə səriştə sahibi olduğundan yanına məsləhətə gələn çox olurdu.

«Elçilərin» bu şöhrəti Qəribovun dilini damağına yapışdırmışdı. Əli müəllim onun dinmədiyini görüb kabinetdəki gərginliyi azaltmaq üçün mülayim halda:

– Gəlin, oturun, – dedi. – Rəhbərliklə qiyam başçılarının birgə iclasını açıq elan edirəm. Söz sizindir.

Allahqulu müəllim əyri-əyri baxdı. Əslində onun düz, ya əyri baxdığını demək çətin idi. Kişinin baxışı belə idi. Gözündə bir az çəplik var idi. O, oturmadı, cibindən çıxartdığı kağızdan oxudu. Səsindən məlum olurdu ki, oxumur, kağızda yazılanı əzbər bilir.

– Biz bütün müəllim, şagird heyəti adından vəkil edilmişik ki, aşağıdakı tələbləri nəzərinizə çatdıraq.

Qəribov onun bir hovur nəfəs dərməyindən istifadə etdi:

– Məktəbdə qırx nəfər müəllim işləyir, – dedi. – Hamı sizə vəkalətnamə verib?

Allahqulu müəllim hazırcavablıqla onun istehzasını dəf etdi:

– Sizi necə? Tutduğunuz vəzifəyə müəllimlərin vəkaləti ilə qoyublar?

Yerində deyilmiş söz Qəribovun çənəsinə yenə kilid vurdu. Elçi təbəssümlə:

– İncimə, Qəribov, hətərən sualın, pətərən cavabı olur. Öz günahındır. Həə! Mətləbdən uzaq düşməyək…, nəzərinizə çatdıraq. Birinci, Xalıqov günü bu gündən vəzifəsindən azad edilsin. Səbəbi, acgözdür, pulagirdir, müəllimləri şagirdlərdən pul yığmağa məcbur edir, kobuddur, bir sözlə, nadandır. İkinci, məktəb direktoru seçki yolu ilə təyin edilsin. Üçüncü, məktəbin işinə təh-

sil şöbəsi qarışmasın. Dördüncü, müəllimlərin maaşları artırılsın. Beşinci…

Qəribovun səbri tükəndi. Bağırdı:

– Daha nə? Bəlkə, məktəbinizi ayrıca respublika elan eləyək?

Səfurə bu yerdə beşaçılan kimi açıldı:

– A kişi ey, ağzını dağıtma. Bura səninlə çənə-boğaz etməyə gəlməmişik. Adam kimi qulaq as.

Əli müəllim aranı sakitləşdirmək istədi:

– Yaxşı, yaxşı, sakit olun, – dedi və təklif etdi. – Dörd tələb kifayət deyilmi?

Səfurə onun da ağzından vurdu:

– Sən mumla. Yuyulmamış çömçə kimi araya girmə. Adə, Allahqulu, döşə gəlsin, – dedi.

Allahqulu boğazını arıtladı:

– Beşinci, bu, əsas və sonuncu tələbdir. Dediyimiz yerinə yetirilməzsə, məktəbi bağlayacağıq, – dedi və yüksək pafosla sözünə yekun vurdu. – Bu, kollektivin iradəsidir. Cavab üçün sizə bir saat vaxt veririk. Əks-təqdirdə rayonun qalan məktəblərini də ayağa qaldıracağıq.

Hər iki elçi qürurla başını sağa və sola tərpətdi, geri dönüb qapıdan çıxdı.

Otağa ağır sükut çökdü. Əli müəllim birdən pıqqıldadı:

– Ha, ha, ha! Kinodur, vallah! Ha, ha, ha!

Qəribov tənə ilə deyindi:

– Evin tikilsin, heç gülmək yeridir. Ağlamalı günümüzdür ey, sən isə bozbaş qazanı kimi pıqqıldayırsan.

Əli müəllim gülə-gülə:

– Qərib müəllim, sən canın özündən çıxma.

– A kişi, bəsdir, – deyə müdir qaşlarını çatdı. – Polis çağırıb hamısını damlamaq lazımdır.

Ənnağı mümkün qədər astadan dilləndi:

– Vay, vay, vay, belə eləməyək. Bütün şəhərə səs düşəcək, biabır olarıq.

Qəribov boynunun ardını qaşıdı:

– Bəlkə, hamısının əmrini verim, çıxardım işdən?

Əli müəllim hiyləgər bir təbəssümlə:

– Vay, vay, vay! – deyə Ənnağının ağzını əydi. – Polis olmasın, işdən çıxartdı olmasın, biabır olarıq.

Qəribovun gözü hirsdən qızardı və yumruğunu masaya endirdi:

– Lağ edirsiz! – dedi. – Onların gözü qızıb, rəhbər saymırlar, hörmət qanmırlar, başları xarab olub. Buna dözməkmi olar?

Bayaqdan ağzına su alıb susan məktəb direktoru Nizam müəllim dilləndi:

– Qərib müəllim, mənə elə gəlir ki, kütlə ilə bir ayaqda getmək lazımdır. İndi köhnə vaxtlardakı kimi yumruqla iş aşmır, burda gərək baş işlədəsən.

Qəribov od dəymiş şabalıd kimi partladı:

– İşlət də! Əlindən tutan var? Neçə ilin direktorusan, təhsil şöbəsi gözünün yağını sənə yedirir. Nə istəmisən

sənə verməmişik? Kompüter istədin, verdik, internetə qoşduq, məktəbini təmir etdik, mebeli dəyişdik… Gərəkməz ki, bunun əvəzində sən də başını işlədəsən? Özün də, bir müddət həmin məktəbdə direktor olmusan.

Nizam müəllim onun monoloqunu qulaqardına vurub, sözünü davam etdi:

– Bu işi şişirtmək özümüzə ziyandır. Elədirmi?

Əli müəllim istehza ilə:

– O, nə təhər olur? Qiyam edən onlar, ziyanı çəkən biz?

Nizam müəllim ağarmış başını sığalladı:

– Elə bilirsən xəbər tutsalar başımızı tumarlayacaqlar? – dedi. – Yoxlama üstünə yoxlama gələcək, uşaq kimi qabaqlarına qoyub o ki var danlayacaqlar, öyüd-nəsihət verəcəklər, hələ desən, bir yağlı töhmət də guplayacaqlar. Elədirmi?

Qəribov yanıqlı-yanıqlı, kövrək səslə:

– Bu başıpozuqluğa dözək, deyirsən? Allahqulu ilə dəli Səfurənin sözü ilə durub-oturaq?

Ənnağı müəllim söhbətə müdaxilə etdi:

– İnanmıram bu işin mayası Allahqulu ilə Səfurə olsun. Mən o məktəbə bir-iki dəfə getmişəm. Elə deyil, Nizam müəllim?

Nizam müəllim təqdirlə başını tərpətdi:

– Əlbəttə, onlar şahmat piyadalarıdır, öyrədən var. Bax, bunu tapmaq lazımdır. Yoxsa, Allahqulu ilə Səfurənin dalınca kim gedər ki?

Ənnağı təklif etdi:

– Mənim bir məsləhətim var. Deyirəm, düşmən cəbhəsinə kəşfiyyatçı göndərək. Müharibə deyil? Görək qiyamın başçısı kimdir, direktorluğa namizəd kimdir?

Otaqdakılar canlandılar. Əli müəllim Çapayev haqqında köhnə lətifəni yada salıb həvəslə dedi:

– Qərib müəllim, gəlsənə, sənin gözəl katibəni göndərək kəşfiyyata? Bir baxışı ilə neçəsini yaralayacaq…

Qəribov zarafata ürəkdən güldü:

– Yox, bu kişi işidir. Ənnağını göndərək, – dedi. – Həmkarlar təşkilatı nədir? Müəllimlərin atası. Ata da övladını çətin gündə unudar?

Ənnağı müəllim yanağındakı xalı qaşıdı:

– Qorxuram məni də Xalıqovun gününə salsınlar, – dedi və durdu ayağa.

Küncdə oturmuş Xalıqov çəkinə-çəkinə dedi:

– Ənnağı müəllim, özündən muğayat ol. Dal qapının açarları məndədir. Götür özünlə, iş çətinə düşsə, aradan çıxarsan.

Qəribovun məhvedici baxışlarından Xalıqov büzüşdü.

– Mumla, Xalıqov. Sənə söz düşmür.

Ənnağı müəllim daha durmadı. İri addımlarla otaqdan çıxdı. Kabinetdə bir müddət dinən olmadı. Katibənin verdiyi qəhvə fincanlarda buğlanırdı. İntizardan hamının gözü yol çəkirdi. Vaxt ağır gedirdi. Yarım saat keçməmişdi ki, Ənnağı müəllim təngnəfəs içəri girdi:

– Bu da mən! – dedi və fəxrlə sinəsinə vurdu. – Gördünüz, salamat qayıtdım.

Əli müəllim ona lağ elədi:

– Qəhrəman Ənnağı, səni sağ görəcəyimizə ümidimiz yox idi.

Qəribov müavininə tərs-tərs baxıb Ənnağıdan soruşdu:

– Həə, danış görüm, bu qoyun-quzunun qabağında gedən keçi kimdir?

Ənnağı müəllim sözə başladı:

– Əvvəl heç içəri buraxmaq istəmədilər. Başladım dilə tutmağa…

Qəribov ona təpindi:

– Əşi, uzatma. Qiyamın başçısı kimdir?

Ənnağı müəllim pərt oldu:

– Qısası budur ki, qiyamın mayası direktorun təsərrüfat üzrə müavini Qədirdir.

Qəribov dik atıldı:

– Necə? Ay elədiyim yaxşılıqlar onun gözündən gəlsin, – dedi. – Keçən il məktəbin masalarını satdığı yerdə polis yaxalayanda, nahaq işə qarışdım, Qədiri bəladan qurtardım. İndi türmələrdə çürüyürdü. Deməli, direktor olmaq istəyir?

Ənnağı güldü:

– İstəyir, amma alınmır.

Qəribov maraqla:

– Bə, niyə alınmır?

Ənnağı çırtıq çaldı:

– Qərib müəllim, direktorluğa ondan başqa da beş-altı namizəd var. Öz aralarında didişirlər.

Əli müəllim az qala qol götürüb oynasın:

– Ay can, ay can, işlər deyəsən, düzəlir, – dedi.

Qəribovun işlərin belə asanlıqla düzəlməyinə gümanı yox idi:

– Dayan görüm, dayan. Arxı hoppanmamış bərəkallah qışqırmazlar, düşər-düşməzi olar. – dedi və Ənnağı müəllimə çevrildi. – Kəşfiyyatçı qardaş, ordakı vəziyyəti nə cür gördün.

Ənnağı barmağını yuxarı qaldırdı:

– Vəziyyəti bir-iki kəlmə ilə ifadə etmək olar. İt yiyəsini tanımır. Xalıqovun bir az ağlı olsaydı, bu hay-küy də olmazdı.

Müdir:

– Xalıqov neyləyib ki? – Soruşdu.

Ənnağı müəllim dilini sürüdü:

– Qoy, özü desin.

– Mən səndən soruşuram, – deyə Qəribov bozardı.

– Heç demə, Xalıqov məktəbin canını boğaza yığıbmış. Gah süpürgə pulu yığdırırmış, gah təmir pulu yığdırırmış, gah kitab satdırırmış. İşə gecikən müəlliməni təhqir edirmiş. Onun əlindən nə çay istəyən çay içirmiş, nə siqaret istəyən siqaret çəkirmiş.

Xalıqov bu yerdə özünü müdafiə etdi:

– Nizam-intizam hamı üçündür də, – dedi.

Qərib müəllim ona acıqlandı:

– Kiri, on beş «şirvan»lıq müəllimdən nə istəyirsən? Elə evdən çıxıb məktəbə gəlirlərsə, igid adamdırlar. Mən o maaşa heç evdən bayıra çıxmaram.

Əli müəllim işi yekunlaşdırmaq üçün:

– Yaxşı, hər şey aydındır. Mənə elə gəlir qoyunları saymaq vaxtıdır.

– Sayaq da, – deyə Ənnağı müəllim razılaşdı. – Direktor seçmək istəmirlər, qoy seçsinlər.

Qəribov inamsızlıqla:

– Hələ bir dayan, olmadı elə, oldu belə, – dedi. – Bəlkə, yuxarılarla məsləhətləşək?

Ənnağı müəllim:

– Elə bilirsən gəlib, başımızı sığallayacaqlar? Belə şeylərə görə «afərin» demirlər. Bir də burda nə var ki? Müəllimlər məktəb direktoru seçirlər.

Əli müəllim Ənnağı müəllimə tərəfdar çıxdı:

– Qərib müəllim, qorxma, beş-altı namizəd arasında elə mərəkə qopacaq ki, şeytan əməli onun yanında yalan olacaq.

Qəribov tərəddüdlə:

– Deyirsən, seçkiyə razı olaq?

– Əlbəttə. – Ənnağı müəllim güldü. – Hələ bir namizəd də biz irəli sürəcəyik.

– Fikrində kimi tutmusan?

Ənnağı müəllim uğuna-uğuna Xalıqovu göstərdi:

– Bu işin səbəbkarını.

Salnamələrə layiq bu qiyamın nə ilə qurtardığını deməyə utanıram. Amma neyləyəsən? Tarix həqiqəti sevir. Həmin məktəbin müəllimləri hələ də özlərinə direktor seçə bilməyiblər. Həftənin əvvəlindən başlayaraq hər gün iclas etməkdən bezikmiş müəllimlər şənbə günü Qəribovdan xahiş etdilər ki, müdiriyyətin zövqünə uyğun bir direktor göndərsin. O da, bu xahişi məmnuniyyətlə yerinə yetirdi, Xalıqovu yenidən ora göndərdi.

## SABAH PUL GÜNÜDÜR...

Onların üç uşağı var. Xronoloji ardıcıllıqla desək, birincisi qız, iki sonrakı oğlandır. Qərarları bu olub ki, kifayətdir, həvəsdi bəsdi, nöqtə qoymaq lazımdır, elə atalar da üçəcən deyib.

Qızın on yaşı var, məktəbə gedir, qayğıları artıb, evdə səsi çıxmır. Oğlanlar kiçikdir. Biri bələkdə əl-qol atır, o biri altı yaşın içindədir, yaman da nadincdir, bir yerdə oturmaqla işi yoxdur, az qala düz divara dırmaşsın. Nadinclikdə kimə oxşamışdı, məlum deyildi. Atası tərəfindən dəfələrlə döyülsə də, söyülsə də, bildiyin edir, usanmır...

Ev söhbətsiz olmaz. Qadınla kişi "atışanda" çalışırlar ki, uşaqlar eşitməsinlər. Nə vacib düşüb, fikirləşirdilər, indidən səfeh-səfeh mübahisələrin şahidi olsunlar. Bir

gün gələcək onlar da həyatın ağrı-acısını dadacaqlar. Hələlik, qoy, qulaqları dinc, ürəkləri rahat olsun.

Amma axır vaxtlar qoyduqları qaydaları istəmədən pozurlar. İkisinin də əsəbləri korlanıb, münasibətlərində bir haqq-hesab güdmə meyli peyda olub. Neynəsinlər, şadlıq qapılarının yolunu unudub, məişət ehtiyacları onlara göz açmağa macal vermir. Mübahisə qəflətən, qarşısı alınmaz bir sürətlə baş verirdi. Uşaqlar bunun tamaşaçısına çevrilirdilər. Qız böyük olduğundan, hər şeyi anlayır, ürəyinə salır, üzündə uşaqlara xas olmayan bir ciddilik yaranırdı.

Bir də görürdün ki, cib boş, maaş günü uzaq, qadın da axır vaxtlar dildən pərgar, başlanırdı... Kişi qulaq asır, asır, sakitcə cavab versə də, hiss edirdi ki, içərisində hər şey sim kimi tarım çəkilib!

İkisinin də əlli yaşı var. Ali məktəbi bir qurtarsalar da, uzun illər bir zavodda mühəndislik eləsələr də, izdivacları gec baş tutmuşdu. Onların yaşıdları indi nəvə sahibidir, onlar isə hələ də çağa bəsləyirlər.

Üçüncü uşaq doğulandan sonra qadın evdə oturmuşdu. Dolanacaqları bir az da çətinləşmişdi. Qanqaralığın kökü də burada idi.

İndi qadın səbrlə gözləyirdi ki, kişi çay-çörəyini axıra çıxsın. Sonra süfrəni yığışdıra-yığışdıra dilləndi:

– Heç bilmirəm sabaha nə bişirim... Kartof qurtarıb, ət bir həftədir yoxdur, o günləri axırıncı tikəni bişirdim.

Neçə gündür uşaqlar səhərlər yağ yemirlər. Nədir, bizi acından qırmaq fikrindəsən?!

– Alaram...

Kişinin bu mülayim və asta cavabında nə vardısa qadın birdən bomba kimi partladı:

– Bəsdir, doladın məni! – deyə çığırdı. – Yaxşı yolunu tapmısan! Nə deyirəm başını tərpədirsən! “Alaram!” deyirsən. Haçan, axı?!

Kişi başını qaldırdı, yorğun halda:

– Qışqırma! – deyə xahiş etdi. – Sabah alaram!

Qadının ağzı əyildi:

– Yenə sabah?! Əşi, bir həftədir sənə söz deyirəm. Bilmirsən ki, azuqənin axırıdır? Bəs, tərpən də... Bir çarə tap da.

– Maaş sabah olacaq. Neynəyim, neçə gündür gecikdirirlər.

– Necə neynəyim?

– Ay qız, uşaqlardan utan! Eşidirlər, axı!

Qonşu otağın qapısından boylanan oğlanla qıza bir nəzər fırladan qadın səsini bir xal endirsə də davam etdi:

– Qoy, eşitsinlər! – dedi. – Sənə deyəndə ki, iki uşaq bəsimizdir, dedin, yox, atamın səkkiz oğlu olub. Dedin, mən bir qız, bir oğlanla kifayətlənmərəm! Buyur! Dolandır da! Dolandıra bilməyəcəkdin niyə... Əh, yenə ağzımı açacaq ha! Sən ölənlərinin goru, başa sal, bu tifillərə sabah nə bişirim?! Mən cəhənnəm...

Kişi səbirlə bir də izah elədi:

– Sən ki bilirsən bizim zavodu! Maaş keçən həftə verilməli idi. Gecikdiriblər. Sabah mütləq verəcəklər...

Qadın artıq sakit səslə:

– Yaxşı, heç olmazsa çörək aldırmağa pulun varmı?! Ver mənə.

– Odur, cibimdən bir manat götür...

Qadın kürsüyə səliqə ilə qoyulmuş pencəyin cibindən pulu götürür, birdən təəccüblə:

– Daha yoxundur?!

Kişi cavab vermir.

– Bəs, işə necə gedib-gələcəksən?!

Kişi könülsüz gülümsəyir:

– Birtəhər gedərəm...

– Biletsiz?!

– Nə olar ki?! – deyə kişi laqeyd əlini yelləyir. – Neçə gündür avtobusda kənara baxmıram ki, birdən tanışlardan biri rastıma çıxar göz-gözə gələrəm, biletini götürməli olaram...

Qadın köksünü ötürür, kişiyə yazığı gəlir. Qız aranın sakitləşdiyini görüb astadan xahiş elədi:

– Ana, olar qaqaşla həyətə çıxaq?

– Olar, – deyə qadın icazə verdi. – Amma geyinin, hava çevrilib.

Uşaqlar geyinib çıxdılar.

Bayırda erkən payız küləyi vıyıldayırdı. Ailənin yaşadığı alçaq, birmərtəbəli evin damının şiferlərini qonşunun tut ağacının çılpaq budaqları döyəcləyirdi. Qa-

dın gözünü balaca pəncərənin imkan verdiyi uzaqlığa baxırdı, birdən dedi:

– Nə olaydı, lotereyamız udaydı...

– Lotereya hardan səninçün?! – deyə kişi təəccübləndi.

– O günü dükançının xırdası olmadı, lotereya verdi.

Kişi tüklü çənəsini qaşıdı: “Sabah qırxmaq lazımdır, amma ülgüc kütdür. Əlac nədir, maaşı alana kimi dözmək gərək!”

– Çətin udsun... – deyə kişi dilləndi.

– Bu ili də bir təhər yola verək, inşallah, işə çıxaram.

– Xeyri nədir ki?! Sənin aldığın yüz on manatdır, elə üst-başına gedəcək...

– Niyə elə deyirsən? – deyə qadın incidi. – Necə olsa, köməkdir...

– Deyirəm, adamın basaratı bağlananda bağlanır da! Barı yolda beş-on manat pul da tapmıram ha!

Qadın istehza ilə:

– Bəlkə xəzinə arzusundasan?!

Kişi dirçəlir:

– Nə olar ki?!

– Eləsə, gərək gedib ev sökəsən, ya yer qazasan... Xəzinə ancaq elə yerlərdə olur.

Kişi mızıldandı:

– Yer qazmaq üçün on beş il oxumaq lazım deyil ha!

– Guya böyük iş görmüşük! İnsan öz axmaq səhvi üzündən ac qalır da!

– Sovet hökuməti dağılmasaydı yaşayacaqdıq. Qoydular bəyəm...

– Kənarda iş tapsaydın...

– Mən bu yaşımda gedib nə iş görə bilərəm?

– Ailəni saxlamaq lazım deyilmi?

Kişi qalxır ayağa, bayaqdan bəri birinci dəfə gülümsəyir:

– Vallah, hamısının günahı atamdadır. Başımıza döyə-döyə məktəbə göndərirdi. Deyirdi: "Balalarım, çörək oxumaqdadır!" Oxuduq. Buyur, ağ günlü olmuşuq! Bəh! bəh!

Qadın məkkildəyən çağanı arabadan götürdü, soruşdu:

– Sizinkilərin səkkizi də institut qurtarıb?!

Kişi pencəyini üsulluca kürsüdən aldı, asılqana keçirib aparıb asdı. Yeganə bayırlıq paltarı bu idi. Kostyum almağa imkan yox idi. Qayıdıb kürsüyə yayxandı:

– İki kiçiyi texnikum qurtardı, – dedi. – Utanmasaydım, vallah, tüpürərdim diploma. Gedib fəhlə işlərdim. Qorxuram atam eşidə bağrı çatlaya. Kişi həmişə deyir ki, mən on baş külfəti yeddi yüz əlli manatla, yəni indiki yetmiş beş manatla dolandırmışam, siz yəqin çox bədxərcsiniz ki, iki mühəndis maaşı ilə dolana bilmirsiniz, həmişə də şikayətlənirsiniz... Nə deyəsən?!

Qadın uşağı döşünə salmışdı, birdən ufuldadı:

– Uff! Gör, necə dişləyir ha! – dedi. – Köhnə adamları başa salmaq mümkün deyil! Hər şeyin bahalaşdığını

nəzərə almırlar... Bir də aşıq gördüyün çağırar... Mənim anam da elə deyir.

Onlar uşaqları unutmuşdular. Bacı-qardaşın səsi bayırdan gəlirdi. Birdən qapı taqqıltı ilə açıldı, oğlan qışqıra-qışqıra içəri təpildikdə onlar susdular.

– Ata, ata, bax, gör, nə qədər pul tapmışam?!

Çağa səsdən diksindi, bərkdən ağladı. Qadın yaxasından çıxmış döşünü içəri salmağı unudub həyəcanla ayağa durdu. Kişinin rəngi ağardı, gözləri iriləndi. Oğlan əlindəki bir qom kağızı başı üstündə yellətdikdə kişinin beynindən ildırım kimi bu fikir keçdi: "Deyəsən, Allah səsimizi eşitdi! Bundan sonra necə inanmayasan?!" Özünü atdı uşağına üstünə:

– Ver bura, oğlum, ver atana! – dedi.

Oğlan bir qom kağızı onun ovcuna dürtdü, kişi baxdı və udqundu:

– Bu nədir?! – deyə bağırdı.

Oğlan hırıldadı:

– Ata, konfet kağızlarıdır da! Zarafat edirəm...

– Zarafat?! – deyə kişinin tutulmuş səsi açıldı və uşağın yaxasını çəngələdi, boynunun kökünə bir-iki şapalaq çəkib fırlatdı o biri otağa, təngimiş halda. – Bu da sənin zarafatının mükafatı! Dəyyus balası!

Bir azdan qonşu otaqdan oğlanın aramsız hıçqırtısı gəlirdi. Qız dəftər-kitabını töküb dərslərini hazırlayırdı. Qadın yenidən çağanın döşünə salmışdı, işıq uşağı narahat etməsin deyə əlini çətir kimi tutmuşdu. Pəncərədən

daha heç nə görünmürdü, qaranlıq düşmüşdü. Küləyin səsi tədricən kəsilirdi.

– Oğlanı bərk vurdun...

– Deyəsən...

– Bəlkə qalxıb könlünü alasan?

– Qoy, bir az da sızıldasın, ağlı başına gəlsin, sonra...

– Uşaqların yanında gərək mübahisə etməyək.

– Özünə desənə! – deyə kişi onu acıladı. – Adamı dəng edirsən! Mən valideynlərimi bircə dəfə də pul üstündə sözləşdiyini görməmişəm... Biz isə...

Qadın qımışa-qımışa onun sözünü kəsdi:

– Elə odur da, pul qazanmağın yollarını bilmirsən!

– Yaxşı, gəlsənə hər gün dalaşaq, – deyə kişi lağ elədi. – Hər gün deyək: "Pul, pul, pul!" Qoy, oğlanlarımız pullu olsun! Hə?!

Qadın mülayimliklə:

– Bu yaşda dalaşmağımız ayıbdır, – dedi. – Uşaqlardan ayıbdır.

– Elədir...

– Görəsən biz də ağ gün görəcəyik?

– Pənah Allaha!...

Qadın birdən pıqqıldadı:

– Amma konfet kağızlarına nə sevindin!

Kişi tərs-tərs ona baxdı, qadın güləndə gözəlləşirdi. O da haçandan-haçana gülümsədi. Sabah maaş veriləcəkdi. Evə azuqə alınacaqdı.

## TEATRDA

O, ayda bir dəfə uşaqları şəhərə çıxarırdı. Bu da ancaq istirahət günləri mümkün olurdu. Başqa vaxtlar işdən o qədər yorğun gəlirdi ki, ona suvaşan balalarına bir xoş söz deməyə ərinirdi.

Bu gün arvadı toya getmişdi. Böyük oğlu dedi ki, dərslərimi hazırlayıram, gedə bilməyəcəyəm. Məhəmməd bir az düşünüb on iki yaşlı oğlunu və səkkiz yaşlı qızını götürüb çıxdı şəhərə. Xeyli gəzdilər. Parkda onları şeytan arabasına mindirdi, yedirtdi, dondurma aldı. Lap axırda soruşdu ki, daha nə istəyirsiniz? İkisi də bir səslə dedi ki, gedək sirkə.

Məhəmməd dodağını büzdü:

– Əşi, yekə adamlarsınız, nə görmüsüz sirkdə, axı? Gör neçə dəfə sizi sirkə aparmışam, hələ də doymamısız?! – dedi.

Düzü, onun sirkin səs-küyündən bərk acığı gəlirdi. Bir də bilet üçün uzanan növbə yadına düşdü, çalışdı ki, mümkün qədər sirki çox pisləsin, uşaqların gözündən salsın. Buna nail oldu. Onlar soruşdular:

– Bəs, hara gedək?!

– Gedək teatra, – deyə Məhəmməd fikirləşmədən təklif elədi.

Razılaşdılar. Teatrlardan hansınınsa qarşısından ötürdülər. Afişaya baxdı. Tamaşanın başlanmasına yarım saat qalırdı, amma kassanın önü boş idi. Bu Məhəm-

mədi sevindirdi. Rahatca bilet alıb foyeyə keçdilər. Seyrək tamaşaçı axınına qoşulub yerlərini tutdular. Məhəmməd özündən razı halda fikirləşdi: "Yaxşı oldu. Yoxsa sirkdə çığ-vığdan qulaq tutulur. Burda isə hamı pıçıltı ilə danışır. Yaxşıca dincimi alaram..."

Uşaqları astadan xəbərdar elədi:

– Baxın ha! Özünüzü yaxşı aparın, – dedi. – Bura sizin üçün sirk deyil.

Oğlu mısmırığını salladı. Bilirdi ki, söz hər ikisinə deyilsə də yalnız ona aiddir.

Bir azdan pərdə qalxdı, tamaşa başlandı. Aktyorlar canı-dildən bağırırdılar, ayaqlarını yerə döyürdülər, sirkdəki kimi şit-şit oyunbazlıq eləyirdilər, amma sidq-ürəklə əsnəyən tamaşaçıları inandıra bilmirdilər. Məhəmmədi xoş bir mürgü basırdı. Amma pərdənin enməsi buna mane oldu. Antrakt elan olundu.

Onlar foyeyə çıxdılar. Ata istədi uşaqlarını bufetə aparsın, oğlu qayıtdı ki:

– Ata, mən də artist olacağam!

Məhəmməd bufeti yaddan çıxartdı:

– Baho, deyəsən aktyorların oyunu xoşuna gəlib?!

– Yaxşı idi! – deyə oğlu ehtiyatla təriflədi. – Amma bağırtı çox idi.

Məhəmmədin gözləri iriləndi:

– Sən lap bizim məşhur tənqidçilər kimi mülahizə yürüdürsən ki! – deyə zarafat elədi.

Oğlu zarafatı qəbul eləmədi:

– Mən dram dərnəyinə yazılmışam, – dedi.

– Deməli, məktəbdə sizə artistlik öyrədirlər?!

– Bəli, ata!

– Demək, artıq teatr bilicisi olmusan? – ata istehza ilə dilləndi.

– Hələ yox! – oğlu istehzanı anlamırmış kimi cavab verdi. – Sadəcə ədəbiyyat müəllimimiz deyir ki, bağırtı hələ sübut deyil...

– Müəllim düz deyir, – deyə Məhəmməd sözü çevirdi. – Bəs, niyə birdən-birə artistlik fikrinə düşmüsən?! Deyəsən, kloun olmaq istəyirdin, axı?!

Qızı birdən böyürdən qaqqıldadı:

– Ata, Fərrux o günləri deyirdi ki, pasport alan kimi Sibirə qaçacağam, orda maralotaran olacağam. Sənə, deyirdi, maral dərisindən şuba göndərəcəyəm...

Fərrux onun sirrini açmış bacısına gözünü ağartdı:

– Xəbərçi! – dedi. – Ölsən də sənə daha heç nə deməyəcəyəm...

Qızcığaz düz iş görmədiyini anlayıb başını atasının dalında gizlətdi, daha səsini çıxarmadı.

Məhəmməd hələ də marağını təmin edən cavab alacağına ümid etdiyindən dedi:

– Əlbəttə, artistlik pis sənət deyil, amma pis odur, sən gündə bir fikrə düşürsən. Bəlkə bir az da fikirləşəsən, Fərrux?!

Fərrux inadla dedi:

– Daha fikrimi dəyişməyəcəyəm! Mütləq artist olacağam! – dedi və gözləri parıldaya-parıldaya atasına doğru əyildi. – Dünyanın ən xoşbəxt adamı onlardır...

Məhəmməd özünü gülməkdən zorla saxladı, bığlarını sığalladı:

– Bu bir az qəliz oldu, axı?! – dedi. – Götürək məni, mühəndisəm, səncə bədbəxtəm?! Ya anan həkimdir, o xoşbəxt deyil?! Ay səni! Ha-ha-ha!

Məhəmməd daha özünü saxlaya bilmədi, qəhqəhə çəkdikdə Fərrux hirsləndi:

– Həmişə beləsən də! – dedi. – Gülmək hələ sübut deyil.

– İncimə, oğlum, – deyə ata dəsmalla gülməkdən yaşarmış gözlərini qurutdu. – Artistlərin nəyi xoşbəxtdir, axı?! Bəlkə xırdalayasan…

– Onlar nə istəsələr, deyə bilərlər! Ürəklərini boşaldırlar. Hamı onlara qulaq asır, heç kim sözünü kəsmir... – deyə Fərrux atasının qoluna toxundu. – Bax, buna görə!

Məhəmməd işin bu tərəfini düşünməmişdi, amma atmacasından qalmadı:

– Sənin ki ağzını bağlayan yoxdur! Sən də ürəyindəkini de də! Kim sənə mane olur?!

Fərrux birdən uşağa xas olmayan bir istehza ilə:

– Qoyursuz bəyəm?! – dedi. – Sinifdə bir ağıllı söhbət salan kimi uşaqlar hırıldaşırlar. “Təzə filosof çıxıb!” – deyirlər. Müəllim masanı tıqqıldadır: “Dərsdən kənar şeylərlə başını qatma, bala!” – deyir. Evdə də sən qoy-

mursan: "A bala, baş-qulağımı dəng eləmə, yaxşısı budur gündəlikdəki üçləri düzəlt." İndi də deyirsən ki, ağzını bağlayan var?! Bəs, bu ağız bağlamaq deyil, nədir?!

Məhəmməd diqqətlə oğluna baxdı:

– Afərin, bir sıfır sənin xeyrinə, – dedi. – İndi mənə qulaq as! Birincisi, danışmaq da elmdir. Yaxşı danışa bilsən qulaq asan da tapılar. İkincisi, hər artist ürəyindəkini desə, onda bu teatr olmaz ki! Olacaq bazar! Artist sən deyən kimi də nitqində azad deyil. Onun başı üstündə bilirsən nə qədər adam dayanır? Nə bilim baş rejissor, rejissor, teatrın bədii rəhbəri.

Fərrux fikrə getdi və utana-utana soruşdu:

– Deyirsən, rejissor, ya bədii rəhbər olsam ürəyimdəkiləri deyə bilərəm?!

– Oğlum, mətni onların heç biri yazmır, axı! Bunun üçün yazıçılar var, şairlər var, dramaturqlar var... Bir də hər sənətdə ürəyindəkini deməyə imkan var. Bəyəm konstruktor ürəyindəkini demir?! Deyir! Amma cizgilərlə. Rəssam rəsmləri ilə. Mühəndis yaratdığı maşınlarla. Rejissor da qoyduğu tamaşalarda ürəyini açır. Artistsə rolları ilə...

Fərrux atasına fəxrlə baxdı:

– Ata, sən fikrini yaxşı ifadə eləyirsən, – deyə onu təriflədi.

– Tərifinə görə sağ ol, oğlum! Amma açığı, mən indiyə qədər bu barədə heç düşünməmişdim, – deyə Məhəmməd saatına baxdı. – Gedək, vaxtdır...

Tamaşanın ikinci hissəsi fikir-xəyal içində keçdi. "Buyur, bu da mənim hər ay sirkə apardığım uşaq! Demə, Fərrux daha yekə kişidir! İyirmi ildir mühəndislik eləyirəm, hələ indiyə qədər ağlıma gəlməyib ki, mən ürəyimdəkini deyə bilirəm, ya yox?! Deyəsən, heç belə bir ehtiyac hiss eləməmişəm. Əziz Nesin haqlıdır, indiki uşaqlar möcüzədir!"

Teatrdan çıxıb evə qayıdanda yol boyu götür-qoy elədi, bir qərara gələ bilmədi. Fərruxun yerişinə-duruşuna bir xeyli baxandan sonra birdən qət elədi: "Bundan sonra onları elə sirkə aparsam, yaxşıdır! Qoy, sakitcə böyüsünlər, – deyə fikirləşdi. – Onların nə vaxtıdır ki? Böyüyərlər, özləri bilərlər, kimə nə demək lazımdır!"

## DAŞ

Gözlədiyim adam hündür, nahamar binadan çıxmaq bilmirdi. Var-gəl eləməkdən yoruldum. Memarlıq üslubu naməlum binaya nə qədər baxmaq olardı. Bağçaya keçdim. Oturacaqlardan birində təzəcə qərar tutmuşdum ki, qart səsdən diksindim.

– Deyəsən, Elçiyevin yaradıcılığı sizə zövq vermədi?

Yanımda haçan oturduğu məlum olmayan kişi diqqətlə mənə baxırdı. Onun üzü tüklü idi, üst-başından baxımsızlıq yağırdı. Yaşı altmışdan çox olardı ki, az olmazdı. Yekə qaşları titrəyirdi, deyəsən, əsəbləri ye-

rində deyildi. Sərrast danışsa da, təpiklənməyə alışmış küçə itləri kimi sərvaxt oturmuşdu.

Belə həmsöhbət tapıntı deyildi, amma vaxtı öldürmək lazımdı. Elə-belə soruşdum:

– Elçiyev kimdir?

Kişi marağımdan məmnun oldu. Yerini rahatladı:

– Paho! Heç demə Elçiyevi də tanımayan varmış! – dedi.

İstehzamı saxlaya bilmədim:

– Bu qəbahətimi düzəltməkdə mənə kömək eləsəz, minnətdar olaram!

Kişi istehzamı eyninə almadı:

– Məmnuniyyətlə! – dedi. – Elçiyev ölkə memarlarının başçısıdır. Bayaq tamaşasından həzz aldığınız binanın memarıdır. Xoşunuza gəlirmi?

Özümü itirmədim:

– Belə də! – dedim. – Binadır da! Açığı, memarlıqdan uzaq sahədə çalışıram. Fikirlərim primitiv olacaq.

Kişi təşviqedici bir səslə:

– Olsun, olsun... – dedi. – Maraqlıdır...

Mən fikrimi tamamladım:

– Bir sözlə, bu bina sənət əsəri deyil.

Həmsöhbətim şadlıqla güldü:

– İnsaflı adamsınız! – dedi. – Sənət baxımından bu bina bir yığın daş qalağıdır. Otuzuncu illərdə belə memarları divara söykəyib güllələyirdilər. Bəli, bəli...

Mən maraqlandım:

– Sizin sənətiniz nədir?

Həmsöhbətim sözünün kəsilməyindən narazı halda dedi:

– Mən arxeoloqam. Memarlıqdan az-çox xəbərim var. Deyirəmsə, bu bina daş qalağıdır, deməli, belədir. Belə binaların memarlarını meydanda sünbə ilə döymək lazımdır. Görün, şəhərin simasını necə kor qoyurlar? Fasad, görün, nə ilə örtülüb? Tikinti tullantıları ilə!

Mən nəzərlərimi ona dikdim. Kişi titrək barmaqlarının arasına bir siqaret alıb odladı. Tüstünü yana üfürdü. Sakitləşmiş halda:

– Elçiyevə bu işə yararlı yüzlərlə daş nümunəsi təklif elədim. Heç birini qəbul eləmədi! Xalqın milyonlarla pulunu havaya sovurdu, bu əcaib binanı tikdi. Mənim topladığım iki min daş nümunəsi...

Mən təəccübümü gizlədə bilmədim:

– İki min daş? Belə çox daş nümunəsi var? – deyə onun sözünü kəsdim.

Həmsöhbətim rəncidə oldu:

– Əlbəttə, var! – dedi. – Otuz ildir ölkəni gəzirəm, dağ süxurlarını tədqiq eləyirəm, tikintiyə yararlı daş nümunələrini toplayıram. Topladığım nümunələrin tərkibini, xasiyyətini, istifadə sahələrini, təbiətdə miqdarını araşdırmışam, şəkillərini çəkmişəm, monoqrafiya yazmışam.

– Çox maraqlı işdir, – deyə təriflədim. – Yəqin elm aləmində qədrinizi bilirlər.

– Siz necə də sadəlövhsünüz! – deyə həmsöhbətim yağırı tapdanmış adam kimi çığırdı. – Mənim monoqrafiyamın xülasəsini oxuyan bir ingilis alimi işlədiyim tədqiqat institutuna müraciət eləyib. Mənimlə tanış olmaq istəyib, işbirliyi qurmaq istəyib. Ona deyiblər ki, müəllif çoxdan ölüb.

– Ola bilməz! – deyə heyrətləndim.

– İndi ki olub! – deyə həmsöhbətim mızıldandı. – Bizim adamları puldan başqa heç nə maraqlandırmır...

– Siz təslim olmayın! Sərgi açın, – dedim. – Bu çox lazımlı işdir.

Kişi üstümə çımxırdı:

– Elçiyev qoydu bəyəm? Onun dəstəyi olmasa kimdi sərgi açmağa icazə verən?

– Qəbulunda olmusuz?

– Əlbəttə! Görün, mənə nə dedi: "Sənin daşların kimə lazımdır, qoca? Müasir memarlıq sənətinin daha təbii tikinti materiallarına ehtiyacı yoxdur". Bir də getdim, bir də xahiş elədim. Məni başından elədi: "Biz daş sərgisi açsaq, bizə gülərlər!" Adamı yandıran bilirsiniz nədir? Bütün zəhmətim hayıf olub gedəcək. Sabah ölsəm, hamısı başlı-başına qalacaq.

Ona ürəyim yandı, mənasız söz danışdığımı bilsəm də, məsləhət gördüm:

– Yuxarılara müraciət eləyin...

– Eləmişəm, qardaş, eləmişəm, – deyə həmsöhbətim ah çəkdi. – Çox qapıları döymüşəm. Hər yerdə: "Təqa-

üddəsən, başına cəncəl açma!" – dedilər. Bir yumorist qayıtdı ki, xalqın ağzını daşlığa salan az idi, sən də bu yandan çıxdın! Başqası çoxdan usanardı, mən isə əl çəkmirdim. Teleqram vururdum, ərizə yazırdım. Bir gün məni memarlıqla heç bir əlaqəsi olmayan bir idarəyə dəvət elədilər. Mehribanlıqla soruşdular ki, hörmətli adamları dəng eləməkdə məqsədin nədir? Mən bu mehribanlığa aldanıb ürəyimdə nə var, danışdım. Onlar dinməz qulaq asdılar, öz aralarında pıçıldaşdılar. Sonra mənə dedilər ki, gedin, yaxınlarda gəlib yerində baxarıq.

Həmsöhbətim susdu. Mən səbirsizliklə soruşdum:

– Aldatdılar? Gəlmədilər?

Kişi qart səslə güldü:

– Yox, gəldilər.

– Bəs, nə oldu?

– Daşların iki otaqda rəflərə səliqə ilə düzüldüyünü, ailəninsə iki otaqda, mətbəx və eyvanda yerləşdiyini gördülər. Başlarını buladılar, getdilər.

– Vəssalam? İş bununla bitdi?

Həmsöhbətim qısa pauzadan sonra:

– İki gündən sonra məni əsəb dispanserinə çağırdılar. Dedilər ki, əmr almışıq, səni müayinədən keçirməliyik.

Quruyub qaldım:

– Belə şeymi olar? – deyə çığırdım.

– Sonra nə oldu?

– Heç nə! Canımı onların əlindən zorla qurtardım. Bundan sonra qorxumdan daha heç yerə getmədim.

Mən söhbəti dəyişdim:

– Övladlarınız varmı? – deyə soruşdum.

Həmsöhbətim başını tərpədib könülsüz dilləndi:

– Bir oğlum var. Evlidir, mənimlə qalır. Arvadım keçən il rəhmətə gedib.

– Allah rəhmət eləsin, – deyə ona başsağlığı verdim. – Bu işlərə oğlun nə deyir, gəlinin necə baxır?

– Onların da daşlardan zəhləsi gedir. Oğlum hər gün deyir, ata, sən eqoistsən. Daşlar, deyir, ürəyini daşa döndərib. Sən, deyir, bizim rahatlığımızı əlimizdən almısan. Bir qalaq daşı, deyir, üç otağa yığdığın azmış, qapı-qapı gəzib bizi gülünc günə qoyursan.

Söhbətin bu yerində məni səslədilər. Binadan ağır-ağır aralanıb bizə yaxınlaşan tanışımın yerişindən anladım ki, işimiz alınmayıb. Kefim pozuldu.

Qalxıb dedim:

– Bağışlayın, getməliyəm. Daş qəlbli insanlarla rastlaşmaq ancaq sizin nəsibiniz deyil.

Həmsöhbətim etinasızlıqla mənə baxdı. Ondan aralandım. Arxamca səslənən tərki-dünya mırıltısı eşidildi:

– Daş! Daş! Daş kimə lazımdır ki!

## TƏLƏBƏ DOSTLAR

Onlar şəhərətrafı elektrik qatarı ilə instituta gedirdilər. Qatar səhər tezdən çıxırdı. Üçü də bir kursda idi. Şəfəqlə Məhəmməd bir qrupda, Əfrayılsa başqa qrupda oxuyurdu. Qəribə trio idi. Yol boyu Şəfəqlə Məhəmmədin, hətta, əndazəni aşan atmacalarını belə Əfrayıl dinməz təhəmmül eləyirdi. Səsini çıxarmağa qorxurdu. Çünki ağzını açan kimi atmaca yağışına düşürdü.

Bu gün oturan kimi Şəfəq:

– Məhəmməd, kvant mexanikasından axırıncı mühazirəni qavraya bilmirəm, – deyə mühazirə dəftərini Məhəmmədə uzatdı. – Bəlkə izah eləyəsən.

Məhəmməd dəftəri almadı:

– İmtahanlara hələ çox var! – dedi. – Vaxtı çatanda izah eləyərəm.

Başını pəncərənin çərçivəsinə söykəyib mürgüləyən Əfrayıl gözünü açmadan deyindi:

– Bu qız ya Landau olacaq, ya Lifşits. Bizə rahat yol getməyə də macal vermir. Hər gün vaqonu mühazirə salonuna döndərir.

Şəfəq tam ciddi:

– Afərin, Əfrayıl əmi! – dedi.

Əfrayıl mürgülü olduğundan qazılan quyunu görmədi. Soruşdu:

– Nə tərifli iş gördük ki?

– Daha Landau ilə Lifşitsi bir-birindən ayırırsan.

Məhəmməd uğundu:

– Bu bir illik ali təhsilin uğurlarıdır.

– Mənə elə gəlir ki, Əfrayıl əmi institutu qurtaranda dahi olacaq! – deyə Şəfəq qeyd elədi.

– Heç indi də pis deyil, – Məhəmmədi guya Əfrayılı müdafiə elədi. – İnkişaf göz önündədir.

– Hayıf ki, cəmi iki kəsiri var! – deyə Şəfəq pıqqıldadı.

– Dahilərin həyatına nəzər salsan görərsən ki, bu elə də çox deyil, – deyə Məhəmməd qəhqəhə çəkdi.

Əfrayıl gözünü açdı, gülüşən dostlarına qanlı-qanlı baxdı. Köksünü ötürdü:

– Uşaq-muşaq yığnağına düşmək budur da! – dedi və yenidən gözünü yumdu.

Onun boyu iki metrə çatardı. Uzun qollarını yellədə-yellədə yeriyirdi. Öküz kimi güclü ili. Hirslənəndə buğdayı çöhrəsi kömür kimi qaralırdı. Dostlarından yaşlı idi. Əsgərliyini çəkib gəlmişdi. Neçə il zavodda işləyəndən sonra ali təhsil eşqinə düşmüşdü.

Bu belə olmuşdu.

Məhəmmədlə Əfrayıl hasarbir qonşu idilər. Bir-birinin əsil-nəcabətini tanıyırdılar. Əfrayıl hər gün işdən sonra eyvanda oturub hasarın o tərəfində Məhəmmədin imtahanlara hazırlaşmağına tamaşa eləyirdi. Arada balaca dostu ilə söhbətləşirdi.

Məhəmmədgilin həyətlərində iri tut ağacının altında kənarları bağlı özbək taxtı qurulmuşdu. Çox rahat yer idi. Xalçanın üstündə bardaş qurmuş Məhəmməd tək

olmurdu. Başına sinif yoldaşları toplaşırdı. Ən çox da Şəfəq gəlirdi. Saatlarla otururdu. Onlar dərsləri bir yerdə təkrarlayırdılar.

Bu gün tək idi. Dəftər-kitabı qabağında olsa da, fikri başqa yerdə idi. Məhəmməd imtahanlara laqeyd yanaşırdı. Özünə çox arxayın idi. İstənilən instituta girməyə savadı çatardı.

Əfrayıl soruşdu:

– Hazırlaşırsan, qardaşoğlu?

– Hazırlaşıram, əmi, – deyə Məhəmməd könülsüz cavab verdi.

– Güman ki, yaxınlarda ali məktəb tələbəsi olacaqsan, – deyə Əfrayıl həsədlə dilləndi.

– Allah qoysa...

Əfrayıl birdən astadan soruşdu:

– Məni də instituta hazırlaya bilərsən?

Məhəmməd Əfrayılın arzusuna güldü:

– İnstitut sənin yerin deyil, əmi!

– Niyə?

– Gör, neçə ildir orta məktəbi bitirmisən.

– Nə olsun!

– Yəqin vurma cədvəli də yadından çıxıb! – deyə Məhəmməd dişini ağartdı.

– Bəlkə cəhd eləyəsən?

– Axı, institut nəyinə gərəkdir? – deyə Məhəmməd təəccübünü gizlətmədi.

Əfrayıl səbəbini dostuna demədi. Sadəcə:

– Lazımdır! – dedi.

– Əfrayıl əmi, zavodda işləyirsən, gül kimi sənətin var, qom-qom pul alırsan, – deyə Məhəmməd onun istəyinə qarşı çıxdı. – Başına niyə cəncəl açırsan?

– Zavodu atmıram ki! – deyə Əfrayıl izah elədi. – Axşam növbəsində işləyəcəyəm.

– Olmaz ki, tərsinə eləyəsən? Axşam şöbəsinə girəsən? – deyə Məhəmməd məsləhət gördü. – Deyilənə görə, müəllimlər axşam şöbəsində oxuyanları elə də sıxmırlar.

– Xeyr, mən gündüz oxumaq istəyirəm.

– Həm işləyib, həm oxumaq səni əldən salacaq! – deyə Məhəmməd gülümsədi.

– Dözərəm!

– İnstitut belə vacib düşüb?

– Lazımdır! – deyə Əfrayıl yenə inadla təkrar elədi. – Hə, nə deyirsən?

Məhəmməd başını buladı:

– Yox, mən bu işi boynuma götürə bilmərəm, – dedi. – Havayı hamballıqdır.

Əfrayıl onun yadına saldı:

– Əvvəllər bizim küçənin palçığı-zığı qurumurdu. Sən kiçik olanda mən hər gün səni çiynimə alıb palçıqdan keçirirdim, qolundan tutub məktəbə aparırdım. İndi növbə sənindir. Məni palçıqdan çıxarmalısan...

Söz Məhəmmədi tutdu. Daha Əfrayıla etiraz eləmədi. Aralarında altı-yeddi il yaş fərqi vardı. Məhəmməd

birinci sinfə gedəndə Əfrayıl yekə kişi idi. Onu məktəbə aparıb-gətirməyi xahişsiz-minnətsiz boynuna götürmüşdü. Bəzən Məhəmmədin çantasını qoltuğuna alır, özünü də çiyninə mindirirdi. Məhəmməd uşaqlıqda zəif idi, yeriyəndə qıçları bir-birinə dolaşırdı. Amma həddən artıq dilli-dilavər idi. Əfrayıl onu danışdırmaqdan ləzzət alırdı.

Məhəmmədin iri başı vardı. Cılız belini qayışla elə sıxırdı ki, görən onun ortadan qırılacağından ehtiyatlanırdı. Sısqa gövdəsi yekə başının ağırlığından əyilmişdi. Bütün bunlar onun həmişə civə kimi hərəkətdə olmağına mane olmurdu. Yekə başı ideyalarla dolu idi.

Boynuna götürdüyü işlə ürəkdən məşğul olurdu. Müəllimliyinə söz ola bilməzdi. İki ay gecəni gündüzə qatdı, məzuniyyətə çıxmış Əfrayılı instituta hazırladı. Şəfəq də bu işdə ona yardımçı idi. Tez-tez deyirdi:

– Əfrayıl əmi, sən imtahanlardan kəsilsən mən özümü asacağam.

– İki kəlləli müəllimi olan şagird kəsilə bilməz, – deyə Əfrayıl cavab verirdi.

İxtisas seçəndə mübahisələri düşdü. Əfrayıl dedi:

– Mən sizinlə bir qrupda oxumaq istəmirəm.

Məhəmməd təəccübləndi:

– Niyə?

– Müəllimlə şagirdin bir yerdə oxumağı yaxşı deyil, – deyə Əfrayıl zarafat elədi.

Vədə yetişdi. İmtahanlara üçü də bir girirdi. Əfrayılı ortaya salırdılar. Hərə bir tərəfdən kömək eləyirdi. Möcüzə baş verdi. Əfrayıl institut tələbəsi oldu.

Tələbə biletini alıb nəhəng sütunlu binadan çıxanda Əfrayıl yalançı pafosla:

– Quş kimi qanadlanmaq istəyirəm, – dedi. – Mən artıq tələbəyəm.

Şəfəq özünü saxlaya bilmədi:

– Əfrayıl əmi, institutun yekə sütunları olmasaydı yerə girərdi, – deyə onları güldürdü. – Çünki sən də tələbəsən…

Dərslər başladı. Məhəmmədin gözündən heç nə yayınmırdı. Əfrayılla bir-iki dəfə institut kitabxanasının yerləşdiyi korpusda rastlaşmışdı. Əvvəl buna fikir vermədi. Elə bildi kitab götürməyə gəlib. Sonra götür-qoy eləyəndən sonra hər şeyi anladı. Şübhələrini dəqiqləşdirmək üçün çox vaxt sərf eləmədi. Əfrayıl, deyəsən, başına gələnlərdən dərs almamışdı. Yenə Səbirənin həndəvərində dolanırdı.

Səbirə də qonşuları idi. İnstitut kitabxanasında çalışırdı. Bir üzü qız, bir üzü gəlindi. Ərə gedib boşanmağı üç ay çəkməmişdi. Məhəmmədin böyük bacısı ilə ci-ci-bacı idi. Orta məktəbi bir qurtarmışdılar. Tez-tez bir araya gəlirdilər. Səbirə institut xəbərlərini rəfiqəsinə çatdırırdı.

Bir dəfə Şəfəq adi bir şeyi Əfrayıla izah eləməyə çalışdı. Buna nail olmayanda heyrətini bildirdi:

– Əfrayıl əmi, bu boş başına güvənib ali məktəbə girmisən?

Əfrayıl hazırcavablıqla:

– Mən boş başıma yox, dostlarımın dolu başına güvənib oxuyuram, – dedi.

Şəfəq onun hazırcavablığından çaşdı:

– Gör, necə dil açıb! – deyə heyrətləndi.

Məhəmməd əl çaldı:

– Yaxşı cavabdır.

Şəfəq əl çəkmədi:

– Məhəmməd, sən bu dəyişikliyə nə deyirsən? – deyə soruşdu. – Buna səbəb nə ola bilər?

Məhəmməd Füzulinin bir məşhur beytini təkrarladı:

*– Məndə Məcnundan füzun aşiqlik istedadı var!*

*Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.*

Şəfəq başa düşmədi. Əfrayıl nəsə hiss eləyib ona gözünü ağartdı. Məhəmməd sözü udmalı oldu.

Şəfəqə gözəl demək olmazdı, amma o qədər suyuşirin idi ki, ən gözəl qızları kölgədə qoyurdu. Şaqraq gülüşü, məlahətli səsi vardı. Dildən də pərgar idi.

Məlumdur ki, hər bir dostluğun bir qəliz tərəfi var. Hamımız görə-görə gəlmişik. Dostluqda bərabərlik olmur. Lap futboldakı kimi. Top ya Məhəmmənddə olurdu, ya da Şəfəqdə. Qapıçı Əfrayıl idi.

Şirin dilinə, baməzəliyinə görə qrupun qızları Məhəmmədin ətrafında fır-fır fırlanırdılar. O, zehinli olduğundan birinci semestrdən fakültənin əlaçıların-

dan idi. Deyib-gülməkdə ondan geri qalmayan Şəfəq də həmişə böyründə olardı. Ümumi mühazirələr vaxtı iki-üç qrupun cəmləndiyi auditoriyaya girən müəllimlərin günü qara idi. Şəfəqlə Məhəmməd birləşəndə mühazirə salonu dəli yığıncağına dönürdü. Onların hər kəlməsi auditoriyada gur qəhqəhəyə səbəb olurdu.

Məhəmmədin hafizəsinə söz ola bilməzdi. Əzbərdən saatlarla şeir deyirdi. Auditoriyanı ədəbiyyat dərnəyinə çevirirdi. Hərdən özü də şeir yazır, tələbə yoldaşlarına oxuyurdu. İnstitut qəzeti Məhəmmədin yazılarını dərc eləyəndən sonra siyasi iqtisaddan dərs deyən İsaməddin müəllim ona dedi:

– Bala, sən gərək ədəbiyyat institutuna girəydin. Sən hazır şairsən.

– Keçmişdə şair olmaq üçün institut qurtarmırdılar, – deyə Məhəmməd cavab verdi.

Müəllim razılaşmadı:

– Bala, keçmişdə bəlkə belə idi, indi başqa cürdür, – dedi. – Hələ gec deyil.

– Mən mühəndis olmaq istəyirəm.

İsaməddin müəllim güldü:

– Onda ədəbiyyatı boşla, – dedi.

Məhəmməd sözgəlişi dedi:

– Mühəndisə ədəbiyyat daha çox lazımdır.

Müəllimlərin çoxu tezliklə Məhəmmədlə Şəfəqin zarafatlarına alışdı. Bu şirin atmacalarda könülə dəyən bir şey yox idi. Bircə yarımkeçiricilər fizikasını tədris

eləyən Qasir müəllim onlarla mübarizə aparırdı. Zarafatlarını təhəmmül eləmirdi. İki gündən bir şikayət eləyirdi. Hər dəfə Məhəmmədlə Şəfəqi dekanlığa çağırıb danlayırdılar. Axırda onlardan söz aldılar ki, daha Qasir müəllimin mühazirələrində ağızlarını açmayacaqlar.

Məhəmməd başqa yol tapdı. Bilirdi ki, qrup yoldaşı Rüstəmin bərk qıdığı gəlir. Diqqətini özünə cəlb eləmək kifayətdir. Qasir müəllimin kəsalət gətirən mühazirələri yenidən canlandı. Məhəmməd Rüstəmi səsləyir, diqqətlə ona baxır, barmağını havada oynadırdı. Virtual qıdıqdan tələbə yerində dingildəyir, uğunurdu. Təbii ki, uşaqların da arasına gülüşmə düşürdü. Qasir müəllim Rüstəmi qaldırırdı:

– Bala, nə soncuxlanırsan? – deyə onu hədələyirdi. – Sən ali məktəbi qurtarmaq istəmirsən? Kursda qalmaq istəyirsən?

Rüstəm uğuna-uğuna:

– Müəllim, vallah, Məhəmməd əl çəkmir!

Qasir müəllim ona inanmırdı:

– Kiri! Gör, Məhəmməd harda oturub, sən harda oturmusan! Öyrəşmisiz hər şeyi onun boynuna atmağa.

Tezliklə Qasir müəllim də onlardan şikayət eləməyi boşladı.

Əfrayıl Məhəmmədin ətəyindən möhkəm yapışmışdı. Dərslər güc gələndə çəkinmədən onun üstünə qaçırdı. Məhəmməd Əfrayılın əvəzinə kurs işlərini yazır, cizgilərini çəkirdi. İmtahan vaxtı onu imtahana hazırla-

yırdı, zaçot vaxtı zaçota. Korazehin dostunu darda qoymurdu.

Birinci semestrin sonu idi. Qasir müəllim axırıncı mühazirəni oxuyurdu. Auditoriyanın qapısı açıldı. Əfrayıl həyəcanlı içəri təpildi. Müəllim sözünü yarımçıq qoydu, narazı qaldı:

– Sənə nə lazımdır? Mühazirəni niyə pozursan? – deyə soruşdu.

Əfrayıl az qala qışqıra-qışqıra dedi:

– Mənə Məhəmməd lazımdır!

– Məhəmmədi neynəyirsən?

– Bizim müəllim mənim kurs işimi qəbul eləmir.

Qasir müəllim kimi bir adam özünü itirdi:

– Yaxşı, buna Məhəmməd neynəsin?

– O bizim müəllimi yola gətirəcək, – deyə Əfrayıl dilləndi.

– Nə təhər yola gətirəcək? – deyə Qasir müəllim təəccübləndi.

– Kurs işini Məhəmmədlə bir yerdə yazmışıq.

Məhəmməd dostunu ağır vəziyyətdən çıxarmaq üçün yerindən qalxdı. Qasir müəllim daha özünü saxlaya bilmədi:

– Allah evini tiksin, gör, nə yekəlikdəsən, az qala başın tavana dəyə, əl boyda uşaqdan kömək umursan!

Əfrayıl ondan gözlənilməyən bir hazırcavablıqla:

– Müəllim, o mənim gözümdə Məhəmməd Əliyə bərabərdir.

Qasir müəllim eynəyini çıxarıb silə-silə söz atdı:
– Şəfəq xanım lazım deyil ki? – deyə soruşdu.
– Yox.
Qasir istehza ilə:
– Bəs, Məhəmmədə kim vagirlik edəcək?
– Bu gün Şəfəqsiz də keçinərik... – deyə Əfrayıl burnunu çəkdi.
Qasir müəllim gülümsədi, səbrlə gözləyən Məhəmmədə bayıra çıxmağa icazə verdi.
Məhəmməd dəhlizdə dostunu danladı:
– Mühazirənin axırını gözləyə bilməzdin?
Əfrayıl danlaqdan incimədi:
– Bizim müəllim cədvəli dekanlığa aparırdı, zorla yola gətirmişəm. Bizi gözləyir. Deyir ki, kurs işini sən özün yazmamısan.
Məhəmməd onu təkrar danladı:
– Sənə demişdim, axı, işi əzbərlə. Yəqin hıqqana-hıqqana danışmısan, müəllim də belə nəticəyə gəlib də.
Əfrayıl burnunu çəkdi:
– Kurs işini gecə səhərə qədər südəzbəri eləmişdim, hıqqanmaq nədir, bülbül kimi ötürdüm. Müəllim də elə buna görə hirsləndi. Soruşdu ki, ay tutuquşu, dediklərini anlayırsan? Dedim, anlayıram. Lap hirsləndi. Məni bircə sualla ilişdirdi. Yoxsa kurs işinin səliqəsinə valeh olmuşdu. Az qala soruşmadan zaçot yazacaqdı. Bir sualdan sonra paxırım açıldı, bildi bunu özüm yazmamışam.

Məhəmməd qımışdı:

– Uzatma sən canın, müəllim nə istəyir, axı?

– Müəllim dedi ki, bu kurs işini yazan oğlanı yanıma gətirməsən, səni kursda saxlayacağam, – deyə Əfrayıl mızıldandı.

Məhəmməd Əfrayılın müəllimilə çox asanlıqla dil tapdı. Onun sifarişi ilə bir-iki kurs işi yazmağı boyun oldu. Bundan sonra müəllim dostuna zaçot yazdı.

Hər gün dərslərdən sonra Əfrayıl Məhəmmədlə Şəfəqi gözləyirdi. Evə də bir qayıdırdılar.

Yay tətilindən sonra vəziyyət bir az dəyişdi. Şəfəq nişanlanmışdı. Barmağındakı üzüyün parıltısı adamın gözünü qamaşdırırdı. Həmin gündən Məhəmmədin rəftarı dəyişdi. İndi Şəfəqlə yarıkönül danışırdı. Əfrayılınsa dili açılmışdı, tez-tez Şəfəqdən soruşurdu:

– Gəlinbacı, toy haçandı?

Şəfəq, nədənsə, kobudluq eləyirdi:

– Əmi, burnunu bu işə soxmasan yaxşıdır.

– Nə olacaq ki?

Şəfəq könülsüz halda:

– Burnunu itirəcəksən, – deyə onu zarafatla hədələyirdi.

– Gəlin bacı, dost yolunda boran olar, qar olar. Bir burunla kimdi məni tanıyan...

Şəfəq ona baş qoşmurdu, gülümsəyərək sözü başqa səmtə yönəldirdi. Dostların münasibətində bir gərginlik yaranmışdı.

Amma Şəfəq nişanlanandan sonra da köhnə şakərindən əl çəkmirdi. Məhəmmədin etirazlarına baxmırdı. Tənəffüslərdə yenə onun qoluna girib dəhlizdə dolanırdı.

Bir dəfə Əfrayıl dostuna söz atdı:

– Mənə elə gəlir ki, bir gün nişanlı qızla qol-qola gəzmək başına bəla açacaq!

Məhəmməd onun ağzından vurdu:

– Sənin falçılığın da varmış! – dedi. – Biz ki ayrılmaz dostlarıq.

Əfrayıl əl çəkmədi:

– Mən bir sözdü dedim! – dedi. – Odla pambığın dostluğuna inanmıram.

Bir gün Məhəmməd institutdan tək çıxdı. Şəfəq neçə gün idi dərsə gəlmirdi. Xəstələnmişdi. Əfrayıl da gözə görünmürdü. Məhəmməd institutun qarşısındakı bağdan keçəndə qabağını iki nəfər kəsdi. Dinmədən hərəsi bir qolundan tutub onu ağaclığın dərinliyinə sürüdülər. Məhəmməd müqavimət göstərmədi. İstəsəydi də buna gücü çatmazdı. Qoluzorlulardan biri kifir idi. Hirslə soruşdu:

– Adə, sən nəkarəsən ki, mənim nişanlımın qoluna girirsən?

Məhəmməd cüssəsiz qollarını onların əlindən qurtarmağa çalışmadı. Dəqiqləşdirmək üçün:

– Nişanlın kimdir ki?

– Şəfəq mənim nişanlımdır.

Günahını anlayandan sonra Məhəmməd arxayınlaşdı. Mülayim halda dedi:

– Vətəndaş nişanlı, sənə düz məlumat verməyiblər. Mən nişanlının qoluna girmirəm, nişanlın mənim qoluma girir.

Sol qolundan tutan oğlan gülümsədi. Məhəmmədin baməzəliyini qiymətləndirdi:

– Elə olmağına elədir, – dedi. – Hər halda, sən gərək nişanlı qızdan uzaq duraydın!

Qoluzorlu nişanlı söhbətin şirin məcraya düşməsinə yol vermədi. Hökmlə dedi:

– Bundan sonra yerini dəyişərsən, – dedi. – Şəfəqlə bir partada oturmağı sənə qadağan eləyirəm.

Məhəmməd olduqca mülayim:

– Olmaz ki, bu sözü nişanlına deyəsən?

Söz qoluzorlu nişanlıya təsir elədi. Dilindən qaçırtdı:

– Demişəm, qulaq asmır! – dedi. – Dəlisov şeydir, sözümlə durub-oturmaq istəmir.

Məhəmməd qollarını məngənədən çıxarmağa çalışdı, yenə buna nail olmadı, amma dilini saxlamadı:

– Onda sən nişanlının sözü ilə durub-otur, – dedi. – O qədər arvad sözü ilə durub-oturan kişilər var ki! Sən də biri!

Bu sözdən sonra qoluzorlu nişanlı hirsləndi, qolaylanıb Məhəmmədə bir sillə vurmaq istədi. Əfrayıl özünü yetirdi. Qoluzorlu nişanlının qolundan tutdu, burdu, ağrıdan çığırana qədər sıxdı. Məhəmmədin o biri qolun-

dan tutmuş ikinci oğlan işi fırıq görüb yoldaşını darda qoydu, tez aradan çıxdı. Əfrayıl nişanlı oğlana qıcandı:

– Bir də səni dostuma yaxın gedən görsəm bez kimi cıraram. Bildin?

Nişanlı ağrıdan inildədi:

– Anladım! – dedi və xahiş elədi. – Qolumu burax.

Əfrayıl onun qolunu boşladı, dalından diziynən vurdu:

– Buna bax! – dedi. – Özündən gücsüzə hünər göstərir.

Onlar ağaclıqdan çıxdılar. Məhəmməd mızıldandı:

– Lap vaxtında özünü çatdırdın! – dedi. – Məndə ağız-burun qoymayacaqdılar.

– Bir az yubanmışdım, – deyə Əfrayıl qımışdı və qollarını ovuşduran Məhəmməddən soruşdu. – Bunlar kim idi? Səndən nə istəyirdilər?

Məhəmməd üz-gözünü turşutdu:

– O qolunu burduğun oğlan Şəfəqin nişanlısı imiş.

Əfrayıl bir an dinmədi. Haçandan-haçana dedi:

– Sən gərək tez tərpənəydin!

Məhəmməd anlamadı:

– Nəyi deyirsən?

Əfrayıl güldü:

– Elə bilirsən Şəfəqi istədiyini bilmirəm?

– Boş-boş danışma! – deyə Məhəmməd çaşdı. – Sən hardan bilirsən, axı?

– Mən çox şey bilirəm. Hətta, onu da bilirəm ki, Şəfəq də səni istəyir.

Məhəmməd köksünü ötürdü:

– Daha nə eləmək olar? – dedi. – İndi o nişanlıdır.

Əfrayıl inamla:

– Hələ gec deyil!

– Demək asandır...

– Sən ki zəvzək deyilsən. Yubansan, qorxuram, mənim günümə düşəsən! Gec tərpənməyim mənə baha başa gəldi. Səhvimi hələ də düzəldə bilmirəm. Bəli, belə işdə kədərli təcrübəm var...

Bu hadisədən sonra Məhəmmədlə Əfrayılın dostluğu daha da möhkəmləndi.

Bir neçə gündən sonra Şəfəqi görəndə Məhəmməd qaşqabağını tökdü. Heç nə olmamış kimi gəlib böyründə oturmuş qıza əyri-əyri baxdı. Əfrayıl yetik-yetik irişdi. Məhəmməd Əfrayıldan bir siqaret istədi, durub tambura adladıqda Şəfəq onun qolundan tutub gülümsədi:

– Məndən qaça bilməzsən, – dedi.

Məhəmməd bu gülüşün önündə dayana bilmədi, sadəcə dedi:

– Qaçan mən deyiləm, – dedi və aralandı.

Şəfəq heç nə olmamış kimi Əfrayıla tərəf çevrildi:

– Sənin gözünə dönüm, əmi! O zırramanın dərsini nə vermisən! – deyə gülümsədi...

Əfrayıl çaşqınlıqla:

– İşim elə zırramalarladır da!

Şəfəq üzbəüz oturmuş Əfrayıla baxmadan ondan gözlənilməyən bir kövrəkliklə pıçıldadı:

– Allahdan gizli deyil, səndən nə gizlədim, əmi, əmioğlu günümü qara eləyib. Hər axşam bacısından sifariş göndərir: "Şəfəq belə otursun! Şəfəq elə otursun!"

Əfrayıl istehza ilə:

– Kiri, ay qız, xoşuna gəlmirdi niyə nişanlanırdın?

Şəfəq burnunu çəkdi:

– Dədəmin işləridir.

Əfrayıl təəccüblə:

– Səni, deyirsən, razılığın olmadan nişanlayıblar?

– Əlbəttə! Bilirsən ki, dədəm tərs adamdır! Məndən soruşmadan bu işi tutub. Deyir ki, qoy, var-dövlətim qardaşım oğluna qismət olsun.

Əfrayıl bilmədi nə desin. Soruşdu:

– İndi nə olacaq?

Şəfəq çiyinlərini çəkdi:

– Olan daha oldu da, – dedi və üzüksüz adsız barmağını göstərdi. – Döyüləndən sonra əmim oğlu nişanımı qaytardı. Deyib ki, əmi, başqa oğlanın qolundan sallanan qız mənə lazım deyil. Dədəmin fikri odur ki...

Əfrayıl birdən hirsləndi:

– Məni sənin fikrin maraqlandırır, dədənin yox.

Şəfəq başını qaldırmadan:

– Mən onsuz da əmim oğluna gedən deyiləm, – dedi.

Əfrayıl ehtiyatla:

– Məhəmmədə münasibətin necədir?

Şəfəq birdən pıqqıldadı:

– Əmi, olmuya mənə Məhəmmədin elçiliyini eləmək istəyirsən?

– Sən sözdən qaçma! Cavab ver, – deyə Əfrayıl təkid elədi.

Şəfəq mərd-mərdanə:

– Həvəslə ona ərə gedərdim... – dedi. – Amma bu zalım oğlu hər şeydən danışır, bircə məhəbbətdən danışmır.

– O danışmır, sən danış.

– Əmi, lap xərifləyirsən ha! – deyə Şəfəq istehza ilə dilləndi. – Harda görmüsən ki, qız oğlana eşq elan eləsin?

Əfrayıl da lağ elədi:

– Könlü balıq istəyənin quyruğu suda olmalıdır, – dedi. – Fikrin ciddidirsə, Məhəmmədin hərəkətə gəlməyini gözləmə.

Şəfəq birdən qət elədi:

– Neynək, bunu da sınaqdan keçirərik... – dedi. – O yekəbaşa özüm eşq elan eləyəcəyəm.

Əfrayıl şadlıqla:

– Bu başqa məsələ! Bunu kampotla da olsa, qeyd eləmək lazımdır, – dedi. – Dərsdən sonra Zabit yeməkxanasına gedirik.

Məhəmməd söhbətin axırına qayıtmışdı. Şəfəqə baxmadan zarafata salmağa çalışdı:

– Əmi, hesabı kim verəcək? – deyə soruşdu. – Təqaüd vaxtına hələ çox var.

– Bəlkə atışaq... – deyə Şəfəq təklif elədi.

Əfrayıl başını buladı:

– Mən sizi dəvət eləyirəm. Deməli, hesab da mənim boynumdadır.

O, axşamlar zavodda işləyirdi. Karlı maaş alırdı. Üstündə həmişə pul olurdu. Gəzməyə çıxanda dostlarına əl cibə salmağa imkan vermirdi.

Həmin gündən dostlar arasında gərgin ovqatdan əsər qalmadı. Məhəmmədlə Şəfəqin münasibətlərində bir aydınlıq yarandı.

Bir gün Əfrayıl Məhəmmədgilə gəldi. Həyətdə oturdular. Əfrayıl sözlü adam kimi susurdu. Dostunun atmacalarına cavab vermirdi.

Məhəmmədin ürəyinə nəsə damdı.

– Çoxmu susacaqsan? – dedi. – Bəlkə dərdini deyəsən?

Əfrayıl birdən dilləndi:

– Mən Səbirəni istəyirəm.

Məhəmməd guya inanmırmış kimi:

– Mən heç bilmirdim! – dedi.

Əfrayıl ona acıqla baxdı:

– Yaxşı bilirsən! – dedi. – Siçan-pişik oynamağın yeri deyil. Məni pusduğunu elə bilirsən bilmirəm?

Məhəmməd həqiqətən çaşdı:

– Hardan bilirsən?

– Deyirəmsə, deməli, bilirəm.

Məhəmməd boynuna aldı:

– Bu, doğrudan, belədir, – dedi. – Amma Səbirəni unutsan yaxşıdır.

– Niyə?

– Yenə əqrəbası tökülüşəcək üstünə.

– Bilirsən ki, mən onlardan qorxmuram.

– Qorxsan yaxşıdır. Qırılmışlar çoxdular. Dayısı oğlanları, əmisi oğlanları, bibisi oğlanları, saymaqla qurtarmır.

– Hə, çəyirtkə kimidirlər. Davalarımız yadındadır? – deyə Əfrayıl soruşdu.

– Yadımdadır. Mən onda uşaq idim.

– Uşaq da olsan, qiryətli idin. Hər dəfə onları daşa tutmağın yadıma düşəndə məni gülmək tutur, – deyə Əfrayıl güldü.

– Neçə nəfərlə vuruşurdun! Sənə yaxın gələ bilmirdilər. Fırfıra kimi fırlanırdın.

– Heç indi də mənə bata bilməzlər.

– Səni vurub öldürə bilərlər.

– Vurub öldürsəydilər indiyə qədər öldürərdilər, – deyə Əfrayıl gülümsədi.

– Bu davaların səbəbi nə idi, axı?

– Guya bilmirsən? Bacın danışmayıb?

– Ucundan-qulağından söhbət eləyib. Amma səhih bilmək istərdim.

Əfrayıl yerini rahatladı:

– Səbirə doqquzuncu sinifdən bizimlə oxuyurdu. İlk dəfə onu görəndə ağzım açıla qaldı. Belə gözəl hələ dünyaya gəlməmişdi. Atası vəzifədə imiş. Təqaüdə çıxandan sonra şəhərdəki evini buraxıb ata-baba ocağına qayıtmışdı. Səbirə məktəbə gələndə hamı tamaşasına çıxırdı. Ələlxüsus, ağ paltar geyinəndə adam gözünü ondan ayıra bilmirdi, göydən enmiş mələyə oxşayırdı. Bütün oğlanlar kimi mən də ona vurulmuşdum. Amma ona yaxın getməyə ürək eləyən yox idi. Zalım qızının bir metrə dili vardı. Ona söz çatdırmaq olmurdu. Hamını dalayırdı. Hərəyə bir ad qoymuşdu. Ən çox da mənə ilişirdi. Bəhanə tapan kimi hoyduya götürürdü. Ağızdan pərtövlüyümə lağ eləyirdi, hoqqar boyuma gülürdü, bir sözlə, vedrə bağlamaqda usta idi. Həm də qohum-əqrəbalı idi. Tək bizim sinifdə dörd-beş qohumu oxuyurdu. Ona yaxın gedənin tükünü didməyə hazır idilər. Ən çox canfəşanlıq eləyən Conik adlı qohumu idi. Əsl adı Cahid olsa da, hamı onu belə çağırırdı. Təşəxxüslü oğlan idi. Atasının puluna güvənənlərdən idi. Varlığa nə darlıq, məktəbə gündə bir libasda gəlirdi. Heç demə o da Səbirəyə vurulubmuş.

– Maşallah, lap şair kimi danışırsan ki!

Əfrayıl atmacanı eyninə almadı:

– Bir dəfə dəhlizdə zarafatlaşırdıq. Bir neçə oğlan arxamızda söhbət eləyirdi. Onların arasında Conik də var idi. Başım qarışdı, birdən məni möhkəm itələdilər, müvazinətimi saxlaya bilmədim, büdrəyib yanımdan

keçən Səbirəni yerə yıxdım, özüm də onun üstünə yıxıldım. Allah üzümə baxdı, qıza bir şey olmadı, bircə burnu qanadı. Amma bu da kifayət idi. Səbirənin qohumları üstümə tökülüşdülər. Birinə cavab verməmiş, o birisi gəlirdi. Müəllimlər bizi ayırdılar. Sonra bildim ki, bu işi Conik qurub. Davaların bünövrəsi həmin gündən qoyuldu.

Məhəmməd onun sözünü kəsdi:

– Sən indiyə qədər ürəyini Səbirəyə açmamısan? – dedi.

– Mən ondan qorxuram.

– Səbirə, bəyəm, adamyeyəndir?

– Dilindən qorxuram, – deyə Əfrayıl yazıq-yazıq boynunu bükdü. – Bilirsən ki, Səbirə orta məktəbi bitirən kimi instituta girdi. Kitabxanaçılıq fakültəsinə. Mən heç yerə getmədim. Məktəbi zorla qurtarmışdım. Oxumaq mənim yemim deyildi. Səbirəni görmək üçün hər gün dalınca instituta gedirdim. Xəlvətə çəkilib baxırdım. Bir gün təsadüfən rastlaşdıq, qaçıb gizlənə bilmədim. Səbirə rəfiqələrinin yanında məni o qədər doladı ki, elə sözlər dedi ki, yadıma salanda indi də xəcalət çəkirəm. Tezliklə məni əsgər apardılar. Dedim, unudaram. Amma unuda bilmədim, hər gecə onu yuxuda görürdüm. Ordudan qayıdanda onun nişanlandığını eşitdim. Elə bil dünya uçdu, altında qaldım. Sonra özümə gəldim. Zavodda işə girdim. Sənəti tez götürdüm. Yaxşı qazanırdım. Pulum pul idi, hörmətim hörmət. Səbirə institutu qurtardı, ərə

getdi. Keçən il ərindən ayrıldığını eşidəndə, düzü, sevindim. Qərara gəldim ki, instituta girəcəyəm, onu hər gün görəcəyəm.

Məhəmməd qımışdı:

– Sənin ləqəbin nə idi? Məktəbdə sənə nə ad qoymuşdular?

Əfrayıl könülsüz halda:

– Heç yeridir? – dedi, sonra güldü. – Mənə o qədər adlar qoyublar ki, sayı-hesabı yoxdur. – Hansını bilmək istəyirsən?

Məhəmməd uğundu:

– Uyarlılarını deyə bilərsən?

– Mənə qorilla da deyirdilər, dəvə də deyirdilər, qozbel də deyirdilər... Yenə sadalayım? – deyə Əfrayıl mızıldandı.

Məhəmməddə can qalmadı:

– Ha-ha-ha! – deyə qəhqəhə çəkdi. – Bu adları sənə kim qoymuşdu?

– Səbirə qoymuşdu.

Məhəmməd yenə uğundu:

– Mənə elə gəlir ki, sənə bu ləqəbləri verən qız sənə qarşı laqeyd deyil.

Əfrayıl təlaşla:

– Bunu öyrənməyi sənə həvalə eləyirəm, – dedi. – İndi əl məndən, ətək səndən.

Məhəmməd təzə tərləmiş bığ yerini sığalladı:

– Boş-boş danışma. Mənə niyə yalvarırsan? – dedi. – Mən ki qız atası deyiləm!

Əfrayıl incik-incik baxdı:

– Mənim gümanım sənə idi! – deyə qalxdı.

Məhəmməd könülsüz dedi:

– Dostum, mənə bir-iki gün möhlət ver, görüm neynəmək olar, – deyə Əfrayılı yola saldı.

Bir həftə keçdi. Neçə gün idi həsrətdən solub-saralan Əfrayıl yol boyu susurdu, arada Məhəmmədə gözaltı baxırdı, amma heç nə demirdi. Bir gün Şəfəq Əfrayıldan soruşdu:

– Sənə nə olub?

Əfrayıl mızıldandı:

– Xəstələnmişəm... Halım yoxdur.

Heç nədən şübhələnməyən Şəfəq güldü:

– Rəngin yaxşıca ağarıb, Əfrayıl əmi! – dedi. – Xəstəlik səni gözəlləşdirib.

Məhəmməd qımışdı:

– Əfrayıl əmini gözəlləşdirən xəstəlik deyil...

Əfrayıl mızıldandı:

– Kişini gözəlləşdirən hülqumudur! – dedi və durub tambura çıxdı.

Məhəmməd dərhal susdu. Şəfəq diqqətini topladı:

– Olmuya məndən nəsə gizlədirsiniz? – deyə soruşdu. – Heç utanmırsınız? Danış görüm...

Məhəmməd başını buladı:

– Deyə bilmərəm! Sirr sahibi mən deyiləm, Əfrayıl əmidir, – dedi.

Şəfəq əl çəkmədi, onu xeyli dilə tutdu. Məhəmməd dözə bilmədi, için-için gülərək Əfrayılın uğursuz məhəbbətinin tarixçəsini danışdı. Şəfəq ürəyiyanıqlıqla:

– Dostumuza kömək eləməliyik! – dedi və onu danladı. – Sən isə hırıldayırsan.

Məhəmməd gülməkdən yaşarmış gözlərini sildi:

– Nə təhər? – deyə soruşdu. – Bu da kurs işi deyil ki, qoyaq qabağımıza yazaq, Əfrayıl əmimiz də köçürsün.

Şəfəq handan-hana:

– Mənim bir təklifim var, – deyə dilləndi.

Məhəmməd Şəfəqi diqqətlə dinlədi. Onun təklifini bəyəndi. Bir neçə gün də keçdi. İnstitut qəzetində dərc olunmuş dörd şeir tələbələrin həyəcanına səbəb oldu. Qəzet əllərdə gəzirdi. Yazıların altında Əfrayılın adı dururdu. Dəyərli şeirlər idi. Hamı mat qalmışdı. Demə, köntöy Əfrayıl şair imiş! Təbriklərdən Əfrayıl başını itirmişdi. Qəzet əlində tez Məhəmmədin üstünə qaçdı. Dostunu çəkə-çəkə dəhlizin axırına apardı:

– Adə, bu nə oyundur başıma açırsan? – deyə çığırdı. – Məndən şair olar?

Məhəmməd irişdi:

– Vüsala çatmaq istəmirsən?

– İstəyirəm, amma belə hələm-qələm yolla yox.

– Bilmirsən ki, vüsala çatmaq üçün bütün yollar məqbuldur?

Əfrayıl qorxa-qorxa soruşdu:

– Səbirənin şeirlərdən xəbəri varmı?

Məhəmməd hırıldadı:

– Əlbəttə! – dedi. – Qəzeti özüm aparıb ona çatdırmışam.

Əfrayılın rəngi ağardı:

– Nə oldu?

Məhəmməd cavabı qəsdən yubatdıqda Əfrayıl yalvardı:

– Ürəyimi partladacaqsan, qardaşım, danış!

Məhəmməd irişə-irişə dedi:

– Səbirə sənin şeirlərini oxuyandan sonra matdım-matdım mənə baxdı. Soruşdu ki, Əfrayıl əvvəl də şeir yazırdı? Dedim ki, yox, təzəlikdə başlayıb. Dedi, yəqin, başı xarab olub! Dedim, məhəbbət hər şeyə qadirdir, insana saz çaldırır, söz dedirdir. Səbirə soruşdu ki, Əfrayıl kimə vurulub? Dedim ki, sənə, ay Səbirə bacı. Dedi, ola bilməz. Dedim, niyə? Dedi ki, indiyə qədər bircə dəfə də bu barədə danışmayıb. Dedim ki, səndən qorxur. Səbirə bir az fikirləşib dedi, eləsə, qoy, ağlını başına toplasın, indi aşıqlıq vaxtı deyil. Soruşdum ki, ona nə deyim? Gülümsədi, amma heç nə demədi.

Əfrayılın üzü sevincdən işıqlandı:

– De, sən öl!

Məhəmməd şadlıqla güldü:

– Sən öl! Özünü Səbirənin yanına ver, – deyə Məhəmməd məsləhət gördü. – Sözünü de.

Əfrayıl tərəddüd elədi:

– Bəlkə sən mənim sözümü çatdırasan.

Məhəmməd:

– Hüseyn Bağbani adında bir şair olub. Onun bir beyti var: "Yarı özün gör, özün danış, Ev yıxar ara sözü", – dedi, gözünü döyən Əfrayıla acıqlandı. – Əmi, sən necə də kütsən! Özünü yubanmadan kitabxanaya verməlisən!

Əfrayılı, işi düzələndən sonra, tanımaq olmurdu. Kişi əməlli-başlı yaraşığa minmişdi. Daha geyim-kecimінə fikir verirdi. İki gündən bir dəlləkdə idi. İnstituta Səbirə ilə bir gedib-gəlirdi. Sevgililər səhərlər axırıncı vaqona minirdilər, tanışlardan qaçırdılar.

Məhəmməd Əfrayıla görə narahat idi. Gizlicə sevgililərin arxasınca düşdü. Bir-iki həftədən sonra narahatlığı keçdi. Məlum oldu ki, ehtiyat əbəsmiş. Səbirənin qohum-əqrəbasından onların sevdasına maneçilik törədən gözə dəymirdi. Keçən illər hər şeyi yerbəyer eləmişdi.

Dostları Əfrayılın üzünə həsrət qalmışdılar. Məhəmmədlə Şəfəqi uzaqdan-uzağa salamlayır, söhbətləşməyə vaxt tapmırdı. Onun günü kitabxananın yerləşdiyi korpusda keçirdi.

Bəli, işin gedişindən belə görünürdü ki, tezliklə toy olacaq. Amma belə olmadı. Əfrayıl yenidən dostlarına yan aldı. Şəfəq məzəmmətlə dedi:

– Əmi, hələ evlənməmiş bizi unutmusan!

– Belə getsə evlənməyim çətin söhbətdir, – deyə Əfrayıl deyindi.

– Məhəbbət elə bir bəladır ki, giriftar olmayan bilməz, – deyə Məhəmməd gülümsədi. Əfrayılın əndişəli görkəmi Məhəmmədi məzələndirirdi: – Şəfəq, dostumuz oxu daşa dəymiş ovçuya oxşayır, – dedi və Əfrayıldan soruşdu. – Danış görək, ovu harda əldən vermisən.

Əfrayıl nəm-nüm eləmədən açdı sandığı, tökdü pambığı, dostlarından heç nə gizlətmədi:

– Qısası, evdə razı deyillər. Deyirlər, boşanmış arvaddan bizə gəlin olmaz.

Məhəmməd bilmədi nə desin. Şəfəq ehtiyatla soruşdu:

– İndi fikrin nədir?

Əfrayıl sıxıla-sıxıla:

– Gümanım sizədir, – dedi. – Axşam yığışın bizə gəlin. Bəlkə onu inandıra bildiniz.

– Kimi nəzərdə tutursan? – deyə Şəfəq heyrətləndi.

Əfrayıl acıqla:

– Anamı deyirəm də... – dedi. – Açığı, hamı razıdır, aranı qarışdıran anamdır.

Məhəmmədin ağzı açıla qaldı. Şəfəq çığırdı:

– Sənin başına hava gəlib? Ananı ekstrasens Tofiq Dadaşov da inandıra bilməz. Onu yola gətirmək bizlik deyil.

Əfrayıl bunu bilirdi. İncik halda əlini yellətdi:

– Sizin də elə hap-gopunuz var, bərk ayaqda geri verirsiniz... – deyərək bir siqaret çıxartdı, yandırıb tambura çıxanda Məhəmmədin səsinə çevrildi.

Dostu:

– Ağlıma bir şey gəlib, – dedi. – Yaxşı, biz cəhd eləyərik. Tutar qatıq, tutmaz ayran... Amma bir şərtim var.

Əfrayılın üzü güldü:

– Nə desən eləyərəm.

– Bir-iki gün evə getmə, başqa yerdə qal, – deyə Məhəmməd onu öyrətdi. – Qoy, Bilqeyis xala elə bilsin ki, sən evdən qaçmısan.

Müxtəsər hazırlıqdan sonra işə başladılar. Məhəmmədlə Şəfəqi Bilqeyis xala top-tüfənglə qarşıladı.

– Ay yekə baş kişi, adını dost qoymusan, aylarla qapımızı açmırsan, – deyə onu qucaqlayıb öpdü.

Şəfəqə çox üz göstərmədi. Onun oğlanlarla dostluğunu bəyənmirdi. İstehza ilə:

– Ay qız, sorağın həmişə oğlan yığnağından gəlir! – dedi və kiçik qızına işarə elədi. – Şəfəqi apar otağına. Mənim bu yekəbaşla söhbətim var.

Şəfəq Bilqeyis xalanın narazılığını eyninə almadı, yerindən tərpənmədi. Məhəmməd izah elədi:

– Xala, Şəfəqlə ikimiz də eyni işə gəlmişik.

Xalanın sifətindən bir intizar kölgəsi keçdi, onlara eyvandakı divanı göstərdi:

– Eləsə keçin oturun, – dedi və qızına tapşırdı. – Çay-çörək hazırla. – Sonra qonaqların yerbəyer olduğunu

görüb giley-güzara başladı: – Yəqin ki xəbəriniz var. İki gündür Əfrayıl evdən didərgin düşüb. Sizin bu cüvəllağı dostunuz başımıza oyun açır. Evlənmədi, evlənmədi, indi seçdiyi qıza bax! Üzü üzlər görmüşün birisini ocağımızın başına keçirmək istəyir. Nə söz eşidir, nə məsləhətə durur, elə dediyini deyir. Deyirəm, oğlum, xalanın gül kimi qızı var, hansını deyirsən alım sənə, nə düşmüsən bu əldən çıxmışın dalınca. Daşdan səs çıxır, ondan səs çıxmır. Başına ağıl qoyan lazımdır. Siz də çəkilmisiniz kənara. Eşitsə yenə sizin sözünüzü eşidər. Onu evə qaytarın. Deyin, yad qızına görə adam anasını ayaqlayıb keçməz.

Məhəmməd bilirdi ki, indi danışmaq havayı şeydir. Bilqeyis xala ürəyini boşaltmasa dayanan deyil. Nəhayət, araya düşən fasilədən istifadə elədi:

– Əfrayıl əmiyə söz qandırmaq olmur, xala.

– Niyə elə deyirsən, bala. Sənin adın Əfrayılın dilindən düşmür. Lap zərb-məsəl olmusan, – deyə Bilqeyis xala etiraz elədi.

– Xala, oğlun hır-zır qanmır ey! – deyə Məhəmməd Şəfəqə göz vurdu. – Qorxuram ondan.

Bilqeyis xala özünü itirdi:

– Nə danışırsan? – dedi. – Allah tərəfi, oğlum başıaşağı oğlandır, hələ bir sözümü iki elədiyi olmayıb. Xasiyyəti də ipək kimi yumşaqdır. Rəhmətlik atasına çəkib. O da qarışqanı tapdalamazdı.

Şəfəq işarəni anlayıb dərhal gümanla dedi:

– Əfrayıl əmi bəlkə evdə elədir, xala, amma bayırda üzünü görmə.

Məhəmməd Şəfəqdən razı halda:

– Bəli, bəli, – dedi. – Sözümüz çəp gələn kimi salır məni şillə-şapalağın altına!

Bilqeyis xala ağzı açıla qalmışdı:

– Bəs, belə de!

Məhəmməd şövqə gəlmişdi, qaradan başqa boyaq tanımırdı. Əfrayılı rəngləyirdi.

– Hə, xalacan, əvvəllər belə deyildi, instituta girəndən sonra dəyişildi. Hələ keçən il bir sevdaya düşmüşdü, qabağını zorla aldım. Dedim ki, əmi, bu sevdadan əl çəkməsən kurs işlərini yazmayacağam, sənə əl yetirməyəcəyəm, səni də institutdan qovacaqlar. Yalnız bundan sonra sevdasından əl çəkdi.

Bilqeyis xala başa düşmədi:

– Sevda nəyə deyirsən?

– Yəni evlənmək istəyirdi... – deyə Məhəmməd dəqiqləşdirdi.

Bilqeyis xala quruyub qaldı.

– Evlənmək istəyirdi? – deyə boğuq səslə soruşdu. – Kimə?

Məhəmməd burnunu çəkdi:

– Bir rus qızına.

Bilqeyis xala çımxırdı:

– Bir əməlli danış. Bu rus qızı hardan çıxdı?

– Bizim institutda rus bölməsi var. Orada Rusiyadan gələn qızlar oxuyur. Əfrayıl əmi onlardan birinə vurulmuşdu.

Bilqeyis xala heyrətlə:

– Doğrudan?

– Əlbəttə, xala, – deyə Məhəmməd dodağını büzdü. – Yaxşı ki, qabağını ala bildim.

Bilqeyis xala az qala üzünü cırsın:

– Bir elə matişkəmiz çatmırdı!

Məhəmməd başını tərpətdi:

– Mən də onu deyirəm də! İndi Səbirəyə quşu qonub. Gəl, sən razı ol, Əfrayıl əmi hərdəmxəyal şeydir, bir də gördün fikrini dəyişdi, köhnə sevdaya qayıtdı. Rus qızı hələ də onun ətrafında fırlanır, əl çəkmir. Səbirə isə, necə olsa, özümüzünküdür. Həm də Əfrayılla bir sinifdə oxuyub.

Bilqeyis xala hirslə:

– Adə, nə boş-boş danışırsan. Sən mənə Səbirəni tanıdacaqsan? – dedi. – Mən oğluma boşanmış arvad alım?

Məhəmməd işə başqa tərəfdən yanaşdı:

– Xala, Səbirənin şəhərdə mənzili var. Dədəsindən qalıb. Əfrayıl əminin beyni qandır, səndən rüsxət almadan evlənsə, neynəyəcəksən?

Bilqeyis xalanın gözləri doldu:

– Bu oğulluq olmadı ki!

Məhəmməd onu dilə tutdu:

– Odur ha! Daha tərslik eləmə, xala, razı ol. Könül sevən göyçək olar, – dedi.

Şəfəq də boş dayanmadı. Qalxıb kövrəlmiş Bilqeyis xalanı qucaqladı:

– Xala, Səbirə yaxşı qızdır. Yazığın bəxti gətirməyib boşanıb. Buna görə onu öldürmək olmaz ki! – dedi.

Ortaya çay gəldi, araya sükut çökdü. Bilqeyis xala birdən bomba kimi partladı:

– Üçünüz də bir bezin qırağısınız... – dedi və sakitləşmiş halda: – Ona deyin, qoy, nə istəyir, elə də eləsin. Təki evə qayıtsın.

Bu minvalla Əfrayılla Səbirənin işləri sahmana düşdü. Bir-iki aydan sonra üfüqdə toy mərasiminin işartıları görünürdü.

Bu nümunədən görk götürən Şəfəq hadisələri tələsmədən iradəsinə tabe elədi, əmisi oğlunun nişanını qətiyyətlə qaytardı. Çox keçmədi ki, Məhəmmədin elçiləri qapılarını döydü.

Sonra baş verənlər səadət adlanır.

Burda hekayəni bitiririk. Səadət haqqında hekayə yazılmır.

## HƏKİM

Fikrət-həkimin rəhmətə getdiyini eşidib çox kədərləndim. Düzdü, elə də cavan deyildi, yetmişdən çox yaşı vardı, amma onun ölümü qəm-qüssəmə səbəb oldu.

Qonşuluğumuzda, bir neçə məhəllə aralı, doqquzmərtəbə evlərin birində yaşayırdı, qəsəbədəki xəstəxanada işləyirdi. Onu çoxdan tanıyırdım, aramızda isti münasibət yaranmışdı. Sağlamlığımda bir problemim olanda xəstəxanaya getmirdim, ərklə mənzilinin qapısını döyürdüm. Həkim deyildi, loğman idi, hər dərdin dərmanını bilirdi. Çolma-çocuğumun da müalicəsinə Fikrət həkim baxırdı. Dosta-tanışa da onu məsləhət görürdüm. Allah adamın üstündədi, yanından hamı razı qayıdırdı.

Fikrət-həkimlə tanışlığımızın maraqlı tarixçəsi var. Bir iyirmi ilin söhbətini eləyirəm. Sizdən iraq, çənəmdə bir sızanaq çıxmışdı. Bu həkimə getdim, o həkimə getdim, heç biri dərmanını tapa bilmədi. Türkəçarələr də kömək eləmədi, yara sulandığından özümlə qətfə gəzdirirdim ki, onu qurudum. Lap xəcalət çəkirdim. Dedilər ki, qonşuluqda bir yaxşı həkim var, adı Fikrətdi, evində də qəbul edir. Getdim yanına. Baxan kimi dedi ki, düzələn şeydi. İnanmadım. Fikrət-həkim o biri otağa keçdi, bir azdan bir sulu dərmanla qayıtdı. Tənzifi isladıb qoydu çənəmin üstünə. Bir neçə dəqiqədən sonra yara oldu qupquru. “Əhsən!” – dedim, “şirvanın” bərk gedən vaxtı idi, ona düz iki “şirvan” pul verdim. Dedi ki, biri bəsdi. Nə illah elədimsə, ikincini götürmədi. Elə dedi, biri bəsdi.

Beləcənə biz tanış olduq.

Rəhmətlik yeyib-içən kişi idi. Haçan rastlaşırdın onunla, yapışırdı yaxandan ki, gedək bir çörək yeyək. Vaxtım olanda imtina eləmirdim. Adamı əlini cibinə salmağa qoymazdı, hesabı həmişə özü verirdi. Hələ zarafat eləyirdi ki, pul çap eləmirəm, sizin verdiklərinizi sizin yolunuzda xərcləyirəm də.

Dolu qırmızı sifəti, oynaq xırda gözləri vardı. Həmişə ağappaq, şax, nişastalı xalatda olardı. Başqa geyimdə onu təsəvvür eləmək mümkün deyildi. Fikrət-həkimi elə küçədə-bayırda da ağ xalatda görürdüm.

Oğul-uşaqdan nəyi vardı, nəyi yoxdu – bilmirəm, amma özünə korluq verən kişi deyildi. Arada mənzilinə ağ xalatlı qadınların gəlib-getdiyini görürdüm. Soruşanda da deyirdi ki, assistentlərimdi. Bunun həqiqət, ya yalan olduğunu demək çətin idi.

İndi onun ölümünü eşidəndə nə hala düşdüyümü təsəvvür edirsiniz də! Belə bir həkimi, belə bir gözütox insanı itirmək necə də ağırdı.

Yolumu onların məhəlləsindən saldım. Rastlaşdığım tanışlardan soruşdum ki, dəfn haçandı. Dedilər ki, indilərdə yerdən götürəcəklər! Ona son borcumu vermək fikrinə düşdüm. Qonum-qonşu yığışmışdı, bir azdan molla həyətdəki ağacın haçasına qalxdı, salat dedi. Tabutu endirdilər, Fikrət-həkim ikinci mərtəbədə yaşayırdı, mafəni üstü açıq "QAZ-el"-ə qoydular. Həyətdə işgüzar bir əhval-ruhiyyə hökm sürürdü. Dünyadı da, bəzən yaşlı adamları heç yaxınları da ağlamırlar. Bir az-

dan mafə qoyulmuş maşın qabağa düşdü. Qəbiristan yaxında olduğundan piyada gedirdik. Yanımda addımlayan kişinin sifəti mənə tanış gəldi, söhbətə nərdivan qoymaq fikri ilə:

– Deyəsən sizi hardasa görmüşəm, axı? – Soruşdum.

– Mən Rahim-həkiməm, – dedi. – Yəqin xəstəxanada görmüsən.

Adını qürurla çəkməyindən anladım ki, tanınmış adamdı. Rahim-həkimin də xeyli yaşı olardı. Dəqiq deyə bilmərəm, bəlkə elə Fikrət-həkimlə yaşıd idi. Müqayisədə mən onların yanında körpə uşaq idim. Cəmi əlli yaşım vardı.

Marağımı az-çox təmin elədiyimdən məmnun halda:

– Rəhmətliklə həmkarsız ki!

– Bəli! – Rahim-həkim gülümsədi. – Amma Fikrət həkim deyildi, feldşer idi.

Rahim-həkim baməzə adama oxşayırdı. Dodaqları dişinin üstünü örtmürdü, elə irişirdi.

– Yəqin zarafat edirsiz! – Ona yanakı baxdım. – Fikrət-həkim əsl həkim idi.

Rahim-həkim mənə lağ elədi:

– Nədi, onu mənə tanıdacaqsınız?! – Sonra əlavə elədi. – Dünənə qədər biz bir xəstəxanada, bir şöbədə işləyirdik.

Gördüm ki, gülə-gülə danışsa da, Rahim-həkim zarafat eləmir. Çaşıb qaldım. Handan-hana dedim:

– Onun qəbuluna bilirsiz nə qədər adam gəlirdi? Xəstələrinin sayı-hesabı yox idi.

Rahim-həkim həsədlə:

– Bunu bilirəm.

Mən inamsız halda:

– İyirmi ildi onu tanıyırdım. Yazdığı dərmanın biri də boşa çıxmazdı, həmişə yaxşı təsir edirdi, – dedim.

– Bilirəm, amma fakt faktlığında qalır, – deyə Rahim əllərini yana açdı. – Rəhmətlik həkim deyildi.

Mən son dəlilimi gətirdim:

– Yazdığı reseptlərin çoxu qalıb, məndədi. Gətirərəm, baxarsınız.

– Ehtiyac yoxdu. Onun reseptlərini ya mən yazırdım, ya da həmkarım Hökumə xanım. Reseptləri yanaşı qoysanız, xətlərdəki fərqi görərsiz. Fikrət özü resept yaza bilmirdi. Mənim xəttim kələ-kötürdü, Hökümə xanımın xətti isə yaraşıqlıdı.

Rahim-həkimin dediyində bir həqiqət var idi. Yadıma düşdü ki, Fikrət-həkimin reseptlərinin bəzisinin qara-qurası çox olurdu, oxumaq çətin idi, bəzilərinin səliqəsinə isə söz ola bilməzdi, elə bil qadın xətti ilə yazılmışdı. Təəccüblə soruşdum:

– Niyə belə eləyirdiniz ki?

– Uzun söhbətdi...

– Gizlidi?

Rahim-həkim gülümsədi:

– Daha gizlətməyin yeri yoxdu. Fikrət haqq dünyasındadı, dediyimin ona ziyanı çətin, dəysin. Bizim bir ahıl baş həkimimiz vardı. Mənə də, Hökumə xanıma da çox yaxşılıqları keçmişdi. Aman-zaman bir oğlu Fikrət idi. Bizimlə yaşıd idi. Oxumaqla arası yox idi. Tibb texnikumunu zorla qurtarmışdı. Baş həkim rəhmətə gedəndə Fikrəti bizə tapşırmışdı. Yeyib-içən adamdı. Gördük acından öləcək. Feldşerlikdə nə pul var ki! Hökümə xanımla məsləhətdən sonra qoşduq cərgəmizə. Belə-belə onu həkim elədik.

– Sizsiz dərman yazmırdı?

– Yox. Bir dəfə bir dərman yazmışdı, xəstə ölürdü, zornan diriltdik. Odu-budu bizsiz dərman yazmırdı.

– Deməli, məni iyirmi ildi feldşer müalicə edirmiş?

– Belə çıxır da! – dedi və yenə irişdi.

Mafəni aparan maçın qəbiristana girəndə məni axmaq bir gülmək tutdu, heç cür özümü saxlaya bilmədim. Həmsöhbətimi tək buraxıb mənə qınaqla baxan adamlardan aralandım, ayaqqabımın bağını bağlamaq bəhanəsi ilə kənara çəkilib doyunca güldüm. Sonra camaatın dalınca qəbiristana yollandım, üzügülər Rahim-həkimlə yanaşı yerimi tutdum. Dəfni yarımçıq qoya bilməzdim ki! Fikrət-həkimi torpağa təbəssümlə tapşırdıq.

## YAY TƏTİLLƏRİ

Şərti özü pozdu, hurraynan üstünə qaçan Afərlə Atəşə dedi:

– Daha sizə bircə manat da verən deyiləm. Nahaq yerə boğazınızı yırtmayın.

Axır aylar hər bazar günü adambaşına bir “nizami” alan uşaqlar bu muzdun müqabilində həftəuzunu nümunəvi davranışlarıyla valideynlərini sevindirməliydilər. Şərtə görə şuluqluq salan cərimələnirdi, yəni, həftənin axırında “nizamisiz” qalırdı. İndi günahsız yerə mükafatdan məhrum olmaları uşaqları yandırıb-yaxırdı. Yeddi gün, yeddi gecə şuluq işlərə sinə gərəsən, böyük sözünü sırğa kimi qulağında gəzdirəsən..., bu da nəticəsi! Afər mısmırığını salladı: “Saqqız pulu, tum pulu! At göyə, tutum pulu!” – tiringisi dodağında donmuş Atəş doluxsundu. Onların “nizamilik” ümidləri puça çıxmışdı.

Yuxudan kal durmuş ata kiçik həyəti qaşqabaqlı dolanırdı. Sarıya çalan bığlarının tükləri biz-biz durmuşdu. Hər gün işləmək onu əldən salırdı. Şənbə-bazar bilmədən illərlə mühəndislik etdiyi zavod bağlanandan sonra bir müddət bikar qaldı. Az qala bağrı çatlasın. Tanıdığı zavodların, fabriklərin heç birinə nə mühəndis lazım deyildi, nə də qara fəhlə. Əli hər yerdən üzüləndən sonra, birdən ağlına gəldi ki, təmir emalatxanası açsın. Evdə pula gedən nə vardısa, satdı. Qonşunun qapısı şoseyə baxan qarajını icarəyə götürdü, sahmana saldı.

Maşından bir az başı çıxdığından əli işə tez yatdı. Avtomobillərdə xırda-para çilingər, elektrik işlərini pis görmürdü. Müştərisi olanda əlinə bir-iki "şırvan" gəlirdi. Məcburi xərcləri çıxandan sonra ona da bir şey qalırdı, balalarını döy-sindir saxlamağa gücü çatırdı. Amma gün-diriliyi yox idi. Səhərdən axşama qədər emalatxanadan aralana bilmirdi. İş oldu, ya olmadı, oturub səbrlə gözləməli idi. Axır vaxtlar rəqabət artmışdı, emalatxanaların sayı çoxalmışdı. "Döy-sindir pul qazanmaq da bir kişilik deyil! Bir parça çörəyə görə hər zillətə razı olursan!" – deyindi. İki gündü qapısını açıb bir quru salam verən də yox idi, ona görə də eyni açılmırdı...

Uşaqlar isə elə hey pıçıldaşırdılar. Gözlənilməz zərbənin çaşqınlığı keçəndən sonra atalarına həmlə etdilər. Əvvəl ona hərbə-zorba gəldilər. Sonra bildirdilər ki, daha sözə qulaq asmayacaqlar, torpaqla eşələnib üst-başlarını batıracaqlar, daha sonra dedilər ki, şoseyə çıxacaqlar. Atəş lap axırda onu ağacların təpəsinə çıxacağı ilə hədələdi. Dedi, qoy, qol-qıçım sınsın, yıxılım ölüm, ağlayan siz olacaqsınız.

Bu boyda hərbə-zorbanın qabağında ata geriləməli oldu. Üzü güldü, bığlarını sığalladı:

– Zorla pul almaq cinayətdir, balalarım, reketçilikdir, – dedi. – Belə şeylərə görə adamı dama salırlar.

Afər tələbkarlıqla dilləndi:

– Biz haqqımızı tələb edirik, – dedi.

– İş görməyənə haqq verilməz! Bir xeyirli iş görün, pul verim...

– Nə iş?

Uşaqlar çaşıb qaldılar. Ata isə fikrə getdi. Bu tifillərə nə tapşırsın. İsti mətbəxdən çıxan ana döşlüyü ilə üzünü silirdi. Atanın köməyinə yetdi:

– İşdən çox iş var, – dedi. – Həyəti milçək basıb. Adamın gözünə girir. Qırın da.

Ata sevindi:

– Əlbəttə, bundan yaxşı iş? – dedi. – Hər öldürdüyünüz milçəyə on manat verərəm...

Atəşin yeddi yaşı tamam olacaqdı, incikliyi tez keçirdi. Dedi:

– Razıyıq, ata! – Və əzbərdən şeir oxudu. – "Milçək, milçək, vizilçək! Qarnı qızılı dibçək! Pul tapdı bir düzəndə. Baş aşağı gəzəndə!"...

Afər dördüncüyə keçəcəkdi. Az-çox hesab bilirdi. Qardaşının sevincinə şərik olmadı:

– Ay tapdın ha? – dedi. – Ata, on manatlıq heç işləmir, axı. Azdır. Bir dondurmanın pulunu heç bir aya yığa bilmərik. Bəyəm milçək qırmaq halvadır?! Atəş, düzünü deyirəm?!

Atəş Bakı küləyi kimi tez döndü. Afərin sözünü təkrarladı:

– Hə, hə, azdır...

Ata ilə övladları arasında yenə mübahisə düşdü. Ana işə qarışdı:

– Çox istəyən azdan da olur... Razılaşsın...

Afər köksünü ötürdü, bilirdi ki, böyüklərlə mübahisə etmək mənasızdır, onsuz da dediklərini yeridəcəklər.

Ata çay-çörəkdən sonra geyindi. Həyətə çıxdı. Uşaqlar qapının ağzını kəsdirmişdilər. Hərəsinin əlində bir xama küpəsi var idi.

– Ata, say!

Ata döyükdü, birdən, işi anlayıb güldü:

– Sizə inanıram! – dedi. – Deyin...

Məlum oldu ki, Afər iyirmi, Ataş on beş milçəyin canını alıb. Ata onların haqqını verdi, tapşırdı ki, hər "ovdan" sonra əllərini yaxşı yusunlar. Darvazadan çıxanda:

– Siz ki, yarım saata bir belə milçək qırmısınız, deməli, bu iş bir elə də çətin deyil. Bundan sonra hər milçəyə beş manat verəcəyəm... – dedi.

Bu dəfə heç biri etiraz etmədi, bayıra qaçdılar. Yəqin, tindəki dükandan saqqız alacaqdılar.

Ata nahara qayıdanda milçəkqıranların aramsız şappıltısını hasarın o üzündən eşidib qırmışdı: "Bah, belə getsə, milçək qırmızı kitaba düşəcək!"

Əl-üzünü yudu, sərinləndi, kölgədə bardaş qurdu, evin xanımının gətirdiyi çayı çəkdi qabağına. Uşaqlar məlum xama küpələri ilə qabağa çıxdılar. O, təəccübdən az qaldı çeçəsin:

– Nə çoxdu? – dedi və boğazını arıtlayıb, cığallıq etdi. – Bəlkə bayaqkılar da burdadır?!

Uşaqlar heyrətlə baxışdılar. Ana uşaqların köməyinə gəldi:

– Əşi, uşaqları incitmə! – dedi. – Milçək, gör, necə azalıb. Yoxsa həyətə çıxmaq olmurdu, bulud kimiydi. Baxanda adamın əti ürpəşirdi. Hər küpədə yüzdən çox milçək var... Vallah, yağışdan çıxıb, yağmura düşmüsən. Bunlar səndə bir manat da qoymayacaqlar...

Ata gördü ki, paxırının üstü açıldı, güldü, hərəsinə bir şax "nizami" verdi, uşaqlar hoppanıb düşdülər. Dedilər, daha nə tum, nə saqqız, nə də dondurma istəyirlər, pullarını yığıb velosiped alacaqlar. Ata qoymadı onları xam xəyala qapılsınlar. Dedi:

– Daha ustalaşmısınız, bundan sonra hər milçəyə bir manat verəcəyəm.

Uşaqlardan dinən olmadı. Aralandılar. Ana şübhə ilə gülümsədi. Ata nahardan sonra bir saat dincəlirdi. Günün şaxı yatandan sonra emalatxanaya yollanırdı. Bu gün axır ki, şeytanın qıçı sınmışdı, iki müştərisi olmuşdu. Əlinə beş-on manat pul gəlmişdi. Kefi düzəldiyindən rahat uzanmışdı. Mürgüsünü alıb qalxdı, uşaqları həyətin küncündə oynayan gördü, çağırdı:

– Bu milçəklər qoymadı yatım! Siz də oturmusunuz! – dedi.

Afər qardaşının da əvəzinə cavab verdi:

– Biz manata milçək öldürməyə razı deyilik, – dedi. – Qoy, sizi yesinlər...

Ata yalandan təəccübləndi:

– Nə danışırsız? – dedi. – Maşallah, məndən çox qazanırsız. Üç saata ikinizə min manat haqq almısınız. Mənim qırx yaşım var, on beş il oxumuşam, on yeddi il də mühəndislik eləmişəm, bir belə qazanmıram. Bəs, neyləyim, işə getməyim?

Afərlə Atəş çığırdılar:

– Sən başqa, biz başqa! Başımızı piyləyə bilməzsən!

Ata bığaltı güldü:

– Deməli, tətil edirsiniz? Xaricdəki kimi?

Tətil sözü Afərin xoşuna gəldi:

– Hə, hə, xaricdəki kimi! – dedi. – "Maaşımızı artırın!" Bax belə!

– Bəs, bilmirsiniz ki, tətil edəni polislər döyür, sonra da zindana salır?

Uşaqlar güldülər:

– Bizdə belə deyil! Bizdə azadlıqdır... Xaricdə döyürlər...

– Mən isə sizi xaricdəki kimi qayışın altına salacağam! Onda azadlığın nə olduğunu bilərsiniz!

Ata bunu deyib eyvandan düşdü. Atəş anasına tərəf qaçdı. Birdən geriyə çevrilib şit-şit güldü:

– Ata, bizi döysən, səni atalıqdan çıxararıq! – dedi.

Ana uğundu:

– Bir milçəyə beş manat! – dedi. – A kişi, çevriliş iyi gəlir! Razılaş, yoxsa pis olacaq! Ha-ha-ha!

Ata xeyli güldü, razı oldu. Uşaqların qalib çığırtısı hətta milçəklərin arasına vəlvələ saldı.

## BİZİM ADAM

Bəxtiyar tığ vurulmuş dəmir-dümür qalağının yanından adlayıb özünü ağaclığa saldı. Qollu-budaqlı söyüdün altında dörd həmkarı oturub söhbət edirdi. O da yanını yerə basıb ağacın gövdəsinə söykəndi. Həyəcanla üzrxahlıq etdi:

– Gecikdim deyəsən! – dedi. – Əllərimi yudum, qabaq qapıya gedirdim elə, eşitdim, Əliqulu sexdədir, briqadirləri soraqlaşır, tez yolumu dəyişdim. İzi yayındırmaq üçün zavodu dövrə vurmuşam...

Yazın axırı idi. Gün günorta yerinə yürüyürdü. Zavodun hündür hasarlarına boy verən ağaclar həm onları kölgələyirdi, həm də izafi maraqdan yayındırırdı. Yığıncaq məxfi idi. Qaynaqçılar briqadiri Əli çox əlləşəndən sonra, axır ki, bir-biri ilə didişən həmkarlarını dinə-imana gətirmişdi. Barışıq elan olunmuşdu. Sabah da sınaq günü idi. Yerli komitənin sədri Əliqulunun sexə gəlişi təzə xəbər deyildi. Axır günlər əl-ayaqda idi. Gəlirdi-gedirdi, gəlirdi-gedirdi. O da briqadirləri dilə tuturdu...

Tornaçılar briqadiri Əkrəm yerini rahatlayıb dedi:

– Elə o vaxt sizə deyəndə ki, Əliqulu direktorla ci-ci-bacıdı, inanmırdız. Gördüz? O gün məni tovluyurdu. Deyir, istəsən sənə Kislovodska bir müftə putyovka təşkil edərəm... Gör, nə ilə satın alır!

Səfər sinəsinə döydü:

– Yığma briqadasının başçısının qiyməti daha ağırdı! Səni lap ucuz tutublar ki! – dedi. – Bolqarıstana turist səfəri gözləyir məni!

Bəxtiyar istehza ilə:

– Noldu bəs! – deyə soruşdu.

Səfər eyni istehza ilə:

– Kağızlarımı tikdilər sənin mənzilinin orderinə! – dedi.

Səfər bilirdi ki, Əliqulu Bəxtiyara növbədənkənar mənzil vəd eləmişdi.

Əli mətləbə keçdi:

– Yaxşı, bir azdan fasilə qurtarır. Başlayaq, – dedi. – Yığışmağımızın məqsədi bəllidi. Müqəddimə artıqdır. Biz...

– Qoy, bu işə əncam çəkək, inşallah, Əliqulunun puçunu burmaq mənə borc olsun... O fəhlələrin "atasını" elə bir günə qoyum ki... – deyə Bəxtiyar yanğı ilə Əlinin sözünü kəsdi.

Qafar kişi çal bığlarını səbirsizliklə didişdirdi:

– Hələ sən dayan! – dedi. – Nə düşmüsən ortaya? Qoy, görək, Əli nə deyir! Heç böyük-kiçik yoxdur ey!!

Qafar kişi iyirmi ildi sexdə işləyirdi. Sayılan adamlardandı. Dəmirçilər briqadası onun bir sözünü iki eləmirdi. Amma axır vaxtlar kişinin şiti şoruna qarışmışdı. Cavanlarla buynuzlaşırdı. Bir vaxtlar onun briqadasından qaçmış lağlağıçı Bəxtiyardan isə lap acığı gəlirdi.

Əli uzun qollarını avar kimi yellədi:

– Ayıbdı, Qafar kişi, ayıbdı! – dedi. – Böyük nədi, kiçik nədi? Bura yığılanların hamısı böyükdü! Hərənin dalında otuz-qırx nəfər dayanır.

Bəxtiyar köhnə ustasını ayağa vermədi:

– Qafar kişinin ürəyi hələ də doludur, – dedi. – Qoy, danışsın.

Əli narazı halda:

– Elə belə edirsiz ki, iki həftədi bir sex rəisi seçə bilmirik. Müdiriyyətin göndərdiyini bəyənmədik, yaxşı! Dedik, özümüz seçəcəyik. Bu da yaxşı! Buyur! Hər briqadanın öz namizədi var! Əcəb! İki namizəd göstərən briqadanın üzvləri nə fikirləşir, görəsən…

Bəxtiyar pərt-pərt güldü. İki namizəd göstərən onun briqadası idi.

– Hələ üç idi! – dedi və birdən şaqqıldayıb güldü. – Ha-ha-ha! Qulaq asırlar bəyəm?! Demokratiya hara, seçki hara, biz hara! Deyirəm, uşaqlar, ikisi çoxdur. Deyirlər, sən demokratiya qanmırsan! Qərəz, gücnən yola gətirdim.

Araya bir şirin gülüşmə düşdü. Qafar kişi bir məsəl çəkdi:

– Deyirlər, görməmişin bir oğlu oldu, şadlığından vurub gözünü tökdü. Balam, bu demokratiyadı, aşkarlıqdı, deyəsən, bizim əlimizdə həlak olacaq...

Əli saata baxdı:

– Di yaxşı, – dedi. – Namizədimiz kim olacaq?!

Bir-birinə macal vermədən hərə bir ad çəkdi:

– Baş usta Nağıyev...

– Usta Kəbir yaxşıdır...

– Mən mühəndis Vəliyevi təklif edirəm...

Əli üz-gözünü turşutdu, elə bil yağırını tapdalamışdılar:

– Əkişi, siz nə təhər adamsız!? – dedi və köksünü ötürdü. – Deyəsən, usta Qafardan savayı dünən dediyimi heç kim götür-qoy eləməyib. Ay başınıza dönüm, biz hər yetəni sex rəisi qoya bilmərik. Təkrar edirəm, namizədimiz mülayim, söz qanan, çörək verən, yox yerdən fəhləyə pul çıxaran, həm dolanan, həm də dolandıran bir adam olmalıdır. Budur bizim qəlibimiz!

Dördü də vəcdlə başını tərpətdi. Bəxtiyar əl çaldı:

– Əla qəlibdi! – dedi. – Ustasına eşq olsun!

Usta Qafar astadan qeyd etdi:

– Bu qəlibə Allahın bacısı oğlu da sığışmaz! Hardan tapaq belə əməli-saleh adamı?!

Əli onun sözünə gülümsədi:

– Usta, ümidsiz düşmənin olsun! Taparıq! – dedi. – Ürəyiniz qalmasın deyənə adı çəkilənləri qəlibləyək! Götürək Nağıyevi! Bircə acı dili kifayətdi ki, qəlibdən çıxsın. Alaq Kəbiri! Ondan da bizə yar olmaz! Yeyib-içən oğlandı, onunla hamımız badə-badəyə vurmuşuq. Hər xasiyyətinə, hətta, yalançılığına da bələdik! Keçək mühəndis Vəliyevə! Acgözdü! Açıq danışaq, özgəsi yoxdu, işdi beş manat artıq naryad bağlayanda, kor dilənçi kimi

kəsir adamın başının üstünü, deyir, beşini də ver! Yox, bizim adam deyil!

Usta Qafar söz aldı. Əvvəl özündən on beş yaş kiçik Əlinin dərrakəsinə alqış dedi, daha sonra demokratiyanın iki başından danışdı, daha sonra hamını birliyə səslədi. Bir sözlə, ucundan tutub üz qoydu ucuzluğa! Hamının səbri tükəndi.

Bəxtiyar Qafar kişinin ucuzluqdan da o yana ötəcəyini görüb aman vermədi, sözünü kəsdi:

– Sözünün arasında balan dursun, usta Qafar, mən səmimi-qəlbdən Əli qardaşın namizədliyini təklif edirəm! – dedi və hamının diqqətini topladı. – Əli qardaş ali təhsillidir! Əli qardaş ağıllıdır! Əli qardaş dost qədri bilən-dir! Əli qardaş, maşallah, boylu-buxunludur...

Əli hirslə dizi üstə qalxıb onun ağzını əydi:

– "Əli qardaş", "Əli qardaş"! Kəs səsini! Təzə vəkil çıxıb mənə! Neçə dəfə deyərlər ki, mənə rəislik lazım deyil, – dedi.

Bəxtiyar günahkar halda əllərini yana açdı:

– Bəs, sən kimi məsləhət görürsən? – deyə soruşdu.

Əli başını bulaya-bulaya güldü:

– Mənim namizədim hazırdır, – dedi və üzünü yana tutdu. – Cəfər qardaş, irəli çıxsana!

Briqadirlər bir-birinin üzünə təəccüblə baxdılar. Yaxındakı küknarın altından çıxan Cəfəri görüb hamı ayağa qalxdı. O, neçə illərdi ki, sex rəisinin müavini iş-

ləyirdi. Rəislər dəyişilirdi, o isə qalırdı. Cəfər dinməzcə gəlib onların bərabərində durdu. Əli öskürdü:

– Bu kişini tanımayan varmı? – deyə soruşduqda məlum oldu ki, Cəfəri tanımayan yoxdu. – Bəs, eləsə, niyə gözünüz tutulub?! Bəlkə biri ondan inciyib? Narazı olan varsa barmağını qaldırsın! Yoxdur. Hansı naryadı vermisiz ona, bağlamayıb?! Sənədə soruşmadan qol çəkir! Birindən umacağı varmı?! Yoxdur. Özünüz nə vermisiz götürüb qoyub cibinə, verməmisiz ağzını da açmayıb! Neçə ildi müavindi, sexi tanıyır. Bir sözlə, bizim adamdı! Daha nəyi gözləyirsiniz?! Allahın bacısı oğlu yerləşməyən qəlibə bu kişi yerləşir... Sabah biz onun namizədliyini təklif edəcəyik, dalında da dayanacağıq!

Hamı əlini qaldırdı. Doğrudan da, Cəfər layiqli namizəd idi!

## BASTAR ULDUZA HÜRÜRDÜ

Yox, Bastar it deyildi, adam idi. Söz qanırdı, dil bilirdi. Zarafat eləsən səninlə zarafat eləyirdi, nasaz olsan halına yanırdı. Söz qanmaqda, dil bilməkdə çox adamlara dov gələrdi.

Üç-dörd il qabaq bekara bir küçük idi. İndi əmələ gəlib şəkil kimi bir it olmuşdu. Neçə vaxt idi ki, qapı-bacadan arxayınlaşmışdım. Bir adamı bu həndəvərdə hərlənməyə qoymurdu. Bastar zəncirlərini tərpədir, hasar

hündürlüyündə atılıb-düşür, qart itlər kimi "hav-hav" hürürdü. Gəlib-gedənin ürəyi qorxudan ağzına gəlirdi.

Bir kimsənə qapımızı qorxudan aralamazdı. İşi düşən uzaqda dayanıb ev adamlarını haraylayar, haraylayar, səsinə hay verən olmayanda çıxıb gedərdi. Bastar belə Bastar idi. Hürə-hürə it olmuşdu.

Bir gün Bastar zəncirindən qırılıb məhəlləyə küy salmışdı. O gün daha it qalmadı ki, əzikləməsin, basmarlayıb qanına qəltan etməsin. Zəncirini təzələdim. Gördüm yox, Bastara davam eləmir. Gedib bir dənə ton yarımlıq yükə davam gətirən tros tapdım. Bu zəncir Bastarı daha da qudurtdu. İndi ona yaxın getməyə özüm də ehtiyat eləyirdim...

Bir səhvim olmasaydı Bastar it də anası Bozdar it kimi ev-eşiyə keşik çəkər, çəkər, qocalıb gəbərəcəkdi.

İş belə düşdü. Eşitdim itlərin yarışı keçirilir. Gününü dəqiqləşdirib, mən əli qurumuş, Bastar iti təmizlədim, bit-sirkəsini tökdüm, yuyundurdum, daradım, götürüb apardım it yarışına...

Başqa itlərlə müqayisədə, demə, Bastar tamaşa imiş... Boyu bir yaşar cöngə boyu, rəngi yanar alov, ağzı qazan ağzı, biləkləri çəpər payası. İt pəncələrini asta-asta atır, pələng kimi ətrafa laqeyd baxırdı. Çox qəribə də olsa, bu gün nə həmcinslərinə, nə adamlara hücum çəkirdi. Ölmüşə deyəndə ki:

– Dayan, Bastar.

İt dayanırdı.

– Get, Bastar.

Gedirdi.

– Otur.

Otururdu.

– Hoppan.

Hoppanırdı.

Qərəz, tamaşa idi. Üzü yüz cür it üzü görmüş hakimlər belə Bastarın dərrakəsinə, fəhminə heyran qalmışdılar. Medalın biri də bizim Bastara düşdü. Ay Allah, it necə sevinərmiş! Nə oyunlardan çıxmadı. Medalı onun boynundan asan hakimin ayaqlarına suvaşıb qopmurdu. Hakimin gözləri yaşardı:

– Bu it sədaqətdə çox adamların əlinə çöp verə bilər! Hayıf ki, it doğulub, – deyə əyilib Bastarın başını sığalladı.

İt dal ayaqları üstə qalxdı, meydanda qəşəng bir dövrə vurdu, gəlib yanımda oturdu.

O gündən it tamam dəyişdi. Həyət-bacaya daha az fikir verirdi, lap yazıqlaşmışdı. Qonşuların iti, pişiyi həyətə ayaq açdı. Bastar isə saatlarla yağış gölməçənin, ya da it damında qoyulmuş yalağın qabağında çömbəlir, boynundan asılmış medalın sudakı əksinə tamaşa eləyirdi.

Bir gün qonşunun itini mətbəxdə gördüm. Hirslənib cumdum Bastarın üstünə. Bir təpik, iki təpik... Ayağım medalın qaytanına ilişdi. Qaytan qırıldı. Bundan sonra it üstümə atıldı. Əlimdəki yarmaça ilə ona bir-iki tutuz-

durdum. Başladı zingildəməyə, ulamağa. Dedim, indi sakitləşər. Bir saat keçdi, iki saat keçdi, gördüm sakitləşmir. Qorxu düşdü canıma. Dedim, it quduzlaşdı.

Çıxdım bayıra, gördüm, it quduza oxşamır. Medal qabağında ulayır. Ağlıma gələn fikirdən sümüyüm eyməndi. Cəld medala bir ip keçirtdim, saldım Bastarın boynuna. İt dərhal səsini kəsdi. Mən barmağımı dişlədim:

– Bay, canın yansın it! Bu bir parça metalda sən nə görmüsən, axı?! – deyə heyrətləndim.

Keçən həftə qonşunun oğlu əlinə keçən bir şahılığı deşib onun boynundan asıbmış. İşdən qayıdıram, mənim də xəbərim yox! Bastar ildırım kimi atmasın özünü üstümə! Heç demə, şahılığa sevinirmiş...

Bir gecə onun zingiltisinə çıxdım bayıra. Gördüm it başını göyə qovzayıb, ulayır. Xoş bir yaz gecəsi idi. Hava sakit, ulduz əlindən göydə barmaq basmağa yer yox idi. Bastar aya baxır hürürdü, ulduza baxır hürürdü. Ay bir dənə idisə, ulduzun sanı yox idi. İtin hürüşü də haçan kəsiləcəkdi, məlum deyildi. Evdəkilər də çıxdılar... Qızım qışqırdı:

– Ata, ay ata! Bastarın ulduza gözü düşüb, vallah! – deyə güldü. – Yəqin, yazıq aşiq olub!

– Ay qız, axmaqlama! – deyə qızıma acıqlandım. O birinci sinfə gedirdi, çöldə-bayırda eşitdiklərini təkrar etməyi xoşlayırdı. – İt nədir, aşiq oldu nədir?!

Oğlum soruşdu:

– Bəs, bu heyvana nə olub belə?

– Deyirlər, köpək qocalanda aya-ulduza hürər!

– Ata, bəs, Bozdar qocalanda niyə ulduza hürmürdü...? – deyə qızım soruşdu.

Əlimi yellətdim:

– Bozdar it, qızım, aya-ulduza hürmürdü, düzdür, amma Günəşə hürürdü. Onun iddiası daha böyük idi. Sənin yadında olmaz, onda uşaq idin.

Bastar isə hürməyində idi. Bir gün, beş gün, canımı boğazıma yığdı. Özümüz də dəng olmuşduq, qonşular da. Əgər köpəyin gecələr aya-ulduza baxıb ulamağı olmasaydı, gəbərənə kimi saxlayacaqdım... Xeyrinə-şərinə baxmazdım... Öldürməyə əlim qalxmırdı. Gözünü bağlayıb mindirdim maşına, aparıb azdırdım.

## HƏMZƏNİN NAĞILI

…Qəbula gələnlər qapının ağzında basabas salmışdılar. Biri qabağa keçdi:

– Həmzə müəllim, – dedi, – məni Bolu qağa hüzuruna göndərib. Dedi ki, o kişinin ayağı biləni bizim başımız bilmir. Get, onun yanına, sənə nə qulluq versə, razı ol, təki başını dolandırasan…

O birisi ona macal vermədi, çəkib qapıdan uzaqlaşdırdı, özü onun yerinə keçdi:

– Qədeş, mən Dona xanımın xalasının yaxın qohumuyam. Bu da xalanın zəmanət kağızı… Deyirlər, sən daha böyük adam olmusan, mənə bir pullu iş düzəlt! Dovtələb adam deyiləm, qarovulçuluğa da razıyam…

– Sən hələ dayan! – Bir başqası ona acıqlandı, irəli atıldı. – Həmzə qağa, Həsən paşa buyurub ki, birbaşa sənin yanına gəlim. Dedi, adımı verən kimi Həmzə sənə bir karlı yer verəcək. Sən də, dedi, başını dolandırarsan. Amma, qağa, qayınatan lap kardan düşüb, səndən də yaman gileylidir… Hamısı istədiyindəndir. Bir Həmzə deyəndə, beşi də ağzından tökülür…

Həmzə bir saata, bir də əlləri onun ətəyində olan qohumlara baxdı, gözünü yumdu, bir azdan açdı, gördü yox olmurlar. Dərddən əlini təpəsinə atdı, amma yolmalı bir şey tapmadı. Müdir işləyəni təmirdən sonra tüklənmiş başında diş qurdalamağa da tük tapmazdın. O, ağlar səslə yalvardı:

– A qohumlar, a başınıza dönüm, – dedi. – Vurun öldürün məni! Belə qarovulçu yerimiz boş deyil! Vallah, billah, boş deyil! Başqa nə iş istəyirsiniz, gözüm üstə yeriniz var. Necə, qohum, mənə hərbə-zorba gəlirsən? Qabağa soxulma! İndi ki, belə oldu, basın bayıra. Qurumsaq uşağı!

Birdən hamı yox oldu. Həmzə dərindən nəfəs aldı, sevincək yerindən qalxdı, qapını bağlamaq istəyirdi ki, kandarda yaraqlı-yasaqlı bir pəzəvəng kişi peyda oldu. Həmzə zoruna salıb onu da bayıra salmaq istədi. Bir

güc elədi, iki güc elədi, gördü, yox, pəzəvəng kişi geri dəbərmir ki, dəbərmir. Elə bil lay divardı, dayanmışdı qabağında. Həmzə qəbula gələnlərdən belə üzlüsünə rast gəlməmişdi. Bir də onu itələdikdə pəzəvəng kişi silkələndi, əlini bekaraca yellətdi, Həmzəyə bir dürtmə dəydi.

– A keçəl, mənə dov gəlmək istəyirsən?! – Nərildədi.

Həmzə dürtmədən iki dəfə mayallaq aşıb, kürsüyə düşməyindən daha çox, qədim ləqəbini eşitməyinə heyrətləndi, zorla qalxdı:

– Bah! – Yanını ovuşdura-ovuşdura çığırdı. – Kimsən, ay adam? Səsin-zorun tanış gəlir, amma anışdıra bilmirəm…

Yaraqlı-yasaqlı kişi bir də nərildədi:

– Çörək gözünü tutsun, a keçəl! – dedi. – Belə artmısan ki, indi Qoç Koroğlunu tanımırsan?!

Həmzə ağrı-acını unutdu, özünü atdı Koroğlunun üstünə, boynundan sallandı, o üz-bu üzündən öpdü.

– Ay səni xoş gördük, Qoç Koroğlu! – dedi. – Gör, nə vaxtdandır ki, rastlaşmırıq! Elə deyirdim, bir imkan düşəydi, o kişinin xəcalətindən çıxaydım…

– Başım qarışıqdı, macal eləyib dost-aşnaya baş çəkə bilmirdim. – Koroğlu üzrxahlıq elədi.

– Canın sağ olsun! – Həmzə onu çəkib qabağındakı masanın arxasında oturtdu. – De, görüm, sən hara, bizim tərəflər hara?!

Koroğlu yerini rahatlayandan sonra bığlarını eşdi:

– O günləri Qıratın dəliliyi tutmuşdu, necə götürüldüsə, başını daha saxlaya bilməzdim. At yerimirdi, quş kimi uçurdu. Huşumu itirmişəm. Gözümü açanda, özümü sizin şəhərdə gördüm…

– Qəribə adamsan ha! Xəbərsiz-ətərsiz durub gəlirsən! Barı bir teldən-zaddan verəydin, hazırlaşaydıq, pişvazına çıxaydıq. – Həmzə bəri başdan ona yalmandı. – Sahibsiz it günündəyəm, Qoç Koroğlu, yaxşı özünü yetirmisən. Bəlkə yuxarılarda bir dil yetirdin mənimçün, yaxşı vəzifə verdilər.

– Dayan, keçəl, bu söhbətin yeri deyil. Qərib şəhərdir, başımı itirmişəm. Atdan enən kimi paşadan-xandan soraq istədim, gülüb dedilər ki, cəmi kasıb-kusub yığışıb axırına çıxıblar. Dedim: Heç padşahınız yoxdur?! Hərc-mərclikdir?! Dedilər, sən deyən anarxiyadır, bizim öz hökumətimiz var. Başçımız da bir ağıllı kasıbdır… Bu doğrudurmu, keçəl?

– Əlbəttə! – Həmzə təsdiq etdi. – Sevin də, ömrün boyu bunun üçün vuruşmusan ki!

– Düzü, əvvəl şad oldum, sonra qəmgin… Köhnə vaxtlar olsaydı paşadan-xandan qırıb-çatar, bac-xərac alar, qarnımı doydurardım… Onların da kökünü kəsiblər. İndi qalmışam belə, neçə gündür ağzıma bircə loxma çörək də almamışam.

– Bizdə işləməyən dişləməz, Qoç Koroğlu!

Koroğlu yerində qurcuxdu:

– Eləsə, qulluqdan-zaddan mənə tap, işləyim. Həm qarnımı doyduraram, həm də bəysiz-xansız bir-iki ay yaşayaram. Canınçün, dava-dalaşdan daha bezmişəm…

Həmzə şirin dilini işə saldı:

– Qulluq? – Soruşdu. – Əlimin altındakı qulluqların hamısı sənə qurbandır, Qoç Koroğlu! Əmək kitabçanı bəri elə…

– Mültəfit olmadım... – Koroğlu qabağa əyildi. – Əyə, keçəl, sən ölənlərinin goru, qarğadili danışma! Əmək kitabı nədir?

Həmzə səbrlə izah elədi:

– Qoç Koroğlu, əmək kitabı sənəddir, ora iş stajın yazılır, hansı sənətin sahibi olduğunu göstərir…

– Yoxumdur… – Koroğlu özünü itirdi.

– Yox, əşi?! Elə-belə səni işə götürməyə ixtiyarım yoxdur. – Həmzə təəssüfləndi. – Bəlkə səni köhnə iş yerindən maddə ilə çıxarıblar?! Nədir, qəlp işin olub?!

– Əyə, başına at təpib, nədir?! Nə qəlp iş? Mən Qoç Koroğluyam!

– Bilirik də. – Həmzə onun ağzından vurdu. – Köhnə xidmətlərini gözümüzə soxma daha! Yaxşı, indiyə kimi işləməmisənsə, gərək yaşadığın yerdən arayış gətirəsən…

– İndi Çənlibelə qayıdıb, arayış alım?

– Əlbəttə! Oranın böyüyü kimdirsə, deyərsən girdə möhürü vursun kağızın üstünə.

– Əyə, səfehləmə, özüm-özümə arayış yazmayacağam ki?!

Həmzə çaşqın-çaşqın ona baxdı:

– Doğrudan ha! – dedi. – Amma, vallah, arayış olmalıdır. Biz bilməliyik axı, mən bu yaşına kimi kimin himayəsində yaşamısan…

– Hə? Qoç Koroğlu himayədə yaşayıb?! – Koroğlu hədə ilə dilləndi. – Gözünü aç, mənə sərrast bax ha!

– Qədeş, hirslənmə, mən ölüm! Məsəlçün deyirəm də! Başqa kağız gətirsən, nə sözüm var?

– Deyəsən, sən məni dolamısan, axı! – Koroğlu hirsləndi. – Keçəl, mənim Koroğluluğuma hörmət eləmirsən eləmə, yaşıma bir nəzər yetir. Həm də xotkarın yalan-doğru kürəkəniyəm axı.

Bu yerdə Həmzə də hirsləndi:

– Danışdı da! Belə mən də Həsən paşanın dost-doğma kürəkəniyəm, amma sənətim var, bir palazqulaq diplomum var.

Koroğlu bir az həsdədi:

– Bala, oğul Həmzə, dava demirik ki! Bir iş ver, dolandıraq da başımızı! Bu diyardan yaman xoşum var, beş-on gün dolanmaq, gəşt eləmək istəyirəm. Paşadan-xandan olsaydı, daha sənin kimisinə işim düşməzdi. Çəkərdim qılıncımı… Yaman yerdə axşamlamışıq…

Həmzə mızıldandı:

– Yığdığını ona-buna paylamazdın, – dedi. – Harda ac görürdün, çörəkləyirdin, harda yalın görürdün, geyindirirdin. Dar gününə də bir şey saxlayaydın da!

Koroğlu təəccübləndi:

– Ayə, keçəl, sən nə yaman dilçəklənmisən! Mən xalq qəhrəmanıyam, adım dillərdə dolaşır, şənimə dastanlar qoşulub, mahnılar deyilir, sən məni öyrədirsən?!

– Lap yaxşı. – Həmzənin hövsələsi daraldı. – Qardaş, sənədsiz sən nə ilə sübut edəcəksən ki, sən həmən Qoç Koroğlusan?! Hə? Bəlkə o kişinin adını özünə çıxan bir şarlatansan?

– Sən, axı, məni tanıyırsan?!

– Nə olsun ki?! Kağız olmazsa, özüm də keçəl Həmzəliyimi demirəm, heç keçəlliyimi sübut edə bilmərəm, baxmayaraq ki, göz görür, başımda bircə tük də yoxdur.

Koroğlu dərin fikrə getdi, haçandan haçana sevincək qışqırdı:

– Tapdım! – dedi və qoltuq cibindən əzik bir kağız çıxartdı. – Gör, bu keçərmi? Xotkar özü qol qoyub! Möhür basıb! Sənətlərim də cabəca yazılıb. Fərmandır, xotkardan cıra-cıra almışam…

Həmzə ağzını büzdü, əli ilə rədd elədi:

– Eh, Xotkar nə kişidir ki, onun verdiyi fərman bu zamanda işə keçə! Sən də, Qoç Koroğlu, heç utanmadın düşmənin bir parça kağızından yapışmısan?!

Koroğlu hiylə çətirini çəkdi başına:

– Bala, xalq deyir, kişinin igidliyini düşmənindən soruş. Sənin kimi dost-aşna mən boyda kişini tanımaq istəməyəndə mən də düşmən kağızını qoyaram da ortaya, – dedi.

Həmzə bu sözdən utandı, çar-naçar dedi:

– Yaxşı da ver, görüm xotkar nə yazır. – Əlini uzatdı, kağızı aldı. Başladı oxumağa.

Fəmanda deyilirdi:

«Allahın Uca Adı ilə!

Yüksək Fərman o səbəbdən intişar olunur ki, igid, qorxmaz, at minən, qılınc vuran, şeşpər atan, gürz çalan, bir yumruğa qırxın əzən, neçə-neçə paşadan bac alan, bəydən-xandan xərac alan, nərəsindən dağ oynayan, işi tuş olanda, ya yaş olanda söz deyən, saz çalan, yeddi qazan aşı bir oturuma yeyən, üç aylıq yolu üç günə gedən (bəşərtü, altında Qırat ola), müftə yeyib-içməyin ustası, boyu məscid minarəsi, bığı bir arşın, kəlpeysər, allı-güllü Çənlibelli, Qıratlı-Dürətlı, dalında durub yeddi min, yeddi yüz yetmiş yeddi dəli, Kor Alı bəyin göz işığı (bəyliyi öləndən sonra ona biz əta etmişik), kürəkənim, həm təsəllim Qoç Koroğlu (Allah onun qılıncını başımızın üstündən əskik eləməsin) istədiyi yerdə kül töküb kök sala bilər…

Mübarək möhür. İmza: Xotkar».

Həmzə fərmanın tarixini seçə bilmədi. Kağızı qoydu pardaxlı masanın bir qırağına. Dilini nırçıldatdı:

– Yarımağına yarıyar, amma işə tikmək olmaz, – dedi. – Eybi yox, tanışlıqla səni işə götürəcəyəm, babalın boynuma.

– Ay sağ ol, keçəl, indi səni kişi gördüm.

– Hələ dayan, Qoç Koroğlu. – Həmzə onun sevincinə soyuq su qatdı. – Sənin sənətin yoxdur, axı. Mən səni nə qulluğa qoyum? Bəlkə usta şagirdi götürək? Hə?

– Nə? Qoç Koroğlu şəyird? Bu yaşımda?

– Nə olar, adə? Səndən yekələri də bu yolu keçməyibmi? Nahaq yerə yüz il yaşa, yüz il öyrən deməyiblər ki! Əlin işə yatar, öyrənərsən, üç aydan sonra da dərəcə verərik… – Həmzə sözünün dalını gətirmədi. Koroğlunun gözləri hirsdən ala-bula çalırdı. – Yaxşı, yaxşı, qan olmadı ki! İstəmirsən istəmə də… Bəs, əlindən nə gəlir?

– İndicə fərmanı oxudun ki! – Koroğlu narazılıqla ona gözünü ağartdı. – De görüm, qılıncçalan işinə yarayarmı?!

– Yox, canım!

– Niyə?

– Bizə lazım deyil də! Fabrik-zavod qılıncçalanı neynəyir ki? – Həmzə başını qaşıdı. – Amma «Dinamo» idman cəmiyyəti qılıncçalan axtarır…

– O haradır, keçəl? – Koroğlu maraqlandı.

– «Dinamo»? Səni necə başa salım… köhnə hesabla ora zorxanadır…

– Rədd elə! – Koroğlu əlini yellətdi. – Zorxana bu yaşımda harama yaraşar?!

– İndi özün bil!

– Gürz vuran, şeşpər atan necə?!

– Balam, bu sənətlər indi işə keçmir ey, işə keçmir. Daha nə qılınclanmalı, nə də şeşpərlənməli bir adam

qalmayıb. Nə ki havayı yeyən vardı bir azın sən qırdın, qalanlarının da axırına sənsiz çıxdılar, hamısını o dünyalıq ediblər.

– A keçəl…

– Dayan, Qoç Koroğlu, daha mənə «keçəl» demə, inciyərəm, mən ölüm! İndiki həkimlərə nə gəlib! Düzdür, əllərinə xəstə düşsən, dirilməyin getdi fələyin yerə qarın vurmağına, amma keçəlimi yaxşı təmir etdilər. İpək kimi tük gəlmişdi. Vəzifəyə qoyandan sonra töküldü. Əşi, axmaq tüklərdir də, imkan tapan kimi bir-bir aradan çıxıblar…

– Ayə, Kaloğlan…

– Can Koroğlu, elə də demə! – Həmzə əlini boğazına apardı. – Bir az biədəb çıxır. Mən ki yetkin, işıqlı gələcəyi olan bir gəncəm…

– Bəs, səni necə çağırım, ay qurumsaq? – Koroğlu hirsləndi.

– Hamı mənə «Həmzə müəllim» deyir, sən də elə de!

– Müəllim? Elə niyə?

– Belə hörmətli çıxır. İşin düşdüyü, tabeliyində olduğun adama «Müəllim» deyəndə onun canına yağ kimi yayılır.

– Qıratın nalları tökülüb, indi nalbənd yanına getməliyəm. Gərək ona «Nalbənd müəllim» deyim? – Koroğlu təəccübləndi.

– Elə ha! Dəlləyə işin düşsə «Dəllək müəllim» deməyi unutma. Yoxsa üzünü küt ülgüclə qırxar ha!

– Onda işim çim yağdır ki! Yeddi min yeddi yüz yetmiş yeddi dəlimə tapşıracağam ki, mənə «Koroğlu müəllim» desinlər. Necə səslənir, keçəl?

– Əladır, Qoç Koroğlu, gözgərəsi inkişaf edirsən. – Həmzə razılıqla gülümsədi.

Koroğlu uğundu:

– Ha…ha…ha! Dədənin toyu olsun, a keçəl, bağışla, Həmzə müəllim! – dedi. – Məni yaman güldürdün… Söhbətdən uzaq düşdük. Həmzə müəllim, özün bilirsən ki, əzəldən ayaqdan zirəngəm… Üç aylıq yolu üç günə gedirəm. Mənim Bağdad, İstanbul səfərlərimə dastanlar qoşulub! Çapardan-zaddan götürsən, peşman olmazsan…

Həmzə başını buladı:

– Yox, qardaş, keçməz, – dedi. – İndi adamlar üç aylıq yolu üç saata gedir, deyirlər ki, gecikdik. Sənin apardığın xəbər üç günə boyat bozbaşa dönəcəksə, kimə lazımdır?

Koroğlu ümidsizləşdi:

– Daha bu olmadı ki! – dedi. – Mən boyda kişi səninlə çənə döyməkdən yoruldum… Dəyirmançı lazım deyil ki?! Keçənlərdə sən ki Qıratı apardın, güzarım düşmüşdü dəyirmana. Bir az təcrübəm var…

– Hə? Hansı növ dəyirmanda işləmisən?! – Həmzə soruşdu.

– Deyəsən, məni imtahana çəkirsən, axı? – Koroğlu özünü tox tutdu. – Nov deyəndə ki, əlbəttə, su dəyirma-

nının novu da var, daşı da, pəri də! Sən lap üstümü unlu görmüsən ha!

– Eh, rəhmətliyin oğlu, növ deyirəm, növ! Sən görən dəyirman su dəyirmanıdır, onları çoxdan su aparıb, danışmağa nə həcət…

Koroğlu uzun ömrünə bir də nəzər salıb həvəslə dilləndi:

– Neynək, qardaş, bəlkə elə bir adam var ki, ilxısı olsun? Biz, axı, dədə-babadan ilxıçıyıq… Atdan başım çıxır. Elə ayğırlar bəsləyim ki, Qırat onların yanında yalan olsun…

Həmzə ah çəkdi:

– İlxı nə gəzir, əşi! Fikrin gedib köhnələrə. İndi, gör, nümunə üçün at tapırsan ki, ilxıdan söhbət edirsən?

– Nə pis oldu? – Koroğlu heyfsiləndi. – Daha neynək, çobanlığa da razıyam. Bir qoyun sürüsü tapşır mənə…

– Can Koroğlu, qoyun-quzu saxlamaq sənin işin deyil.

– Güldürmə məni. – Koroğlu əlini yellətdi. – Çobanlığa nə var ki! Səhər hayla örüşə, axşam huyla pəyəyə…

– Ağrımayan başına dəsmal bağlama, Qoç Koroğlu. Bizdə yüz doğar qoyundan iki yüz bala alan çobanlar var. Onlarla ayaqlaşa bilirsənsə, buyur, qolunu çırmala…

– Nə danışırsan, əyə! Qoyundu da! Doğmadı əkiz, aldım hər qoyundan bir bala? Onda nə olsun? Yox, qardaş, əl vermədi. Uşaq-muşağın biri yüz qoyundan iki

yüz bala alacaq, mən, adlı-sanlı Qoç Koroğlu, bunu edə bilməsəm biabır olacağam. Onda baş qovzayıb, camaat arasına mən necə çıxacağam?!

– Deyirəm də, Qoç Koroğlu, bu, sənin işin deyil…

Həmzə qəmli-qəmli oturmuş Koroğluya baxdı. Ürəyi bir tikə oldu. Keçəl olduğu vaxtlar yadına düşdü. Bu kişinin qapısında çox çörəklər yemişdi. İndi heç insafdan deyildi ki, onu naümid qaytarsın. Əlinin altında olan ən yaxşı iş keşikçilik idi. Bir həftədi adamlar o yerin həvəsi ilə gəlirdilər, gedirdilər…

– İstəyirəm sənə bir yaxşılıq edim…

– Ayə, hanı səndə o kişilik?!

– Qoç Koroğlu, bizim kombinatda işə girmək zəmanətlədir. Tanışlıqla sənə qulluq yeri verirəm, bu da sənin çox sağolundur?! – Həmzə incidi.

– Yaxşı, ayə, burnunu sallama, sözdü dedim də, keçəlinə söymədim ki!

– Kombinata səni qarovulçu qoysam necədir?! Üç gün evdə, bir gün işdə. Padşah sənətidir, razısan?

– Lap elə razı oldum. Mənim alacağım nə olacaq? Bu qürbətdə özümü dolandıra bilərəmmi?!

Həmzə qarovulçunun maaşını dedi. Koroğlu fikrə getdi.

– Bu pula neçə pud düyü almaq olar? – Soruşdu.

– Düyü?! – Həmzə fikrində cəld hesabladı. – Yeddi pud.

– Yox, əl verməz. – Koroğlu ah çəkdi. – Mənim iştahama bələdsən ki! Yadındadırmı toyunda yeddi qazan aşı necə aşırdığım? Bu maaş mənə çatmaz…

Həmzə onun xamlığına güldü:

– Ayə, sən elə o vaxtlar da bir az gec qanan idin, indi bir az da üstünə gəlib. Mən olmasaydım onda Qırat da dəsxoşa getmişdi. Belə başa düş, alacağın ancaq çay puludur, qalanları sənin bacarığından asılıdır. Əlinin altında bütün kombinat olacaq. Şükür Allaha, bizdə də nə desən var. Taxta, şalban, dəmir, şüşə, kafel, masa, oturacaq, gül, balıq, kasa, daha nə bilim nə! Çətini bir həftə olacaq, sonra işin xod gedəcək. Öz müştərilərin, öz adamların… Bala-bala satarsan, dilxoşluq edərsən özünçün. Acgözlük eləməsən heç nə olmaz. Bizim kombinat dəryadır, qurtaran deyil. Sənin gələcək həmkarlarından biri çopur Cəfərdir. Bir ilə, para ilə özünə, qonşularına, gör nə cəlal yaradıb. Zalım oğlunun alt-üst evlərinə baxanda adamın ağlı gedir… Daha Səfəri demirəm. Gecə də satır, gündüz də. Kombinatın axırına çıxsa, bax, o çıxacaq. Əlbəttə, bizə də görüm-baxım edir, daha səndən nə gizlədim, amma hərdən mənə yaman kəf gəlir. İstəyirəm onu çıxarım, yerinə özümünküləri qoyum. Biri sən olarsan, necə olsa, səninlə bir parça çörək kəsmişik…

– Yox, keçəl, məni məzur tut…

– Niyə, qədeş?!

– Mənim haça-küçə işlərlə aram yoxdur. İran şahı düşmənim idi, amma onun xəzinəsinə yaran oğruları

tutub özünə təslim etdim. İndi, deyirsən kasıb-kusub padşahlığında mən oğurluq edim?! Gör, mənə nəyi layiq bilirsən. Ay səni, keçəl! Yaxşı, görürəm səndən murad hasil olmur, gedim başqa yerdə bəxtimi sınayım. – Koroğlu ayağa durdu.

Həmzə Koroğlunun sözündən bir az dilgir olsa da, fikirləşdi: «Mən mərdəm, gərək öz borcumu axıra qədər yerinə yetirim».

– Dayan, bir məsləhətim də var, döşünə yatdı, yatdı, yatmadı onda məni qədirbilməzlikdə təqsirləndirmə.

Koroğlu ayaq saxladı:

– De gəlsin, ayə.

– Sən köhnələrdə yaxşı saz çalır, söz deyirdin. İndi də bacarırsanmı?

– Bala, söz deyib-saz çalmaq vergidir, mənə Allahdan verilib. Onu kim əlimdən ala bilər?! Bəlkə sizin şəhərdə kimin xətri istəyir söz də deyir, saz da çalır?! Ay-hay, istəməklədir, bəyəm?

– Boşla, sən Allah! – Həmzə üz-gözünü turşutdu. – Lap zəmanədən geri qalmısan ha! Vergi nədir, zad nədir, Qoç Koroğlu. İndi yerindən duran əlini qoyur qulağının dibinə, başlayır oxumağa. Nə qoyub-nə axtarırsan, rəhmətliyin oğlu! Bəlkə köhnələrdə söz deyib-saz çalmaq Allah vergisi idi. İndi musiqi məktəbi var, istəyən təhsil alır, olur söz deyən, ya da saz çalan! Xətrin istədi-istəmədi, məcbursan qulaq asasan…

– Elə şeymi olar?

– Bu geri qalma fikirləri başından çıxar, qədeş! Demək, çalmaq da bilirsən, oxumaq da?

– Ayə, nə mıs-mıs edirsən? Sözünü de! Yoxsa salaram təpiyimin altına, cəcənəyini çıxararam…

– Sözümün Mustafası budur ki, gəl, bir çalançılar dəstəsi yaradaq. Toylarda məclis aparaq. Sən sözlə-sazla, mən də nağaradan-dümbəkdən şappıldadaram, kos-kosa oyunu da öz yerində. Bir dənə zurnaçı da tapmaq mənim boynuma. Çalıb-çağırarıq, toyu yola verərik. İndiki toylarda qazan-qazan aş olmasa da, qovurmadan-bozbaşdan olur. Həm sənin qarnın doyar, həm də pul alarsan. Amma gərək bir az nəfsini saxlayasan, toy qazanlarını xəlvətə salıb qarnına təpməyəsən. Bu sənə paşa-xan toyu deyil, kasıb toyudur. Tükünü didərlər… Hə, necədir? Döşünə yatırmı təklifim?!

Koroğlunu gülmək tutdu. Həmzə ona bir dürtmə ilişdirdi:

– Ay lotu, işin düzəlib deyənə bığının altı gülür!

– Ha…Ha…Ha! Ayə, keçəl, yaman nərə vurmağım gəlir.

Həmzənin rəngi qaçdı:

– Amanın bir günüdür, Qoç Koroğlu, özünü bir az saxla. Qoy, daldaya çəkilim. Yoxsa o dünyalıq olaram, balalarım var, yetim qalarlar… Sən canın, dayan, dayan!

Koroğlu bir balaca gücəndisə də, özünü saxlaya bilmədi, bir dəli nərə çəkdi...

…Həmzə yuxudan dik atıldı. Başı seyfin dəstəyinə dəydi. Hövlnak saata baxdı, gözünə inanmadı, saat üçə işləyirdi. Nahar fasiləsi qurtarmışdı. Bayırdan gələn bağırtılar da qəbula gələnlərin bağırtıları idi. Acığından qapını açmadı:

«O şələbığ kişinin səsinə oxşayır… Mənim canımı boğazıma yığıb. Bu adam üçün nə qədər dost-tanış minnətə gələr. Zalımın boynu sıpa boynuna oxşayır, qarovulçuluq istəyir. Yəqin qulağına səs dəyib ki, qarovulçular qaz vurur, qazan doldurur. Daha bilmir ki, o yerin sahibi var. Haqqı da çatıb. Qurumsaq uşağı!»

Həmzə oturdu, yerini rahatladı. Yenə onu mürgü basdı. Yenə yuxu görürdü. Deyəsən, Koroğlunun dəliləri Həmzənin qəbuluna gəlmişdilər.

## TAXTA QAPININ ÜSYANI

Biri vardı, biri yoxdu, keçən keçdi, qalan qaldı, «var» yox oldu, «yox» var oldu. Belə də olmalıdır. Bu bir nağıldır.

Bir vaxtlar «Dəmir qapı» ilə «Taxta qapı» küçə-bir qonşu idilər. Biri yolun bu üzündə, biri bu üzündə dururdu. Onların gözü həmişə bir-birində idi.

«Dəmir qapı» arxasında yonulu daşdan bir imarət ucalırdı. Bina ikimərtəbəli idi, eyvanları meydan kimi

genişdi. Daha heç nə görünmürdü. Hasar çox hündürdü. Quş quşluğu ilə səkə bilməzdi.

«Taxta qapı» arxasında da bir ev dururdu. Ev köhnə idi, alçaq hasardan da zorla görünürdü. «Taxta qapı» sübhdən açılırdı. Çox açılırdı, bir dəfə, iki dəfə… beş dəfə açılırdı. Ordan çanta ilə çıxırdılar, çörək ətirli bağlama ilə çıxırdılar.

«Dəmir qapı» günəş çeşt yerinə qalxanda aralanırdı. Gurultu ilə, qala qapısı kimi. Bircə yol.

Axşam «Taxta qapı» hay-küylə, gülüşlə taqqıldayırdı. Hasarın dalındakı ev də əvvəlki kimi kiçik görünmürdü.

«Dəmir qapı» səssiz açılırdı. Qucağı dolu sahibini içəri buraxırdı. Astaca, qısıla-qısıla örtülürdü. Sonra da qorxa-qorxa ətrafa baxırdı: «Aman allah, görən olmadı ki?!» – fikirləşirdi. Bir müddət özünə gəlməzdi. Haçandan-haçana içəridə işıq yanar, qab-qacaq səsi eşidilir, «Dəmir qapının» rəng-rufu üstünə gələrdi… Amma evin çilçıraqları uzun müddət ehtiyatla parıldayırdı.

…Bir vaxtlar «Taxta qapı»nın «Dəmir qapıya» çox yaxşılıqları keçmişdi. Dar gündə həyanı olmuşdu, çörəyin qıt vaxtı tikəsini onunla yarı bölmüşdü. Dünyanın kəshakəs vədəsində özünü qabağa vermiş, sinəsini ona sipər etmişdi. Özü kəsilmişdi də, sınmışdı da, «Dəmir qapını» kəsilməyə, sınmağa qoymamışdı. «Taxta qapı» dostluqda möhkəmdi. Onda «Dəmir qapı» da dəmirdən deyildi, taxtadan idi. Dabanı üstə zorla fırlanırdı.

İllər keçdi. «Dəmir qapının» arxından gur su axdı. Onda hələ dəmirdən olmayan «Dəmir qapı» suya dolça ilə yox, vedrə ilə girişdi. Var-dövlət başından aşdı, gözü ayağının altını görmədi. Yaxşı-yaman nə vardı, unutdu. İllər keçdi, zireh gətirdi.

Onun bircə çəkinəcəyi vardısa, o da «Taxta qapı» idi. Köhnə qonşusundan üz döndərməyə bəhanə gəzirdi. «Taxta qapı» bir yol qapılar məclisində haqq-sayı unutmuş «Dəmir qapıya» irad tutdu, onu halal yola çağırdı. Dedi ki, haramdan hələ kimsə bəhrələnməyib. O gündən «Dəmir qapı» «Taxta qapıya» düşmən kəsildi. Daha onu görməyə gözü yoxdu. O qədər qudurmuşdu ki, ayda-on beşdə «Taxta qapıdan» acıq çıxırdı. Görürdün, gecənin bir çağı yerindən qopub, qaça-qaça hücum çəkir «Taxta qapıya», bir namərd kəllə vurur, sonra da yerinə qayıdırdı.

«Taxta qapı» dözürdü. Düzü qorxurdu. «Dəmir qapının» zirehi onun canına vəlvələ salırdı. Əlbəttə, taxta hara, dəmir hara! «Taxta qapı» tüstüsü cızdağından çıxa-çıxa fikirləşirdi: «Yəqin bu dünyada haqq-ədalət yoxdur! Belə gəlib, belə də gedəcək! Dinməyim, bəlkə usandı! İndi «Dəmir qapılar» zəmanəsidir! Dinərsən, daha pis olar».

«Dəmir qapı»sa usanmırdı. Üzünə ələk tutub bildiyini edirdi. Güc, var-dövlət gözünü örtmüşdü.

Bir belə, beş belə… on beş belə! Hər şeyin bir sonu var, axı!

Bayram axşamı idi. Al rəng çəkmiş «Dəmir qapı» yaxşı yeməkdən, yaxşı içməkdən dingildəyirdi. Hamının yatmağını gözlədi. Gecənin bir vədəsində durduğu yerdən tərpəndi. Kefi kökdü. Valay vururdu. Bir az gülmək üçün «Taxta qapıya» yan aldı. Ona bir balaca toxundu. Uğuna-uğuna yerinə qayıtdı.

«Taxta qapının» ağlı başından çıxdı. «Şər vaxtı şərə lənət!» – çığırdı. Kasıb bayram süfrəsini yarımçıq qoydu, yerindən sıçradı, bir həmlədə özünü «Dəmir qapıya» çatdırdı. Bircə zərbə. Göy guruldadı elə bil!

«Dəmir qapı» bayaq ha, arxası üstə yıxıldı. Demə, elə adı varmış bunun, rəngmiş başdan-başa. Pas yemiş zirehi, qurd daraşmış taxtası ovum-ovum yerə töküldü.

Sonra, gör, nə oldu.

«Dəmir qapı» arxasında duran qoşa maşın qapıdan çıxdı, ilim-ilim itdi, şüşə istilikxana çilikləndi, töküldü yerə. İstilikxananın qırmızı gülləri qana döndü, ağ gülləri ağuya. Mərmər hovuzun balıqları yoxa çıxdı, suyu qurudu, elə bil heç yoxmuş.

Sonra, gör, nə oldu!

«Dəmir qapının» sahibi də qolunda qandal getdi.

Özü öz gücünə mat qalmış «taxta qapı» dünyada ədalətin zoruna inandı. İndi qapı səhərlər daha tez-tez açılırdı. Orta məktəbə açıldı, ali məktəbə açıldı, tikintiyə açıldı. Onun arxasındakı ev də əvvəl bir boy artdı, sonra boyaboy qalxdı.

«Taxta qapı» zaman keçəndən sonra qocaldı, sahibi onu qızıla tutdu. «Taxta qapı» əslini unutmadı, yenə sübhdən açılır-örtülürdü, örtülür-açılırdı…

## TAMAH

Rayon kooperativlər ittifaqının sədri tamah dişi düşmüş və ya heç çıxmamış, işində bişmiş, sənətində püxtə bir adam axtarırdı ki, baş anbarın anbardarı qoysun. Neçə anbardar gəlib-getmişdi, heç biri onu yarıtmamışdı. İnsafsızlar anbarı elə boşaltmışdılar, elə boşaltmışdılar, heç dilə gətiriləsi deyil. Odur ki, rəis qəzetə bir qarış uzunluqda bir elan verdi. Dərhal idarənin qabağında böyük bir növbə düzəldi. Elə bil uşaqlara rəngbərəng bayram yumurtaları paylanırdı.

Rəis də bu rəngbərəng adamları yumurta kimi dişinə vurub, hərədən, «laxdı» – deyib bir eyib tapırdı, ötürürdü üzü o yana. Axırıncı «yumurtanı» dişinə vuranda gecə yarıdan keçmişdi. Rəis yorğun-yorğun sual verdi:

– Gündəlik yeməyin?!

– Bir fincan süd!

– Vəssalam? – Rəis dikəlib «Əsil mən deyəndir!» – fikirləşdi. – Sənətin?

– Satıcı.

«Yarıyar» – Rəis pıçıldadı. Onu bir həftəlik sınaq müddəti ilə işə qəbul edib, baş anbarın açarını verdi,

getdi evinə. Səhər gəlib gördü nə?! Gündüz kremplindən, yapon lavsanından, daha nə bilim nəmənədən qarın vuran qəfəslər süpürgələnib, arıq anbardarsa, dönüb kolxoz xəsilliyində bağlanmış cins cöngəyə.

Rəis dərddən təpəsindəki olan-qalan saçlarını çəngələdi:

– İçdiyin süd sənə haram olsun, kişi! Dur, sürüş burdan.

Rəis qaldı yenə əlamanda. Fikirləşib anbarı doldurdu. Eni-uzunu bir qarış olan elanın enini bir çərək, uzununu bir qarış uzadıb verdi qəzetə. Yenə növbə yarandı.

Rəisin quşu aerodrom kepkası hər iki tərəfdən fil qulağı tək sallanan cayıla qondu.

– Gündəlik yeməyin?

– Tüstü ilə dolanıram!

– Bah!

– Əlbəttə! Gündə on qutu «Tu», bir qutu da doldurma «Kazbek» çəkirəm…

– Vəssalam?

– Vəssalam.

– Sənətin?

– Birdi, ikidi bəyəm? Hansını deyim…

– Alverdə səriştən varmı?

– Day, necə! Maştağanın, Mərdəkanın gülləri kimin əlindən keçir?! Mən Ağaminin! İldə beş kərəm Moskvaya, üç kərəm Leninqrada, bir kərəm Vladivostoka gül

aparan kimdir?! Mən Ağami! Daha biz nəsilliknən alverçiyik də!

Rəis şad olub açarları ona tapşırıb getdi. Bir neçə gündən sonra gəlib gördü ki, anbar suyu sovulmuş dəyirman kimi bomboşdur, lənət yalançıya, çaşdım, tamam boş deyil, tüstü ilə doludur… Rəis özünü itirmədi.

«Axtarış qurban tələb edir» – fikirləşdi, anbarı malla doldurdu. Elanı bir çərək də uzadıb verdi qəzetə. Ancaq iddiaçılar gözü çıxmış qardaşlarından ibrət alıb daha gözə görünmürdülər. Odur ki, rəis elandan beş gün sonra gələn birinci iddiaçının pişvazına özü çıxdı və ayaq üstəcə sualını verdi:

– Yeməyiniz?

– Doqquz kitab…

– Yeyirsiniz…

– Yox, oxuyuram! Üçünü səhər, ikisini axşam, dördünü də günorta.

Rəis təəccüb etmədi:

– Siyasi, elmi, bədii?!

– Siyasət və macəra!

– Bunların ki əlaqəsi yoxdur…

– Çox əcəb əlaqəsi var…

– Sənətiniz?

– Kitabxanaçılıq…

Rəis peysərini qaşıdı, onun əvvəldən kitab adamları ilə arası yoxdu, odur ki, bu kitab həvəskarını başdan eləmək üçün dedi:

– Gedin, lazım olsanız çağıraram…

Daha başınızı nə ağrıdım, rəis bilmədi təpəsinə haranın külünü töksün ki, bir nəfsi küt anbardar tapsın. «Dünya xəbərləri» qəzetinə bir arşın eni, bir arşın uzunu olan elan verib. "Əvvəl-axır" küçəsi ilə qalxırdı.

Günəşli bir gün idi. Hər iki əli ilə havanı ovuclayıb ağzına aparan cavanla rastlaşdı. Bu halətə çox mat qalıb yaxınlaşdı.

– A bala, neynədiyindir?

– Təəccüblənməyin, mənim dolanışığım hava ilədir, indi naharımı edirəm.

Rəis sevindiyindən bir boy atıldı.

– Ay sənin gözünü yeyim! Əsil mənə lazım olan adamsan! Sənin kimisini göydə axtarırdım, yerdə əlimə düşmüsən! Gedək!

Əlqərəz, oğlanı həmin gün anbardar təyin etdi. Səhərisi gəlib gördü hər şey yerli-yerindədir. Bir gün də elə, o biri gün də elə… rəis rahat oldu.

– Elə əsil mən deyəndir! Dedi.

Üç ay keçdi. Qəza-qədərdən cavan oğlan bərk xəstələndi. Təcili yardım maşını onu «Kəsərəm-tikərəm» xəstəxanasına yetirdi. Həkimlər baxıb dedilər:

– Kəsilməlidir! Kor bağırsaqla zarafat olmaz!

Dedilər də, kəsdilər də. Salamatlıq sizdən uzaq olmasın, hər şey yaxşı qurtardı. Cavan oğlan bir həftə keçməmiş xəstəxanadan çıxdı. Rəis onu şad-xürrəm qarşıladı, açarları qaytardı. Altı ay anbara ayaq basmadı. Bir gün

şəhərə çıxmışdı. Fikirləşdi: «Gedim anbardarın kefini xəbər alım, çoxdandır onu görməmişəm».

Getdi, gördü nə? Baş anbar da, ətrafındakı bala anbarlar da quldur əlinə düşmüş mücrü kimi talanıb. Anbardar isə bir dəstə yar-yoldaşı ilə yeyir-içir, şadlıq edir.

Rəis qışqırmaq istədi, səsi çıxmadı. Elə bil naşı çoban qəflətən canavar görmüşdü. Qalstukunu boşaldıb kəkələdi:

– Adə… Bəs de… deyirdin hava ilə dolanıram?!

Cavan oğlan ağzına qoyduğu tikəni udub dedi:

– Sənin canınçün, rəis, yalan deməmişəm! Amma əpirəsiyədən sonra görürəm yeməsəm olmur. İndiki həkimləri tanımırsanmı?! Bilmirəm, nə illət ediblərsə, dam-daşa da tamah salıram!…

## HÜMA QUŞU

Neçə vaxtdı böyük meşə qalmışdı başsız. Fərli bir baş axtarırdılar, arayırdılar, di gəl ki, tapa bilmirdilər. Hüma quşunu uçururdular ki, uyarlı bir başa qonsun, qonmurdu. Qonanda da elə başa qonurdu ki, belə başdansa böyük meşənin başsız qalması məsləhətdi. Elə gün olurdu ki, hüma quşunu on yol buraxırdılar. Quş uçub ya daşa qonurdu, ya da daha pis gəndalaşa. Daşa qonması heç, gəndalaşa qonması lap biabırçılıq idi.

Üstündən xeyli keçdi. Böyük meşə başsız qalmaqdan təngə gəldi. Bir gün hüma quşunu o qədər uçurtdular ki, yazıq quş əldən-dildən düşdü. Axırıncı dəfə onu isti yerindən perikdirdilər. Quş da acığa hərlənirdi, fırlanırdı, yekə-yekə başların heç birinə qonmurdu ki, qonmurdu.

Böyük meşədəkilərin gözünün kökü gözləməkdən saraldı. Hamını elə ayaq üstə yuxu tutdu. Quş da haçandan-haçana yorğun-arğın, gecədən xeyli keçmiş özünü yerə saldı. Heç bilmədi necə oturdu, hara oturdu, huşa getdi.

Səhər yuxudan oyananın barmağı ağzına getdi. Hüma quşu Zürafənin başında qərar tutub şirin-şirin yatırdı. Elə bil meşə arı pətəyi idi, çöplənmişdi. Pıçhapıç (bu pıçhapıç çox başları başsız qoymuşdu) düşdü ki, bəs, Hüma quşu zalım balası, deyəsən, kəkliyini azdırıb. Nədir, qonmağa daha baş tapmırdı?! Qalmaqal başladı.

Bu hay-küyə Hüma oyandı. Ətrafına göz gəzdirdi. Qınaqlı baxışlar ona dikilmişdi. O, pərt oldu. Amma iş-işdən keçmişdi. Böyük meşədəkilər də fikirləşdilər ki, zürafənin başı da yaxşı-pis başdır, daşdansa, ya gəndalaşdansa bu əfzəldir.

Zürafə Hüma quşu başında gəştə çıxdı ki, tamam böyük meşə onu görsün, tanısın. Özgə vaxt yeddi gün, yeddi gecəyə gedəcəyi yolu sevindiyindən bir günortaya, acqarına getdi. Böyük meşəni başa çıxdı, öz yerinə, başa keçdi.

Dost-tanış, yaxın-uzaq toplaşdı, dəsgah-mərəkə açıldı. O günü bayramla başa-baş keçirtdilər.

Ola uzunboy Zürafə, ola belə böyük meşə, bir-birini elə möhkəm tuturdular ki, görən deyirdi zəmanə onları bir-biri üçün yaradıb. Tamaşaçısı iki göz də borc istəyirdi. Zürafə başa keçəndən sonra yumruq boyda olan başı odur ha, yeddi qat göydə bənd almışdı.

Elə o gün özü boyda, özü başda bir sürü qohum-qardaşı Zürafəni həlqə-mərəkə etdi. «Başına dönüm, bəs, mən? Bəs, mən qaldım, axı?!» – deyən bir deyildi, iki deyildi. Zürafə onların hərəsini bir yağlı yerə dürtdü. Özünə Sağbaş, Solbaş seçdi. (Yazıq naşı idi, görməmişdi. Əlinə keçən atı bilmirdi, hayandan minsin. Odur ki, minməmiş səyirtmişdi).

Böyük meşəni deyinti başına aldı. «Bu olmadı ki! – dedilər. – Gəldiyi bir gün, bir günorta deyil, yeddi arxa dönənini gətirib çıxartdı başımıza. Elə bil Hüma quşu bir onun yox, bütün qohum-qardaşının başına qonub».

Zürafə qorxuya düşdü. Tez Hüma quşuna minnət elədi, «Mən ölüm» vurdu, bəs, vəzifəyə qoyduqlarının başına qonsun, bu ağzıgöyçəklərin ağzı bağlansın. Amma quş heç onu saya salmadı. Zürafə usta tərpəndi, cəld Sağbaşın başını qatranladı, Hüma quşunu zorla oturtdu ora. Quş çırpınırdı, dayanmırdı. Zürafə hirsləndi, bütün haqqı-sayı unudub ondan bir dəstə lələk çəkdi. Quşdan adına yaraşmayan bir cükkültü çıxdı və susdu. Ah çəkib

düşündü: «Öz cəzamdır çəkirəm! Dinmə, görüm, dalı necə olur!»

Sağbaş – Hüma başında böyük meşəni dolandı. Hamı sakitləşdi.

Solbaş da beləcə gəzdi. Bundan sonra Zürafə hansı yerə nəyi məsləhət bilirdisə, həmin böyük meşə övladı başını bəri başdan qatranlayıb gəlirdi.

Hüma quşu gördü, yox, bu gedişlə günün axırına meşədə qatranbaş əlindən tərpənmək olmaz. Fürsət gözləyirdi ki, əkilsin. Amma Zürafə onu bir dəqiqə də başından yerə qoymurdu. Ağnamaq istəyəndə də tutub onu qatırdı bir koğuşa, koğuşun ağzına da bir yekə daş basırdı. Elə ki, işini qurtarırdı, başını qatranlayıb quşu qovzayırdı təpəsinə. Olmuşdu Hüma quşu ilə canbir qəlbdə. Hardansa Zürafə bilmişdi ki, Hüma quşu əldən getdimi, onun başı, çaylaq daşı, heç fərqi yoxdur. Başlar başı yediyindən onu yedirirdi, içdiyindən onu içirirdi, amma quş göz-görəsi geri gedirdi. Günün axırına bu adda, bu sanda quş lümək fərədən seçilmirdi. Daha elə olar da. Hər etiraz Hüma quşuna bir dəstə lələk bahasına başa gəlirdi. İş bu minvalla getsəydi Zürafə bədbəxt quşda nişanə üçün bircə lələk qoymayacaqdı. Amma Hüma hələ dözürdü.

Solbaşla Sağbaşın sözü elə əvvəldən çəp gəlirdi. Biri deyirdi:

– Birinci baş mənəm!

O biri deyirdi:

– Yox, mənəm!

İş çıxırdı qapazlaşmağa. O vururdu, bu vururdu. Zürafənin kefi kök olanda baxıb ləzzət alırdı. Dilxor vaxtında qapazın yekəsini onların başına özü salırdı. Beləcə günü başa vurdu.

Başa keçməyinin ikinci günü idi. Zürafə eyvana çıxmışdı. Gözünü dolandırıb hər yana baxdı. Gördü, meşə yumsa – yumruğunda, açsa – ovcundadır. Hara baxdı var-dövlət gördü. Ayı potaları armudla «beşdaş» oynayırdılar. Dələlər qoz-qoz, fındıq-fındıq oynayırdılar. Zürafənin könlü tel-tel oldu. «Bu sərvəti birə beş artırmasam, – deyə fikirləşdi, – bu boy mənə haram olsun!» Başını bir o yana, bir bu yana çevirdi. Kəhildədi. Sağbaşla Solbaş, əlüstü, hazır oldular. Zürafə arzusunu bildirdi. Soruşdu:

– Nədən başlayım? Tez, mənə tədbir! – dedi.

Onun çöpqoyanları baş-başa verib sidq ilə getdilər fikrə. Birinin gözü yerdə idi, birininki göydə. Biri yerlə əlləşirdi, biri göylə. Haçandan-haçana Sağbaş Solbaşa, Solbaş Sağbaşa baxdı. Gördülər fikir min bir olsa da, yol birdir. Onların məsləhəti qısa oldu:

– Bizim böyük meşədə böyük təmizlik lazımdır! – dedilər.

Zürafə təəccübləndi:

– Gör ey! – dedi. – Necə də bu öz ağlıma gəlməyib?!

Cəld Hüma quşundan bir lələk çəkdi. Əlüstü fərman yazdı ki, bəs, cümə günü, yəni o gün, hamam günü elan olunsun.

Onun çöpqoyanları bir başına, bir dizinə vurdular, bəs, biz belə deməmişdik. «Söz yox, – dedilər. – Bu təmizlik də yaxşı şeydir, amma biz bir ayrı təmizlikdən danışırıq».

Zürafə bir boy da dikəlib gözünü döydü.

– Eləsə, hansı təmizlikdən söhbət gedir? – Soruşdu.

Sağbaş baş işlədib barmaq bükdü:

– Birincisi, qartalı meşədən rədd elə, yerinə şənliyində can-didən çalışan qara qarğanı qoy. İkincisi, boz sərçəyə cükküldəməyi qadağan et, bu da olsun o günü bozluğunun əvəzi…

Solbaş da bir əlavə etdi, bir piltə qoydu. Zürafə gördü onların sözündən işıq gəlir, cəld qatranlı başını qaşıdı.

– Başa düşdüm! – dedi və əl-qolunu çırmaladı.

Bir halda Zürafə başa düşdü, dünyada düşməyən başmı qalar?

Huma quşu onu ağla gətirmək üçün dimdiyini işə saldı, qatranla başını aşsüzənə döndərdi, amma Zürafənin təpəsinə dəyən zərbələr elə bil palıd kötüyünə dəyirdi, heç təsir etmirdi. O, bildiyin edirdi, böyük meşədə əkməlini əkirdi, biçməlini biçirdi. Başlar başı elə başları dərbədər saldı ki, heç yüz başsız da bu işi görə bilməzdi. Başlar getdi, hər biri əsrlik palıd kötüyü boyda, başlar getdi, sənə baş deyirəm, daha qarğa yuvası yox, dalında aslan kölgələnirdi!

Günün axırına hara baxırdınsa qatranbaş görürdün. Bu Zürafənin çox xoşuna gəldi. Soruşdu:

– Daha dəbərdilməli bir şey qalmadı ki?

Onun çöpqoyanları neçə-neçə kol tərpətdilər, neçə-neçə ağac salbaladılar, axır ki, bir qatransız başa rast gəldilər. Bu baş kimin ola, kimin olmaya, Böyük meşə qoruqçusu Pələng lələnin ola! Zürafə heç fikirləşmədən dilləndi:

– Onu kiminlə əvəz edək? – Soruşdu və çeçədi.

Sonradan anladı ki, deyəsən, bir balaca səhv elədi, amma ağızdan çıxan söz quş kimi şeydir, geri qaytarmaq müşkül işdir. Kor gör, gor gördü, çərtmişdi daha, qan da çıxmışdı.

Sağbaş ilk dəfə baş işlətdi, dedi:

– Ey başlar başı! Onu saxlayaq. Pələng lələnin sayəsində başımız bədənimizin üstündə salamat durur…

Zürafə razı oldu:

– Yaxşı, – dedi. – Qatranlayın başını, yanıma gətirin!

Sözünü çatdırdılar, az qaldı Pələngin ağlı başından çıxsın. Xəbər göndərirdi ki, mənim başım pələng başıdır, zürafə başı deyil. Elə qatransız da hamı onu görür.

Pələng baş götürüb Böyük meşədən getdi, ilim-ilim itdi. Qonşu meşələrin qurd-quşu doluşdu Böyük meşəyə. Bu sifarişdən Zürafənin başından ağrı qopdu. Başladı fikirləşməyə. Anadan olandan bəri birinci dəfə idi ki, hiss edirdi çiyinlərinin üstündə nəsə var. Di gəl ki, bir ömür yaşamışdı, hələ də bilmirdi başı hayandadır. Nə qədər ağrı keçməmişdi ağlına dahiyanə bir fikir gəldi.

Carçı quşlar həmin gün meşənin hər tərəfinə uçdular, meşə sakinlərini Zürafənin şərtindən xəbərdar etdilər.

Zürafənin başa keçməyinin üçüncü günü idi. Səhər açıldı. Əlində alma tutan Zürafə və onun çöpqoyanları eyvana çıxdılar. Əvvəl sakitlik idi. Elə ki, Zürafə boy göstərdi, aşağıda bir hay-küy başladı ki, daha nə cür! Meşə sakinləri meydanda dəstə-dəstə, tək-tək hərə bacardığını nümayiş edirdi. Baş-başa qarışmışdı.

Tülkü quyruq üstə nəlbəki gəzdirirdi. Qara qarğa elə qarıldayırdı ki, adamın tükü biz-biz dururdu. Ağacdələn nağarasını unutduğundan əlinə düşən kötükləri məharətlə taqqıldadırdı. Şirin ağzı açılanda yekə başı çərtilmiş qarpızı andırırdı…

Zürafə isə əlindəki almanı atmağa hələ də layiqli baş axtarırdı. Sağbaşın ürəyi çürük idi. Gizlətsə də, ürəyində Hüma quşunun haçansa öz xahişi ilə onun başına qonacağını düşünürdü. Başlar başı mərtəbəsinə çoxdan yerikləyirdi. Xımır-xımır iş görürdü. Ətrafına özünə bab olanları yığırdı. Dedi:

– Ey başlar başı, almanı şirə atın!

Zürafə boylandı, gözünə şirin yekə başı dəydi, ürəyi qorxudan ağzına gəldi. Elə bil canına bir sürü dovşan doldurdular. «Yox, bunu yaxına qoymaq olmaz, bu boyda başın sahibi bir gün başımı yeyəcək» – Fikirləşdi.

Zürafə ustalaşmışdı, daha hər ağızla milçək tutmurdu. Odur ki, ürəyindəkini yox, dilindəkini dedi:

– Çöpə güləndir! – Etiraz etdi. – Başı da yekədir! Məlumdur ki, yekə başın da ağrısı yekə olur…

Solbaş Sağbaşa rəqibi kimi baxırdı. İmkanı olsa başını üzərdi. Elə ki, gördü, onun sözü Zürafənin yanında iki quruşluqdur, çiçəyi çırtdadı. Tülkünü göstərdi:

– O daha məsləhətdir! – dedi. – Başı da nəcibdir… Pələngin vəzifəsi elə onun boyuna biçilib…

Zürafənin ağzı əyildi:

– Tülkünün nəyini, axı?! – Soruşdu. – Quşbazın biridir. Odur ha, Hüma quşunu marıtlayıb. Yəqin pis-pis fikirləri var…

Elə ki, söz gəlib bu çilləyə mindi Sağbaş Solbaşla qaldılar məəttəl.

– Yaxşı, bəs, meşə qoruqçusu kim olsun?! – Soruşdular.

Zürafə bir ağacın altındakı deşiyi göstərdi:

– Məndən olsa, qoy, köstəbək olsun! – dedi. – Zalım balası yerin altını da bilir, üstünü də! Onun haqqı hələ də boynumdadır.

– Daha nəyi gözləyirik ki? – dedilər. – Qatranlayıb Hüma quşunu qovzayaq başına, qurtarsın getsin də!

Zürafə şad oldu:

– Yaxşı! – dedi. – Axır ki, köstəbəyin xəcalətindən çıxacağam. Məndən qabaqkı başlar başı onun qazdığı quyuya düşməsəydi indi kim bilir haralarda ot otlayırdım, baş külləyirdim. Daha yubanmayın, başını qatranlayın, yanıma gətirin!

Bu yerdə Hüma quşu daha dözə bilmədi, qəzəblə hayqırdı:

– Ay zalım, axı, sən haranla fikirləşirsən?!

Zürafənin başına elə bir dimdik çaldı ki, koğuş boyda deşik açıldı. Baş bomboş idi, demə, elə gərk üçün imiş zalımın başı.

Quş iki gün qabaq görülməli işi gördü. Lümək qanadlarını tərpətdi, havaya qalxdı.

Bircə anda ruzigar dəyişdi, yer titrədi, göy guruldadı, ildırım çaxdı, yağış yağdı. Sel-su dünyanı başına aldı. Bu yağış çox rəngləri apardı, çox başların qatranlarını yudu. Elə ki hava ayazıdı, böyük meşə bir az əvvəl başda duranlara baxır, gözünə inanmırdı. Onların çiyinləri üstündə baş əvəzində kiçik bir çıxıntı gözə dəyirdi.

Təəccüblü bu idi ki, köhnə başlar başı da başsız idi. Əvvəl bir ağaclıqdan gözə dəyən baş indi bir addımdan görünmürdü, çünki yox idi. Böyük meşə övladları fikirləşirdilər:

– Yaxşı, baş vardısa necə oldu?! Yox idisə, bu neçə günü Hüma quşu hara oturmuşdu?! Bu quş bica yerə oturmaz, oturduğu yer də həmişə başdır…

Böyük meşəlilər dərin fikirdə olsunlar, indi xəbər verək Hüma quşundan. Zürafənin başından qalxandan hələ də uçurdu. Bir dəfə səhv etdiyindən inadla layiqli baş axtarırdı ki, qonsun. Bilirdi ki, gec-tez axtardığını tapacaq!

Bu ağlıma batmasa da, nağıllar da elə ağıla batmayan olur.

## AĞQULAQ XOTUĞ SƏNƏTİNİ DƏYİŞİR

Qaraqulaq Eşşək Ağqulaq Xotuğu doğanda Tırkədi kəndinə yaz tezdən gəlmişdi. Həmin il ot-ələf dizdən idi, qanqallar boy verirdi, eşşəklərə gəl-gəl deyirdi. Günorta idi, qəflətən anqırtı kəndi başına aldı. Qaraqulaq Eşşəyin dırnaqları xırman yerini eşim-eşim eşirdi, toz duman kimi ətrafı bürümüşdü. Görən deyərdi ki, bu əzab-əziyyətin bəhrəsi əyarı doqquz yüz doxsan doqquz olan qızıl külçəsidir. Qaraqulaq Eşşəyin necə fikirləşdiyini bilmirəm, amma ürəkdən anqırırdı da, gücənirdi də. Xoşbəxtlikdənmi, ya bədbəxtlikdənmi, Qaraqulaq Eşşək qulağının bir tayı ağ, gözünün bir tayı çəp, yekəbaş bir xotuq doğdu. Haraya gəlmiş kəndin bir neçə başbilən eşşəyi də elə onun yekə başına baxıb, bu xotuğun gələcəyini parlaq dedi.

Ağqulaq Xotuğ yerə ayaq dirədiyi günü səhəri yekə başını dik tutub, anasının dalınca vaz ata-ata qaçırdı. O, aynan, günnən deyil, saatnan böyüyürdü. Üç aylığında elə dingildəyirdi ki, deyirdin, yemi cim kişmişdəndir, elə vazdayırdı ki, deyirdin, bu onun dünyaya birinci gəlişi deyil, ikinci gəlişidir. Dünyanın cikini bikindən ayırırdı. Elə bu çoxbilmişliyindəndi ki, sahibi onu altı aylığından yük altına saldı.

Qaraqulaq Eşşəyin ürəyi bir tikə oldu, amma üzüyola bir nəsildən olduğuna görə dinib-eləmədi.

Ağqulaq Xotuğunsa qanmaz vaxtı idi, yüklənmək ona ləzzət verirdi. Ot deyirdin, ota gedirdi, odun deyir-

din, oduna gedirdi. Yorğa gedirdi, sındıra-sındıra gedirdi. Toyda da işləyirdi, yasda da. Sahibi axır vaxtlar lap insafsızlıq edirdi, xotuğu yaxşıca yükləyəndən sonra özü də qalxıb otururdu yükün üstünə. Onda ki, Ağqulaq Xotuğun ayaqları səkkiz cızırdı, beli yay kimi əyilirdi, dünya-aləm başına dolanırdı, sahibindən inciyirdi.

Bir yaşında Ağqulaq Xotuğ sənətində püxtələşdi, hətta dəyirman yolunu da əzbər bilirdi. Bu hər eşşəyin işi deyildi. Dərz-dərz ot-ələf daşımışdı, xırman-xırman arpa-saman daşımışdı. Beli yağır olmuşdu. Arpa-buğda daşıyıb, qabağına saman atılanda Ağqulaq Xotuğ sahibindən inciyirdi.

Daha eşşəklik eləməkdən yorulmuşdu. Yazıq Ağqulaq Xotuğ heç xotuğluq eləməmişdi, anadan elə bil eşşək doğulmuşdu. Bir tikəliyindən minilmişdi də, yüklənmişdi də. Ağqulaq Xotuğ bir yaşar xotuğ ağlı ilə dərk edirdi ki, eşşəklik bir sənət deyil, olan-qalan istedadını da məhv edəcək.

Bir gün çaydan keçirdi, üstündə oturmuş sahibi onun noxtasından çəkdi ki, əyilib su içsin, Ağqulaq Xotuğ bir müxtəsər iş elədi. Sahibi şallağı ilişdirdi onun yanına. Xotuğ bir müxtəsər işin bir belə günah olduğunu hardan biləydi. Ağrıdan vazdadı, büdrəyib dizi üstə gəldi, yükünü də suya verdi, sahibini də.

İslanmış sahibi sahildə onun üçün divan qurdu, Ağqulaq Xotuğun beli şallaqdan zol-zol oldu. O, hər vuranda da deyirdi:

– Eşşək ki eşşək! Eşşək ki eşşək!

Ağqulaq Xotuğ aldığı şallaqlardan daha çox, «eşşək» sözündən incidi. Sahibi yoruldu, mindi, onun yumşaq yerini bizlədi. Ömründə birinci dəfə bizlənən Ağqulaq Xotuğ götürüldü.

Sahib də arabir qışqırırdı:

– Çoşşa, çoşşa, çər dəymiş!

Hər «çoşşa» kəlməsi ox olub batırdı Ağqulaq Xotuğun ürəyinə. Axşam dərdini anasına danışdı:

– Eşidirsən məni…? – Səsləndi.

Tövlə qaranlıq idi. Qapının arasından arabir ayın ziyası düşməsəydi göz-gözü görməzdi.

– Bala, eşidirəm! – Qaraqulaq Eşşək hay verdi.

Ağqulaq Xotuğ dedi:

– Mən daha eşşəklik eləmək istəmirəm… Bəsdir daha! Dünyanın işini görürəm, yenə qədir-qiymətim yoxdur…

Qaraqulaq Eşşək əsnədi:

– Sənətimiz budur da, bala, – dedi.

Ağqulaq Xotuq hirsləndi:

– Allah kəssin belə sənəti! – dedi. – Bir tikəliyimdən yüklənirəm. Bəlkə mən beli yüklənmiş doğulmuşam?!

Qaraqulaq Eşşəyin dişləri qaranlıqda ağardı:

– Yox, bala! – dedi. – Amma səni doğanda özüm yük altında idim.

Xotuğ samanı burunladı, eşdi, damağına dadlı bir şey keçmədi, daha da hirsləndi:

– Yox, çıxıb gedəcəyəm! – dedi. – Sahibimiz elə bircə şey bilir: yükləsin, sonra da qalxıb yükün üstündə otursun, «Çoşşa» desin. Elə bil eşşəyəm onunçün…

Qaraqulaq Eşşək xeyli güldü:

– Toyun olsun, bala! – dedi. – Eşşək deyilsən, bəs, nəsən? Eşşəyin buynuzu olur? Düzdür, hələ xotuğsan, amma eşşək olmağına nə qalıb ki?!

Ağqulaq Xotuğ üsyan elədi:

– Elə şey yoxdur, – dedi. – Bəlkə mən böyüyəndən sonra heç eşşək olmayacağam… Kim deyir ki, bütün xotuğlar yekəlib eşşək olur?!

Qaraqulaq Eşşək qəşş elədi:

– Ai-ai-ai! Bala, – dedi, – başın-zadın xarab olmayıb ki?! Xotuğ böyüyüb eşşək olar da!

– Bəs, niyə bizim ağıldan kəm sahibimiz adam olur, mən yox?! Ora bax, həftədə-ayda bir yol mindiyi atına arpa yedirir, bizə saman… Sabah gücdən düşsəm, yıxılsam, belimdəki yükü özü aparacaq? Eşşəyin yekəsi özüdür, mənə deyir «eşşək», mənə deyir «çoşşa». Çıxıb gedəcəyəm.

– Hara, axı?!

– Hara oldu! – Ağqulaq qızışdı. – Belə eşşəyə eşşəklik eləməkdənsə ölüm yaxşıdır… Sahibsiz yaşayacağam…

– Bala, bizim bu batmış sahibimiz sənə nə edib axı?!

Ağqulaq Xotuğ şabalıd kimi partladı:

– Daha neynəyəcək? – dedi. – Dədəmə söysəydi, inciməzdim… Mənə «çoşşa» deyəndə elə incidim… Eşitmişik «çoşşa» eşşəyə deyərlər…

Bu yerdə Qaraqulaq Eşşək incidi:

– Kəs səsini! – dedi. – Bəyəm eşşək pisdir?!

– Pisdir… – Xotuğ başını aşağı saldı. – Gedəcəyəm!

Qaraqulaq bir az həsdədi. Gördü beyni qan cavandır, bərkini tutsa, o da tərs damarına salacaq… Keçdi nəsihətə:

– A bala, eşşəkliyinə salma, – dedi. – Bu əl-ayaq ki, bizdə var, hara getsək eşşəyik varıq. Bizimki daha belə gətirib. Dünya qədimdən belədir, yarananın biri o birinin belində gəzməlidir… Bizim bütün nəslimiz bu qapıda minilib, yüklənib, indi çıxıb gedib başqa qapılarda minilsək, şirinmi olar?!

Ağqulaq Xotuğ incik-incik:

– Yox, axı! – dedi. – Minilməyə sözüm yoxdur… Sahibin «çoşşa» deməyi məni yandırır… Axı, niyə «çoşşa» deyir?!

Bütün gecəni Qaraqulaq Eşşək dedi, Ağqulaq Xotuğ qulaq asdı. Amma tərslikdə ikisi də bir-birinə dov gələrdi. Ağqulaq Xotuğ axşam eşitdiyini qara qulağından alıb ağ qulağından ötürdü. Sabahısı aranı xəlvət edib baş götürüb kənddən qaçdı. Özü ilə palanından başqa heç nə aparmadı.

Bunun üstündən bir xeyli keçdi. Bala dərdi Qaraqulaq Eşşəyi şam kimi əridirdi. Amma harayı hara çatacaqdı ki?! Dözürdü. Sahibi səfərə hazırlaşırdı, Məkkəyə gedəcəkdi. Qaraqulaq Eşşək də sevinirdi ki, ayağı o

müqəddəs torpağa dəyəcək, hacı olacaq… Kəndin baş eşşəyindən birinə çevriləcək. Qalırdı bircə bala dərdi…

Səfər ərəfəsində Tırkədi kəndinin dəyirmanı işləmirdi. Qaraqulaq yükləndi, sahibinin kiçik oğlu da yük üstündə yol aldı Çətonrü kəndinə… Yük ağır idi, amma belə səyahət Qaraqulağa ləzzət verirdi. Onun gözü dörd olmuşdu. Yaşıl-yaşıl meşələrə baxırdı, otlaqlara baxırdı, yerə baxırdı, göyə baxırdı… yox, lənət yalançıya, göyə baxa bilmirdi, düz boynunun kökündə sahibkar oğlu oturmuşdu, bir ucdan da yanını şallaqlayırdı. Sahibi tələsirdi:

– Çoşşa, çoşşa! – deyirdi.

Qaraqulaq Eşşək isə tələsmirdi, ağrıya dözürdü. Ürəyinə danmışdı ki, balası Ağqulaq Xotuğu görəcək. Dəyirmana çathaçatda qulağı arxadan səs aldı, gümrah bir anqırtı gəlirdi. Anqırtı eşşəklər arasında parol kimi bir şeydir. Dərhal cavab vermək lazımdı. Qaraqulaq Eşşək addımlarını bir az da yavaşıdıb qədim adətlə bir ağız anqırdı. Amma yükü ağırdı deyənə, səsi zəif çıxdı. Bu ara arxadan gələn həmcinsi özünü yetirdi və vurub onu keçdi. Elə ki Qaraqulaq onun yükünü gördü, öz yükünə şükür elədi. Demə, sahibi çox da nainsaf deyilmiş. Həmcinsi elə yüklənmişdi ki, bircə qulaqlarının ucları görünürdü. Noxtasından da bir kürən oğlan çəkirdi.

Qaraqulaq Eşşək dilləndi:

– Yükün yüngül!

– Səninlə belə!

– Ağırdımı?!

– Ağır da sözdür? – Çətonrülü eşşək dilləndi. – Lap zindandır… Səninkindən bir-iki dəfə ağır olar…

Qaraqulaq Eşşək dedi:

– Sahibin lap əzazildi ki!

Qonşu kəndli eşşək etiraz elədi:

– Bizim kənddə sahib yoxdur… Mən günəmuzd işləyirəm. Gündə biri üçün… İstəsəm işləmərəm… Dünən istirahət günüm idi.

Qaraqulaq Eşşək birdən qulaqlarını şəklədi:

– Həmkar, səsin tanış gəlir… Adın nədir?!

– Sənin də səsin mənə tanış gəlir…

– Mən bu kənddən deyiləm, Tırkədidənəm…

– Hə?! Mənim də əslim ordandır ki!

Qaraqulaq Eşşək sevindi:

– Yox, əşi?! Kimlərdənsən?!

Bu yerdə şallağın dəstəyindəki biz Qaraqulağın yanını od kimi dağladı. Başı söhbətə qarışdığından sahibi hirslənmişdi.

– Çoşşa, çoşşa, tərpən ha! – Qışqırdı.

Kürən oğlansa noxtasından çəkdiyi eşşəkdən xahiş edirdi:

– Dayı, başına dönüm, tərpən, gün günorta oldu!

«Çoşşa»dan Qaraqulaq Eşşək nə qədər qəmə batdısa, «dayı»dan Çətonrülü eşşək o qədər sevindi. Quş kimi səkib sahibli eşşəyi arxada buraxdı. Dəyirmana birinci

çatdı… Elə ki yükdən azad oldular, başladılar rahatca əhvallaşmağa…

Hərəsinin qabağına bir qom quru ot atılmışdı. Sahibsiz eşşək soruşdu:

– Tırkədi kəndində Qarqulaq Eşşəyi tanıyırsanmı?

Qaraqulaq Eşşək qulaqlarını qısdı:

– Sən məni hardan tanıyırsan? – Soruşdu. – O dediyin elə özüməm, axı!

Sahibsiz eşşək heyrətdən bir ağız anqırdı:

– Gör, illər bizi necə dəyişib ki, ana balanı tanımır!

Ana-bala bərk sevindi. Dəyirmanın həyətini anqırtı başına aldı. Qaraqulaq Eşşəyin sahibi və oğlan eşiyə çıxdılar.

– Çoşşa, çər dəymiş! – Qaraqulaq sahibindən şallaq payını aldı.

Cavan oğlan isə:

– «Dayı», meşədə deyilsən ki?! – dedi.

Eşşəyin biri qorxudan, o biri utandığından səsini kəsdi. Ağqulaq Xotuğ astadan dedi:

– Sənin günün elə əvvəlki kimidir… Elə həmin şallaqdır, bizdir. Elə həmin «çoşşa» hayqırtısı… Heç nə dəyişməyib…

Qaraqulaq Eşşək istehza ilə:

– Sənin günün guya dəyişib! – dedi. – Məndən artıq yüklənirsən, yediyin yediyimdən, yollandığın yer dəyirman! Ay səni, Ağqulaq! A zalım, eşşəklik eşşəklikdir də! Fərqi nədir?! Çünki eşşək elə eşşəkdir də!

Ağqulaq Xotuğ dodağını gəmirdi:

– Elə deyil! – dedi. – Bir var eşşəyə eşşəklik edəsən, bir də var öz kefin eşşəklik edəsən! İndi özüm öz sahibiməm! Qoy, bir başqa sənət sahibi olum, eşşəkliyin daşını atacağam!

Elə bu vaxt kürən oğlan dəyirmandan çıxdı:

– Dayı, başına dönüm, dünəndən burda bir tay unum da qalıb, aparарsanmı? – Soruşdu. – Muzdunu da artıqlaması ilə verəcəyəm.

Ağqulaq Xotuğ əlüstü:

– Əlbəttə, bacıoğlu! – dedi. – Ayıb deyilmi!

Bir azdan Ağqulaq Xotuğ yükləndi. Qaraqulaq Eşşəyin yük altında qarın vuran balasına yazığı gəldi:

– Can bala, – dedi. – Belin sərpəcək!

Bir yanıqlı səs çıxdı ondan ki, göydə quşlar da qanad saldı. Daha harayı hara çatırdı? Eşşəklərin taleyi belədir, dərddən də anqırırlar, sevincdən də. Ağqulaq Xotuğ yük altında hıqqıldadı:

– Öz dərdinə qal, – dedi. – Mənə heç olmazsa «dayı» deyirlər, sənsə elə əvvəlki kimi «çoşşa»san ki varsan!

Bunu deyib yol aldı Çətonrü kəndinə sarı.

Bu görüşdən sonra xeyli keçdi. Bala eşşək bala-bala eşşəkliyini edirdi. Bir gün Tırkədi kəndindən məktub aldı: Anası yazırdı: «Gözümün işığı, Ağqulaq! Mən hələ sağ-salamatam, yaradana çox şükür ki, hələ anqırıram, anqırtımdan ləzzət də alıram. Amma daha qocalmışam, bir baxanım yoxdur. Bu gün-sabah sahibimiz məni

meşəyə ötürəcək. Yük qaldıra bilməyən eşşək onun nəyinə lazımdır? Meşədə də ya qismət, neçə gün yaşayım! Canavar nə çox! Onda dədənin çırağı sönəcək. Gözümün işığı, qayıt gəl kəndimizə. Sənə bir şad xəbər də verim. Daha bizim kəndə də sahibkarlar eşşəklərinə «dayı» deyirlər. İndi özün bil, gözlərim yoldadır, qayıdıb gəlsən, bəlkə, sahibimiz də insafa gəldi, məni canavara yem eləmədi. Sənin də yaşın daha o yaş deyil. Qəriblikdə nə görmüsən, axı? Cavanlığını çəkdin, indi qayıt gəl kəndimizə də!

Qulağının o ağ tayından öpürəm.

Gözü yolda qalan Qaraqulaq Eşşək.

Tırkədi kəndi. Qanqal ili».

Ağqulaq Xotuğ məktubu oxuyandan sonra fikrə getdi. Haçandan-haçana diksindi. Məktuba bir də baxıb öz tarixi kəlamını dedi:

– Deyəsən, biz eşşəklər dünyaya eşşək gəlib eşşək də gedəcəyik, axı!

Bu şübhə idi. Deyirlər, dahiliyə doğru atılan addım da elə dünyanın gəldi-gedərliyinə şübhədən başlayır…

## BALA FİLİN NAĞILI

Qədimdən bəllidir ki, gözəllik başa bəladır. Yazıq sarı Bülbül yumurtadan təzə çıxmışdı. Hələ dimdiyinin sarısı üstündə idi ki, insafsız bir meymundandönmənin şərinə keçdi. Tutulub qəfəsə qatıldı.

Düzdür, burda sarı bülbülün hər nazını çəkirdilər, canını can içində bəsləyirdilər, təki o, hərdənbir, cəh-cəh vursun. Nə qədər ki, sarı Bülbül kiçik idi, qanmaz idi, yeyirdi də, içirdi də, cəh-cəh də vururdu. Elə ki ərsəyə çatdı, başladı darıxmağa. Yaşıl meşə üçün dimdiyinin ucu göynəyirdi.

Günlərin bir günü sarı Bülbül qanad tərpətdi, dimdik sındırdı, dırnaq tökdü, balış-balış lələk saldı, qəfəsdən qurtuldu. Gecəni gündüzə qatdı, dərə keçdi, min bir əziyyətlə özünü Yaşıl meşəyə yetirdi.

Meşəyə hay düşdü. Gözü iynə ucu boyda işıq görənin gözü dikildi ona. Bir günortaya hamı oldu sarı Bülbülün gözəlliyinin əsir-yesiri. Quş da, bayquş da, sürünən də, sürünməyən də döndü onun qolu bağlı quluna. Sarı Bülbül elə acqarına yüz min dəfnə yarpağı aldı ki, hər yarpaq da bir aşiqin fəryadı. Sarı Bülbül isti-isti bir-ikisinə cavab da yazdı. Sonra gördü, yox, heç oxumağa macal edə bilmir.

Susamışdı. Özünü axtar-soraq «Yeddi bulaq» çeşməsinə yetirdi. Bulağın yeddi gözündən birinə dimdik salladı. Qoy, sarı Bülbül su içməyində olsun.

İndi sizə nədən deyim, Bala Fildən. Ona deyilməyinə Bala Fil deyirdilər, amma bazburutda dədəsinə dov gələrdi. Elə zorba idi ki, dədəsi belə, axır vaxtlar, onun qulağını qorxa-qorxa dişləyirdi. Bəli, həmin bu bala Fil sarı Bülbülün sorağını alıb tanımaza-bilməzə dərdindən divanə olmuşdu. Çıxmışdı «Yeddi bulaq» başına məhəb-

bət atəşini su ilə söndürsün. Daha bu Allahın naşısı nə biləydi ki, bu od, o oddan deyil. Bir bulağın, iki bulağın suyu ilə sönəsi od deyil. Buna bir dərya lazımdır, amma qorxuram bu oddan dərya da odlana.

Sözüm onda yox, bala Fildən danışaq. O, bulaqlardan üçünü qurutdu, ürəyi soyumadı, dördüncü bulağa xortum salladı.

O yandan sarı Bülbül suya bir dimdik, iki dimdik, bayaq ha doydu. Daha elə olar da! Sarı Bülbül nə Fil deyildi, nə də məhəbbət təşnəsi deyildi. Elə ki doydu, başladı özünə sığal çəkməyə. Bulağın aynasındakı əksinə baxıb gördü gözəldi. Hər qanad gərəndə elə bulağa bir dəstə alov dolurdu.

Sonra sarı Bülbül ətrafa nəzər saldı. Elə bu vaxt bala Fili gördü. Və çox təəccüb etdi. İndiyə qədər belə canlıya rast gəlməmişdi. Qanad çaldı, bala Filin gah o yanına, gah bu yanına adladı. Ağlı bir şey kəsmədi. «Bunun başı harda, ayağı harda?! Baş bulağa sallanandısa, bəs, onda olan o quyruq nədir?!» – Fikirləşdi. Və uçub astaca bala Filin başına qondu:

– Ey kimdir, qaşınmayan yeri qaşıyan?

Sarı Bülbül səs gələn tərəfə əyildi. Bildi, baş elə budur ki, var. Dedi:

– Bu mənəm, sarı Bülbüldü.

Özgə aşiq olsaydı ürəyi getmişdi dabanına. Amma bala Filin əl-ayağı bir balaca əsdi, vəssalam:

– Can sarı Bülbül! – Sevincdən böyürdü. – Gəldiyin yollara gül düzüm, nə bildin yolunu gözləyirəm?

Sarı Bülbülün inanmağı gəlmədi:

– Hardan-hara?! – Soruşdu. – Biz heç tanış deyilik.

Bala Fil daha nə and-aman qalmadı ki, etməsin:

– Vallah, dərdindən bir günortaya elə ərimişəm ki, iynə deşiyindən keçərəm, – dedi. – Sənə çaxılandan bəri gözümə yuxu getmir.

O, necə fikirləşirdisə, elə də danışırdı. Bunu qanmırdı ki, məhəbbət haqqında gərək xırda-xırda doğrayasan. Daha tatı-patı edib ortaya qoymazlar. Odur ki, sarı bülbül təəccüblə onun sözünü kəsdi:

– Necə? Necə? – Soruşdu.

Fil təkrar etdi:

– Belə bir könüldən min könülə sənə çaxılmışam. Yolunda özümü oda vuraram, suya vuraram, – dedi. – İstəyirsən yeddi bulağın yeddisinin də suyunu içim, gözünü qurudum?

Bülbül heyrətləndi:

– Eh, nəyimə lazım?! – dedi.

Fil davam etdi:

– Neynək… – dedi. – İstəyirsən yaşıl meşənin ağaclarını köklü-köməcli çıxarım?

Bülbül bir heyrətli cəh-cəh də vurdu:

– Eh, nəyimə lazım?! – dedi.

Bala Fil qulağının ardını qaşıdı:

– Can Bülbülüm, bəs, sən nə istəyirsən?…

Söhbətin bu yerində sarı Bülbülün qarnı səsləndi. Qəfəsdə yediyinin üstündə idi. Yaşıl meşədə onun meyli çəkəcək bir şey yox idi. Qəfəsdə ona yağda qaynadılmış buğda verirdilər. Yadına düşdü, sarı Bülbülün ağzı sulandı. O, ah çəkdi: «Necə olsa qəfəs elə qəfəsdir», qarnı bir də səsləndi:

– Ay Fil! – Utana-utana dedi. – Axı mən acam.

Böyürtü meşəni başına aldı. Fil gülürdü:

– Can Bülbülüm! – dedi. – Könlündən nə keçir? Əmr elə. Maral əti istəyirsən?!

Bülbül utandı:

– Yox! – dedi.

– Dovşan əti, ayı əti?! – Fil davam etdi.

– Yox, yox, – dedi sarı Bülbül. – Mən ət yeyən quşlardan deyiləm.

Bala Fil özünü itirdi:

– Belə de! – Sonra soruşdu. – Yaxşı, bəs, dolanışığın nə illədir?!

– Mənim yeməyim səhərlər üç buğdadır. – Bülbül uçub onun qarşısında oturdu. – Şam zamanı beş, naharda on buğdadır.

Fil çaşıb qaldı:

– Can Bülbül! Hər şeyi başa düşdüm, bircə o buğdadan başqa! O nə olan şeydir? Hayanda olur?!

– Buğda ancaq insandadır. Hayandadır deyə bilmərəm. Gələndə yol-riz hayında deyildim.

Bala Fil ümidini itirmədi:

– Yaxşı, – dedi. – Sən yeri, get, gəz, mən də gedim də-dəmnən məsləhətləşim. Buğdasız gəlmərəm… Yolumu gözlə…

Sarı Bülbül uçdu getdi. Fil də bulaqdan aralandı.

«Fil üstündə Bülbül» sorağı yaşıl meşəyə yayıldı. İnanan da oldu, inanmayan da! Onu görən mübarəkbadlıq edirdi. Yaşıl meşə zurna-balabansız onları evləndirmişdi.

Bu xəbər gedib Fil nənəyə çatdı. Çuğulçu o ki var, çuğullamışdı. Odur ki, nənə bala fili uzaqdan görən kimi başladı:

– Eşit! – dedi. – Evimə sarı Bülbülün ayağı dəyməyəcək.

Bu sözdən bala Fil xeyli özünə gələ bilmədi:

– Axı niyə? – Soruşdu.

Fil nənə xortumunu bir qatladı:

– Əvvəlan, sarı Bülbül hiyləgərdir. Axı, alıb onunla nə edəcəksən?! – Soruşdu. – Baxmaqdan savayı.

Bala Fil utana-utana:

– Elə buna görə?! – Soruşdu.

– Hələ harasıdır, qulaq as! – Fil nənə davam etdi. – İkincisi, o sarıdır. Sarıdan da şər əskik deyil.

– Elə bu?!

– Üçüncüsü! – Fil nənə qışqıra-qışqıra bunu dedi. – Sarı Bülbülün üzü üzlər görüb, bir yol ərdə olub!

Bu sözdən bala Filin üzü döndü, utancaqlığı qırağa qoydu:

– Əvvələn, sarı Bülbül hiyləgər deyil, ağıllıdır. İkincisi, o sarı deyil, qızılıdır. Qaldı bir yol ərdə olması, məlumdur ki, əyarsız qızıl heç yerdə yoxdur. Vəssalam!

Bala Fil fil nənəni barmağı ağzında qoyub getdi fil dədənin yanına, hal-qəziyyəni ona danışdı.

Fil dədənin başı gora titrəyirdi, yaddaşı da cırıq cibə dönmüşdü. Asqırdı, öskürdü. Axır məlum oldu ki, buğda olsa-olsa meymundandönmədə olar. «Gedərsən, – Fil dədə dedi. – Mənim adımı ona verərsən, göz üstə səni qarşılayacaq. Çünki ona çox yaxşılığım keçib. Amma ona nəbadə «meymundandönmə», deyəsən. O, özünə «insan» deyir, sən də elə de!».

Bala Fil ayaq çırmadı, yola nərdivan qoydu. Az getdi, üz getdi, gecə getdi, gündüz getdi. Gəlib insan oylağına çatdı. Uzaqdan gördü ki, bir dəstə meymundandönmə yeri qazıq-qazıq edir, tər də ki, sel kimi axır onlardan. Onların başı üstündə də bir meymundandönmə dayanıb. Nəyisə başa salır, göstərir. Bala Fil gördü ki, göz qoyan boy-buxunda babasının dediyi insana oxşayır. Özünü qəfildən verdi qabağa. Onu görən meymundandönmələr qorxuya düşüb qaçışdılar. Amma bala Fil tez özünü nişan verdi, insan yaxınlaşdı:

– A fil, Allah sənə insaf versin, – dedi. – Bizdə ürək-göbək qoymadın! Xeyir ola?!

Bala Fil utana-utana məhəbbətindən danışdı. İstəyini dedi:

– Heç olmazsa, bir-iki günlük yeməyini ver, bu boyda yol gəlmişəm.

İnsan o vaxtlar məhəbbət-filan qanmırdı. Hələ nə Qeys «Məcnun» olmuşdu, nə Fərhadın külüngünün səsi gəlirdi, nə də Kərəm bir bekara düymənin əlində aciz qalmışdı. İnsan fikrə getdi: «Bəli də, pişiyimiz oğlan doğub. Bala Fil aşiq olub! Zalım balası, özü bu boydadır, görəsən sevdiyi nə boydadır! Təsəvvür edirəm, indi bunun sevgilisinin bir oturumluq yeməyi neçə kisə buğda olacaq?!»

– A fil! Düzdür, baban bir vaxtlar məni ölümdən qurtarıb. Onun haqqını heç vaxt unuda bilmərəm. Amma pis vaxtda gəlmisən. Buğdamız ancaq toxumluq qalıb. Onu da götürüb sənə versək, gələn il ac qalacağıq. Əlbəttə, səni əliboş qaytarmayacağam, amma çox verə bilmərəm. Əvvəllər tək idim, dünya vecimə deyildi, indi oğul-uşaq bir yandan, – deyə tarlada işləyənləri göstərdi, – bunlar da bir yandan.

Bala Fil maraqlandı:

– Doğrudan ha! Fil dədəm deyirdi ki, sən təksən. Amma indi görürəm yox, çoxsunuz.

– Eh, a Fil, – deyə insan nağıl etdi. – Xeyli müddət tək yaşadım. Sonra gördüm həyansız mümkün deyil. Bunları bir-bir böyüdüyüm meymun sürüsündən ayırıb gətirmişəm. Birini zorla, birini dillə, birini yemək adı ilə, qərəz, onları başıma toplayana qədər, min zülm çəkmişəm. Fikrim var, onları da insan edəm. Amma, lap

acığı, bu köpək uşağının bir gözü hələ də meşədədir. Üzümü çevirsəm, dərhal qaçacaqlar. Bir az çətinə düşən kimi diş qıcıdırlar üstümə. Deyirəm, əşi, ay belə-belə olmuşlar, biz hələ cənnətdə yaşamırıq, bizdə işləməyən dişləməz. Kimə deyirsən. Elə deyirlər ver yeyim, ört yatım, gözlə canım çıxmasın.

Bala Fil, bu cəfəngiyatdan ağlı bir şey kəsməsə də, qulaq asırdı. Birdən sarı Bülbül yadına düşdü, ürəyinin başı göynədi. Böyürdü:

– Tez elə, nə verirsən, ver, sevgilimi ac qoyub gəlmişəm.

İnsan çox pərt oldu:

– Oldu, Fil qardaş, – dedi və özünə bəraət qazanmaq üçün əlavə etdi. – Qardaş, inan, bu meymundandönmələrə bir gün yemək çatdırmasam, qaçıb gedərlər, qalaram yenə bu çölün ortasında tək-tənha. Sən necə rəva görürsən? O tarlanı suvaranı görürsənmi? Qazandan çıxan bir fərli tikəni ona yox, oğluma verdiyimə görə çıxıb gedirdi. Gücnən dilə tutdum. Bir tərəfdən də, gecələr meşədən köhnə dost-tanışları gəlir. Pıçhapıç-pıçhapıçla bunları başdan edirlər. Özləri ilə cır qoz-fındıq gətirirlər, bunlar da şirnikirlər ki, Böyük meşədə daha yel əsir, qoz tökülür.

Bala Filin hirsi bir balaca yatdı. İnsanın ürəyində isə qara qanlar axırdı. Öz əməlindən utandı: «Heç adıma yaraşarmı, qapıma gələni əliboş qaytarım. Böyük Meşənin bütün insan olmuşlarını dolandıran mən, indi nə

olub?! Əslinə qalsa, bütün heyvanların axır yolu mənim keçdiyim yoldur. Gec-tezi var. Kim bilir, bəlkə bu Fil də haçansa insan olacaq. Bunun sevgilisinin üç günlük yeməyini verib, yola salım, nə olar, olar!» – Fikirləşdi.

– A Fil, verməyinə sənə buğda verəcəyəm, amma bir şərtlə.

– Nədir şərtin? Di, tez elə! – Fil səbirsiz halda deyindi.

– Şərtim budur. Borcunu ətlə qaytarasan və gələcəkdə insan olmaq haqqında fikirləşəsən.

– Razıyam. – Fil böyürdü. – Ət məndən! İnsan olmağa isə baxarıq. Söz vermirəm. Qorxuram xortumum mane olsun.

İnsan cəld iki parça təmiz ağac qabığı götürüb üstünü cızdı və dedi:

– Bas barmağını bura!

Fil təəccübləndi:

– O nədir belə, ay insan?!

– Buna müqavilənamə deyərlər, kömək haqqında. Kim insan olmaq istəyir, onunla bağlayıram. Ancaq bundan sonra borc verirəm. İndən belə axırıncı tikəmi də istəsən müzayiqə etmərəm. Balalarımdan kəsərəm, səndən əsirgəmərəm.

Filin bəsaratını məhəbbət bağlamışdı. Naəlac qalıb:

– Yaxşı da! – dedi və pəncəsini basdı müqaviləyə, bir nüsxəsini götürdü. – Əslinə qalsa, mənə insan olmaq vacibdir. Arvadı saxlamaq üçün sənin kimi çalışmalıyam, ya yox.

İnsan razı halda:

– İndi de, görüm, sənin sevgilin bir oturuma nə qədər buğda yeyir?

Fil utana-utana:

– Səhər üç, günorta beş, axşam on buğda yeyir, – dedi.

İnsan mat qaldı:

– Nə danışırsan, Fil?! – dedi. – Sevdiyin bəyəm quş balasıdır?

Bala Fil fəxrlə cavab verdi:

– Mənim yarım sarı Bülbüldür!

İnsan şaqqanaq çəkdi:

– Bah! – Birdən yadına nəsə düşdü, heyrətlə. – Ayağında halqası yoxdur ki?

– Var! Elə də ona yaraşır ki!

İnsan lap uğundu:

– Onda biz qohum oluruq ki! – dedi. – Həmin sarı Bülbül mənim quşumdur, qaçıb gedib. Neynək, dost idik indi olduq lap bir evli, qohum.

İnsan tez bir kisə buğdanı xurcuntayı edib aşırdı Filin belinə:

– Apar, – dedi. – Bu da ona verdiyim cehiz olsun!

Fil dünyanın işlərinə məəttəl yol aldı geri. Gecə getdi, gündüz getdi, axır özünü Yaşıl meşəyə çatdırdı. Sarı Bülbülü soraq elədi.

Dedilər:

– Sarı Bülbül özünə bab birini tapıb qoşuldu ona, uçub getdilər.

Bala Fil çox başına döydü, amma harayı hara çatacaqdı ki?!

Burada nağıl qurtardı.

Xoş sonluq heç cür mümkün deyil, hətta, nağılda da Bala Fili sarı Bülbülə evləndirmək mümkün deyil.

## TƏKQULAQ XOTUĞZADIN HƏYATI

Ağqulağın sevinci Tırkədi kəndinə sığmırdı. Yeddi qızdan sonra oğlu olmuşdu. Heç ona istehza ilə "çoşşa" deyənlərin ilim-ilim itməsi, indi ona hörmətlə "dayı" deyilməsi Ağqulağı bu qədər sevindirməmişdi.

O, adqoydu keçirmədi. Dedi: "Fərli oğul adı özü qazanmalıdır". Boy-buxundan, yekə başından oğlu bir az ona çilət vururdu, bir az da..., bir az da..., amma öz aramızda qalsın, bir az da qonşuya çilət vururdu. İş indi onda deyil. Xotuğ şəkil kimi uzunqulaq idi. Palaz qulaqları lap düşmən gözü çıxarırdı. Gözləri də düz idi, daha Ağqulağın gözləri kimi çəp deyildi. Yaman da nadinc idi. Üç ayı tamam olmamış gedib it məhəlləsinə girmişdi. Dingildəyib vazdamağı itləri boğaza yığmışdı. Alabaş it əvvəl xoşluqla mırıldanmış, sonra acıqla, daha sonra hır-zır qanmayan yekə baş xotuğun üstünə atılıb, onun göz çıxaran qulaqlarından birini yerindən qoparmışdı. Nadinci qan aparmışdı. Hamı dedi, öləcək. Hətta məşhur Qulaqlı Loğman da: "Ümid yoxdur" – dedi.

Amma Ağqulağın son beşiyi ölmədi, üzü bərk çıxdı, sağaldı. Adı da o gündən qaldı Təkqulaq.

Ağqulağı övlad basmışdı. Günün on saatını işləyirdi, axşamlar keşik çəkirdi, səhərlər muzdla anqırıb kəndi oyadırdı. Amma yenə də borc-xərclə ayı başa vururdu. Cavan çağlarında könlündən müğənnilik keçirdi, müğənniliyin dalınca gedirdi, şairlik keçirdi, şairliyin dalınca gedirdi. Hətta bir-iki mahnının ilk və son ifaçısı, bir neçə şeirin sandıq müəllifi idi. Şeirləri indi də uzunqulaq folklor xəzinəsində möhkəm yer tuturdu... İstedadının parladığı bir vaxtda evləndi. Bununla başına kül oldu. Bütün həyatı araba çarxı kimi diyirlənməyə başladı. İndi, düzdür, sahibi yox idi. Sahiblər gedər-gəlməzə göndərilmişdi. Amma çörəyi yenə də daşdan çıxırdı. Hamı deməyinə ona "dayı" deyirdi, di gəl ki, puluna minnət yükləyəndən sonra yükün üstünə minir, minmək haqqını da, əlbəttə, vermirdilər. Bu da, oxşayır ki, köhnəliyin qalığı idi.

Bir gün Ağqulaq acgözlük elədi, bir kərəmə çox yük qaldırdı. Düşdü samanlığın bir küncünə. Yığdı balalarını başına. Tapşırmalısını tapşırdı, deməlisini dedi. Bu sözlərlə onları belə yola saldı: "Bəsdir, havayı yediniz, çıxın gedin, özünüzə bir gün ağlayın". Uzunqulaq da olsa, müxtəsər elədi, daha uzunçuluq eləmədi. Bircə sevimlisi Təkqulağı yanında saxladı. Dedi:

– Bala, bircə oğlumsan. Nəslimizin davamçısı sənsən. Mən noxtasız, azad eşşəyəm, amma elə bircə adım var.

Nənən bir vaxtlar deyirdi: “Eşşək elə eşşəkdir, hara getsə də belindən yük, boğazından çatı əskik olmaz. İstəyir ona “coşşa” desinlər, istəyir “dayı” desinlər, fərqi yoxdur”. Doğrudan da, çörəyimiz daşdan çıxır, oğul. Mən səhv elədim yazmağın daşını atdım. Davam etdirsəydim, indi mən də kəndin beş uzunqulağından biri idim. Atanla şairliyə başlayanlar indi gur-gur guruldayırlar. Biri Xot-Xotdur, o biri Coşşadır, daha sonra İşakovdur, saymaqla qurtarmaz. Elə Xot-Xotu götür. Üç şivədə kitabı çıxır. Di gəl ki, qafiyə qondarmağı, şeir yazmağı məndən öyrənib. Amma küçədə məni görəndə başını dik tutub keçir, sağlığıma quruca bir anqırtı da çəkməyə özünü əskiklik sayır. Nə var, nə var, mənim belimdə yük, tərləyə-tərləyə, bizlənə-bizlənə gedirəm, o isə dalı ipək çullu, ağzı demili gedir. İndi, oğul, sənə yazmaq, oxumaq, gaplama üsullarını öyrətmişəm. Daha əlindəki qələmi yerə qoyma. Şeiri boşla, nəsrə keç. Uğur olsun! Get, bizim uzunqulaq nəslimizi şöhrətləndir!

Təkqulaq gaplama sənətinə qədəm qoydu. Əvvəl-əvvəl özündən bir neçə hekayə, povest uydurdu, başladı qapı-qapı gəzməyə. O, qapı sənin, bu qapı mənim, qapılar rəngbərəng, üzlü-üzlü. Birində deyirdilər: “Çox uzun yazırsan, qısalt!” Təkqulaq qısaldırdı. O birində deyirdilər: “Tünd yazma, böyüklərin xoşuna gəlməz”. Dilində qənd əzirdi. Biri deyirdi: “Maşallah, talantlısan ha. Nəsrin şeirdi elə bil. Gəlsənə nəzmdə də bir özünü

sınayasan". Təkqulaq sınayırdı, amma nəzmi də nəsrinin çəkdiyini çəkirdi.

İki il öyrənməyə, axtarmağa sərf olundu. İki cüt-bir tək qotur yazı dərc etdirəndən sonra Təkqulaq dünyaya gəldiyi günə lənət dedi. "Qurban olum sənə, ay yaradan! – deyə Təkqulaq zarıdı. – Məni niyə uzunqulaq yaradırdın?! Sənə nə pisliyim keçib? Nolardı, it olaydım, pişik yaranaydım, siçan doğulaydım, təki uzunqulaq doğulmayaydım..." Axırıncı dəfə yanında olduğu baş uzunqulaqlardan biri lap kökündən vurmuşdu. Demişdi: "Bala, vallah, sən bizim uzunqulaq dilinin ahəngindən, ildırım gurultusundan, zınqırov səsindən, löhrəm yerişindən, uzun qulaqlarından, inadından, könül açan folklorumuzdan, "ai-ai" ilə başlayan dünya şöhrətli musiqimizdən, onun zilindən, bəmindən, xalqımızın yaxşı yaşamaq arzusundan, "çoşşa"dan "dayıya" qədər uzun, çətin, inadlı mübarizəsindən xəbərin yoxdur. Zəmanəyə bax ha! Əcəb cavanlar yetişir! Uzunqulaq gap sənətinə gör kimlər gəlir? Necə?! Bala, o Xot-Xotdur, o biri Çoşşadir, nə yazırlar dərc edirik. Əlacımız yoxdur. Sizə isə tələb başqadır!"

Təkqulaq daha dözə bilmirdi. İntihar fikri ilə baş götürdü, qaçdı. Tırkədi kəndinin o yanı meşəlik idi. "Gedib, canavara yem eyləyəcəyəm bu tək qulağımı!" – deyə fikirləşdi.

Yolu At məhəlləsinin yanından keçirdi. Uşaqlıq yoldaşı Alapaçaya rast gəldi. Onlar çoxdan dostluq edir-

dilər. O, buna At şivəsini, bu ona Uzunqulaq şivəsini öyrədirdi. İndi Alapaça ona Uzunqulaqca, Təkqulaq da cavabında Atca "xoş gördük" dedi. Sevinə-sevinə görüşdülər.

Söhbət Təkqulağın işlərindən düşdü. Alapaça naz-qəmzə ilə:

– Niyə səs-sorağın gəlmir? – deyə soruşdu. – Yaman darıxmışam sənin üçün, Təkqulaq.

– İşlərim pisdir, Alapaça! – deyə Təkqulaq ah çəkdi. – Bir gün özümü öldürsəm təəccüblənmə. Bu dünyanın əzab-əziyyətindən canımı qurtarmaq istəyirəm, Alapaça!

– Axı, niyə? – deyə Alapaçanın ona ürəyi yandı.

– Niyəsi çoxdur, Alapaça! – deyə Təkqulaq kədərləndi. – İstedadımı başda oturan bir dəstə eşşək məhv elədi. Nə ürəkləri var mənim halıma yana, nə də başları var mənim halımı qana. Noxta taxdım, aparıb başda duranların quyruğuna bağladım, yenə murad hasil olmadı ki olmadı.

Alapaça Qırat nəslindəndir deyənə uzunqulaqlara bir az yuxarıdan baxırdı. İndi də:

– Ay Təkqulaq, doğrudan da, sizin bu uzunqulaqlar niyə elədirlər, ey? – deyə soruşdu. – Nə bir-birinə kömək edirlər, nə əl tuturlar. İşləri elə didişməkdir ha!

– Daha, demə! – Təkqulaq təsdiq etdi. – Bir-birinə badalaq gəlməkdən yorulmurlar. Əgər birinin dörd ayağının dördü də palçığa batsa, o biri quyruğunu ələ verməz.

Əksinə, başından basar ki, palçığa düşənin qulaqları da zığa batsın...

– Elə onu deyirəm də! – deyə Alapaça dilləndi. – Sən, axı, əvvəllər yazırdın, pozurdun. Dalı nə oldu?!

Təkqulaq Xotuğun gözləri yaşardı:

– Məni intihara sürükləyən bu dərd deyilmi?! – dedi. – Hara gedirəm, yazdıqlarımı verirlər qoltuğuma!

Alapaça getdi fikrə. Birdən dilləndi:

– Hayıf ki, sən At şivəsindən yazmırsan. Atama deyərdim, o da bizim dərgilərdə sənin yazılarını dərc etdirərdi, – deyə gülümsədi. – Əşi, heç indi də gec deyil! Sən ki, şükür, atca bilirsən, otur, yazılarını çevir bizim şivəyə. Ora-burasını da mən düzəldərəm, aparıb verərəm atama. Dalısı ilə işin yoxdur. Bircə ilə məşhurlaşacaqsan. Onda Uzunqulaq mətbuatı sənə yalvaracaq.

Təkqulaq başını itirmişdi. Alapaçanın təklifini əvvəl anlamadı. Qəmli-qəmli dilləndi:

– Yox, daha dözə bilmirəm. Bir dəfəlik bu noxtalı eşşəklərdən canımı qurtaracağam. İşə bax ha! Bir qərinədir noxtanı qırıb atıblar, yenə də o yandan biri muşquran kimi dördayaq qaçırlar pişvazına! Alapaça, yadda saxla, qəlbən noxtalılar noxtasız da noxtalıdırlar. Bəsdir, mən özümü öldürməkdən savayı bir yol görmürəm. Əlvida, Alapaça!

Alapaçanın ürəyi bir tikə oldu:

– Bəs, məni gözü yaşlı qoyub hara gedirsən?! – deyə əzilə-əzilə soruşdu. – Heç mənə yazığın gəlmir?!

Təkqulaq qulaqlarına, bağışlayın, o tək qulağına inanmadı, elə bildi səhv eşidir, küt-küt ürgəyə baxdı. Dili tutuldu. Birdən uzun-uzadı anqırdı, yəni dedi:

– Ola bilməz, Alapaça, ola bilməz!

– Olar, Təkqulaq, olar!

– İnanmıram, Alapaça, inanmıram! Sən hara, mən hara?!

– İnan, Təkqulaq! – deyə Alapaça şirin-şirin kişnədi. – Mən sənə çoxdan vurulmuşam.

– Sənin kimi gözəl mən eşşəyin nəyinə vurulubdu, Alapaça? – Təkqulaq inanmadı.

– Sənin hər şeyinə vurulmuşam.... Qara mükəddər gözlərini, o tək qulağını, qızılı başını, şirin ləfzini, Atca ləhcə ilə danışmağını... Yadındadır, uşaqlıqda "xala-xala" oynamağımız? Sən ata olurdun, mən ana? Üstümə hoppanmağını, oynaqlaşmağımızı unuda bilmirəm... Necə-necə ərdə oldum, yenə səni unuda bilmədim.

– Yəni, doğrudan, sən məni sevirsən? – deyə Təkqulaq həyəcanla soruşdu.

Alapaça vurğun-vurğun ona baxdı, dinmədi. Alov kimi yanan yalı, oynaqlayan dalı, şumal sağrısı, təpəsində ulduz kimi ağaran qaşqası həsrətdən titrəyirdi.

Təkqulaq bu baxışdan, bu duruşdan az qala dəli olsun.

– Oh, mən necə də xoşbəxtəm! – deyə səsləndi. – Gəl, sənin o qaşqandan öpüm, Alapaçam! Tək qulaqlı başımın tacı! Noxtam, yüyənim, qəlb sirdaşım.

Xoşbəxt anqırtı dünyanı başına aldı.

Alapaçanın dodaqları titrədi, başını qabağa əydi, gözünü yumdu. İynəşdilər, dinəşdilər, sürtüşdülər... Onlar ömürlərinin ən unudulmaz çağlarını yaşayırdılar.

Sonra Alapaça nazik səslə kişnədi:

– Gedək, gedək, mən səni atamla, anamla tanış edəcəyəm, – dedi. – Daha səndən bir dəqiqə də ayrı dura bilmərəm...

Təkqulaq onunla lap dünyanın o başına da gedərdi, nəinki qulağının dibində olan At məhəlləsinə. Razı oldu. Küçə ilə gedirdilər. Bütün At məhəlləsi tamaşaya çıxmışdı. Cavan ayğırlar Təkqulaqla onların nəslindən olan ürgəni yanaşı görəndə pis-pis kişnədilər. Madyan atlar isə həsədlə, yarımçıq-yarımçıq kişnədilər.

Alapaça Təkqulağı bağa ötürdü:

– Sən buralarla tanış ol, mən də evdəkiləri hazırlayım! Qorxuram anamın şadlıqdan ürəyi xarab olsun... – deyə istehza ilə gülümsədi...

Anası Alapaçanı bu sözlərlə eyvanda qarşıladı:

– Qızım, nə yaxşı edib uzunqulaq gətirmisən... Düşüb bazara gedirdim. Aparıb bazarlığı yükləyərəm dalına, gətirər evə... – dedi.

Alapaça qızardı. Utana-utana başa saldı. Ananın ürəyi az qala dayansın:

– Nə?! Elə bircə eşşək kürəkənimiz çatmırdı. Qanımızı eşşək qanına qatma, qızım.

Alapaça inadla qızıl yallı başını tərpətdi:

– Nə olar ki?! Eşşək də bizim kimi bir canlı deyilmi?! İndi onlar da noxtasız, sahibsiz yaşayırlar. İstəyəndə yük daşıyırlar, istəyəndə başqa sənətlə məşğul olurlar...

– Bala, səfehləmə, eşşək elə eşşəkdir! Yüklüsü də, yüksüzü də.

– Təkqulaq çox talantlı uzunqulaqdır, – deyə Alapaça anasını dilə tutdu. – Məşhur olacaq.

– Boşla, qızım! Belə məni başa sal görüm, onda nə görmüsən, axı?!

Alapaça acıqlandı:

– Onda nə gördüyümü yaxşı bilirsən, – dedi. – Özün söhbət edirdin ki, cavanlıqda, az qala, bir qara uzunqulağa ərə gedəcəkdin... Sən o vaxtı nə görmüşdün?!

Ananın daha sözü qalmadı, pərt oldu. Haçandan-haçana dilləndi:

– Bala, eşşəkdən kürəkən çıxmaz, – dedi. – Qalanlarını sən bilərsən, atan bilər.

Bu ara Alapaçanın atası Qıratzad gəlib çıxdı. Xəbəri eşidib acı-acı güldü, istehza ilə:

– Bəli, Alapaçanın toyu, deyəsən, tarixi toy olacaq, – dedi. – Qırat nəsli ilə boz eşşək nəsli qohum olacaq. Zəmanədir də! Gör, bizi kimlərə tay elədi! Nə qədər noxtalı idilər, biz hara deyirdik uzunqulaqlar da ora gedirdilər. İndi bizimlə bərabər olublar da! Neynəyək!

– Sən razısan? – deyə ana heyrətləndi.

– Razı oldum, ya olmadım, Alapaça qızıxıb, gedəcək! Yaxşı, qoy belə olsun, – deyə Qıratzad kənarda dayanıb

qulaq asan Alapaçaya baxdı. – Get, qızım, bəlkə bunun bir xeyri də oldu. Uzunqulaq məhəlləsi ilə qohumluq bizə vacibdir. Sabah şıllaq davası qızışanda bilərik köməyimiz var. Toy oldu, yas oldu bilərik, su daşıyanımız var! Uğur olsun! Çağır gəlsin Tayqulağı, görək minəndə əlimiz qulağına çatar, ya yox!

Alapaça getdikdən sonra Qıratzad uzun müddət sakitləşə bilmədi.

– Ha, ha, ah! Eşşəklərlə də qohum olduq! Ha, ha, ha! Deyirlər, atın at yeri var, eşşəyin eşşək! Bəs, hanı?! İndi ikimizin də yeri bir oldu ki! Yanasan, zəmanə! Axırda eşşəklər gəlib arpa yeyəcək, atlar samana həsrət qalacaqlar.

O gündən Təkqulaq Xotuğzad imzası ilə At mətbuatında tez-tez görünməyə başladı. Atlar bu imzaya əvvəl dəvə nalbəndə baxan kimi baxırdılar. Sonra maraq onları üstələdi. Oxudular, gördülər, yox, bunda nəsə var. Xotuğzad olanda nə olar, insafən, adlı-sanlı atlardan pis yazmır.

Xotuğzadın uzunqulaqların həyatından olan hekayələri, povestləri yüksək at dairələrində də maraq oyatdı. Təkqulağın yazılarından eşşək adət-ənənələri, onların ağrıları, arzuları yaxşı təsvir olunurdu. Məsələn, atlara indiyə qədər məlum deyildi ki, niyə inada düşmüş eşşək yerindən tərpənmədikdə, onun quyruğundan dartırlar. Dartan kimi də inad eşşək inadını yerə qoyur. “Eşşək gətirdi, eşşək yedi” məsələnin izahı isə atları va-

leh elədi. Uzunqulaq psixologiyasının dərin qatları hələ heç kim tərəfindən belə təndürüst işıqlandırılmamışdı...

At mətbuatı ilə əməkdaşlıq Təkqulağa pul, şöhrət, dizinə qüvvət gətirdi. Elə həmin il At şivəsi ilə tanışlığı olan Alabaş onun yazılarını İtcəyə çevirdi. Təkqulaq Tırkədi gapçıları arasında tanınmağa başladı. İtlərlə binədən düşmənçilikləri olan pişiklər onların dilini öyrənməyə məcbur idilər. Adlı-sanlı pişiklər tez-tez İt mətbuatına müraciət edirdilər. Müxtəsər tanışlıqdan sonra Təkqulağın yazıları Pişikcə çap olundu. Bu artıq Təkqulağın müvəffəqiyyəti idi. Deyəsən, Tırkədi gap sənəti daha bir klassikini əldə edirdi.

Təkqulağın gaplama sənətində irəliləyişini izləyən Ağqulaq çox sevinirdi. Onu heyrətləndirən doğma uzunqulaq mətbuatının eşşək inadı ilə susması idi. Bir gün Təkqulaq atasının yanına gəldi. Kefi kök halda bir-iki ağız anqırdı, yəni:

– Vaxtdır, elçiliyə getmək lazımdır! Evlənmək istəyirəm, – dedi.

Bu sözü eşidən Ağqulaq bərk sevindi. Əvvəl elə bilirdi ki, gapçılığa uyduğundan Təkqulaq dünyanın qalan nemətlərinə biganədir. Demə, yox!

– Toyunu görüm, a bala, – dedi. – Kimlərdəndir gəlinimiz?!

– Biz tərəflərdən deyil, o yandandır..., adı nədir?! – Təkqulaq düzünü deməyə utanırdı. Atasının müha-

fizəkarlığını bilirdi. Dilini sürüdü. – Əşi, gəlinimiz At məhəlləsindəndir...

Ağqulaq bir ara dinə bilmədi.

– Nə? – deyə təkrar soruşdu. – Belə yerdə deyirlər ki, sənin başına at təpib? Axmaqlama, oğul, at nəsli hara, biz hara?!

– Mən Alapaçaya vurulmuşam. Atalar deyib: "Ər kişini yaxşı saxlar yaxşı arvad, yaxşı at!" Mən bir şıllaqla iki hədəfi vururam. Həm ata sahib oluram, həm də arvada...

– Biz hara, onlar hara?! Biz yük daşımağa yaranmışıq, onlar minilməyə. Biz qanqal yeyirik, onlar arpa. O məhəllənin qızları da quyruq düyüyüb gəzməkdən başqa bir şey bilməzlər. Minilmişindən isə gəlin olmaz.

Təkqulaq ümidini bağlamışdı atasının sağlam dünya görüşünə. Çalışırdı inandırsın:

– Birini bilirsən, birini yox! Arada borc məsələsi var, axı! Alapaçanın atası məşhur Qıratzaddır. Tutmuşam onun quyruğundan ki, bəlkə məni bir ağ günə sürüyüb çıxartdı. İndi sənin sözün nədir, bütün bunlardan vaz keçim?! Nə var, nə var Alapaça minilmiş madyandır! Arvadı elə minmək üçün almırıqmı?!

Ağqulağın qanmaz oğluna acığı tutdu:

– Eşşək oğlu, qocalanda peşman olacaqsan! Atın doğduğundan sənə övlad çıxarmı?! Bala, mən istəmirəm nəslimizin kökü səninlə də kəsilsin, çünki bizim nəslin tarixi təriflədiyin Qıratzadın nəslindən də qədim-

dir. Mən o nəsli yaxşı tanıyıram. Sən nə qədər cavansan Alapaça şirəni çəkəcək, elə ki qocaldın, qoyub qaçacaq. Quyruğunu belinə düyüyüb düşəcək başqa ayğırların dalınca.

Təkqulaq axırıncı sözünü dedi:

– Dediklərin indi qulağıma girmir ey, girmir! Mən razı ola bilmərəm ki, ilk övladım dünyaya bic gəlsin...

Bu yerdə Ağqulağın nitqi kəsildi. Gördü, iş-işdən keçib. Bir-iki hörmətli uzunqulağı yanına alıb elçiliyə getdi.

Qıratzadın evini soruşdu. Nişan verdilər. Qıratzadın mülkü nəhəng saray idi. Həyətdə muzdla tutulmuş dəstə-dəstə at, eşşək, dəvə işləyirdi. Aparırdılar, bişirirdilər, düşürürdülər, süpürürdülər, yuyurdular...

Ağqulaqla gələn uzunqulaqlar bu cah-calalı görüb qorxudan hərə bir yana dağılışdı. Qaldı Ağqulaq tək. "Hər nə olar, olar!" – deyə fikirləşdi və qorxa-qorxa mülkə yaxınlaşdı...

Qıratzad eyvanda oturub bala-bala dəmlənir, arabir də demisini fısqırdırdı. Birdən aşağı baxdı. Quruyub qalmış Ağqulağı gördü, istehza ilə soruşdu:

– Ay uzunqulaq, nə gözünü bərəltmisən?! – dedi. – İş istəyirsənsə, gəl, həyətdə eşşək işi çoxdur...

Ağqulağın keçmiş qüruru baş qaldırdı:

– Ay müftəxor, deyirsən, baxmaq da olmaz?! Sənin kimilər gedər-gəlməz yolun yolçularıdır. Nə əcəb səni yaddan çıxarıblar?!

Qıratzad çıxdı özündən:

– Gör, noxtadan çıxandan sonra bu uzunqulaqlar necə də dil açıblar. Yaxşı, mən sənə göstərərəm.

– Nə dartırsan özünü? – deyə Ağqulaq bir az da dərinə getdi. – Minilə-minilə baş saxlayırsan da!

Arada eyvana çıxan Alapaça aşağıda dayanmış Ağqulağı tanıdı. Tez Qıratzadın qulağına pıçıldadı. Qıratzad özünü itirmədi:

– Yox, əşi?! – dedi. – Pah, atonnan! Eşşək ki eşşək! Əşi, bir tanışlıq ver də! Axı, biz quda olacağıq! Çıx yuxarı, daha ağzını əngəltmə orada.

Ağqulaq çar-naçar qalxdı eyvana. Ev sahibi bir də üzrxahlıq elədi:

– Quda, gərək bağışlayasan da! Mən nə bilim.

Tez süfrə açdılar. Ömründə qanqaldan başqa dadlı yemək tapmayan Ağqulaq bolluğa düşmüşdü. Həvəslə özünü yeməyə təpdi. Düm deyənə qədər də vurdu... Ürəyində fikirləşdi: "Mərhəba, Təkqulaq, yaxşı yerə söykənmisən!"

Yemək-içməkdən sonra toydan söhbət düşdü. Qıratzad Təkqulağı təriflədi:

– Vallah, sənin oğlun uzunqulaq deyil, atdır, at! Bir şirin kişnəməyi, bir dördnala çapmağı, bir ədəblə su içməyi var ki, daha nə deyim! Arpa yeməyi elədir ki, baxan deyir, zalım ömrü boyu arpa ilə dolanıb! Üzünü görməsən xasiyyətinə görə ona at deyərsən...

Ağqulağın incidiyini görüb sözünü çevirdi:

– Yəni uzunqulaq olanda nə olar, ey?! Uzunqulaq yük götürməkdə dəvəyə dov gəlir, – deyə Ağqulağın könlünü aldı.

Qıratzad cehiz verəcəyi evdən söz saldı. Razılaşdılar ki, gəlin otağında bir saz gəlin çalası qazısınlar, içini də yaxşı-yaxşı bəzəsinlər, sonra da dambadurum salsınlar...

Ondan belə Təkqulaq Xotuğzadın işi yüznən gedirdi. Daha parta-part dərc olunurdu. Əsərləri Pişik şivəsindən tezliklə Siçancaya çevrildi. Hardansa onun yazılarından Dəvə mətbuatı xəbər tutdu. Çox keçmədi onu öz doğma dilində qoyunlar da, qarğa-quzğun da oxudu. Daha nə başınızı ağrıdım, bir azdan Xotuğzadın Tırkədinin yetmiş yeddi şivəsində kitabları, yazıları dərc olunurdu.

Təkqulaq bir saz toy elədi. Gəlin çalasında öz muradına çatdı. Tırkədinin yetmiş yeddi şivəsində təbrik məktubu aldı.

Bircə eşşək mətbuatı öz məşhur eşşək inadı ilə susurdu. İndiyə qədər onun bircə barmaq yazısını da dərc eləməmişdi. Təkqulaq da qəzəbləndi, uzunqulaq şivəsində olan bütün yazılarını cırıb atdı. Başladı ancaq Atca yazmağa. Eşşəkvarı mövzulardan get-gedə uzaqlaşdı, indi atvarı mövzular onun yaradıcılığının əsasını təşkil edirdi. Oxucu deyirdi: "Yazan atdır ki var!" Xotuğzad daha sonra İt, Pişik, ... və bu kimi canlılardan povest, roman yazdı. Yenə də oxuyanlar deyirdi: "Yazan elə bil İtdir" və ya "Yazan elə bil Pişikdir". Gapçılıq sənətində

o qədər ustalaşmışdı ki, yetmiş yeddi şivədə onu "Doğma gapçımız Xotuğzad!" adlandırırdılar...

Ömrünün axırına kimi yazdı, yaratdı. Adı gur-gur guruldadı. Dünyadan isə ürəyi nisgilli köçdü. Ağqulağın dediyi düz çıxdı. Ondan sonra işığını yandıran qalmadı. Bircə övladı Boz Qatırı nə eşşəklər yaxına buraxırdı, nə də atlar.

Bu dərd Xotuğzada rahatlıq vermədi. Bu münasibətlə bir tarixi roman yazmaq istəyirdi ki, Əzrayıl macal vermədi...

Ölümündən beş-on il keçəndən sonra At, İt, Pişik, Qoyun, bir sözlə saymaqla qurtarmaz, yetmiş yeddi şivəli gapçılıq ustaları arasında mübahisə qızışdı. Sual bir idi: "Məşhur Xotuğzad hansı zümrəyə mənsubdur?!"

Atlar özünə tərəf, İtlər özünə tərəf, Pişiklər özünə tərəf çəkirdi. Elə bil yal davası düşmüşdü. Bir qışqırtı, bir bağırtı vardı ki, gəl, görəsən!

Yalnız uzunqulaqlar susurdu. Arabir lap astadan mızıldanırdılar: "Xotuğzaddırsa, demək bizimkidir. Bircə bizdə eşşəyin balasına xotuğ deyirlər".

## İKİTİRƏLİK

Qəsəbə məscidinə, köhnə axund yerində sağ-salamat qala-qala, təzə bir axundun göndərilməsi dindarlar arasına pərxaşlıq salmışdı, camaat bilmirdi ki, nə fikir-

ləşsin. Əhvalat gülməli də olsa, heç kimin gülməyi gəlmirdi. İndi axundlardan gündə biri namaz vaxtı pişnamazlıq edirdi.

Tezliklə məscid əhli üç qütbə parçalandı. Köhnə axundun müridləri daha çox olsa da, dindarların bəzisi təzə axundun tərəfinə keçmişdi. Əmələnin bir qismi isə ortada qalmışdı, hələ ki, tərəddüd eləyirdi, kimin tərəfini tutacağını bilmirdi. Diqqət çəkən bu idi ki, təzə axundun pişnamazlığında məsciddə seyrəklik olurdu.

Araya düşən ikitirəlik dini icmanın üzvlərini də dilemma qarşısında qoymuşdu. Uzun müddət belə gedə bilməzdi, bir qərar verilməli idi. İş onda idi ki, icmanın beş üzvündən üçü köhnə axundun sadiq tərəfdarı olsa da, o biri ikisi isə tərəddüd edirdi.

Bu gün sözləşmişdilər ki, namazdan sonra yaxındakı çayxanaya yığışıb məsələyə nöqtə qoysunlar. Hamı vaxtında gəlsə də, hacı Gülü gecikirdi. İcma üzvləri küsülü kimi oturmuşdular, heç kimin cınqırı çıxmırdı.

Hacı Ruzgar söhbətə nərdivan qoymağa çalışdı:

– Görəsən məscidə ikinci axundun göndərilməsinə nə ehtiyac vardı?

Hacı Vaqif çoxbilmişliklə ona baxdı:

– Yəqin kabab iyi yuxarılara da çatıb! – Dedi və susdu.

Araya yenə sakitlik düşdü. Sükutdan darıxan hacı Ruzgar bir daha cəhd elədi:

– Hacı Vaqif, bizim axundun təlimatı nə oldu? – Soruşdu. – Bayaq yanına girmişdin…

Hacı Vaqif köhnə axundun sağ əli idi. Əvvəl də tez-tez baş-başa verirdilər, amma indi lap günün yarısını bir yerdə keçirirdilər, tədbir tökürdülər. O, qayğılı dilləndi:

– Bizim axundu tanımırsız? Daş atır, başını tutur, – dedi, cavab gözləmədən əlavə elədi. – Deyir, bu işdə məndən icma üzvlərinə məsləhətçi çıxmaz. Deyir, hamı iman əhlidi, özləri bilərlər, qərar onlarındı.

Məşədi Naxış dəqiqləşdirməyə çalışdı:

– Yəni təzə axundun torbasını tikə bilərik? – Soruşdu. – Hələ ki arxasında beş-on nəfər namaz qılır, onları öz tərəfimizə çəkməyə nə var ki! Sonra gec olacaq ha!

Hacı Vaqif narahat oturmuş kərbəlayı Əliyə baxdı:

– Hamının razılığı olsa, bu işə əncam çəkməyə nə var ki, – dedi.

Kərbəlayı hacı Vaqifə cavab vermədi, burnunu çəkməklə kifayətləndi. Artıq ikinci çaydan boşalmışdı, çayçı üçüncü çaydanı ortaya gətirəndə hacı Vaqif özünü saxlaya bilmədi, deyindi:

– Şair gecikməyi özünə şakər edib də! Vaxtında gəlməklə heç arası yoxdu...

Söz hacı Vaqifin ağzından təzə çıxmışdı ki, hacı Gülü daz başının tərini el dəsmalı ilə qurulaya-qurulaya, şlyapası qoltuğunda içəri təpildi. Əhvallaşaraq özünə çay süzdü, isti-isti bir qurtum alacaqdı ki, hacı Vaqif irad tutdu:

– Rəhmətliyin oğlu, çay qaçmır ki! – deyə onu tələsdirdi. – Mətləbə gəl.

Hacı Gülü fincanı əlindən qoymalı oldu:

– Necə demişdiz, elə də eləmişəm. Məscidə gələnlərin əksəriyyətinin ağzını aramışam. Haqq tərəfi, çoxu bizim axundu dəstəkləyir. Amma təzə axundu da tərifləyənlər var. Xüsusən, əzadarlığını bəyənirlər.

Hacı Vaqif balacaboy kişi idi, üzündən hiyləgərlik yağırdı. Yetmişdən çox yaşı vardı. Məscidə məxsus böyük bir mağazanın müdiri idi. Köhnə axundun sayəsində əli pulnan oynayırdı. Mağazada dini suvenirlər, canamazlar, təsbehlər, üzüklər, ətirlər, dini kitablar, bir sözlə, cürbəcür əntiq mallar satılırdı. O, hacı Gülünün gah nala, gah mıxa vurmağını bəyənmədi. Tikanlı soruşdu:

– Deyəsən, təzə axunda beyət eləmisən?

Sualın konkretliyindən çaşan hacı Gülü:

– Mən eşitdiyimi sizə çatdırdım..., – dedi və çayı yenidən qabağına çəkdi.

Hacı Ruzgar da köhnə axundun xeyir-duası ilə çörək yiyəsi olmuşdu. İri başı həmişə hərəkətdə idi. Nisbətən cavan olsa da, həmişə bəlağətlə danışırdı. Neçə illər idi məscidin nəzdindəki mərasim evlərinə nəzarət edirdi. Təchizatına, biş-düşünə, mətbəxinə baxırdı. Hacı Vaqifin köməyinə gəldi:

– Gülü qardaşımızın bu yaşda qibləsini dəyişməyi heç xoşagələn iş deyil, – deyə araya söz atdı.

Hacı Gülü çayı içə bilmədi, fincanı yenidən özündən kənara itələdi, kərbəlayı Əliyə baxdı, amma ondan hərəkət görmədikdə birdən qızışdı:

– Belə çıxır ki, ağa qara desəm yaxşıdı? – deyə çımxırdı. – Ay-hay! Mənim kimsəyə borcum yoxdu, azad şairəm, heç vaxt haqqı nahaqqın ayağına vermərəm. İcazə versəz, o gün yazdığım iki bənd şeiri sizə oxuyaram...

Bu yerdə hacı Vaqif hacı Gülünün ağrıyan yağırını basdı:

– Əşi, qoy görüm! – Dedi. – Sənin dalı-qabağı bilinməyən şeirlərin kimə lazımdı, axı!

Köhnə ədəbiyyat müəllimi olan məşədi Naxış məscidin mürdəşirxanasına baxırdı. Xırıltılı səslə təsdiqlədi:

– Eyzən elədi, – dedi. – Hacı Gülü, sən hələ də ədəbiyyat nəzəriyyəsini oxumamısan, amma şeir yazırsan, şairlik eşqinə düşmüsən...

Hacı Gülü aciz halda balacaboy hacı Vaqifə üstdən aşağı baxdı, uşaq kimi burnunu çəkdi:

– Bayy, hacıcan! – dedi. – Ad gününə yazdığım şeiri tərifləyib göylərə qaldıran sən deyildin? Sən deyildin deyən, hacı Gülünün şeirlərində Səməd Vurğunun nəfəsi var? Nə tez fikrini dəyişdin?

Hacı Vaqif istehza ilə:

– Süfrəmin arxasında oturan adamın könlünə dəyə bilməzdim ki! Qonaqpərvər adamam, – dedi, sonra qızarıb-bozaran hacı Gülüyə baxmadan o biri yoldaşlarına müraciət elədi. – Heç bilmirəm bizim axund hacı Gülünün nəyinə vurulub da! Deyir, onun kitabını böyük tirajla buraxdıracağam. Deyir, danışmışam, bir imkanlı dindar qardaşımız sponsorluq eləməyə hazırdı...

Hacı Gülü duruxdu, solğun üzü güldü, incikliyi dərhal unutdu:

– Doğru sözündü, hacı Vaqif? Ay sənin dilini yeyim! – Dedi, cavab gözləmədən bülbül kimi ötdü. – Sizə deyim ki, bizim axunddan, vallah, yoxdu. Həqiqətən dəyərli alimdi. Maşallah, yerin altını da bilir, üstünü də! Onun arxasında namaz qılmaq hər birimiz üçün böyük savablardandı...

Hacı Ruzgar məşədi Naxışla baxışıb irişdi:

– Şair ilhama gəlib! – Dedi.

– Doğrudan da, mayasız ilham olmur. Əslində, bizim axund şairi dəstəkləməkdə düz iş görür. – Məşədi Naxış təsdiqlədi. – Eyzən elədi.

Hacı Vaqif söhbəti məcrasından çıxmağa qoymadı, yenə nəsə demək istəyən hacı Gülüyə dedi:

– Şair, çayını iç! Sonra çinədanını boşaldarsan. – Dedi, sonra kərbəlayı Əliyə müraciət elədi. – Sənin axır sözün nə olacaq, kəbleyi?

Kərbəlayı Əlinin üzündəki dərin çopurlar hərəkətə gəldi, sıxıla-sıxıla:

– Bilirsən ki, indi təqaüddəyəm. Əlim aşağıdı, – dedi. – Başımı qatmaq üçün bir məşğuliyyətim olsaydı, heç pis olmazdı...

Hacı Vaqif boynunun ardını qaşıdı, bir az fikirdən sonra:

– Nəzir qutularına nəzarət sənə həvalə olunsa necə olar? – Soruşdu. – İndiyə qədər mən baxırdım, bundan

sonra sən baxarsan. Onsuz da işim çoxdu. Elə bizim axundun da məsləhəti belədi. Dedi, qoy, kərbəlayı Əli qardaşımız da ehtiyacın daşını atsın.

Kərbəlayi Əlinin tərəddüdü keçdi, astadan dedi:

– Mən həmişə bizim axundun yanındayam, – dedi. – Haqq tərəfi, məscidin ərsəyə gəlməyində bizim axundun böyük haqqı var, iyirmi ildi can qoyur. Onu heç kimin ayağına verə bilmərik...

Hacı Vaqif onun sözünü kəsdi:

– Madam yekdil qərara gəlmişik, onda hərəkətə keçmək vaxtı deyilmi? – Soruşdu.

Masa arxasında oturanlar həmfikirliklə gülümsədilər. Yer-yerdən deyildi ki, vaxtdır. Daha bir çaydan sifariş verdilər, söz ilahiyyat alimi Fazili Lənkəranidən düşdü. Bilirdilər ki, dünyanın işləri dünyada qalacaq, əsas axirəti qazanmaqdı.

## ZİBİL

Bəyalı müəllim evə tələssə də, söz verdiyi kimi, Şirnəli müəllimi məktəbin foyesində gözləməli oldu. İkisi də qəsəbənin qurtaracağında yaşayırdı. Eyni vaxtda torpaq sahəsi götürüb ev tikmişdilər. Əvvəllər işdən bir çıxır, söhbət eləyə-eləyə geri qayıdırdılar. Amma, axır vaxtlar qrafikləri uyğun gəlmirdi.

Günü-gündən genişlənən qəsəbənin bir mərtəbəli məktəbində tədris iki növbədə keçirilirdi. Artıq saat beş idi, dərs otaqları boşalmışdı. Bircə Şirnəli müəllim sinifdən çıxmaq bilmirdi. Nəhayət, yekə çantası əlində foyedə göründü. Üzrxahlıqla sağanağı iri eynəyini barmağı ilə burnunun üstünə qaldırıb Bəyalı müəllimə:

– Səni yaman gözlətdim..., – dedi və dalınca dəhlizə tökülüşən şagirdlərinə mehribanlıqla baxıb əlavə elədi. – Neynəyim, buraxılış sinfidi, hər gün bir saat, para saat əlavə vaxt ayırıram ki, imtahanlarda çətinlik çəkməsinlər.

Həyata baxışlarının müxtəlifliyi dostluqlarına mane ola bilmirdi. On beş il idi ki, eyni məktəbdə çalışırdılar, riyaziyyatdan dərs deyirdilər. İnstitutu bir qurtarmışdılar. Hətta, dörd il yataqxanada bir otaqda qalmışdılar. Dostluqları o vaxtdan başlamışdı, indi də davam edirdi.

Onlar məktəbdən çıxdılar.

Bəyalı müəllim həmkarına lağ elədi:

– Ölürsən də havayı hamballıq eləmək üçün, – dedi. – Ay zalım, enerjin çoxdu, beş-on uşaq götür hazırla, pul qazan da!

Şirnəli müəllim, həqiqətən, özünü oda-közə vuran müəllimlərdəndi. Böyük dərs yükü vardı. Bütün günü məktəbdə itib-batırdı. Dərslərdən sonra məşğələlər aparırdı. Tələbkarlığı ilə qəsəbədə ad çıxarmışdı. Bəzən əndazəni aşırdı, tənbəllik edən şagirdlərə yüngül qulaqburması da verirdi. Şirnəlidən fərqli olaraq Bəyalı

vəzifəsinə barmaqarası baxırdı. Yarım ştat dərs yükü götürmüşdü. Qalan vaxtını evdə uşaq hazırlayır, yaxşı pul qazanırdı.

Şirnəli müəllim dostu ilə mübahisə eləmədi, bilirdi ki, həmişəki kimi uduzacaq. Tələsik dilləndi:

– Hələ bir dayan, səninlə bir ayrı söhbətim var, – deyə ərklə onun sözünü kəsdi, sonra başına gələnləri ətraflı danışdı. – Hər gün hasardan həyətimizə torba-torba zibil atırlar. Qonşulardan kimdisə mənə yaman mərdimazarlıq edir. Bilmirəm neynəyim? Sənin məsləhətin lazımdı.

Bəyalı heyrətdən fit çaldı:

– Baho! – dedi. – Bəs, indiyə qədər niyə susurdun?

– Deyəcəkdim. Gözləyirdim görüm, işin axırı nə olacaq? Zibil atan usanacaqmı..., – deyə Şirnəli müəllim izah elədi. – Amma, görürəm, usanmır...

Bəyalı artıq seyrəlmiş sarışın saçlarını barmaqları ilə geri daraqladı, dəqiqləşdirməyə çalışdı:

– Yəqin ki, yol tərəfdən atırlar...

– Hə, əlbəttə... – Şirnəli təsdiqlədi. – Axşam hava qaralandan sonra atırlar. Hər səhər ağacların altından yığıb yandırıram, o biri gün yenə atırlar.

Bəyalı müəllim yanakı dostuna baxdı, burnunu qırışdırdı:

– Təklifin nədir? – Soruşdu. – Sənə nə köməyim dəyə bilər?

– Bilirsən, dostum, sənin evin qəlbidədi, – deyə Şirnəli müəllim fikrini əsaslandırdı. – Eyvanından yol da, yoldan keçənləri də aydın görmək olur. Qapın da düz yola açılır. Əziyyət də olsa, gərək bu zibil atanı güdəsən...

Bəyalı addımın yavaşıtdı, boynunun ardını qaşıdı:

– Neynək, güdərəm! – dedi, sonra zarafatla sözünü bitirdi. – Öz aramızdı, dost yolunda zibilə düşmək buna deyirlər də.

Dostlar gəlib mənzil başına çatanda payız Günəşi batmışdı, artıq ətrafa toranlıq düşmüşdü. Şirnəli müəllim Bəyalıdan ayrılanda onu işə saldığına görə dil-ağız elədi.

Şirnəli müəllim şam yeməyindən sonra iri çantasından iki-üç qom dəftər çıxartdı, qabağına qoydu. Arvadı çay gətirdi, oğlanları hərəsi mənzilin bir tərəfinə çəkildi. Bilirdilər ki, atalarına mane olmaq olmaz. O, işini qurtaranda saat səkkizi vururdu. Dəftərləri yığışdırdı. Əzalarının keyini açmaq üçün həyətə düşdü. Qaranlıq düşmüşdü, artıq göz-gözü görmürdü. Bayır işıqlarını yandırıb bir o başa, bir bu başa getmişdi ki, darvazanın zəngi vuruldu. Gedib qapını açdı. Darvazanın üstündə asılmış lampanın zəif işığında dostunu görüb geri çəkildi:

– Gəl, orda niyə dayanmısan, – dedi. – Gedək, çay içək.

Bəyalı müəllim dişini ağartdı:

– Çay vaxtı deyil. Həyətinə zibil atanı tutub gətirmişəm hüzuruna, – dedi, arxasında gizlənməyə çalışan bir uşağın gödəkçəsinin boynundan tutub işığa çıxartdı. – Tanış ol, zibil atan qəhrəman budur.

Şirnəli müəllimin koruş gözləri eynəyinin altında parıldadı. Fəhmlə soruşdu:

– Bu Əstan kişinin ortancıl oğlu deyilmi?

– Özüdür ki, var. Adı Feyruzdu. Yeddinci "B"də, mənim sinfimdə oxuyur. Kiçik qardaşı da sənin "V" sinfindədi. Bu qırışmal bir bəladı, gəlib düşüb məktəbə. Bir yerdə oturmaqla arası yoxdu, düz divara dırmaşır, – deyə Bəyalı güldü, sonra sinəsinə döydü. – Cinayətkarı cinayət başında yaxalamışam. Aradan çıxmağa macal eləmədi, özümü çatdırdım.

Şirnəli müəllim adətkərdə hərəkətlə eynəyini düzəldib mehribanlıqla soruşdu:

– Firuz bala, sənə neynəmişəm ki, həyətimi zibilxanaya çevirirsən? Səbəbi nədi?

Firuz dinmədikdə Bəyalı müəllim çımxırdı:

– Ədə, səndən söz soruşurlar, axı.

Uşagın yenə susması Bəyalını hirsləndirdi:

– Şirnəli müəllim, tut bunun qolundan, qaçmasın, – dedi. – Gedim bunun atasını çağırım bura.

Bu yerdə Firuzun dili açıldı. Hönkürə-hönkürə dedi:

– Qurban olum, Bəyalı müəllim, atama demə. Bilsə məni öldürəcək.

Əstan qəsəbədə tanınmış şəxslərdən idi. Qəssablıq edirdi. Kiçik bir ət mağazası vardı. Peşəsindən irəli gəlirdi, ya təbiəti belə idi, bilmək olmurdu, sərt adam idi, qonum-qonşu ilə tez-tez dava-qalmaqal salırdı. Pis xasiyyəti ailə içində daha bariz görünürdü. Lap fironluq edirdi. Böyük oğlu başı havalı gəzirdi. Deyirdilər ki, onu Əstan döyə-döyə o günə qoyub.

Bəyalı yumşaldı:

– Yaxşı, atanı çağırmarıq, – dedi. – Amma qələtinin səbəbini gərək deyəsən. Hə, de, görüm.

Uşaq dirənə-dirənə dilləndi:

– Şirnəli müəllim mənim kiçik qaqaşıma həmişə iki yazır, qulağını dartır...

Bəyalı müəllim özündən çıxdı:

– Ədə, sənin kiçik qardaşın da sənin kimi avaradı da, oxumur da. Şirnəli müəllim neynəsin ona? Oxumur da! Yaxasından medal asası deyil ki! – Soruşdu. – Bunun hikkəsinə bax da! Yox, səni Əstana tapşıracağıq, qoy, dərsini atan versin.

Firuz yenə hönkürdü. Yalvarışla:

– Vallah, bir daha eləmərəm...

Şirnəli müəllimin uşağa yazığı gəldi, Bəyalı müəllimdən xahiş elədi:

– Burax, getsin, – dedi. – Görürsən, deyir ki, daha eləmərəm.

Bəyalı müəllim tir-tir əsən uşağın yaxasını boşladı:

– Yaxşı, daha bir də belə qələt eləmə, – dedi.

Firuz canını qurtardığına inanmırmış kimi bir an duruxdu, sonra birdən götürüldü, qaranlığa qarışdıqda Bəyalı müəllim təəssüfləndi:

– Gərək atasını çağıraydıq, – dedi. – Bu ona dərs olardı.

Şirnəli müəllim gülə-gülə:

– Ay dost, bilirsən ki, Əstan hirsli adamdı, vurub uşağı şikəst eləyər, bir zibildən çıxıb başqa zibilə düşərdik, – dedi.

Bəyalı müəllim Şirnəli müəllimlə razılaşmalı oldu, gülümsədi. Təbəssümlə də ayrıldılar.

## NAMAZ VAXTI...

Hacı Şahin usta Kamalı darvazanı sahmana salmağa çağırmışdı. Köhnə bayır qapı urvatdan düşmüşdü, yenilənməli idi, amma ev sahibinin təzə darvaza almağa gücü çatmadığından ora-burasını yamatmaq fikrində idi. Açığı, axır vaxtlar, kasıblıq onu basmışdı, cibində siçanlar oynaşırdı.

Usta Kamal hacının hasarbir qonşusu idi. Neçə ilin sənətkarı olsa da, bahacıl deyildi, qonum-qonşunun sifarişlərini "su qiymətinə" yola verirdi. Hacının çağırışını alan kimi qaynaq aparatı, kaskası-maskası, alətləri yığılmış əl arabasını dığırlada-dığırlada gəldi.

Hacı Şahin hələ canısulu idi. Yetmişi haqlasa da səsi nə gərliyini, nə də gurluğunu itirmişdi. Zalımın mülayim

sözü də ağzından daş kimi çıxırdı. Köhnə ticarətçilərdən idi. Həcc ziyarətindən sonra ticarətin daşını atmışdı, yenidən günaha batmaqdan qorxurdu. Mağazasını babat qiymətə icarəyə vermişdi, dövlətdən də beş-on manat təqaüd alırdı. Ömrünün axırına kimi bağ-bağçada qurdalanıb xoşnud yaşayacaqdı, amma qismət deyilmiş. Yeganə oğlu Əlimuxtarın çıxartdığı həngamələr xoş yaşayışını burnundan gətirmişdi. Mağazası heçə-puça satılmışdı, dal günə yığdıqları əlindən çıxmışdı, indi kəsilə-kəsilə qalmışdı.

Ustanı darvazada qarşıladı, təmənləşəndən sonra:

– Qonşu, gör, bu sovxaya qalmışı sahmana sala bilirsən... – dedi.

Kamal kişi darvazaya usta gözü ilə baxıb:

– Düzələr, hacı, əlimizdə deyilmi, – dedi.

Hacı Şahin sövdələşməyə çalışdı:

– Qonşu, bu işə nə istəyəcəksən? – Soruşdu, usta Kamalın yuxarıdan gedəcəyindən qorxub nırxı özü qoydu. – İyirmi manatım var. Bəs eləyər?

Ətrafda səxavətli bir kişi kimi tanınan hacının simicliyi usta Kamalı düşündürdü. Eşitmişdi ki, hacının əli aşağıdı. Bərkini tutmadı, dərhal razılaşdı:

– Hacı, əvvəllər mənə o qədər pullar vermisən ki! İndi verməsən də olar! – Dedi, amma işini yüngülləşdirmək fikri ilə təklif elədi. – İcazə versən, özümə bir köməkçi gətirərdim... Hündürdə işləyəcəyəm.

Hacı koramal kimi fısıldadı:

– Keçinərsən! Mənim sənin köməkçinə verməyə pulum yoxdu, – dedi. – Köməkçi lazım olsa, məni çağırarsan.

Usta Kamal onun sözünü çevirmədi. Ev sahibi ilə müqayisədə dünənin uşağı idi, əlli beş yaşı təzəlikdə tamam olmuşdu. Həmişə, uşaqlıqdan bu yana, hacının hörmətini saxlamışdı, yanında əyər-əskik danışmamışdı. İndi də dinməz-söyləməz qaynaq aparatını hazırladı, kaskasını başına keçirtdi, maskasını taxdı, elektrodu əlinə alıb işə başladı.

Hacı Şahin də kətildə yerini rahatladı, kürəyini qızdıran payız günəşindən zövq alaraq təsbeh çevirir, ustanın işinə baxırdı.

Bir az keçdi. Hacı Şahinin qarısı eyvanda göründü. Ayaqları bir-birinə dolaşa-dolaşa çay dəsgahını gətirdi. Hacı təsbehi gizlətdi, qalxıb fincanları, qənddanı, termosu qarıdan aldı. Kamal kişini səslədi:

– Qonşu, darvaza qaçmır, gəl, çay içək, – dedi, uzaqlaşan qarısına tapşırdı. – Günortaya qəlyanaltı hazırla, ustanı da unutma, bu gün bizim himayəmizdədi.

Kamal kişi kaskasını-maskasını kənara qoydu, nərdivandan düşdü, əllərini brezent gödəkçəsinin ətəyinə sildi, əl arabasını çevirdi, özünə oturacaq düzəltdi. Hacının uzatdığı iri fincanı aldı:

– Hacı can, könlünə dəyməsin, darvazandan darvazalıq qalmayıb, hər yerini pas yeyib, bir sözlə, metallomluqdu, – dedi, çayı isti-isti hortdadıb fincanı boşaltdı.

Hacı ülgüclə təmiz qırxılmış başını sığalladı:

– Ömrümə bəs edər, – deyə başdansovdu cavab verdi.

Kamal kişi qabağa meyilləndi, termosdan özünə bir fincan da çay süzdü:

– Allah sənə uzun ömür versin, yüz yaşa, amma darvazan yenilənməlidir, – dedi, cavab gözləmədən soruşdu. – Oğlun Əlimuxtar görünmür, hacı.

– Hərdən gəlir, – deyə hacı Şahin könülsüz dilləndi, sonra öz növbəsində soruşdu. – Səninkilər neynəyir?

Kamal şikayətləndi:

– Mənimkilər bivec çıxdı, hacı can. Oxumadılar ki, oxumadılar. İkisi də ustalığın dalınca qaçdı. İndi hambalçılıq edirlər, – dedi, sonra qibtə ilə əlavə elədi. – Amma sənkilər oxudular, maşallah. Qızların da, oğlun da...

Hacı razılaşmadı:

– Naşükür olma, qonşu, iş bəyəm oxumaqdadi? Uşaqların, maşallah, zirəkdir. Qaldı mənimkilər, – dedi, dilini sürütdü. – Qızlardan narazı deyiləm, şükür, hərə bir evdə xanımlıq eləyir, amma oğlum məni incidir.

Kamalın qonşuluqda çox şeydən xəbəri vardı, soruşdu:

– Əlimuxtarın işləri düzəlmədi?

Hacı Şahin əlini yellədib:

– Hardan ey! – dedi. – Hələ geriləyir...

– O ki yaxşı qazanırdı. Nə oldu birdən-birə? – deyə

Kamal maraqlandı. – Şəhərin neçə yerində mülk almışdı... Nə oldu ona?

– Necə qazanmışdı elə də əlindən çıxdı. Risk eləməyin axırı yoxdur, qonşu. Özünü də oda saldı, bizi də quru yerdə qoydu. Borclarını zorla bağladım. İndi də həyətin yarısını satdığa qoyub. Görək başımıza nə gəlir. Tünbətün nəvəsini başa salmaq olmur ki, olmur, – deyə hacı xeyli deyinib sakitləşdi, sözü dəyişdi. – İşini haçan qurtararsan?

Usta Kamal qalxdı yerindən, isti çaydan, payız Günəşinin hərarətindən tərləmiş iri burnunu çəkdi:

– Günün axırına qurtararam. Hələ iş çoxdu, – dedi. – Darvazanın üst şvelleri qopub, nə qədər ki xəta çıxarmayıb gərək bərkidim. Çərçivəni sahmana salmalıyam. Belə hesab elə sənə təzə darvaza qaynaq edirəm.

– Yaxşı, yaxşı, minnət qoyma! – Hacı acıqlı dilləndi, sonra mülayimliklə. – Sən işini gör, mən də gedim dəstəmaz alım, bir azdan azanın vaxtıdı.

– Hələ dayan, getmə, mənə sənin köməyin lazım olacaq, – deyə Kamal nərdivana qalxdı. – Şvellerə verdiyim dayağı tutmaq lazımdı ki, qaçmasın.

Hacı başını buladı:

– Mənlik deyil! – dedi, bayaqkı söhbəti unutmuş kimi əlavə elədi. – Az ye, özünlə köməkçi gəzdir.

– Köməkçiyə pul vermək lazımdı, hacı, – deyə usta Kamalın ağzındakı titan dişləri parıldadı. – Verdiyini köməkçiyə verim, ya özüm yeyim?

Pul adı gələndə hacı duruxdu, dodağının altında deyinə-deyinə keçib göstərilən dirəkdən yapışdıqda Kamal başından kaskanı çıxarıb ona verdi:

– Qoy başına, hacı, şər deməsən xeyir gəlməz, bir də gördün şveller yerindən qaçdı, – dedi.

Hacı kaskanı başına keçirtdi. Kamal maskanı üzünə taxdı, elektrodu əlinə aldı. Qığılcımlar ətrafa səpələndi. Kamal arada şlakı təmizləmək üçün çəkiclə şvelleri döyəcləyirdi.

Hacının gözü onun əlində idi, xəbərdar elədi:

– Qonşu, şveller yerindən qaçır, deyəsən, – dedi. – Asta vur.

– Pas metalda metallıq qoymayıb, hacı, bir az döz, indi qurtarıram, – deyə Kamal onu sakitləşdirdi.

Onun çəkici yenidən taqqıldadı. Şveller bunu gözləyirmiş kimi yerindən qopdu, bir ucu aşağı sürüşdü, hacının kaskalı başına dəydi. Zərbə zəif olsa da ev sahibi: "Aman!" – deyib yerə çökdü.

Kamal nərdivandan yerə atıldı, həyəcanla hacının üstünə qaçdı:

– Necəsən, hacı, salamatsan? – Soruşdu.

Hacı yerdən zorla qalxdı, zərbədən qırılmış kaskanı başından çıxarıb hirslə kənara atdı. Kamal kişiyə baxmadan evə tərəf gedəndə:

– Gedim namazımı qılım... – dedi. – Məndən sənə köməkçi çıxmaz.

Kamal soruşdu:

– Bəs, bu dayağı kim tutsun? – Soruşdu. – Mən bu işi tək görə bilmərəm, axı.

– Get, özünə köməkçi tap.

– Bəs, köməkçinin pulu nə olsun?

– Mən verərəm... – deyə hacı arxaya baxmadan çımxırdı. – Daha yubana bilmərəm, namaz vaxtıdı.

Hacı Şahin on beş il idi ki, namazının vaxtını ötürmürdü. O, eyvana qalxanda yaxındakı məsciddən verilən azanın xoş səsi ətrafa yayıldı.

## MÜDRİK BUQƏLƏMUN

Satirik yazıçı Həşim Güllü ahıl yaşında mal-mülk qədri bilən olmuşdu. İyirmi il qabaq hökumətin ona müftə-müsəlləm verdiyi torpaq sahəsindən möhkəm yapışmışdı. Daha neynəməli idi ki? Təqaüdə çıxandan sonra bilmişdi ki, olan-qalanı, var-dövləti elə budu. Bağ yeri Subəndidə idi. Keçən illər ərzində torpaq sahəsini hasara almaqla, bir-iki ağac əkməklə kifayətlənmişdi, gücü elə buna çatmışdı. Təzəlikdə qədir-qiymətə minmiş bağına qeydiyyat sənədi almaq fikrinə düşmüşdü. Uzun get-gəl bir nəticə vermirdi, sənədləşmə dalana dirənmişdi. Əvvəldən üzləşəcəyi çətinliklərdən agah olsaydı heç barmağını da tərpətməzdi. Daha iş-işdən keçmişdi, başladığı əməli yarımçıq qoya bilməzdi, sona çatdırmalı idi.

Sənədlər yerli-yerində olsa da, çəpərləmədə kənara-çıxma var idi. Ayrılmış on sot torpaq sahəsi iyirmi ildə artıb iyirmi sot olmuşdu. Həşim Güllü gülərək bundan xəbərsiz olduğunu söyləsə də, inanan yox idi. Ünsiyyət qurduğu məmurların heç biri zəbt olunmuş sahənin sənədləşməsini boynuna götürmürdü, dinməz-söyləməz kağızlarını qoltuğuna verirdilər.

Həşim Güllü bir neçə ay ayaq döyəndən sonra saxlanclarını eşələdi, amma tapdığı qəpik-quruşa yaxın duran olmadı. Qeydiyyat idarəsinin ətrafında var-gəl edən dəllallar ağızlarının dadını bilirdilər. Həşim Güllüdən artıq sahənin bazar qiymətini qırtmaq istəyirdilər.

Eləmədi tənbəllik, ora zəng elədi, bura zəng elədi, bir şey çıxmadı. Karlı vəzifəsi olan tanışlarının hamısının ağzını aradı, yenə bir şey çıxmadı.

Bir gün bulvara hava almağa çıxmışdı, köhnə tanışlarından biri ilə təsadüfən rastlaşanda çox sevindi. Haçansa qəzetdə bir yerdə çalışmışdılar. İşlədikləri müddətdə yaxın ünsiyyətləri olmamışdı. Tanışı tezliklə qəzetdən uzaqlaşmışdı. Həşim Güllü onun adını xatırlamağa çalışdı, yadına sala bilməyib soruşmaq istədi, amma soruşmağa utandı. Bunu aydınlaşdırmağı sonraya saxlayıb söhbətə nərdivan qoydu. Onsuz da vaxtını öldürməyə, laqqırtı vurmağa adam axtarırdı.

Ordan-burdan xeyli mırt vurdular, keçmiş həmkarlarını yada saldılar. Həşim Güllü bekarçılıqdan başına

gələnləri ona danışdıqda köhnə tanışı birdən qəhqəhə çəkdi. Həşim Güllü incidi:

– Qardaşım, başqasının dərdinə gülməzlər!

Tanışı gülməkdən yaşarmış gözlərini sildi:

– Bağışla, Həşim müəllim, sənin sadəlövhlüyünə heyranam! Heç dəyişməmisən! – dedi, sonra ciddiləşdi. – Yaxşı pul verməsən, çətin ki, bu işi başa çatdırasan!

Həşim Güllü inanmadı, nəsə yadına düşdü, güldü:

– Xatırımdadı, qəzetdə işləyəndə də özündən toqquşdurmağı xoşlayırdın. Hətta, bir dəfə...

Həmkarı Həşim Güllünün köhnə palan içi tökməyinə imkan vermədi:

– Müəllim, qəzetdən gedəndən sonra həmin idarədə işləmişəm. Bir neçə il mətbuat xidmətində çalışmışam.

– Bəs, sonra nə oldu?

Tanışı Həşim Güllünün diqqətli baxışları altında boynuna aldı:

– Vəziyyətim əla idi, pula pul demirdim, – dedi. – Sonra dalımdan dəydilər! Onları qınamıram, günah özümdə idi! Burnumu hər yerə soxmağım rəislərin xoşuna gəlmirdi. Bir sözlə, qəzetçilik vərdişim başıma bəla oldu! Danışmalı deyil...

Həşim Güllü ümidlə ona baxdı:

– Hər halda idarədə köhnə tanışlarından qalmamış olmaz! İstəsən yəqin ki, kömək edərlər.

Tanışı başını buladı:

– İnanmıram! – dedi. – Bu idarədə pulsuz heç kimi yaxına buraxmırlar! Hər şey müavinin əlindədir. Çox qansız adamdı.

Həşim müəllim inanmadı:

– Mənə müdrik adam təsiri bağışladı, – dedi. – Sabah təkrar qəbuluna yazılmışam.

Həmsöhbəti başını buladı, yana-yana:

– Həqiqətdə baş kəsənin biridi! – dedi. – Sən bilmirsən, bu adam buqələmundur, dondan-dona girir. Bu adamın gözü doymur! Şəhərdə onlarla obyekti, mənzili, adını çəkdiyin Subəndi yolunda hektarla torpağı var. Başqa-başqa adamların adına sənədləşdirib. Elə bilir heç kim bilmir! Maşınının nömrəsi nəyə desən dəyər! Bütün doqquzları yığıb.

– Sən hardan bilirsən?

– Bayaq dedim, axı, qəzetçinin gözündən heç nə yayınmır. Elə marağım başıma bəla açdı. Torba tikib mitilimi bayıra atdılar. Tuturdular, Allahın rəhmi gəldi, yaxamdan əl çəkdilər.

Bu əsnada həmkarının telefonuna zəng gəldi. O, qulaq asıb ayağa qalxdı:

– Bağışla, müəllim, getməliyəm! Yazıçı adamsan, müavinin qəbuluna gedəndə kitablarını götür. Kisəsinin başı dolubsa, kömək eləyəcək! – dedi, yenə qəhqəhə çəkdi. – Düzdür, inanmıram, amma həyatda möcüzə baş verəndə verir də!

Səhərisi Həşim Güllü qəbula nagüman getdi. Rəis müavini cavan olsa da, başı ağappaq ağarmışdı. Arxası pəncərəyə tərəf qoyulmuş masanın arxasında oturmuşdu. Pəncərədən düşən işıq onun ağ saçlarına bir müqəddəs çalar verirdi. Bu, Həşim Güllünün ürəyini kövrəldi. Asta addımlarla onun masasına yaxınlaşdı, kitablarını müavinin qabağına qoyub oturdu, gəlişinin məqsədini söylədi.

Kabinetin qüdrətli sahibi kitablar üçün təşəkkür elədi, birini laqeydliklə varaqlayıb soruşdu:

– Neçə yaşın var, şair?

Həşim Güllü gəldiyi məsələyə aidiyyəti olmasa da, yaşını söylədi. Müavin başını buladı:

– Ay rəhmətliyin oğlu, dövlət sənə on sot havayı yer verib, sənə kifayət eləmir, əlavə on sot da zəbt edirsən. İndi də düşmüsən qapılara, onu özəlləşdirmək istəyirsən.

Həşim Güllünün üzündə şeytanlar oynadı:

– Günahkaram, rəis! – dedi, amma dərhal dilini dişlədi, yadına düşdü ki, bura mübahisəyə gəlməyib.

Rəis ağ saçlarına sığal çəkib əda ilə:

– Neynəyirsən bir belə torpağı, şair, özünlə aparacaqsan? – Soruşdu, sonra qondarma bir mehribanlıqla. – Dünya görmüş adamsan, şair, görəsən, insanın gözü haçan doyacaq? İnsan övladı haçansa tamahına "hət" deyə biləcəkmi?

Həşim Güllü daha özünü saxlaya bilmədi, şirin dillə dedi:

– Rəis, tamahıma necə "hət" deyim, axı? O gün minmişdim maşına getmişdim Biləcəriyə tərəf. Sağ tikilib, sol tikilib, Sumqayıta qədər yüz hektarla ərazi hasara alınıb. Bunu görəndə adamın ağzı sulanır, tamahı cümbüşə gəlir! O biri gün gedirəm Qaradağa tərəf, Salyana qədər torpaqlar çəpərlənib. Adamın gözü həsəddən qaralır, tamahı oyur-oyur oynayır!

Rəis müavini çoxbilmiş bir istehza ilə:

– Yəni yazacağın felyeton belə başlayacaq?

Həşim Güllü müavinin dərrakəsini heyranlıqla təsdiqlədi:

– Düz tapmısan! – dedi, sonra yarımçıq qalmış monoloqunu bitirməyə çalışdı. – Hə, minirəm maşına gedirəm Subəndidəki bağıma. Bəh-bəh-bəh! Yolun solu tutulub, sağı tutulub, qabağı tutulub, arxası tutulub... Hə, öz aramızda qalsın, sizin maşını da hərdən oralarda görürəm. Doqquzların sayından tanıyıram.

Bu yerdə müavinin, nəinki üzünün, hətta ağ saçlarının rəngi bozardı. O, boğuq səslə onun sözünü kəsdi:

– Görürəm, hazırlıqlı gəlmisən...

Həşim Güllü eşitmirmiş kimi:

– Həəə, futbol meydançası kimi nəhəng istilikxanalar bir deyil, iki deyil, üç deyil...

– Qurtar, ay kişi, palan içi tökmə. O yerlər sənədli-sübutlu yerlərdi...

Həşim Güllü onun ağrıyan yerini tapdığına sevindi, amma sevincini büruzə vermədi, qondarma laqeydliklə:

– Əslində, məni nə hektarla hasarlanmış yerlər, nə də istilikxanalar maraqlandırır! Öz torpağım mənə bəs eləyər. Artığı lazım deyil, bir ayağım burdadı, bir ayağım gordadı... – dedi. – Düzmü deyirəm?

Rəis müavini ağarmış başını qaldırmadan:

– Sənədlərin qoy, qalsın... Görüm, neynəmək olar... – dedi. – Sabah gələrsən.

Həşim Güllü qeydiyyat sənədini alacağına əminliklə fikirləşdi ki, rəis müavini buqələmun olmağına buqələmundu, amma müdrik buqələmundu. Saçları havayı yerə ağarmayıb.

## MÜNDƏRİCAT


İSTEDAD TANRI PAYIDIR *(Əmrah Xanməmmədli)*.................. 3


### Hekayələr


TORPAQ AŞIQI .......................................................................... 9
BƏDBƏXT KƏLƏKBAZ .............................................................. 20
NAMƏRD ZƏMANƏ .................................................................... 35
QORXULU MƏKTUB .................................................................. 49
DƏDƏ, MƏNƏ ARVAD AL ........................................................ 59
MƏN NECƏ BÖYÜK ADAM OLMAQ İSTƏDİM .................. 72
USTA İBİŞİN MƏMİŞ DOSTU .................................................. 86
YAMAQ ...................................................................................... 99
ŞURA HƏSRƏTİ ........................................................................ 103
VAXTSIZ QONAQ.................................................................... 107
QOHUMLARIN ƏSİRİ.............................................................. 116
AĞILA SIĞMAYAN HADİSƏ… ............................................... 131
HAVAYI HAMBALLIQ ............................................................. 134
USTA BACANAQ ...................................................................... 136
FƏRASƏTLİ MƏMUR................................................................ 148
XƏBƏRÇİ .................................................................................. 156
QİYMƏT .................................................................................... 164
BİR MƏKTƏBİN QİYAMI.......................................................... 182
SABAH PUL GÜNÜDÜR... ....................................................... 201
TEATRDA.................................................................................. 209
DAŞ ............................................................................................ 214
TƏLƏBƏ DOSTLAR.................................................................. 220

YAY TƏTİLLƏRİ.................................................................................... 258
BASTAR ULDUZA HÜRÜRDÜ.................................................................. 269
HƏMZƏNİN NAĞILI ............................................................................... 273
TAXTA QAPININ ÜSYANI ..................................................................... 289
TAMAH .................................................................................................... 293
HÜMA QUŞU .......................................................................................... 297
AĞQULAQ XOTUĞ SƏNƏTİNİ DƏYİŞİR............................................. 307
BALA FİLİN NAĞILI ............................................................................... 316
TƏKQULAQ XOTUĞZADIN HƏYATI.................................................... 327
İKİTİRƏLİK.............................................................................................. 342
ZİBİL ........................................................................................................ 348
NAMAZ VAXTI... ..................................................................................... 354
MÜDRİK BUQƏLƏMUN ........................................................................ 360